**Dilarə Adilgil**

# 366 GÜN VƏ YA UZUN İLİN İNANCI

**"Elm və təhsil"**
**Bakı – 2023**

**Redaktor: Bədirxan Əhmədli**
*Filologiya elmləri doktoru, professor*

**Dilarə Adilgil. 366 gün və ya uzun ilin inancı.**
**Bakı, "Elm və təhsil", 2023, 324 səh.**

4603000000 qrifli nəşr
N-98-2023

**© Dilarə Adilgil, 2023**

# ÖN SÖZ

## *Qorxunc və möhtəşəm bir ilin bədii xronikası*

Dilarə Adilgili 20 il olar tanıyıram; gərək ki, 2003-cü il idi işlədiyim "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsinə gələndə. Tədqiqat işi kimi Həsən Seyidbəyli yaradıcılığını götürmüş və haqqında bir neçə elmi məqalə də yazmışdı. Ancaq müdafiə eləməyə tələsmirdi, bəlkə də istəmirdi. Məqalələrini oxuyanda elmi strukturdan və məzmundan kənara çıxan üslubunun, bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə qabiliyyətini də sezmişdim. Çox keçmədi ki, həmin meyil müəllifin digər yazılarında da özünü bəlli etməyə başladı. Bu, onun yaradıcılığında yeni bir mərhələnin başlanğıcı oldu; mətbuatda yeni yazılarını oxuduqca görüşəndə qısa da olsa fikrimi bildirir, ya da şöbənin qarşısından keçərkən (indi mən başqa şöbədə çalışıram!) baş barmağımı yuxarı qaldırıb təqdir etdiyimi ifadə edirdim. Bu mənim bir tədqiqatçı kimi borcum idi; Dilarə Adilgil getdikcə publisistikamıza yeni bir ruh, üslub gətirir, gündən-günə ədəbi cameədə oxunur və sevilirdi. Covid-19-un uzun qapanma dövründə onun yazıları yeni bir boyut aldı; qəzet səhifələrində çıxan bu yazılar qapanmanın stressini atmaq üçün oxuculara yaxşı bir həb oldu. Qapanmanın ardından müharibə başladı. Hər iki savaş Dilarə xanımın yazılarının baş mövzusu olduğundan içində yaşadığımız hadisələri romanın

süjet xəttində addım-addım izlədik. Qəribə bir izlənimin şahidi olduq, yaşadığımız həyat hadisələri gözlərimiz qarşısında romana çevrilirdi. Həmişə bu fikirdə olmuşam; Azərbaycan ədəbi cameəsinin "Axilles dabanı" ədəbi prosesin gündəlikdə, memuarda öz əksini tapmaması və bu nədənlə də sonrakı proseslərdə dövrün mənzərəsinin doğru-düzgün əks olunmamasıdır. Tutaq ki, gürcü əsilli İrakli Andronikovun rus şairi M.Lermontov haqqında yazdığı kitabda şairin hər gün nə ilə məşğul olduğu, hansı balda kiminlə rəqs etdiyi, eləcə də mundirinin düyməsinəcən təsvir edilir. Yaxud Qrossmanın F.Dostoyevski haqqında yazdığı monoqrafiyanı götürək. Bu ondan irəli gəlirdi ki, Lermontovun, Dostoyevskinin və onların müasirlərinin gündəlikləri və memuarlarında lap kiçik ştrixlər də öz əksini tapırdı. Bizdə isə hətta yaxın zamanda yaşayan ən məşhur yazarlarımızın belə həyatına aid bu cür detallı araşdırmalar yox kimidir. Dilarə Adilgilin yazılarında yeni bir janrın cizgilərini görür və bunu özünə də deyirdim. Onun yazıları canlıdı, çevikdi, yaşadığımız həyatın içindən xəbər verir, hər üzünü anladır, son dərəcə cazibədar həyati təsvirləri ilə bizi bu həyatın içinə daxil edir. İndi qarşımda olan yeni əsəri – "366 gün və ya uzun ilin inancı" romanı kimi...

Dilarə Adilgilin bu əsərində yeni bir üslub var; bu üslub ədəbiyyatımızda heç alışmadığımız bir üslubdur. Yəni, yazıçı özünün baş qəhrəmanı olduğu əsərdə bədiiliklə memuar ədəbiyyatını, publisistikanı bir araya gətirir. Qəhrəmanın düşüncə axarı dinamikdi, bir yerdə ilişib qalmır,

daim hərəkət edir, həyatın romantikası ilə realizmini özündə birləşdirir. Burada tanıdığımız insanlarla yanaşı, tanımadığımız insanlardan da söhbət açılır ki, onlar bizə bədii obraz olaraq görünür. Hadisələrin təsviri kontekstində təhkiyəçinin özünün də obrazı formalaşır. Bu obrazı ədəbiyyatımızda intellektual obraz olaraq səciyyələndirmək olar. Təhkiyəçi oxucunu da öz ardınca apararaq yeni dünya düzənində onların həyatla, insanlarla münasibətini aydınlaşdırır. Bu təsvirlər dar bir çərçivənin dünyagörüşünü yox, bütün toplumun, cəmiyyətin mənzərəsini əks etdirir, son dərəcə səmimidir, oxucunu ardınca apara bilir.

Dilarə Adilgilin romanı 2020-ci ili qapsayır (bəzən bu ildən kənara çıxan passajlar da yox deyil); bu zaman çərçivəsində bizim cəmiyyət bəlkə də yüz illər boyu yaşamadığı hadisələrə tanıqlıq etdi. Mən 2020-ci ilin sentyabrında başlanan və cəmi 44 gün davam edən İkinci Qarabağ müharibəsini nəzərdə tuturam. Elə dünya da pandemiya səbəbindən eyni həyəcanı keçirdi. Bizə görə hər iki hadisə bütöv bir nəslin heç zaman yaddaşından silinməyəcək. Lakin zaman hər şeyi yuyub aparır, izlər itir, faciəni, sevinci bir başqası əvəz edir. Yaxud eyni hadisəni hamı eyni cür yaşamır, fərqli ortamlarda, fərqli baxışlar olur. Bizə elə gəlir, heç zaman yaşadıqlarımız unudulmayacaq. Lakin bu hadisələrin üzərindən cəmi iki il keçməsinə rəğmən, çox şey unudulmuş və yaddan çıxmışdır. Romanı oxuduqca bunun bir daha şahidi oldum. Burada yazılanlar mənə olayları yenidən yaşatdı, ya da yaşadıqlarımı fərqli situasiyalarda gördüm. Əsərin ugurlu cəhətlərindən biri elə mü-

əllifin hərənin bir cür yaşadığı bu hadisələri tarixləşdirməsi, bədii təxəyyülllə yaşanan dövrü sintez etməsidir. Romanda romantik nikbinliklə acı realizm qovuşur; lakin hər yerdə sabaha bir ümid boy göstərir. Pandemiyanın ən qorxunc zamanında belə qəhrəman özünün yaşam şərtlərindən uzaqlaşmır, kiçik ortamda da olsa davam etdirir. Burada Zaman özü bir obraz kimi canlanır; həm milli arealda, həm də dünya kontekstində yeni bir dönəm yaşadan 2020-nin həyat tarixçəsi olaraq görünür. Bu cəhətdən romanı 2020-nin bədii-publisitik xronikası da adlandırardım. Nəinki adlandırardım, hətta romanı "2020" də adlandırmaq olar. Bu gün müəllif bunu etməsə də, gələcəkdə romanın bu cür adlandırılmasını istisna etmirəm. Əlbəttə, roman təkcə bir illə məhdudlaşmır; təhkiyəçinin retro izlənimləri onun məzmununu genişləndirir, zamanını uzadır. Bu zaman təsvir olunan zamanın mahiyyətini anlamaq, dərk etmək çətin olmur. Oxucu təhkiyəçinin bu zaman müqayisəsində onun uşaqlıq, gənclik illərini də görür və dərk edir, bununla demək istəyir ki, zaman heç zaman itmir, dəyişir, yeniləşir, daim irəli gedir. Biz də bu zamanla birgə dəyişir və yeniləşirik...

Romanın ana xəttində təsvir olunan hadisələrdən belə çıxmasın ki, təhkiyəçi yalnız özünü yazır (söz yox, hər bir yazıçı həm də özünü ifadə edir!), ancaq hamının yaşadığı eyni həyəcan və hadisənin xronikasını yazmaq, həm də cəmiyyətin özünün yaşadığı həyəcanı yazmaq deməkdir. Yazıçının iki fövqəl hadisə – karantin və müharibə fonunda yaşadığı anların, həyəcanların, məqamların xro-

nikası oxucuya o anları bir də yaşadır. Buna bəlkə də şüuraxını informasiya da demək olar. Yazıçı fikirdən-fikrə keçir, özünün və insanların yaşadığı hadisələrə bədii həyat verir. Pandemiyanın gətirdiyi məişət kataklizmləri, qorxu, həyəcan – hamısı romanda sıralanır. Məsələn, götürək məişət əhvalatlarını. Evdəqalmalar bir çox ailələrin davranışındakı ziddiyyətləri üzə çıxartdı. Yazıçı bunu alt qonşularının simasında divarları aşan dava-dalaşları zəminində göstərir. İnana bilmir ki, qapanmaya qədər can deyib can eşidən bu mədəni qonşular hər gün təkrarlanıb günü-gündən artan söz-söhbətləri ilə yeni ailə münasibətlərini formalaşdıracaqlar. Və bu davada dilin zəngin ideomatik ifadələrindən bu dərəcədə istifadə edəcəklər. Beləcə, roman boyu koronavirusun get-gedə cəmiyyətimizdə yer etməsi, həyatımıza daxil olması və möhkəmlənməsi ayrı-ayrı detallarla təsbitlənir.

Romanda müharibə ilə bağlı səhifələr son dərəcə təsirlidir. Bu günlərə yazıçı həm bizim, həm də döyüşən əsgərlərin gözü ilə baxır. Əsgərin dilindən yazdığı "Mən torpağı öpdüm, torpaq da məni öpdü" sözləri oraya can atan hər bir vətən övladının səsi kimi mənalanır. Yazıçı torpaqlar azad olunduqca xalqın əyilmiş belinin necə qalxdığını, bükülmüş dizinin düzəldiyini, qısalmış dilinin necə uzandığını döyüş ugurları ilə bildirir. Bu məqamda bütöv bir xalqın ayağa qalxdığını, yeniləşdiyini, məğrurlaşdığını aydın şəkildə görürük. Bu sözlər sadəcə söz olaraq qalmır, bu günün reallığı kimi əks olunur. Azərbaycanın müharibədən qalib çıxmasını, ermənilərin düşdüyü eyforik vəziy-

yəti bəzən ironik, bəzən sarkazmla ifadə edir. "Şuşa bəyannaməsi"nin əhəmiyyətindən danışarkən "Biabır oldular. Heç olmamasındansa, yenə gec olması yaxşıdır. Kimdə nə yoxdu ondan danışar. Hələ inciyirlər də ki, niyə bütün yollar Romaya aparır, Ermənistana nə gəlib ki? Vallah, adam şərh də verə bilmir. Elə Roma imperiyası da erməni imperiyasının ardınca süquta ugrayıb, – demək keçir könlümdən. Amma susuram. Sonra onu da ciddiyə alacaqlar. Qonşu bizimdiur, "kəramətinə" bələdik".

Dilarə Adilgil müharibənin xronikasını hərbi dillə vermir, 44 günün xalqın həyatını necə dəyişdirdiyini asan dillə ifadə edir. Bəzən bir metafora və ya detal bütöv bir mətni əhatə edir. Azərbaycan əsgərlərinin erməni illüziyalarını necə puç etməsini bir daha bizə yaşadır.

Dilarə Adilgil həyatda olduğu kimi, romanda da çox səmimidir; sanki oxucuyla üz-üzədir, iç-içədir, ona yaxın adamı qədər doğmadır, keçmişi qədər əzizdir, gələcəyi qədər istəklidir. Onunla sadə sözlərlə danışır, tunelin ortasında işıq belə görünməyəndə umid verir, böyük gələcək vəd edir. Biz də onun bu səmimiyyətinə inanır və böyük ədəbi cameəyə möhtəşəm gəlişinə "Xoş gəldin!" deyirik...

**Bədirxan Əhmədli**
**Filologiya elmləri doktoru, professor**

(*I kitab*)

## MÜQƏDDİMƏ

2019-cu ilin 31 dekabrı axşama yaxın idi. Fikrimdə tutduğum bütün işləri görüb qurtarmışdım. Yarımçıq məsələlər, xüsusən də bayramqabağı, insanın bütün tarazlığını pozur, enerjisini alır… Bayram üçün geyinib-geçinəndən sonra qapıdan çıxhaçıxda dönüb evə nəzər saldım. Mənzildə yaratdığım bayram marafetindən razı idim. Hər şey yerli-yerində idi. Pəncərə şüşələrinə yapışdırdığım qar dənəcikləri sürətlə düşən qaranlığın fonunda təbiiyə oxşayırdı. Bayramı gözləmək onu keçirtməkdən daha həyəcanlı olur. Xüsusən Yeni ili... Özü də, il-ildən bayramın müddəti uzanır. İnsanlar neyləsin? Gözəlliyin, ab-havanın, ovqatın həyatlarında bir az da artıq qalmasına can atırlar. Köhnə Sovet filmlərində yolkanı dekabrın 31-i bəzəyərdilər, bu bir növ standart idi. İndi isə bütün dünyada, o cümlədən bizdə, noyabrın sonundan böyük ərəfə başlayır. Bu gedişlə bir də görəcəyik avqusta çatmışıq... Yeni ili evdə qarşılamasam da, masamı bəzəmişdim. (Evə qayıdanda məni dolu süfrə gözləsin deyə...) İstər-istəməz arxada qoyduğum Yeni il gecələrini xatırladım. Tələbə vaxtı qış imtahan sessiyasına düşərdi. Yanvarın ikisi adətən, birinci imtahanımız olardı, ona görə «bütün gecəni və bütün səhəri» oxuyurdum. Bayram verilişlərinə baxıb şənlənənlərə qibtə edər, özümün də onlara qoşulacağım zamanı səbirsizliklə gözləyərdim. İllər keçdi, öz övladlarım tələbə oldular. Yol-

kanı yığmağı onlardan xahiş edəndə deyirdilər: «Sessiya qurtarsın, sonra...»

Hər şeyi bayram üçün bax beləcə, hazırlayıb ailəlikcə qonaq getməyi sevərdik. Özü də, bir yerə yox, bir neçə evə... Bir az bu qohumun, bir az o biri yaxınımızın evində oturub, bayramlaşıb, şəhəri necə deyərlər, bir-iki dövrə vurandan sonra, 12 üçün evə yetişərdik. Bu bizim ənənəmiz idi.

Məmməd müəllim «köçüb gedəndən» bayramları da fərqli qarşılayıram... Hər dəfəsində bir cür... Necə alındı... Elə bu il... Vaqif ailəsi ilə Salyana gedib, qaynatasıgilə. Yeni ili orada olacaqlar. Mən isə Aynura söz vermişəm, onlarla qarşılayacağam. Əslində «evdə tək» də pis variant deyildi... Yeni il hisslərin bayramıdır. Rahat geyinib televizorun qarşısında əyləşirsən, öz düşüncələrinlə baş-başa. Nəyə istəyirsən baxırsan, baxdığını eşidə bilirsən. Bütün gecəni oturursan, bir də görürsən qonşulardan kimsə «işığa gəlir», bayram payı gətirir. Onunla Yeni ili bir də qeyd edirsən... Belə bayramın da öz məlahəti var. Romantika!

Səhərə yaxın qarşı binanın bər-bəzəkli pəncərələrini, içəridə görünüb yox olan sirli siluetləri seyr edə-edə «mutlu bir səssizlik içində» çay içirsən... (Pəncərələr evin gözləridir, sahibi barədə çox söz deyir. Maddi vəziyyətindən, səliqə və zövqündən xəbər verir). «Könül adamlarının məclisi bir an belə sənsiz olmasın». Çayxorlar üçün deyilib. «Hörmətin inkar edən, dünyada hörmət bulmasın». Bu misra da çay üçün.

Xoşbəxtliyin adı huzur... Özü isə hissiyyat.

Amma bilirdim ki, qoymayacaqlar, ona görə heç cəhd də eləmədim. Qapı-pəncərəni yoxlayıb (ən zəhləmgetmiş iş), yolkanın işıqlarını söndürdüm. Özümün şah əsərim, ilkin adı təvəzökarlıqla «evdə nə var» olan, ətrafımın çox sevdiyi bol inqridentli salatımı, əvvəlcədən sifariş verdiyim tortu nəvələrimə aldığım ənənəvi yeni il hədiyyələrinin üstünə qoyub aşağı endim. Küçədə balkon qonşumuz Mina ilə rastlaşdım. Əgər məni çağırıb hal-əhval tutmasaydı, onu tanımayacaqdım, Bərbərxanadan gəlirdi, tam yeni – rafinə olunmuş obrazda! Bərq vururdu.

– Hara isə gedirsən? – deyə soruşdum.

– Yoox, ildə bir dəfə «kapremont»dan çıxıram. Saçımın rəngini dəyişirəm, cild bakımı, müxtəlif kosmetik korreksiyalar edirəm, parametrlərimi səliqəyə salıram, qarderobumu təzələyirəm. «Nyud stil»ə keçmişəm, necədir? Bəyənirsən? Koko (Şanel) deyib ki, özünü əvəzolunmaz hiss etmək üçün dayanmadan yenilənmək lazımdır.

Sonra bərkdən gülüb dedi:

– Kişinin başını aldadıram da! Təzə ilə təzə arvad!

Onun kreativinə, tapdığı «çıxış» yoluna, pozitivinə ürəkdən bir «affərin» deyib, qapıda məni gözləyən taksiyə əyləşdim və maşın Əhmədlidən «Mətbuat» prospektinə – Aynurgilə doğru istiqamət götürdü. Yolumun kifayət qədər məsafəli, tıxacın çox olması səbəbindən ətrafa diqqətlə göz gəzdirməyə, 2020-ci ilin astanasında olan Bakının axşam mənzərələrinə tamaşa etməyə əməlli-başlı imkanım oldu. Meqopolisimiz ildə iki dəfə «univermaq Qızbacı» demişkən, başdan-ayağa «geyinir», bir yeni il gələndə, bir

də Novruz bayramında! Özü də tək mərkəzdə yox, elə bizə yaxın yeni açılan «Sevgililər parkı»nda al-əlvan işıqlardan qurulmuş dekorativ konstruksiyalar bir-birini «çağırırdı». Bəli, bizim xalq toy-bayramı, təntənəni çox sevir, şənlənməyi, deyib-gülməyi bacarır. Qanımızda qəramətlik, ağlayıb-sızlamaq yoxdur. Gör nə qədər güclü xalq olmuşuq ki, üzdəniraqlar evimizin, ailəmizin içinə girsələr də, zarıyıb-sıtqamaları bizə keçməyib. Çünki həmişə həyatın parlaq tərəfinə can atmışıq.

M-mm... Bu il də yağmadı... Yağsaydı, qarlayardıq. Bu indi ağlıma gəldi. Yaylamaq olar, qarlamaq yox? Amma hardaydı? O qədər dedik ki, Bakıya qar yaraşmır, küsdürdük. Olur ki, bərk ayaz düşür, hətta, 1-2 dərəcə şaxta da olur, amma yağıntı olmur. Bizim iqlim üçün qar ekzotika sayılır, ona görə hər kəsin yaddaşında özəl qar  xatirəsi yaşayır. Bu lap çoxdan olmuşdu... Yoox, bu lap yaxınlarda baş vermişdi... Aşağı siniflərdə oxuyurdum... Sinfimizdən bir qızgilin evi məktəbin həyətində idi. Beşmərtəbəli binanın altıncı... yox, birinci mərtəbəsində! Güclü qar yağanda dərslər zəif olurdu, bizi evə tez buraxırdılar. Qaçırdıq Tamillagilə:

– Aliyə xala, su ver də, katok düzəldək...

Böyük ürəkli Aliyə xala da, taybatay açırdı kiçik mənzilinin qapılarını... Ev soyuyurdu, ayaqqabı ilə girib-çıxırdıq, vedrə ilə su daşıyanda yerə tökülürdü, bir dəfə də narazılıq etmirdi, deyinmirdi. Heç demirdi də ki, yıxılarsız, qol-qıçınız sınar... Axı görürdü neyləyirik. Həmişə qar yağanda ilk yadıma düşən o olur. (İllər necə də amansızcası-

na gəlib keçir...) Zamanın mahiyyətini anlamaq çox çətindir, Nəyə xidmət edir? Əbədidir, dəyişir, amma itmir. Düz deyiblər, uşaqlıq xatirələrimiz daş üstündə həkk olunan yazı kimidir, zamana dözümlüdür. Gələcəkdəkilər isə sanki suyun üstünə yazılıb, tərpəndi, axıb gedir...

Sonrakı qar sərgüzəştlərimiz də maraqlıdır, dolğundur (məsələn, 2002-nin dekabrında Aynurun cehizlərini buzun üstündə sürüşə-sürüşə daşımağımız), amma... o deyil... O başqadır!.. Q.Q.Markes deyirdi ki, mənim bütün yaradıcılığım uşaqlığımı nağıl etmək cəhdindən başqa bir şey deyildi.

«İnsan çay deyil ki, dönüb arxasına baxmasın»...

«İnsanlar həmişə elə özlərini yazırlar...»

Bir neçə saatdan sonra qovuşacağımız 2020-ci ili səbirsizliklə gözləyirdim. Mənim ilim gəlirdi – siçan ili! Həm də yubileyli! Onu qarşılamağa çox həvəsli idim, planlar qururdum. Belə olacaq, elə olacaq... Axı əvvəlki siçan illəri çox düşərli olmuşdu. Çin təqviminə əsasən silsiləni siçan açırdı. Əfsanəyə görə, Budda bütün heyvanları məsləhət üçün çağırsa da, yalnız 12-si hay vermişdi. Böyük mütəfəkkir də onlara mükafat olaraq əbədilik bəxş etmiş, hər simvola 12 ildən bir peyda olmağı, adını daşıdığı ili sonadək qorumağı tapşırmışdı. «Zodiak» özü yunan sözü olub, «heyvanlardan ibarət dairə» deməkdir. Ağ siçan da birinci gəldiyi üçün müvafiq olaraq tsiklə liderlik ona «həvalə edilmişdi». Bunlar elə-belə, gəlişi gözəl, preambula...

Bir il də yadımdadı, it iliydi. Vaqif əsgərlikdə idi, hər şeydə məna axtarırdım. 31-i bloka girəndə gördüm bir it

yazıq-yazıq oturub. Gedib evdən nə qədər yemək gətirdim, tökdüm qabağına. Bilmirdim neyləyim ki, itin məndən «xoşu» gəlsin.

Beləcə xoş düşüncələr, yol üstündə olan «donuz»u öz aləmimdə eninə-uzununa, mənfisinə-müsbətinə çək-çevir edə-edə gəlib çatdım bayramsayağı bəzənmiş «Alov qülləlləri»nə! Bu üç qardaş həmişə işıqlıdır, bu axşam isə onlar da bəzənmiş yolkaya oxşayırdı, onun kimi çıraqban idilər.

Ev adamla qaynayırdı. Özlərindən başqa qonaqları da var idi. Bu məni sıxmırdı, əvvəla, əksəriyyətini tanıyırdım, sonra da, bu bayram adam istəyir. Hamı əl-ayaqda idi, hərə gətirdiyini masaya yerləşdirməklə məşğul idi. Süfrəyə əyləşdik, yedik, içdik, dedik, güldük, oxuduq, oynadıq.... Səs-küyümüzdən televizorun səsi eşidilməsə də, bu il də «Karnaval gecəsi» yerini «Taleyin kinayəsi»nə, o da, daha heç kəsin baxmadığı «mavi işıq»lara verirdi. «Sovet» çoxdan dağılsa da, ondan qalanlar hələ ki, salamat idi. Yeni nəsil bizə nə qədər yuxarıdan baxsa da, daha yaxşı bir şey ortaya çıxara bilmədiklərinə görə, hələ də Eldar Ryazanovun zəngin sitat fonu daim dilimizdə olan «starıy, dobrıy» filmlərinin ümidinə qalmışdıq. Köhnə filmlərin remeyki çəkilsə də, o qədər bəyənilməmişdi, yenə «Həmişə təmizlikdə-2» nisbətən babat alınmışdı, o da, musiqi tərtibatına görə... Alla Puqaçova sonda qızı ilə oxuduğu «Yenə boran, yenə çovğun» dueti ilə filmi faktiki xilas etmişdi. «За тобой не закрывая дверь… »

*Arxanca qapını cəftələməyib*
*İllərlədir yaşayıram...*
*Bağışla günahlarımı,*
*Kandarda da çox yubanma*
*Yenə boran, yenə çovğun*
*Qaranlıqda keçmiş yorğun...*

Xalis Axmatova... Deyir, tərcüməçi prozanın köləsidir, yəni imkanları məhduddur, poeziyada isə müəllifə rəqibdir. Zarafat bir yana, çevirəndə bir az oxşatdım deyəsən… Hər kəs heç olmasa ömründə bir dəfə hansısa mahnının məhz onun üçün yazıldığına inanır…

12 oldu, bir-birimizi qucaqlayıb öpdük, köhnə ilə «əlvida», yeni ilə «mübarək» dedik. Və mən, hər il həyata keçirdiyim ritual üzrə əvvəlcədən arzularımı yazıb əlimdə hazır tutduğum kağızı geri sayım başlananda yandırıb şampan şərabının içində əridərək içdim... İlin «happy end»lə başa çatması üçün. (Bilmirəm, onu mənə kim öyrətmişdi, amma mən 31 dekabr mistikasına inanıram). Hər bir insanın yeni ildən xoş gözləntiləri olduğu kimi, yaxına qoymaq istəmədikləri də var. Həmişə də hamıya deyirdim ki, istəklərinizi elə aydın yazın ki, mələklər oxuyub Qurbanolduğuma çatdıra bilsin. Hələ bacarsaz, diləklərinizi qırmızı lentlə «paketləyib» göndərin. Amma bu il ORADA bizə nə sürprizlər hazırlanmışdı, başımıza nələr gələcəkdi, ən dəhşətli yuxuda belə görə bilməzdik... Bu dəfə saniyələrin yox, milli mənliyin geri sayımı başlayırdı.

Ənənəyə, təcrübəyə, inanclara əsaslansaq, bir az da tarixə boylansaq, 2020 uzun il (високосный) kimi yaxşı heç nə vəd etmirdi. Oktavian Avqustun öz şəxsinə pərəstiş səbəbindən fevraldan «oğurladığı» bir gün nəyi dəyişə bilərdi ki? Belə baxanda, fevralı «şikəst» etməkdən başqa heç nəyi... Bir də, tutaq ki, ad gününü dörd ildən bir keçirənlər imperatoru günahlandırıb qarasına danışa bilərdilər. Vəssalam. Amma yox... Dilimə gətirməsəm də, 1996-cı ili xatırladım... Həmin il nə qədər adam dünyasını dəyişdi. Ailəmdən də itirdiklərim oldu, yaxın-uzaq tanışlarımdan da... Yadımdadır ki, bizim institutda dəhlizin küncündə kiçik stol var idi. Rəhmətə gedən olanda şəklini bir dəstə çiçəklə bərabər ora qoyurdular. Hə, bax, o dediyim 96-da həmin stolun üstü boş qalmırdı. Bir mərhumun qırxı çıxan kimi dərhal yerini daha yeni zəvvar tuturdu. Hətta, bəzən şəkillər yan-yana qoyulurdu. Özü də cavan-cavan adamlar... İndinin özündə də yas çox düşəndə eşidirəm, «bu lap 96-ya döndü ya...» Axırda rəhbərlik bunun yaxşı əlamət olmadığını, əməkdaşlar arasında ruh düşkünlüyü yaratdığını düşünüb, həmin o niyabət stolu ləğv etməklə vaxtsız ölümlərə etirazını bildirmişdi... Bu da keçmişə kiçik bir ekskurs...

Bir tərəfdən də numeroloqlar var qüvvələri ilə rəqəmlərin magik xassələri olduğunu misallarla sübut etməyə çalışırdılar. Astroloji təxminlər və polindrom rəqəmlərin sıraladığı fokus arasında qalmışdılar. Sıfır həm fərd, həm cəmiyyət üçün mənfi yüklü rəqəm hesab edilirdi. Özü də, bizim misalımızda iki sıfır birdən! Onda hələ bilmirdik ki,

bütün ili elə siçan kimi yaşayacaq, insanlardan qaçacaq, gizlənəcək, bir-birimizə xəstəlik ötürəcəyik. Əlinə düşəni, tapdığını da hərə öz yuvasına çəkilib «Ploxiş» (60-cı illərin mənfi multfilm personajı) kimi yeyəcək... Kimi üçün bu yeni həyat tərzi layiqincə dəyərləndirdiyi fürsət olacaq, kimi üçün real kommunizm, kimi üçün maddi və mənəvi böhran... «Mənim evim mənim qalamdır» deyimi hər zamandan artıq aktual olacaq... Hamı öz qalasına çəkilib körpüləri qaldıracaq, dünya ilə əlaqəni kəsəcək. Lakin... eyni zamanda, bizə əlimizdə olanların qiymətini bilməyi öyrədəcək, can sağlığının quruca arzu, təbrik olmadığını, «azadlığın» yalnız «şirin söz» deyil, necə dadlı hiss olduğunu həmişəlik yaddaşımıza, qəlbimizə yazacaq.

27-ci dəfə «gələn il bu vaxt…» dedik... Keçən il – bu il «gələn il» idi. İldən-ilə də səsimiz daha ümidsiz, daha inamsız çıxırdı. Bir gec qalmışlıq duyğusu. 27 il təkrarlanan fraqment. 27 il bir «sinifdə qalmaq» olar? Deyir, əgər illər keçir, arzu hasilə yetmirsə, «olmursa-olmur» deməkdir. Yalnız bizim situasiyamızda yox… Əl çəkməyəcəkdik. Çəkmədik də. Gələn ay başlayacaq, getdikcə artıb arada yavaşıyacaq, lakin heç bir vəchlə bizdən qopmayacaq dünyəvi apatiyadan da təbii ki, xəbərsiz idik... Hələ normal həyatdan aralanmamış, sosial aktivlikdən uzaqlaşmamış, onlayn iş rejiminə öyrəşməmiş, karantindən də tənbəlləşməmişdik.

Bayram təlaşından yorulub əldən düşmüş ev əhlini yuxuya verib səhərə yaxın maraqlı konsert, şou axtarışı ilə kanalları vərəqləyərkən məxsusi bu gün üçün seçilmiş, ye-

ni il havası gətirən filmə rast gəldim. «İsti şokaladla nə gedər», – deyə düşünüb televizorun qarşısında yerimi rahatladım. Ekran əsəri Yeni ili iş başında – mayakda, köpüklü dalğaların arasında qarşılayan nəzarətçiyə həsr edilmişdi. (Orda mən çatışmırdım…) Nə sirdirsə, mən mayaka, gəmilərin bələdçisinə laqeyd yanaşa bilmirəm, bütün lirikam, romantikam oyanır… Yerləşdiyi sığınacaq həm iş yeridir, həm yaşayış. Tənzimlənməmiş rejim... Nə yoldaşı var, nə müdiri, nə köməkçisi... Hamısı özüdür... Hamısı birində... Bütün romantik peşələrin özəlliyi... Məsuliyyəti tək daşıyır, şəraitə görə hərəkət edir. Tam bir qəhrəman… Tənha bayram süfrəsini düzəldəndən sonra vaxtasına baş çəkir, qarlı sahildən keçib nərdivanla mayaka qalxır, ağzından buxar çıxa-çıxa hər şeyi yerindəcə yoxlayıb arxayın olandan sonra komasına qayıdır. Həmişə mənə elə gəlib ki, mayakın keşikçisi ancaq «Mayak» radiostansiyasına qulaq asmalıdır. Bəlkə də, mən elə edərdim, ondandır... Mükafatı isə böyük... İnsan həyatı! «Mayakın vəzifəsi qaranlıq okeanda hansısa uğursuz qayığı axtarmaq deyil, sahildə bir yerdə durub işıq saçmaqdır». Dənizçilər zülmətdən işaran mayakı qorxulu yuxudan oyanmağın sevincinə bənzədirlər. 60-cı illərdə bulvarda gəzəndə qaranlıq dənizdə suyun içində qırmızı işıq görərdin, daim hərəkətdə idi, batıb-çıxırdı. Adına mayak deyərdilər. Ona sahildən baxmağı çox sevərdim. Gəmi gəzintisi zamanı daha yaxından görünürdü. Böyüyəndən sonra əsl mayakları gördüm, hətta, dünyanın 7 möcüzəsindən biri olan Foros mayakının yerində də dayandım. Qədim dövrlərdə

düşmən gəmilərini azdırmaq üçün yalançı mayaklar da tikilirdi. Amma mayakın da ömrünə çox qalmayıb. Avtomatlaşdırıldığından yəqin ki, yaxın zamanlarda memarlıq əsərləri kimi dənizi bəzəməkdən başqa bir funksiyası olmayacaq. Belə bir deyim də var: «Mayak kilsədən qabaqdır». Mən xaricə gedəndə məscidlə bərabər kilsəni də ziyarət edirəm. Həmin xalqa hörmət, maraq, həm də məlumat, ekzotika baxımından. Bir dəfə Gürcüstanda qızımla kilsəyə getmişik, kürəkənim də həyətdə gəzişir. Gördüm içəri çox maraqlıdır, həm də mərasim keçirilirdi. Dedim ki, Ayka, get Samiri çağır, o da gəlsin baxsın. İndi Samir gəlib:

– Məni çağırdız?

– Hə də, bax...

– Nəyə?

«Veritable musliman» – əsl müsəlman! Onu niyə çağırdığımı da başa dümədi. Kilsənin də adını batırıblar bu kilsədən qidalanan, xristianlığın «dayağı» dinsiz-imansız «dindar» qonşularımız. Özlərini öz xristianlarından da ayırırlar, üstün tuturlar. Kimin nəyinə lazımdır ki, sən xaçpərəstliyi nə vaxt qəbul etmisən? Hamıdan qabaq, ya sonra? Bəlkə ortada? Heç dəxli var? Dünya sizin ətrafınızda fırlanır? Ya hamının dərdi-səri sizin qaraçı köçüdür? Kilsə deyən kimi istər-istəməz bu soysuzları düşünürük.Yaratdıqları bir kilsədir, ona görə elə bərk-bərk yapışıblar. Tarix boyu da «Ovod»dan, «Paris Notrdam»dan, Vatikandan belə kilsələrdə nə qədər  naqisliklər oxumuşuq, izləmişik. Qaraniyyətlilər üçün kilsə rupor olub, hə-

mişə şirma kimi istifadə edilib. Erməni keşişi deyəndə gözümüzün önünə din xadimi yox, qarabaşlıqlı, xalqını əmin-amanlıqdan, sülhdən başqa nəyə desən səsləyən, kütləvi psixoz yaradan, təfriqə salan, siyasi qalmaqalın hərəkətvericisi Vazgen, Xudavəngdəki əliqanlı, əlisilahlı, rahib paltarında avtomatla poz verən Xocalı qatili Ovanes gəlir ki, yerdə qalan ermənisini də «под монастырь» aparsın... «Qaşlar çatılı, bitməyən hirs». «Bədən dili» özbaşına danışmır, ruhun, hissin tərcümanıdır. Erməninini erməni edən elə qara geyimli qara keşişləridir. Katalikosları da bayquş kimi ulayır, o vazgenləri, o qareginləri... «Erməni Apostol kilsəsinin Artsax İyerarxiyasının baş yepiskopu...» Hər işləri belədir. Bilməyən deyər görəsən bu guruldayan adın içində nə var? Göstərmə! Yaxşı heç nə! Nə öz millətinə, nə də başqalarına... Xaç altında qan, nifrət püskürür! Satanizmi təbliğ edir. Pafos erməniləri zirvədədir. «Ermənilər... ermənilik...» ən yüksək mənəvi dəyər hesab edilir. Boş qazan səs salar... Özünü bəyənmək azdır, gərəkməz ki, tələb də olunasan, böyük «bazarda» sənə ehtiyac da duyulsun. «Sadə, məğrur insanlar öz torpaqlarında, keçilməz dağların qəlbində, acı tərləri ilə suvarılan vadilərdə evlər, məktəblər və ecazkar monastırlar tikərək yaşayırdılar». Bu epik cümlə hamımızın tanıdığı, sevdiyi fransalı məşhurların Cənubi Qafqaz (Zaqafqaziya) faşistlərinə tərəf çıxdıqları müraciətindəndir. Əlbəttə, bu şişirdilmiş, tünd yağlı boyalarla qabardılmış, əslində heç olmayan təəssüratı özləri haqqında elə Hayas(ız)tandan olanların özləri yaradıblar. «Müəllif» dəsti-xəttləri olduğunu da

istisna etmirəm. Kor da bilir ki, balıq şordur, bu müraciət təşkil edilmiş piardır. Düşmənlərimiz ərazi iddiasını, etnik qərəzliyi din davası kimi təqdim etməyə, bununla da tərəfdaşlarını artırmağa çalışırdılar. Müraciətin davamı... «2000 ildən artıq sadə, məğrur insanlar bu daşlı, gözəl ərazidən yapışaraq yaşayırdılar». Aha, 200 il oldu 2000 il. Pənahəli xana təlxəklik etdiklərini yazmaq yadlarından çıxıb. Amma, arada hissə qapılıb düzünü də deyiblər. Bəli, «yapışaraq». Zəli kimi, gənə kimi qopmayaraq. Rusiyada 2,5 milyon, ABŞ-da 2 mln., Türkiyədə, həmin o Fransada yüz minlərlə ermənini yaşamasına baxmayaraq, 25 000 haya öz torpağımızda biz muxtariyyət verməliyik. «Ermənilərin Qarabağda taleləri qəddarcasına dəyişib…» Qara böhtan, ağ yalan... İnsinuasiya... Qarabağın, bəlkə heç Azərbaycanın harada yerləşdiyini bilməyən, yıpranmış çağında canından halallıq istəyən Alen Delona, Pyer Rişara, Jan Renoya bu müraciəti imzaladıqlarına görə qəzəblənmək, dünyanın ən dilbər guşələrindən birini xarabazara çevirən «məğrur insanların» varlığına inanmaq qədər absurddur, əhəmiyyətsizdir, sadəlövhlükdür, axırı... bunların biridir, söz tapmadım. Birincilərə «qocalıq mərəzi» deyib keçək, keçmiş xidmətlərinə bağışlayaq. (Zatən bir şey də edə bilmərik, səsimiz çatan deyil. Böyüklük də bizdə qalsın). Maraqları da var, sözsüz ki... O ayrı söhbət ki, imza yiyəsi imzasına hörmət etməli, qiymət verməlidir, əgər demensiya son diaqnoz deyilsə... (Üstəlik, planetin gözəllik simvolu A.Delon 2012-ci ildə İrəvana gedib planetin ən çirkin məxluqu Sərkisyanla da görüşüb, qondarma erməni

soyqırımını dəstəkləyib. Dünya xaçlarına görə bunları tez eşidir...) İnsan tək danışıb yazdığına deyil, susduğuna da cavabdehdir. Niyə? Ona görə ki, hüquqda da var, görüb keçmək, kömək əlini uzatmamaq. Erməni Qriqoryan kilsəsi digər xristian kilsələrindən radikal millətçiliyi, ekstremizmi, irqçiliyi təbliğ-təşviq, terrorizmi himayə etməsi ilə fərqlənir. Cəlil Məmmədquluzadə «Axund ilə keşişin vəzi» felyetonunda keşişin dili ilə deyir: «Ey mənim erməni qardaşlarım, dünya xəlq olunandan indiyə kimi erməni tayfası müxtəlif millətlərin cövr və zülmünə düçar olub. Qarışqalar at nalının altında əzilən kimi qüvvətli və bimürüvvət tayfaların yumruğunun altında pamal olublar...» «Aldatma və zorokılıq – budur kilsənin tarixi məqsədi...» (İ.Höte) Film boyu və sonrası düşüncələr, xatırlamalar...

## VAQİF

Yanvarın 1-i səhər tezdən Aykagildən çıxdım. Təmiz, soyuq, toran, adamsız qış səhəri idi. Şəhər hələ yeni il yuxusundan oyanmamışdı. Bəlkə də oyanmışdı, yolkanın altında hədiyyəsini axtarırdı, ya da, hələ heç yerinə uzanmamışdı, televizoru söndürüb indi yatmağa gedirdi, ya səs-küylü məclisdən qayıdırdı. Kimdə necə... «Oyaq tək Cırtdan imiş» düşüncəm fiaskoya uğradı. Yanvar-Pyanvar... Uşaq vaxtı sanamada deyərdik. «Sahil» metrosuna qədər gəzə-gəzə getdim. Vaqifi düşünürdüm, oğlumu... Mənim bir gün gecikmiş əbədi yeni il hədiyyəmi... Bu gün

37 yaşı olurdu. O mənim gözümdə hələ də uşaq idi. Subay vaxtı o tərəfə keçirdim öpürdüm, bu tərəfə keçirdim öpürdüm. Ona verdiyim sevgini həyatda heç kəsə verməmişəm. Qoymurdu: «Boynumu sındırdın, get qızını öp» və s. Mən də deyirdim ki, qoy oksitosinimi qaldırım. Amma indi görürəm xoşuna gəlir. Ya yaşa dolur, ya ehtiyacı var, ondandır. Mən nadir analardanam ki, onu heç qısqanmıram, baxmayaraq ki, ideal həyat yoldaşıdır. Bütün ana-balalar kimi dalaşırıq da, barışırıq da... Belə bir deyim var... Ömrümüzün birinci yarısını valideynlərimiz «yeyir», ikinci yarısını övladlarımız. Bataliyamız da nə üstə düşür? «Siqaret az çək, əyninə paltar gey, kompda özünü az şüalandır»... Yəni... Əsasən. O da sonuncu iradımı özümə qaytaranda Müllerin sözləri ilə deyirəm ki, mənə olar, mən qocayam, itirəcək bir şeyim yoxdur. O da gülüb deyir ki, yaxşıdır, özünə sərf edəndə qoca olursan. Mən də söhbətin şuxluğunu saxlayaraq: «Yaxşı, qoca deyiləm, amma ona yaxınam», – deyirəm, «belə gedər?» Başa düşmür ki, mənim əsas işim-peşəm onun üçün narahat olmaqdır... Həyatımın mənasıdır... Nə qədər ki, sağam, bu hiss mənimlədir. Məmməd müəllim rəhmətə gedəndə dedi ki, işdə məsləhət görürlər ki, mamanı qoyma tək qalsın, gətir yanına. Mən də cavab verdim ki, mənim mamam sizin «staruşka» mamalarınızın tayı deyil... Mənim mamam cavandır, onun öz həyatı var. Onun komplimenti mənim üçün ən dəyərlidir, ən qiymətlidir. Uşaq vaxtı atası onu özü ilə tez-tez instituta aparırdı. (Əlyazmalar İnstitutuna) Orada da mühafizə ilə dostlaşmışdı, bir gün yemək veri-

rəm, Məmməd deyir, o toxdur, bayaq milisioner Mehdi ilə dolma yeyirdi... (Mən milisioner yazdım, o isə milisə «girdovoy» deyirdi).

Vaqif çox savadlıdır, çox mütaliəlidir. Kitab əlindən düşmür, gecə-gündüz oxuyur. Hələ tarixi necə bilir, dərin mühakimələri, analizləri var. Xasiyyəti də ağırdır, çox ciddidir. Həyata münasibəti də, özünü aparmağı da, geyimi də... Vaxtilə onun imici üzərində çox mübarizə apardım, «qoca kişi kimi geyinmə», filan... Sonra əlimi üzdüm, öz başına buraxdım. Onunla yalnız ikimizə aid zarafatlarımız var, hərdən xatırlayırıq, deyib-gülürük. O da mənim kimi xatirəyə meyillidir, hamımızın bir yerdə yaşadığımız zamanların nostaljisini çəkir. İllər öncə onunla toya getmişdik – rus toyuna... Ayrı oturmuşuq, o oğlanlarla, mən ev yiyəsi ilə. Bir nəfər məni rəqsə dəvət etdi, necə deyərlər «medlennıy tanes»ə... Çaşıb qaldım. Bizdə axı adət deyil tanımadığın qadını dəvət etmək... Adam da ziyalı təsiri bağışlayırdı, həm də utandım vəhşi kimi görünməyə. İndi oynayırıq, bir də gördüm çatdırıb özünü, «ay arvad, neynirsən?» «Partnyor»umun da çiynini döyəcləyir... Əsgərlikdə olanda deyirdi ki, qayıdanda qabları özüm yuyacağam, burda hər dəfəyə 200 nimçə yuyuram. (Onun yuduğu nə olacaqdı?) Qızı doğulanda «uşağa xeyir-dua ver, sənin adını qoyuram», – dedi. Mən də ilk dilimə gələni dedim:

– O məndən xoşbəxt olsun…

– Elə sənin qədər xoşbəxt olsun!

Hərdən ona ürəyim yanır. Cavan vaxtından mənim də əzab-əziyyətim düşüb onun boynuna... Səni sən edən kimdir, nədirsə, heç vaxt yanından əskik olmasın! Həyatında hər şey ürəyi istəyən kimi olsun! Hətta bir az da artıq! 37 il əvvəl qarlı bir səhər həyatımızda başlanan nağıl ilbəil yenilənsin, daha da gözəlləşsin! Bir oğlu olmalı insanın...

Fikirlərimlə danışa-danışa «Sahil»ə çatdım. «Evə çatım, zəng vurub rahatca danışaram, təbrik edərəm», – deyə düşünüb yerin altına düşdüm. Qatarda məndən və düşüncələrimdən başqa ins-cins yox idi. Evdə də... Bir müddət səssizliyin səsini dinlədim... Səhər saatları «mənimdir», günüm ondan asılıdır, səhər dünya mənə daha gözəl görünür. Yolkamın təmiz şüşədən olan rəngli muncuqlarının yerini dəyişdim, yenidən asdım. Bunlar mənim uşaqlığımdan qalma idi. Ən sevdiyim. Uzun, neçə qat... İndikilər plastikdəndir, bu isə çox zərifdir, elə qoruyuram ki, zədələnməsin, pambığın arasında saxlayıram. Belə bəzəkləri indi ancaq köhnə açıqcalarda («Kremldə Yolka bayramı kimi»), sovet filmlərində görmək olar, evlərdə deyil... Nə isə, deyəsən çox nostaljiyə getdim. İndi kim isə azıb qapını döysəydi, əsl Yeni il macərası baş verə bilərdi... Avantürist fikirlərimə gülüb (hərdən olur), reallığa qayıtmaq üçün qalxıb televizoru şəbəkəyə qoşdum və həmin an da təkliyim quş kimi uçub getdi. Çox sevdiyim «O qadını axtarın!» çoxjanrlı – lirik-romantik-dedektiv komediyası göstərilirdi. Ssenari əsərin fransız adaptasiyası əsasında yazılsa da, rus «ladında» çəkilmişdi. Elə arzulayırdım... Bu filmin premyerası 1983-cü il yanvarın 1-də baş tutmuşdu, Vaqif

anadan olan gün, elə mənim üçün onunla da assosiasiya olunur. Düzdür, indi You Tubedə nəyə nə vaxt istəsən baxa bilərsən, amma bu şəxsən mənə ləzzət etmir, mənim üçün bərabər izləmə vacibdir. Sanki görünmədən başqasının pəncərəsindən baxıb çıxırsan. Hamı eyni vaxtda səninlə bir eyni hissləri yaşayır, gülür, ağlayır, həyəcanlanır. Görməsəm də, hiss etmək, duymaq bəs edir. Bax, mənim belə «qəribəliyim» var... Sinopsisinə görə sırf yeni il filmi sayılmasa da, ona kökləyirdi, xüsusilə finalı. Həm də çox idrakedicidir. Hadisələrin gərdişatı ilə yeni il qabağı katibəsi mademuazel Süzannanın evində gizlənmək məcburiyyətində qalan metr Roşe bekarçılıqdan horoskopu əzbərləyir, qarşıda gələn donuz ilinin kimə necə təsir edəcəyini öyrənir... Mənim üçün bu nə isə təzə şey idi. SSRİ-də astrologiya, ulduz falları bəyənilmir, şarlatanlıq hesab edilirdi. Bu barədə məlumat çox az idi. Elmlərin də bir-birinə qohumluğu çatır. Məsələn, kimya-əlkimya, numerologiya-cəbr... Astronomiya-astrologiya... Alman astronomu və riyaziyyatçısı, planetlərin hərəkət qanunlarını kəşf edən İohann Kepler XVl əsrdə bu «ana-qız» haqqında demişdi: «Əlbəttə, astrologiya yelbeyin bir qızdır. Amma bu yelbeyin qız olmasaydı, onun müdrik anası astronomiya nə edərdi, düşünmək çətindir...» Yadımdadır ki, mən ezoterika janrı ilə yaxından 1987-ci ildə tanış oldum, Məmmədin Moskvadan gətirdiyi «Гороскопы» kitabı vasitəsilə... O vaxt üçün «tütyə» hesab edilən və mənim özümün də görməmiş kimi üstündə əsdiyim bu kitab əldən-ələ keçməkdən açılıb tökülmüşdü və sonda mən onu aparıb yenidən

cildlətdirdim. Kim deyir ki, ulduz falına, ya ümumiyyətlə, fala inanmır, ona inanma. «Mən astrologiyaya inanmıram. Mən oxatanam, oxatanlar isə skeptik olurlar» – düşüncəsi kimi... Bir də, yəqin həmin adam çətinə düşməyib, əlacsız qalan hər şeyə inanır. Maraq da, əlbəttə ki, öz yerində. Gələcəkdən bir xəbər, möcüzə gözləmək arzusu... İstixarə nədir? Xeyir istəmək. Horoskopda ən pis xasiyyətnamə Qoç və Əqrəbə verilir. Bütün bürclər təriflənir, bu ikisindən savayı... Proqnozlar elə ikibaşlı verilir ki, hər kəsə aid edilə bilər. Çox uzun oldu deyəsən... Mətləbdən uzaqlaşdım... Hadisədən hadisəyə keçdim. Guya öz-özlüyümdə kənara çıxmayacaqdım. «Vaxta qənaət etmək üçün ətraflı yazdım...» Başqa sözlə, dediyin anlaşılsın.

Beləliklə, noyabrın axırlarından start götürən yeni il marafonu sona çatdı. Yanvarın 13-cü günü amerikalıların Minnətdarlıq günü kimi bizə heç dəxli olmayan Köhnə Təzə ili də qarşılayıb, həvəslə uzatdığımız qış tətilimizi başa vurduq. Yeni il körpə uşaq kimi «dar-dar» ilk addımlarını atmağa başlayanda küçələr, meydanlar bayram libasını soyundu, evlərdə yolkalar yığışdırıldı və biz... gündəlik rutinimizə döndük. Siçan tam hüquqları ilə fəaliyyətə başladı, nə başladı... Hələ özü ilə çağırılmamış qonaq da gətirdi. Tanımırdıq, bilmirdik nəmənədi, hardan gəlib hara gedir...

Bu il müharibə də olacaqdı.

## ZƏMANEYİ – PANDEMİYA

Yeni ildən günbəgün, aybaay xırdalamağa başladıq. Fırfıra işə düşdü. Yanvar ilin «bazar ertəsidir». Bazar ertəsi isə bir qayda olaraq ağır sayılır. Həmişə il başlayan kimi tufan qopur. Yeni il bayramından hələ başı ayılmayan xalq dərhal hansısa qlobal ya məhəlli hadisəyə cəlb olunur. Deyirlər, «год на год не приходится…» İl-ilə bənzəməz və ya hər il eyni cür olmaz... Geniş anlamda elədir. Lakin nə sirdirsə, yeni il həmişə haray-həşirlə gəlir. Bir az ciddi olsaq, 20 yanvarda 9 yanvarı düşünmüşdüm. Necə deyərlər, hər kəs gördüyünü, ya oxuduğunu çağırar. «Qanlı bazar günü»nü bizə necə öyrətmişdilərsə... Sonra... Hardasa, sıfırıncı illərdə Bakı sirkində bədbəxt hadisə baş vermişdi. Yanvar tətilində sirkə gedən bir dəstə uşaq antrakt zamanı səhlənkarlıq ucbatından tavandan asılan böyük yelləncəkdən yıxılmış, hadisə faciə ilə başa çatmışdı. Daha sonra, 2019-cu ilin 7 yanvarında «VolqaBalt» gəmisinin kapitanı olan cavan xalam oğlu layneri ilə birlikdə Qara dənizin sularına qərq oldu. Mən siyahını daha da uzatmaq, «ocaq ki, ocaq» deyib birinci ayımızın adını bədnam çıxarmaq istəmirəm. Sadəcə, faktı konstatasiya edirəm. Məşhur şeirdə deyildiyi kimi: «Ночь, улица, фонарь, аптека…» Qapalı orbit... Mart ən ətirli aydır – səkkizinə qədər mimoza, iyirmisinə qədər duxovka, səməni, sonra «lala-nərgiz» ətirli olur. Aprel – yumşaq verba, zanbaq, may – qızılgül-yasəmən, avqust – qarpız-qovun rəngində

və ətrində olur. Oktyabr yağış, noyabr xəzan qoxuludur. Ümumiyyətlə, qoxu ən başlıca stimulyatordur. Qalıcı. Belə buyrulur ki, ətir iyləmək qəlbi gücləndirir. (Mənim üçün alınan ilk ətir burnumdadır. «Dan Ri» adlanırdı, «Dzintars» firmasından. Ondan sonra heç «rastlaşmadıq»). Yeni il ərəfəsi «mandarin, olivye, küknar» – deyirlər. O əvvəl idi. İndi hamı sintetik yolka qurur. Nə qədər bahalıqdan şikayətçi olsaq da, mandarinə həmişə pul tapılır. Bir də, biz «olivye» demirik ki, «stoliçnıy salat» deyirik. Malı-mala qatmayaq. Fevral... Aha! Deyəsən, yavaş-yavaş gəlirik mətləb üstə! Fevralın ətri yoxdur deyəsən. Amma... Təzə qar ətirli ola bilər. Təqvimdə bir cazibəli tarix var – 23 fevral! Bahar soraqlı, yaz müjdəli... İlin, ayın, mənim həyatımın gözəl günü. Allahımın məni mükafatlandırdığı gün. Aynurun doğum günü, bu dəfə isə yubileyi. Balzakın qadınlarda sevdiyi yaş dövrünü başa vururdu. İlin ən qısa ayının bu gününü vaxtilə bütün SSRİ «kişilər bayramı» kimi qeyd edərdi. Fevral «centlemen tək ağ paltosunu» soyunanda həm vaxtı yaxınlaşdığından, həm də virusla bağlı ajiotajdan diksinən bahar zamanından əvvəl oyandı. Februa latıncadan «təmizlənmək» deməkdir. Təmizlənib yaza çıxmaq... Fevralın axırı faktiki bahardır. Hər halda, fenoloji amillər artıq özünü göstərir. Qızım mənim həyat yollarımda qoyduğum «vergülləri nöqtə eləyə-eləyə» 40 yaşına gəlib çatmışdı. Daha yolun başındaydı. Bunu təntənəli qeyd etmək lazım idi. «Rublevka» restoranında toplaşdıq. Hə, burada zəruri də olmasa, bir haşiyə çıxmaq istəyirəm... Xaricdən Aynur üçün gözəl bir çanta almışdım.

Amma əmması var idi... Necə olmuşdusa, çantaya vurulmuş kontrol düymə üstündə qalmışdı. Aktiv olmadığı üçün çıxışda səs eləməmişdi. Yəni, kim də bilməsə, bu sferanın adamları bilməli idi ki, «ölü»dür. Paketə qoyub uyğun mağaza axtarmağa başladım. Asan olmayacağını bilirdim, sorğu-sual da gözümə dayanmışdı. Düzgün anlaşılmamaqdan ehtiyat edirdim. Birdən... Ömrümdə bir işi də düzəldə bilməmişəm, nə xahişlə, nə şirinliklə, heç rüşvətlə də! İnandırmaq qabiliyyətim sıfır. Müştəri gözü ilə baxdığım dükanlardan biri köçməyə hazırlaşırdı. İçəridə kamera-filan da yox idi, heç işıq da yanmırdı. Ətrafa nəzər salanda mənə lazım olan düyməçəxardanı yerdə paltarların arasında görüb qaldırdım. Kamali-mərifətlə xahişdə bulundum. «Mən hardan bilim oğurlamamısan?» (Buyur. Özü də «sən») və s. Bir polis çağırmağı qaldı. Cavan, uzunburun qız idi. Əlbəttə, başa düşürəm ki, bu onun günahı deyil, amma hirsimi necəsə çıxarmalıyam da... Ona görə bir az mərhəmət istəyirəm. Keçmişdə qüsurlu profilin əlacı yox idi. Belə bir deyim var idi ki, gözüm çəp olsa süzərəm. Ağzım böyük olsa büzərəm. Bəs bunu (burnu) neyləyərəm? (Deyəsən «plastika»nın tərəqqisi hələ mənim mənfi qəhrəmanıma gəlib çatmamışdı).

Küçəyə çıxdım. (İntriqa davam edir...) Qarşıdan mənə «baxan» Molla üz tutdum. Kassada bir dəstə gənc dayanmışdı, kameraların altında... İkinci cəhdim olduğu üçün az-çox təcrübə də qazanmışdım. Mümkün qədər sərbəst görünməyə çalışaraq, «uşaqlar, mənə kömək edin də...» deyib mövzuma yol açdım. Oğlanlardan biri: «Əslində ix-

tiyarım yoxdur, amma adamın adama işi düşər, kiçik köməyi niyə əsirgəyək ki?» – deyib gülümsünə-gülümsünə açdı. Geri qayıdanda bayaqkı dükana girdim. «Bax», – dedim, «pislik sənə qaldı, Allah qatında savab yiyəsi ola bilərdin, amma onu bir başqasına bağışladın...» Sonradan pis olmaq istəmirsənsə, əvvəldən pis iş görmə. İnsanın kimə isə köməyi dəyəndə birinci özü qazanır. Heç savabı demirəm... Ovqatın qalxır, xoşbəxt olursan, öz gözündə yüksəlirsən və s. Belə...

... Məclis çox gözəl keçdi, atmosferə söz ola bilməzdı, tufanqabağı o ki, var oynadıq, nəyi var, şənləndik. Pandemiya barədə söz-söhbət xaotik də olsa, günü-gündən artır, böyüyürdi. Artıq sözügedən mövzuda «bərkdən» danışılsa da, bunları ciddiyə almır, daha doğrusu, almaq istəmir, Skarlet Oxara kimi «mən bu barədə sabah düşünərəm», – deyə sabah-sabaha salırdım. Hər halda, yaxın vaxtda heç yana gedən deyil. Necə deyərlər, «Qafqaz durur, mən dururam…» (Ə.Haqverdiyev) Heç bir fikrim, təxminim də yox idi. Bu xəbərlərə barmaqarası baxır, «quş qripi», «donuz qripi» kimi gəldi gedər olacağını düşünürdüm. (Xəstəliyin də adı gərək çəkib apara, «Quş qripi» hara, «Covid-19» hara? «Bir var qarınağrısından öləsən, bir də var infarktdan». (Anar) Fərqində olmasaq da, başımızın üstündə «Covid»in buludları qatılaşıb sıxlaşır, bir himə bənd halinə gəlirdi.

Fevral isə pandemiya söhbətləri altında yerini qadınların sevimli və kaprizli martına ötürüb birillik gedirdi. Yaza çıxmağa tələsdiyindən də belə qısa idi. Yola düşməz-

dən qayıdacağına söz də verdi. Onun sözünü tutacağından şübhəm yoxdur.... Gələndə bizi necə tapacaq, tapacaqmı, fortinbrasın sualı «budur, bu!»

Planet isə aqoniyaqabağı son günlərini yaşayırdı...

## KARANTİN ÖNCƏSİ SON YIĞINCAQ

Onun adını ilk dəfə nə vaxt eşitdim? Covid-19... Haradan? Bilmədim... Rəsmi haçan tanış oldum, hansı şəraitdə təqdim etdilər: «Əl vurma, öldürər...» Təntənəlimi, ya ayaqüstü? Kim? Yadımda deyil. Əhəmiyyət vermədiyimdən tanışlıq üçün də gec qalmışdım. Bir onu bilirəm ki, Çin bu virusu dünyaya «barmaqlarının ucunda» yox, teatral pafosla «sırıdı». Mən ümumiyyətlə, cəmiyyətdə düz yerdə baş qaldıran, əsası olmayan hay-küyə çox fikir vermirəm, dərininə getmirəm, həvəskarlara, bu işin sevənlərinə buraxıram. Bir karantinə ki, «koronavirus bayramı» deyələr... Amma «Dat krallığında» söz-söhbətin günü-gündən artdığını da hiss etməmiş deyildim... Və bir də baxdım ki, yanımda bu barədə danışılanda qulağımı «diqqətin mıxından» asıram.

Martın 8-si bacım nəvəsinin ad gününə yığışanda artıq isnişmişdik, «konfet-buket» sezonunu arxada qoyub «sən»lə danışırdıq. 1 yaşlı Humayın doğum gününü Bibi-Heybət tərəfdə, dənizin içində, «Ada» restoranında qeyd etdik. O zaman hamımız mütərəddüd idk, keçirək, ya təxirə salaq, gedək, ya getməyək? Nə yaxşı keçirmişikmiş...

Həmin günün tarixi əhəmiyyəti onda idi ki, burada Uxandan da nümayəndə var idi. Bəli, bəli, səhv eşitmədin, başqa ölkədən yox, məhz Çindən, Çinin də başqa şəhərindən yox, məhz koronanın vətəni Uxandan qonağımız var idi. İlandan qaçıb ilanın yuvasına girmişdik. Əlbəttə, biz bunu ad günündən sonra bildik. Körpə səbəbkarın atasının dostu Uxanda işləyirmiş, vəziyyətin ağırlaşdığını görüb tez tərpənərək Vətənə qayıtmışdı. Və elə aeroportdanca isti-isti, viruslu-viruslu düz ad gününə! Necə deyərlər, gəmidən düşüb «bal»a təşrif buyurmuşdu. «Bal»ı da ki, covid idarə edirdi. Təsəvvür edin də, camaat orada xəbər tutsaydı, bomba xəbəri almış kimi hamı qapıya qaçardı. Allah saxlayanda saxlayır. Heç kim xəstələnmədi, hamımız yekdilliklə, sağ-salamat karantin rejiminə daxil olduq. Uzandıqca-uzanacaq yeni «santa-barbara»nın anonsları gedirdi...

Həmin ərəfədə sonuncu dəfə toya getməyimdən də danışım, həm səni yormayım, həm də bir az eynin açılsın. Hərçənd ki, özüm onda güləcək halda deyildim...

Universitet rəfiqəm Famillə ilə «Gənclik» metrosunun qarşısında görüşdük. «Gilavar» şadlıq sarayına gedəcəkdik. Orada dəfələrlə olsam da, hər dəfə məni kim isə apardığından yola fikir verməmişdim. Beləyəm də, məsuliyyət üstümə düşməyəndə yanımdakına arxayın oluram. Amma bilirdim ki, yaxın olmalıdır. Metronun qarşısındakı polis «hə, stadionun içindən keçin, görəcəksiz», – dedi, «5 dəqiqəlik yoldur». Fikirləşdik ki, daha ona görə taksiyə minməyək, elə söhbət edə-edə gedərik, çoxdandır görüşmürük. Onsuz da, məclisdə səs-küydən iki kəlmə kəsmək

mümkün olmayacaq. Həm də hələ tez idi... Familə nə isə əsəbi görünürdü. Bu onun xarakterinə yad olduğu üçün narahat oldum...

– Bilirsən də, mən birinci mərtəbədə oluram, kayutam da açıqdır (rəhmətlik atası illərin gəmi kapitanı olduğu üçün leksikonunda ondan qalma sözlərə rast gəlinirdi), yuduqlarımı ora sərirəm. İndi dadanıblar, nə asdım oğurlanır. Sovet vaxtı həyətə, ağacların altına sərirdim, heç kəs gözünün ucuyla baxmırdı... Evdə pal-paltar qalmayıb. O qədər sırtıqlaşıblar ki, gündüzün günorta çağı balkona dırmaşıb paltarları yığırlar. Bu gün 12-13 yaşında bir qızı tutdum. İstədim onunla bir az dərs aparım, öyüd-nəsihət edim ki, ay bala, bu, doqquzuncu cins şalvardır aparırsan. Heç olmasa, ikisini mənə saxla da... Üzümə tərs-tərs baxıb dedi:

– Zavuçsan?

– Bizim məktəbdə oxuyursan?

– Yox e, nə məktəb? Zavuç kimi danışırsan...

Əlimi dişləyib paltarları qopartdı, məhəccərin üstündən hoppanıb qaçdı. İndi gərək paltarqurudan maşın alam.

Rəfiqəmə görə çox pis oldum. Sözün əsl mənasında müqəddəs adamdır, hər əməli ilə...

– Canın sağ olsun, Fam, hər işdə bir yaxşılıq axtar. Bizdə dəb deyil, amma xaricdə «qurutma makinəsi» olmayan ev yoxdur. Bu da bir rahatlıqdır.

Danışa-danışa bir də gördük hava qatılaşıb. «Söhbət dananı qurda verər», – burda deyiblər. Söhbət də bir söh-

bət ola... Neqativ, şokedici, xoşagəlməz. Adam əlini dünyadan, onun gələcəyindən üzür. Elə buna görə də fikrimiz yayındı və gəzintimizin əsas məqsədi yadımızdan çıxdı.

İndi məsələ təcili «Gilavar»ı tapmaqdı... İkimiz də geyimli-gecimli, yaşımızla düz gəlməsə də hündür kablukda... Elə stadionu yarı etmişdik ki, peşmançılıq bürüdü məni, sürətlə çökən qaranlıq, qaranlıq nədi, zülmət də bir tərəfdən ürəyimi didməyə başladı. Mən də xroniki qorxağam... Özüm də, o qədər detektiv, kriminal ədəbiyyat oxumuşam ki, münasib şəraitdə hər kəs gözümə potensial cani kimi görünür. Familənin də ayağında artroz var, tez gedə bilmir... İndi onu faktiki daşıyıram. Stadiondan çıxıb meşəyə düşdük. Meşə olduğunu da nədən bildim, ayağımın altındakı torpaqdan, qaranlıqda bədheybət görünən ağaclardan. Famılə istədi telefonunu yandırsın, qoymadım ki, özümüzü bildirməyək, burda adama nə desən edərlər, qoy bir işığa çıxaq... O da bu arada, bir yaş böyük olmağının və 42 illik dostluğumuzun verdiyi hüquqdan istifadə edib məni məzəmmət də etdi ki, Dilər, axı sən niyə vaxtında Gülya kimi, Muqa kimi maşın sürmək öyrənməmisən? Mən də ancaq burdan xilas olmağa səfərbər olduğumdan nə ona cavab verdim, nə də cavab qınağı etdim. Bir burdan çıxa bilək. Hara getdiyimizi də bilmirik. Düz, ya səhv getdiyimizi də... Birdən yaxında gur işıq göründü. Özümüzü ora yetirəndə buranın bir profiloktoriya və içərisinin də kişi xeylağı ilə dolu olduğunu görəndə halımızı təsəvvür edin. Özümü toplayıb məndən də böyük birindən:

«Oğlum, «Gilavar»a necə getmək olar?», – deyə xəbər aldım. Bu mənim özümü qorumaq üçün etdiyim psixoloji atakım idi. Maşının kapotu ilə əlləşən cavan bir oğlan qabağa düşüb yolu başa saldı. Sən demə, sağ-solu çaşdırdığımızdan bu qədər dövrə vurmalı olmuşuq. Bir az da irəliləyəndən sonra tam işıqlığa çıxdıq. Və mən «ORMAN» yazılmış lövhəni görəndə «Fam, mən buranı tanıyıram, qorxma», – deyib rəfiqəmi də sakitləşdirdim. «Orman» bizim tez-tez gəldiyimiz, şöbəmizin bütün tədbirlərini keçirdiyimiz sevimli məkanımız idi. Familə: «Kimi isə gördün?» – soruşanda mən doğrudan da müdirimiz daxil bütün əməkdaşlarımızı görmüş kimiydim.

Biz zala daxil olanda artıq toy marşı çalınmış, Himeney öz işini qurtarmış, bəy-gəlini «ər-arvad» elan etmişdi. Camaat oynayırdı. Şərtləşdik ki, bu macəramızı heç kimə danışmayaq, necə olmasa, yekə qadınlarıq, ayıbdır.

Görürsüz də, danışmıram... Söz saxlaya bilməmək moveton sayılır. Mən ümumiyyətlə, başqasının gizlinini gözəl qoruyuram, necə deyərlər, «məzar!» Daşdan söz çıxar, məndən yox! Qoy bir az özümü tərifləyim, dilim var, ağzım yoxdur. Öz sirrimi isə saxlaya bilmirəm...

Bağışla da, Fam...

## KORONANIN QIRMIZI LENTİNİ KƏSDİK

*Baharda karantin dastanı qədər*
*Yoxdur bu dünyada yanıqlı əsər.*
*(«Romeo və Cülyetta»ya parodiya)*

Novruz tətilinə buraxıldığımızı düşünürdük. Bir həftə tez... Lap yaxşı! Tətilə iki dolu həftə əlavəni kim istəməz? Hər deyəndə... yoox... Hər deyəndə nədir? Belə fürsət əlimizə birinci dəfə idi düşürdü (düşməz olaydı), yəqin ki, həm də axırıncı dəfə! Hər halda onda elə düşünürdük. İpin ucu hələ ki, əlimizdə idi. Ən geci aprelin birində qayıdacağımızdan əmin idik. Həyatımızın davamlı pauza rejiminə qoyulacağı, bu rejimin aylarla uzanıb dünyayla bir koronovirus tətillərinə çevriləcəyi mart ayında heç kimin ağlına gəlmirdi...

Mənim sevimli 5-ci günüm... Bütün həftəni onunla görüşə tələsirəm. O da, məni peşman etmir, gecikmir, vaxtında gəlir. Sayəsində iki gün dincəlir, bazar ertəsinə enerji yığıram. İstirahət günlərinin üstünə bir də bayramı, üstəgəl Novruz tətilini gəl... Bayramın aurası hələ ki, gözəgörünməyən xəstəliyi yaxın radiusuna buraxmırdı... Hələ isə bayram keçirirdik. «Qışdan çıxdıq, yaza min bərəkət», – deyirdik. Martın iyirmisi süfrəmi bəzəyib uşaqları gözləyirdim. Bacılarım da gələcəkdi. Qapının zəngi çalındı. İlk təşrif gətirən oğlumun ailəsi idi. Mən dəhlizdə Vaqiflə, Aytacla salamlaşıb üst geyimlərini yerbəyer edənə qədər Dilarə çoxdan otağa keçmişdi. İçəri girəndə gördüyüm

mənzərədən şoka düşdüm, süfrəmdən sağ-islahat qalmamışdı. Qoz-fındıq süfrəyə və yerə dağılmış, şamlar qırılmış, səməninin lenti açılıb yerdəyişməyə məruz qalmış, bir sözlə – süfrədə nə var, alt-üst olmuşdu. Sanki «bijuteriya dükanına fil girmişdi». Hər şeyi başa düşürəm və düşdüm də... Hiperaktiv uşaq... Bolluğa da düşüb. Bilməyib nəyə əl atsın... Zatən atası da elə idi. Hətta tələbə vaxtı şam yandıran kimi üstünə konfet kağızı, fındıq qabığı atıb xonçada «tonqal» qalayırdı. Acıqlananda da deyirdi ki, atəşpərəstlikdəndi... Ancaq vazadakı bükük boynu yanına düşən bənövşələrə, didilmiş nərgizlərə, ütülmuş mimozalara, qırılmış qızılgüllərə baxanda az qaldı ürəyim dayansın. Axı bu «feyerverk»i nə vaxt partlatdı? Qoy «maşallah» deyim, qız elə bil sensorla idarə olunur, yaxınlaşmağı kifayətdir... Uşaq da gülə tamah salar? Bu güllərin bir hissəsi 8 martdan qalmışdı. Hər gün suyunu dəyişib, gecə eyvana, gündüz evə gətirməklə saxlamışdım onları... O vaxt elə qəzəblənmişdim ki, heç ağlaya da bilmirdim...

Dilarə rəssamdır, evdə rəssam isə əsl hadisədir, hər yeri yazır. İstedadlı insanların qəribəlikləri də olur... (Özümə bununla təskinlik verirəm). A4 formatda möcüzələr yaradır. Adını tələffüz edə bilmədiyim dahi deyib ki, uşağın gözlərində dünyanın 7 möcüzəsi yoxdur. 7 milyon möcüzəsi var... Özü də Delya hazır əsəri qəlibləmir, naturadan çəkir, ya da, fantaziyasını işə salır. Gördüklərindən çox, duyduqlarını çəkir. Xüsusilə, içəri ilə bayırın kontrastını gözəl verir. Məsələn, uşaq pəncərədən küləyin əydiyi ağaclara, yağışın islatdığı adamlara baxır... Elə təsvir edir

ki, soyuqdan qaçıb həmin isti otaqda gizlənmək istəyirsən. Gözünün qabağında işləməsə, inanmazsan ki, bu rəsm 9 yaşlı uşağın əlindən çıxıb. Rənglərdən yeni çalarlar düzəldir. «İsti» ilə «soyuğu» qarışdırır. Rəng – hissdir, duyğudur. Yüngül bir toxunuşla boyadan kağıza düşən «ləkə» qönçə gülə çevrilir. Fırçadan düşən damcının yaratdığı dərinliyə mat qalırsan. (Bu cümləni yazarkən düşündüm ki, nə qədər proqres, innovasiya desək də, elə şeylər var ki, «klassika»sız keçinmək olmur. Məsələn, şəxsən mən deyirəm ki, nə kağız lazımımdı, nə qələm. Kompda yazıram. Bloknot da telefondadır. Yaxşı, bəs kağız-qələmsiz necə çəkmək olar?) Portreti arxadan işləməyi sevir. İşə baxdıqca personajın anfasını xəyal edirsən, onu tamaşaçıya buraxır. Pikasso deyirdi ki, uşaq kimi çəkmək üçün bir ömür xərclədim. Məncə, bəzi məşhur «izm»lər istedadsızlığı ört-basdır etmək üçün düşünülüb. Nə gəldi, necə gəldi çəkmək üçün.

Novruz ötdü, 1 aprel zarafatları da üzvü şəkildə karantinlə bağlı keçdi. Gülüş günündə baş verən bir söhbəti də edim, düzdü, karantinə dəxli yoxdu, amma ha tərəfə fırlatsan, adamın dodağı qaçır...

Xalamın əri rəhmətə getmişdi, böyük qızı da Almaniyada yaşayır. Kişini dəfn-kəfn edəndən sonra (onsuz da yollar bağlıdır) yoldaşına xəbər elədik ki, sən Allah, münasib bir vaxtda özün deyərsən. Necəsə, aprelin biri zəng vurmaq istədim... İndi ehtiyatla kürəkənimizdən soruşuram:

– Nə oldu, deyə bildin?

– Aaaaa, doğrudan, Vəfa, atan ölüb!

Mənim şokum bununla qurtarmadı... Vəfa vecinə də almır, ərindən belə «eşek şakası» çox gördüyü üçün 1 aprel zarafatı zənn edir...

«Yeməlimi, geyməlimi» olduğunu bilmədiyimiz qədər məlumatsız olduğumuz «koronavirus» mətbəxlərdə ən müzakirə olunan mövzu oldu, mən də xalqa qoşulub onu bir həftə doladım. (Əylənməklə qalib gələcəyimi düşündüm). Camaat zarafat edirdi ki, nə yaxşı axirət günündən şam, konserv «zapas» qalıb... Emosional dalğa səngimək bilmir, acı reallığa yaxınlaşmağa qoymurdu. Xəstəlik onun kölgəsində qalmışdı. İnternet ruzigarı fırtına edirdi… Mövzu ilə əlaqədar hər şey xatırlanırdı, kim daha çox orijinallıq edər... Məşhur filmin məşhur mahnısı hamının yadına düşmüşdü, Yeni il bayramı arxada qalsa da:

*Мне нравится, что вы больны не мной,*
*Мне нравится, что я больна не Вами…*
*(Nə yaxşı mübtəla deyisiz mənə,*
*Nə yaxşı mübtəla deyiləm Sizə...)*

Telefonum bir dəqiqə susmur, gülməli memlərin hamısına baxmağa macal tapmırdım, o ki, qaldı cavablamaq. Korona ilə bağlı ciddi xəbərləri, lağlağı videoları telefonumun yaddaşından silib təmizləmək zaman istəyirdi, bir çarxı on adam göndərirdi. Bir postu oxuyursan, uğunub gedirsən, ikincisini oxuyursan, oturub ağlayırsan. Çoxdan unudulmuş ev telefonları da işə düşmüş, səsləri çıxmağa başlamışdı. O vaxt düşünürdük ki, yəqin dünya indiyə qə-

dər belə «şən» epidemiya görməyib. O iş yaxşı sayılır ki, yaxşı başa çatır... Söz son gülənin olsa da, əfsus ki, son gülən biz olmadıq. İnformasiya müharibəsinin fonunda «üçüncü dünya müharibəsi»nin başlandığını isə görmürdük. Pandemiya adlanan «valsla» uzun-uzadı, başımız gicəllənənə qədər fırlanacağımızdan, koronanın ilini «qırılha-qırılla» verəcəyimizdən də təbii ki, xəbərsiz idik…

Xəstəlik kəskin-ağır inkişaf fazasına qədəm qoydu. Karantin öz qanunlarını diqtə etməyə başladı. Guşənişinlik başladı. Yazın ənənəvi «xandra»sı da bir tərəfdən... Aprel-may lokdaununda prinsipial olaraq inzivaya çəkilib evdən çıxmadım, qapını dünyanın üzünə bağladım, özümü yazı-pozuya verdim. Sövqi-təbii düşdüyümüz bu «turbulens»in davamlı olacağını düşünərək özümə «gün ağlamağa» başladım. Özümə əl qatıb mənzilimi yığışdırıb-təmizlədim, hər şeyi çəkib altını sildim. Baqqaliyyə tədarükü gördüm. «Evdəqal»ın öz şərtləri var, rahatlığın, kifayət qədər ərzaq ehtiyatın olmalıdır. Psixoloji gərginliyin üstünə məişət diskomfortu da gəlsə, tab gətirmək olmaz. Azərbaycansayağı karantin. Bütün günü «Alisa möcüzələr diyarında» nağılının Vll fəsli idi. 5 çayı... Fayf oklok... Daha saata nəzarət etmirdik, o bizə lazım deyildi. Müdriklər «saatı qaçırsanız, ili tuta bilməyəcəksiniz», – deyirdilər. Sanki bu gün üçün deyilmişdi. (Qos-qoca ili bada verdik). Xoşbəxtlərin saatı olmur... «Xoşbəxt» olmuşduq. Vaxtımızı çay içməklə öldürürdük. Təbii ki, çayı da yavan içmirdik. «Kuxna» çökürdü. Bütün Azərbaycan mətbəxdə idi. Bunun altını sonra çəkəcəkdik. Paltarlarımız əynimizə dar

gələndə. Yazda təbiət bir kənara dursun, qəlblərin də gül açan vaxtıdır, bizi isə evə tikmişdilər. Baharda bahar həsrəti çəkirdik. «Dənizin sahilində durub dəniz həsrəti» çəkən kimi. Pəncərəmdən görünən bir parça təbiəti həsrətlə süzüb öz-özümə məcnunvari «get, get sən o bahar deyilsən, yalançı, saxta bir şeysən», – deyirdim. İndi nə var-nə var, bir nəfərin mədəsi ondan yuxarıdır deyə, bir planet adam gün işığına pəncərədən baxmalıdır... Sonra da deyirlər tək əldən səs çıxmaz.

Özümə «bəh-bəh»lə aldığım yeni geyimlərimə baxa-baxa qaldım... Bahardan da, «yeni sezon» qarderobumdan da əlimi üzüb evin içində özümə yeni dünya qurdum. Bir dəfə də olsun, «sms-icazə» hüququmdan istifadə etmədim. Baharı pəncərədən sevdim. Bununla, öz aləmimdə guya müstəqilliyimi qoruyur, küçəyə çıxma qadağasına üsyan edirdim. Əlbəttə, güclü ehtiyacım olsaydı, məcbur qalacaqdım... Amma olmadı... Hamıdan uzaqlaşıb, radarlardan silinib, «narahat etməyin» düyməsini basıb məhrəmiyyətimə çəkildim. İ.Brodskinin bir şeirini xatırladım. Günümüzü bu şeirin dramaturji xətti qədər heç nə izləmirdi...

*Axmaq olma!*
*Başqaları edəni etmə.*
*Otaqdan çıxma...*
*Mebellə, divar kağızı ilə bütünləş.*
*Qıfıllan və şkafı səngər edib kosmosdan, erosdan,*
*virusdan qorun!*

Moral son sətirdədi. Ardı corab söküyü kimi getdi... Günlərim get-gedə maraqsızlaşmağa, romantikadan uzaq düşməyə başladı. Ancaq «indi»miz var idi. Sabahdan heç nə gözləmirdik. O gəlməyə də bilərdi. Ümidsizlik verən də bu idi. Dörd divar arasına sığmayan həyatım mənə dar gəlir, özümü sevindirmək üçün yollar arayırdım. Şah tənbəli, yox, Qonçarovun tənbəli İlya Oblomov, onun yataqda uzanıb «həyat poeziyadır» deməyi tez-tez yadıma düşürdü... «O evdə olanda… O həmişə evdə olurdu». Hamımız avaraçılıq, yeknəsəklik simvolu kimi tanıdığımız Oblomovun gününə düşmüşdük. Müəllif qeyd edirdi ki, bekarçılıq adamı dibinə vaxtaşırı tökülən su ilə kifayətlənəcək bostan bitkisinə döndərir. Mənim F.Nisşedən tez-tez gətirdiyim bir plakat sitatım var: «Şəxsən özünə 2-3 gün ayıra bilməyən adam rahat qul hesab edilə bilər». Buyur, Dilarə, yetirdi Pərvərdigar. Bütün günlər sənin. Düşüncənin gücünə bax. Bəs niyə bundan xoşbəxt deyiləm? Hər şey qədərində. «Artıq içiləndə dad verir su da!» Aynur da, «mama, ailəmizin toy kassetlərinə baxıb qurtardıq, indi qohum-əqrabanınkına keçmişik», – deyə yarızarafat gileylənirdi... Əsas problem uşaqların asudə vaxtını təşkil etmək idi. Qızım bu işin öhdəsindən belə gəldi: «Nə edirsiz edin, mənə «darıxıram» deməyin. Özünü məşğul etməyəni şeytan işğal edər». Əlbəttə, qoy indidən özlərini «təmin etməyi» öyrənsinlər. O ki, qaldı mənə, darıxmaq kimi bir «lüksüm» yox. Deyirlər darıxmaq xoşbəxtlərin bədbəxtliyidir. Kökündən səhv düşüncədir. Diabetin «varlıların xəstəliyi» olduğu kimi. Ya da, «хорошего человека

должно быть много» təsəllisi kimi. Əgər sənə özünlə maraqlıdırsa, başqalarına da səninlə maraqlı olacaq.

Canlı ünsiyyətsiz qalmışdıq, doğmalarla ünsiyyət fizika, mənfi-müsbət, cəzbetmə sahəsi deyil axı, ondan da artıqdır... Daxili ehtiyacdır, canlı təmasdır, bağlılıqdır, ailə bağlarıdır, nigarançılıqdır.

«Dünyadan ziyadə kafasının içində yaşayan bir insan kimi» 2 ay divanda yaşadım və yazdım. Sakitlikdə, kompüterimlə tet-a-tet... Danışmağa adam olmadığı üçün öz atmosferimə qərq olub qüvvət verdim klaviaturaya! Televizor da özü üçün astadan «mızıldanırdı». Bir filmə 3 dəfəyə baxırdım. Bir dəfə əvvəlinə, gələn dəfə ortasına, axırda da sonuna. Yaxşı ki, indi filmlər təkrar-təkrar fırlanır. Bəzən texnika bezib müqavimət göstərəndə üzbəüzdəki aytişnik qonşumu köməyə çağırırdım. O da hamı kimi evdən işlədiyi üçün həmişə əlçatan olurdu. Deyirlər yazmaq üçün insana Tanrı tərəfindən «ün» gəlir, yəni səda. Divanın bir tərəfi deformasiya oldu, amma... əvəzində kitabım qazandı! Türk tarixçi professoru İlbər Ortaylının «65 üzəri» olanlara verdiyi məsləhətindən mən də yararlandım. Risk qrupunda olduqlarına görə Operativ Qərargah tərəfindən hərəkəti məhdudlaşdırılan şəxslərə motivasiya verərək çörək pulu üçün yox, iş kimi deyil, sadəcə darıxmamaq üçün – «gündəlik tutun, hisslərinizi kağıza töküb rahatlayın, amma evdə qalın, bu işin zarafatı yox», – deyə etdiyi müraciəti məni düz yolda olduğuma inandırdı və ruhlandırdı. (Pandemiya tarix yazırdı. Tarix də gələcəkdə çəkiləcək filmlərin ssenarisini. Qorxutmuram, Çexov da «6

nömrəli palata»nı pandemiyada yazmışdı. İnsan daim özü üçün nə isə kəşf etməli, açmalıdır. «Heç nə tapmasan, yeni mürəbbə bankası». Heç olmasa, fərqli ağız dadı qazanırsan). Axşamlarımı mənalı keçirtməyə kömək, potensialımı üzə çıxarmağa təkan oldu. Başa düşdüm ki, insan özü-özünü yetişdirir, yaradır. Vacib deyil ki, şedevr yaradasan. Bədiilik əsərin «duzu-istiotu» olsa da, estetik nöqteyi-nəzərdən axsayan elə əsərlər var ki, məzmununa görə sevilib, müəllifini məşhurlaşdırıb. Əgər yazmağı sevirsənsə – həvəskarsan, yox, əgər yazmadan yaşaya bilmirsənsə, bu artıq böyük daxili təlabatdan xəbər verir. Romanın işi asandır, o mənada ki, düz şosse ilə gedirsən. Nəzmin yolu isə dağ serpantinindən keçir. Yenə də, seçim sənindir. O qədər aludə olmuşdum ki, bütün işlərimi dondurmuşdum. Saçımı yumağa həsr edəcəyim vaxta heyfim gəlirdi. (Karantinin içində. Bütün günü evdə... Məşhur şair-yazıçı xanımların yağlı saç-başla gəzmələri yadıma düşdü. Qınama ki, qınanmayasan). Nəzmi sevirsən, nizamla yaz. Yox, əgər prozanı sevirsənsə, onun kiçik forması – «ovuc içi boyda hekayə» də yaza bilərsən. Lap hayku yaz. Bitmiş fikirli iki-üç sətir. Əsası da odur ki, bütün istədiklərini çatdıra biləsən. Yazmaq çətin deyil, düşündüyünü yazmaq çətindir. Aydın düşünürsənsə, aydın da ifadə edirsən. Onsuz da, hər kəs – nə vaxtsa, hardasa «yazıçılıq»la məşğul olur. Məktəbdə inşa yazırıq? Sərbəst mövzu birbaşa yaradıcılıq əlamətdir... Məktub necə? Gündəlik tuturuq? Doğrudan da, yazı-pozu dünyanın ən rahatladan peşəsi imiş. Yazanda səni heç kim görmür, daha sərbəst olursan. Mən

çox utancaq adamlar tanıyıram ki, danışanda adamın üzünə baxa bilmir, yazanda isə açılır, əlinə qələm aldı, şiri-pələngə dönür. İnsan yazı prosesində həyəcanlanmır, fikirlərini daha düzgün ifadə edir. Bu səbəbdəndir ki, uşaqlar epistolyar janra çox müraciət edir, evin içində analarına məktub yazır, şəkil çəkib göz qabağına qoyurlar. Xüsusən, bir qələt qarışdırıb barışmaq istəyəndə.

Simenon deyir ki, 40-dan sonra yazıçının sözü qurtarır... İcazə verin, etiraz edim, müsyö Jorj. Əvvəla, burada standart resept yoxdur, insan bağlı boxçadır, düyün nə vaxt açıldı... Sonra da... Düşünürəm ki, yaşlı insana yazmağa həyat təcrübəsi, illərin gətirdiyi müdriklik kömək edir. O kəs yaxşı yazır ki, yaxşı düşünə bilir. Əlinə qələm alan yazacaqlarını dəfələrlə beynində yazıb. Materialın qaralaması oradadır. Hər dəfə kimə isə danışanda, bölüşəndə də üzünü köçürmüş kimi olur. Belə-belə, təkrar-təkrar «köçürüldükcə» avtoqraf təkmilləşir, mükəmməlləşir. Öz yaradıcılığını əlində tutmaq gözəl bir hiss. İnsanı xoşbəxt edir. Bunun zövqünü ancaq yaşayan bilər. «Qələm ömürdü, ömür də qələm». Yaradıcılığının mükəmməl, məhsuldar dövrü kamillik yaşına təsadüf edən nə qədər tanınmış adamın və əsərin adını çəkmək olar. Bəxtiyar Vahabzadə filologiya fakültəsində bizə deyirdi ki, mən gənclikdə yazdığım bir çox şeirlər üçün indi yumşaq desəm, utanıram. Bu da, əlbəttə, şairin həm səmimiyyətindən, həm də, böyüklüyündən irəli gəlirdi. Əslində, müəllif və əsərləri bir-birini tamamlayır, yazıçı əsəri yazır, özü də, əsərbəəsər cilalanır.

Getdikcə, bu vəziyyətə öyrəşdim. Yaxın perspektivin ürəkaçan olmadığını anlayıb, «sirkə nə qədər tünd olsa, öz qabını çatladar» misalı ilə barışmaqdan başqa çarəm qalmadı. Situasiyanın başını buraxıb özümdən əl çəkdim. Həm də gördüm ki, xoşbəxtlik hormonum – serotonin tükənmək üzrədir, feliçitam «şüşənin dibində» qalıb. Eviçi karantini yumşaltdım, kandara üstünə «welcome» yazılmış bir xalça atıb qapılarımı açdım. Uşaqlarım, nəvələrim başıma yığışdı. 3 nəvəmin ad günü lokdaun rejiminə düşsə də, ailədaxili qeyd etdik. Dilarə «qoç», gün fərqi ilə doğulan Cəmilə və Nəzrin isə «buğa»dır. Məmməd müəllim onlara «nisan qızları» deyirdi. Əgər ölçüb-biçmək, ya sifariş vermək mümkün olsaydı, çətin ki, belə eksklyuziv alınardı. 22-23 aprel... Gör a! Aprelin «vətəni» qədim Romadır, «günəşli», «çiçək açan» mənalarını verir ki, mənim qızlarıma tam uyğundur. «İnsanlığın başına gələn ən möhtəşəm ay aprel ayıdır» deyəni tanımasam da, fikri ilə yüzdə-yüz razıyam. 23 nisan həm də Atadan (Mustafa Kamal) cocuq günü kimi ərməğandır. «Bu gün 23 nisan, həp nəşəylə doluyor insan…» Baxmayaraq ki, 2016-cı ilin aprelindən sonra hər bir azərbaycanlı üçün bu günəşli, çiçək açan ay 4 günlük müharibə ilə də xatırlanır... Nə edək, «xeyirlə şər qardaşdır», – deyiblər. Mən onları heç nəvə bilmirəm, elə «qızlarım» deyirəm. Cem anadan olanda 44 yaşım var idi, bu gündən baxanda cavan qız idim... Ona silsilə şeirlər həsr etmişdim. Poeziya mənim janrım olmasa da, erkən nənəlik ilham vermişdi, indi istəsəm də yaza bilmərəm. Cem abituriyentdi, gecə-gündüz oxuyur. Ad gü-

nündə özünə hədiyyə seçmişdi: «KFC»dən 100 AZN-lik menyü sifariş verirsiz və bir günlük evdən çıxıb gedirsiz. Bütün günü divanda uzanıb «AyKarli»yə baxa-baxa yeyəcəyəm». Bununla da, bir günlük dietanı unutmaq, imtahan həyəcanını atmaq, dincəlmək istəyir.

Yanımda çox olublar, çox baxmışam onlara... Uşağın inkişafında, həyatında nənənin rolu böyükdür, danılmazdır. Adətən, valideynlərin gözü «xalxın uşağı»nda olsa da, uşaqların da gizlin arzusu yoldaşlarının valideynləri olur. Təkcə nənə özününkü! Hər kəsin öz nənəsi! Bəzən yeni nəsildən eşidirsən ki, nəvə ilə görüş nənə üçün bayram olmalıdır. Gec-gec görüşməkdən.... Daha o nə nənə-bala münasibəti oldu? Qiyabi, fraqmentar... Yalvar-yaxarla yedirtmədən, həyətdə dalınca qaçmadan, nənə təri tökmədən... Elə nənə də tanıyıram ki, nəvəsi ilə ehtiyatla danışır, yeri düşəndə yüngülvari məzəmmət də edə bilmir. Haqqı çatmır. Əlbəttə, o haqqı qazanmaq lazımdır, havayıdan heç nə olmur. Mən indinin özündə də yuxuya gedə bilməyəndə qalxıb otururam və dərhal da yuxu məni basır. Uşaqların balacalığından qalıb, səhərə qədər onları ayağımın üstündə tərpətmişəm. Hərdən danışıram, xoşlarına gəlir. Özüm böyütmüşəm, hər işləri mənimlədi, xatirələri də. Balaca vaxtı mağazaya girəndə evdəki kimi qapının ağzında ayaqqabılarını çıxardırdılar... Mənfur pandemiyanın həyatımızda olmadığı ötənlərdə İstanbulda gəzib yorulmuşduq, qızım mağazada ləngidiyi üçün «burda bizi kim tanıyır?» – deyib qızlarla səkinin qırağında əyləşdim. Nazi dərhal vəziyyətə uyğun olaraq əlini açıb qabağa

uzatdı: «Podayte, mister, podayte mem...» Cem də ona qoşuldu. Mən də onlardan geri qalmayıb əlimi açdım. (Balacaların sərhəd tanımamaları, daxili azadlığı mənə ləzzət edir. Böyüdükcə cəsarətsiz oluruq, yerli-yersiz hər şeydən utanır, tərəddüd edirik). İndi «drujno» dilənirik. Əlimizdə də bazarlıqlarımız... Yoldan keçənlər də bizə baxıb gülür, hamımız da əylənirdik. Ayka mağazadan çıxıb dəli oldu: «Çto za balaqan?»

Bir yay da ata-anaları onları mənə əmanət edib səyahətə yollanmışdı. Şəkidə idik. Mingəçevir də Şəkiyə ən yaxın şəhərdir, bir gün onları da götürüb tanış sürücünün maşını ilə «Nur şəhəri»nə səfər elədim. Çox sevirəm oranı, Kür, bulvar, su taksiləri, kanat, sahil boyu otellər, «Qrebnaya baza»... Kürdə həm gəmi gəzintisi var, həm qayıq. Özü də bilirsiz necə qayıq? Motorlu, üzməkdən çox uçur. Skuter maraqlı gəldi... Hardasa, bir yarım saat Kürdə gəzdik. O baş, bu baş, körpüdən xeyli aralandıq. Başım şəkil çəkməyə qarışdığından, vəziyyətin nə qədər təhlükəli olduğunun fərqinə varmamışdım. Körpə uşaqlar... Onların nə şəkisi var ki? Allah göstərməsin, bir fövri hərəkət... Qayığın sürəti... Şükür, sağ-salamat sahilə çıxdıq, insafən, Kürboyu gözəl də gəzdik... Sonra Salyanda söz açılanda mənə dedilər ki, çayın ortasında qayıq çevrilsə, on nəfər varsa, onu da batır. Gecikmiş tarix çox qorxdum, tövbə etdim, qızımdan da gizlətdim...

Bu fərqli bacıları bir-birindən artıq sevirəm. Onlar mənə stimul verir, həyatımı gözəlləşdirirlər. Hərəsinin öz üstünlüyü, öz özəlliyi-gözəlliyi var. Hər birində də məndən

nəsə. Cəmilə təbəssümü, Dilarə maneraları ilə mənə özümü xatırladır, hətta, o dərəcədə ki, bəzən elə bilirəm güzgüyə baxıram. Nəzrinin isə xatirələrində yaşayacağımı düşünürəm. Onunla daha yaxınam, bu arzu-düşüncə qəlbimi isidir.

– Sən öz nəvələrinə məndən danışacaqsan?

– Özün danışarsan...

Qısa, konkret, mənalı!

Balaca olanda onu heç cür məşğul edə bilmirdim... Elə deyirdi gəl mənimlə oyna... Heç nəyi atmırdım, nəyinsə qutusunu və s. Saxlayırdım ki, kritik vəziyyətdə tərifləyib təqdim edim. İndi bu biri balacaların əlinə verməyə bir şey tapmıram, hər şeyin axırına çıxıb. Uşaq axı oyuncaqla oynamır... Onunku dominodur, şahmatdır, şaşkidir, kassetdir... Yerə töküb çıxıb getsin... Bir dəfə səbrimin tükənən, özümün yorğun vaxtımda bir qutu nakleykanı verdim ona ki, qapıya yapışdırsın. Doğrudan da başı qarışdı. Hardasa… 2 saat dincəldim. Ertəsi günü isə qonşu qıza 20 manat verib qapını təmizlətdim. Qopmurdu. Səliqə ilə, isladıb iz qoymadan sökdü. 4 saata! Danışıram ona, uğunub gedir. Nəzrin hündür, uzun saçlı, Avropa düşüncəli, innovasiyaya meyilli bir qızdır. Çox rahatca «psina» deyib küçə itini sığallaya bilər, nə qorxar, nə də iyrənər. Bir dəfə kafedə trapezasını tamamlamamış qara-göy dərili, saçı-başı Meduza Qorqonaya oxşayan qızın masasına oturmağa hazırlaşanda ona mane olmaq istədim. Yəni, qoy masanı yığışdırsınlar, sonra… Dərhal da, «tı çto, rasistka? O da bizim kimi adamdı. Osvobodis ot stereotipov» qınağı ilə qarşı-

laşdım. Feministdi, prosesləri izləyir, hüquqlarımı mənə başa salır. Məktəb parlamentinin spikeri seçilib. Deyir, platformamı elan etdim ki, assosial şagirdləri sosiallaşdıracağam. Bəyənildi, keçdim... 8 martda sinif yoldaşı ona bayram mesalı göndərib, orada məni də qeyd edib. Deyirəm, «Naz, o məni hardan tanıyır?» Deyir: «Mən danışmışam... Məni tanıyan səni də tanıyır». Əlbəttə ki, onun bu sözündən çox sevindim, çox da təsirləndim. Cəmilə də deyir ki, sağol e, mənim özümü yada salan yoxdur, bunun nənəsini də təbrik edirlər…

Dilarə... Anam sağ olsaydı, deyərdi ki, elə bil ad qəhətliyidir, bir evdə iki adama eyni ad... Mən Adilovayam, o Adilgil. Elə kitabımın üstündəki ad-soyad da onunkudur. Bizdə «gil» artırma geniş yayılmayıb, ona görə çox yerdə «necə?» deyə təkrar soruşurlar. Biz də deyirik: «Adil yaz», sonra hərfləyirik :«g»,«i», «l»… İndi bir az utanır. Bilirəm ki, böyüyəndən sonra xoşuna gələcək. Başa salıram ki, Azərbaycanda ikimizdən başqa «Dilarə Adilgil» yoxdur. Belə orijinal ad-soyad da! Elə təxəllüs kimi də, cilvəli, yaddaqalandır.

Dilarə çox dəcəldir. Bir dəfə tanışımızın bağına getmişdik, həyətdə böyük məclis qurulmuşdu, adam da çox idi. Delya da baş qarışıqlığından istifadə edib bir tərəfdə qoyulmuş sement çəlləyini əlinə keçənlə doldurmağa başladı. Mane olmaq istəyəndə ev sahibi nəzakətlə «eybi yox, uşaqdı da, nə qədər oynayacaq ki? Qoy gözünün qurdunu öldürsün» – dedi. «Sən hələ Nərgiz xalanı yaxşı tanımırsan!» Düz 6 saat çəlləkdən aralanmadı… Non-stop! Ye-

məyini də anası ona «iş başında» yedirtdi. Ritmi belədir, temperamenti aşıb-daşır. Birdən dolub daşan çəlləyə gözü sataşan ev sahibi «Ay Allah, mən sabah ustalara nə cavab verəcəyəm», – deyə dəhşətə gəldi. Buradan nələr çıxmadı? Yolunan gül-çiçəkdən, süfrədən daşıdığı təamlardan tutmuş qonaqların ayaqqabılarına, gözünə xoş və ya naxoş gələn hər əşyaya qədər... Qoçdur axı, bürcünün xüsusiyyətidir... Amma gözəldir də! Bunu bilir və qürurlanır. Soruşanda ki, «sən niyə belə gözəlsən?» Gözlərini süzüb «belə doğulmuşam», – deyir.

Pandemiyadan danışırdım...

Alt mərtəbədəki qonşularımın gündən-günə artan və evin divarlarını aşan dava-dalaşına qulaq asa-asa romanımı bitirdim.

Azərbaycan dilinin zəngin idiomatik ifadələrini alt mərtəbədən günü-gündən daha ucadan eşitdikcə inana bilmirdim ki, bu karantindən qabaq «can deyib, can eşidən» həmin mədəni ailədir. (Şkaflardan skeletlər tökülməyə başlamışdı). Düzdür, arada qısqanclıq zəminində qonşulara «konsert» versələr də, (məsələn, kişi evə 6-da yox, 7-də gələndə qapının ağzında onu uşaqlar yox, içindən noski, köynək sallanan çemodan, əlində sənədləri hazır tutan xanımı qarşılayırdı), ümumilikdə hər şey qaydasında idi… Bütün günü 3 uşaqla bərabər qapalı, göz-gözə qalmaq yavaş-yavaş öz təsirini göstərirdi. (Mən uşaqlara balaca «covidlər», «karantinşiklər» deyirdim). Hormonlar hormoniyadan çıxmışdı. İşsiz-gücsüz, havasız, ailə üzvləri ilə fasiləsiz bir yerdə olmaq əksər cütlüklər üçün işgəncə-

yə çevrilmiş, evdaxili vətəndaş müharibəsi başlamışdı. Kritik vəziyyətdə hər kəsin «ilməsi qaçır». Mənim qonşularım valideynlərinin köməyi ilə bu sınaqdan çıxdılar. (Hər ikisinin anası konfliktin müsbət qütbündə dayanmaqla ailənin həyatında yaxından iştirak edirdi. Evdə sülh planetar sülhün qarantıdır, həmrəylik kiçik «dövlət»dən başlayır). Amma ilin sonunda rəsmi statistika belə qorxulu açıqlama verəcəkdi: «2020-ci ildə Azərbaycanda 13439 boşanma hadisəsi qeydə alınmışdır». Dünyanı bu bəlaya salan Çin də kənarda qalmamış, necə deyərlər, hər «5 ailədən 3 ayrılma» göstəricisi ilə ümumdünya boşanma marafonuna qoşularaq «quyu qazan özü düşər» atalar misalını bir daha gündəmə gətirmişdi.

Mənim aprel «tezislərim» bu qədər. Ardınca ilin «cüməsi» – may gəldi... Kainat gül açdı. Birinci dalğa bitib hər yer açılandan sonra elə bilirdik ki, artıq karantin dediyimiz dəhşət keçmişdə qaldı. «Mən hər ildə bir mayısa pək çox ümidlər bağlaram…» Əhməd Cavad belə deyirdi. Mən də! Qoy mayın nəfəsi hər birimizi canlandırıb özümüzə gətirsin... Lakin... Deyir, sən saydığını say... Lokdaun Avropaya qayıtdı, Amerika bağlandı... May başını itirdi. Total izolyasiya yenidən start götürdü. Acı reallıq başımıza döyməyə başladı ki, çox da rahatlanmayın, virusun bu tezliklə sizdən əl çəkmək fikri yoxdur. Daha etiraz etməyə də taqətimiz qalmamışdı. Günahımız varmış kimi dinməzcə başımızı önümüzə əyib, qollarımızı geniş açıb pandemiyanı qəbul etdik. Biz kim idik ki, «məclis onun məclisi» idi. Bir ay keçmədi, «lağım» daxil, (mərhum Xəlil

Rzanın təbirincə metro) yenə qapandıq, bu dəfə uzunmüddətli. Artıq sonu görünməyən tunelə daxil olduğumuzu idrak etmək üçün Zirəddin Rzayev olmaq lazım deyidi, hər şey gün kimi aydın idi. Tunelin sonunda görünən isə işıq yox, üstümüzə şığıyan qatar idi. Koronavirus sprut kimi yayılmış, qolları hər tərəfə uzanmışdı. Millət taclana-taclana gedirdi... Özü də ailəvi… Seyid Əzim demiş, «bu dərdə saldı bizi dövri-ruzigar, ey dust!»

## SAKASENA, ŞAKAŞEN, YA BİLDİYİMİZ ŞƏKİ…

Bir mövsüm var, yay… «Payız onu xatırlayır, qış onu çağırır, bahar ona həsəd aparır». Heç kim, heç nə onun vecinə deyil… Nə karantin, nə müharibə, nə ölüm-itim. Vaxtı çatdı, özünü yetirəcək. Vədəsindən tez gələ bilər. Gec – heç vaxt! İlin ikinci rübü, karantinin üçüncü ayı idi. Yumşalma intervalından istifadə edib Şəkiyə qaçdıq. Günü ötürsəydik, yayı şəhərdə dörd divar arasında qalmağa məhkum olacaqdıq. Sanki korona «həzrətləri»ndən bir günlük icazə almışdıq. Biz gedəndə Şəkidə karantin yox idi, azadlıq idi. Mən qonaqpərvər şəkililərimi tanıya bilmədim, gəlmələri aqressiv qarşılayırdılar ki, birdən özümüzlə «korona» gətirərik. Qınamaq da olmur. Axı Şəki mərkəzi regionlardan uzaqda – təcrid olunmuş bir ərazidə yerləşir… Haradasa, bir həftə sonra başladı. Söz yenidən korona virusa verildi… Bu da pik nöqtə deyildi…

Şəkidə nə karantin? Qadınları «sms icazə» üçün yoxlamırlar, təqdirəlayiqdir, abır-həya gözlənilir. Balaca şəhərdir, 2 saata iki dəfə dövrə vurmaq olar. Gülməli bir şey danışım. Qonşunu uşağının əlindən tutub gələn gördüm, bərbərxana işləmiş olsaydı, dəlləkdən gələn zənn edəcəkdim. İkisinin də saçı-başı səliqəli, tumarlı idi, parfüm də öz yerində.

– Hə, dəllək evdə qəbul edir...

– Aaaaa, qorxmursuz polis tutar? İcazə yoxdur axı.

– Polis həyətdə oturub öz növbəsini gözləyirdi.

Burda gülməyəsən, neyləyəsən? Mən bu şəhəri sevirəm! Yox, düz demədim, onunla «aşq yaşayıram». Əslində, Şəki nə şəhərdir, nə rayon, nə də qəsəbə. Şəki – həyat tərzidir! Əziz oxucum, qarşıda çox ağlayacaqsan, bir az da gül... «Soyuqbulağ»a qutab yeməyə getmişik. Oranın da təbiətinə, mətbəxinə, xidmətinə söz yoxdur. Bircə yeməkləri çox yağlı hazırlamasalar... Mədənin evini yıxır. Xahiş edirəm ki, yağlı olmasın... Ofisiant «haa? Ha! Baş üstə» deyib getdi. İndi gətirib. Ancaq yağ görünür, qutab yox...

– Bu yağ içində üzür ki?

Adam yaşlı-başlı olmasına baxmayaraq, utancaq təbəssümlə: «Üzməəz... » –dedi. Şəkili kişilərin səsi onsuz da ləhcədən dolayı nazik olur. Bir də vurğunu uzadanda lap incəlir. Heç nə demədim, çarəsiz qalıb mən də gülümsədim... «Üzməz üzməz də... Nətəər məsləhətdi». Eybi yox, 2 dənə «mezim-forte» içərəm. Sadəcə düşündüm ki, görəsən «yağlı eləyin» desəydim nə ilə rastlaşardım?

Şəkinin ictimai iaişəsi barədə daha bir nüans… Kiçik aşxanalarda menyü istəyəndə, rahat «bizdə şifahidi» cavabını ala bilərsən…

Qeyd edim ki, əvvəlki bir həftəni və yol verdiyimiz bir-iki karantin pozuntusunu nəzərə almasaq, haradasa, 2 ayı evdə, həyətdə keçirtdik. Bu birinci dəfə idi... Həmişə Şəkinin və qonşu rayonların bir-birindən gözəl istirahət zonalarına üz tutan bizlər bütün yayı evdə dincəldik, özümüz bişirib, özümüz yedik, həyətdə samovar qoyub qonşuları dəvət etdik, gizlin-gizlin qohum-əqrabanın evinə gedib-gəldik. (Təki bir hərəkət olsun). Və anladım ki, ən gözəl istirahət elə evdə olurmuş. Təki əzizlərin, sevdiklərin yanında olsun. Hər halda, bu mənim indiyə qədər keçirdiyim ən gözəl yay tətilim hesab oluna bilərdi. Öz atmosfer şəraiti ilə yadda qalacaqdı. Bir tərəfdən qab yuyub, o biri tərəfdə kompüterdə işləyirdim. Günümdən razı, istirahətimdən məmnun idim. Elə gedib-gəlib pəncərədən bir-birinə söykənən, arxalı, bütün rəngləri ilə boy verən dağlara tamaşa edirdim… Motivasiya üçün, qəlbimin ehtiyacını ödəmək üçün, gözümü sevindirməkdən ötrü. Al-əlvan donlu. Ətəyində yaydır, ortasında yaz, zirvələrində qış. «Həyatdan rəngi alın, geriyə nə qalır ki?» İldən-ilə onlara da baxış bucağı daralır. Hamı evinin üstünü tikir. Əvvəllər dörd-dövrə görünürdülərsə, indi ancaq bir istiqamətdən baxmaq olur. «Dağlar səmaya qalxan pilləkənlərdir». Onlara baxanda ayağa durmaq, «Siz»lə danışmaq istəyirsən, hətta yaşınmaq, çox yaşlıdırlar axı. Nə isə, fəlsəfə bu qədər… Qızım da çağırır, deyir ildə bir dəfə bir yerdə olu-

ruq, gedək söhbət edək… Deyirəm ki, qızım, mən elə belə baxmıram ki, xəyalən oralarda gəzirəm.

Hərdən də yağış bizi öz sərinliyi ilə xoşbəxt edirdi. İsti günü yağışla başa vurmaqdan arzuolunan nə ola bilər? Özü də, açıq yağışın altında yox, evdə olasan… İstidən lalıxlamış halda payız həsrətilə bir yay axşamı verandada oturub leysana tamaşa edəsən, onun istiqamətini, intensivliyini izləyəsən, vedrə ilə töküləndən sonra, yavaşıdığını, gah düz, gah rəsmlərdəki kimi çəpəki axdığını müşahidə edəsən və bütün bunlardan görünməmiş bir rahatlıq, huzur duyasan. «Yağışda dua daha tez qəbul olunur», – deyə əllərini tanrıya uzadıb niyyətinin yollarını təmizləyirsən.

Bir axşam da Şəkidə yaşayan ən yaşlı xalamızgilə getdim. Uşaqların etirazına baxmayaraq... «Mama, bir ayağın orda, bir ayağın burda...» Çox yaşlı idi axı, risk qrupundaydı. Həm mənim üçün ehtiyat edirdilər, həm də onu qoruyurdular. Mən isə «gələn ilə kim qalar, kim qalmaz» deyib, Allaha sarılaraq hər yay qapısında düşüb qaldığım, hər xırda və böyük məsələdə dadıma yetişən, üstümdə yetərincə haqqı olan Səkinə xalanın darvazasını bu dəfə həmişəki kimi ərklə deyil, ürkək-ürkək döydüm. Özüm də, dəstəm ilə deyil, tək gəlmişdim. Səkinə xala bizim küçənin başında olurdu, «Çöhək məhlə»də... Gün ərzində hara getmiş olsaydıq, evə dönməzdən qabaq mütləq onlara baş çəkməliydik, nəvələrim nəticələri ilə həmyaş idi. Səkinə xala duz-çörəkli qadın idi, kandarından girəni yedirtməmiş buraxmazdı. Bir dəfə onun kələm dolması üçün hazır-

ladığı farşı salat sanmışdım. İçinə o qədər ləvazimat qatmışdı, elə xırda-xırda doğramışdı, özləri demiş, «öydar idi də, öydar». Səkinə xalanın evi, həyəti yenə şəkililərin təbirincə desək, «qaymaq kimi» olardı. Ağ maqnoliya kolları elə ətir saçırdı ki, elə bil «eşiyi» duxu ilə yumuşdular. Zatən nə vaxt getsən, həyat-baca təzə yuyulduğundan yaş olardı. Xalamız əmək veteranı idi, kombinatın yaxşı vaxtlarında rəhbər vəzifədə çalışıb. Deyir, bütün Şəki qızıma verdiyim «maldan» (cehizdən) danışırdı. (Amma həyat yoldaşı heç qədrini bilməmişdi. Hərdən eşidəndə ki, hər şey qadından asılıdır, onu və onun kimiləri düşünüb etiraz edirəm. Qadın daha neyləməlidi ki, kişi ondan razı qalsın? Əslində, bu sualın içində elə cavab da var). Sərt karantinə baxmayaraq Səkinə xalanın həyəti yenə qonaq-qaralı idi, kiçik nəvəsi universitetə qəbul olmuşdu, onu qeyd edirdilər. Uşağı görəndə məəttəl qaldım, onsuz da boylu-buxunlu olan Nicat 2 metri keçmişdi. Onu təbrik edəndə «ay bala, səni harda belə dartıb uzadıblar? Yoxsa hündür boylu olmaq qəbulun şərtidi?» – deyə ona sataşmaqdan özümü saxlaya bilmədim... «Özüm özümü uzatmışam... Həyətimizdəki ağacların hündür budaqlarına hoppana-hoppana bu nəticəni qazandım, bir dəfə əlimi toxundururdum, gələn dəfə şaxı tuturdum... Nə qədər istəsəm boyumu uzada bilərəm». Maşallah, vallah! «Bu prinsipiallıqla, çalışqanlıqla gələcəyin parlaqdır, ay Nicat» – dedim.

İldən artıq görmədiyim əziz insanlara sevindim. Hətta necəsə, hansı yollasa, böyük nəvəsinin rumın qaynanası da orada idi. Xala onunla başa düşürmüş kimi azərbay-

canca danışırdı: «Yelena, səninçün qoğal bişirmişəm, bax, sarı-sarı... Aparıb evində yeyərsən». Səkinə xalagildən çıxanda, hətta, «Bakı vaxtı» ilə belə, xeyli gec idi. Ötürməyə qəti razı olmadım. Burdan bizə üzüaşağı on dəqiqəlik yol idi. Lakin hər dəfə bu yol ilə qayıdanda təəssüflənirdim ki, niyə belə tez çatdım... Küçəmizin axşamını xüsusi sevirdim. Mərkəzi küçələrin abadlaşdırılması və gözəlləşdirilməsi layihəsindən eyni cür düzəldilmiş koloritli alaqapılar, bu qapıların ağzındakı skamyalarda ikibir-üçbir oturmuş yaşlı insanlar, «şamu-qəriban»a batmış «Aftıxalıq» hamamı, Şəki kimi balaca şəhərə yaraşmayan böyük sürətlə üzüaşağı şütüyən Bakı nömrəli maşınlar – mənə necə doğma və əziz gəlirdi. Gecənin hansı saatı olur-olsun, küçəyə çıxmaqdan da qorxmurdum. İnsan öz evində niyə qorxsun ki? Yadıma «Sovetski»də yaşadığım illər düşdü. Çox cavan idim. Anamgildən axşam vaxtı qayıdanda, tək, ya uşaqlarla, elə ki, «1 May» küçəsinə çatardım, elə bilərdim evə çatmışam. Əslində hələ «1 May»ın «Hüsü Hacıyev»lə kəsişdiyi yerdən evə qədər arxa sokaklarla neçə tin yoxuş qalxmalıydım. Bizim küçə də yarıqaranlıq olardı, zəmanə insanlarının qəlbi kimi. 90-ların əvvəli idi. Amma tini burulan kimi rahatlayır, addımlarımı yavaşıdıb arxayınlaşırdım. Qış vaxtı, gec də olsaydı… Nə «səsi batmış küçələr»dən qorxurdum, nə də «fənərləri cilik-cilik» olmuş tinlərdən…Yaxşı ki, gedib xalanı gördüm, uşaqların təzyiqinə baş əymədim. Elə bil üstümdən yük götürüldü…

İstirahətimiz isə davam edirdi. Çoxdan unutduğum televizora da baxmağa başlamışdım, bütün günü işləyirdi. Nə göstərirdilər baxırdıq. Köhnə seriallar (yayda təzə serial çəkilmir) biri digərini əvəz edirdi. Növbəti dəfə «Meqre»yə, yüz neçənci dəfə «Aşkı-memnu»ya tamaşa etdik. Bu yay Bruno Kremerin «Meqre»sini göstərirdilər. Bu variant da xoşuma gəlir, bir az darıxdıcı olsa da. Ümumiyyətlə, fransiz filmlərinə baxanda adamın ürəyi çəkilir. Mənə görə ən yaxşı Meqre Jan Qabendir, ən baxımlı serial isə «Antenne-2» kanalının çəkdiyi. Nəvələrimə illər qabaq, hələ onların dünyada olmadığı vaxtlarda başıma gələn bir hadisəni danışdım... Demək, televizorla «Meqre»yə baxa-baxa ət doğrayıram. Tələsdiyim üçün ətin buzu açılmamış kəsməyə çalışıram... Buz da əlimi yandırır, amma gözüm televizorda, əlim işdədir. Axan qanı da ətinki sanıram. Ağrının şiddətindən ayılanda gördüm ki, bayaqdan əlimi doğrayırammış, keyləşdiyindən bilməmişəm. Həmişə sosial şəbəkələrin bir-biri ilə yarışa girdiyi epoxada yaşamamışıq. Radionun televiziyaya «uduzduğu», onilliklərlə televiziya «diktatura»sının hökm sürdüyü, həyatımızın ayrılmaz parçası olan zaman da olub. İndi evə daxil olan kimi birinci WiFi-ni qoşuruqsa, onda ilk işimiz televizorun düyməsini basmaq olurdu... Bir gün də bizim «Arxadan vurulan zərbə» filmi gedirdi. (Elə bil kanallar dedektiv nümayişi həmrəyliyi göstərirdilər). Nə isə, deyəsən bu gün xatirələr sahilindəydim... Yenə uşaqlara dedim ki, yaxşı mütaliə etdiyim, fantaziyamın güclü vaxtlarında Elçinin «Ox kimi bıçaq» povestinini öz aləmimdə «ekranlaşdır-

mışdım». Bir müddət keçəndən, əsər həqiqətən ekranlaşdırılandan sonra təəccübümün həddi-hüdudu yox idi. Çünki rejissor Arif Babayevdən qabaq rolları aktyorlara mən «paylamışdım». Hamısı düşündüyüm kimi idi. Şahmar Ələkbərovu müstəntiq, Yusif Vəliyevi Qurd Cəbrayıl, Rasim Balayevi Cəbi obrazında «görmüşdüm». Əgər Adil İskəndərov istisnasız qoca prokuror roluna yaraşırdısa, o dövrdə lirik-romantik obrazlar yaradan Amalya Pənahovanı vağzal bufetçisi kimi görməyim indi özümə də əcaib gəlir... Ən yaxşı çəkiliş meydançası insanın beyni imiş. Sanki əsər mərkəzi sinir sisteminə ötürülmüş, o da beynin «geniş ekranında» mənə göstərmişdi. Yəqin ki, əsər çox maraqlı olduğu üçün, bütün varlığımla içinə girdiyimə görə belə maraqlı üst-üstədüşmələr alınmışdı.

Bakıdan Şəkiyə apardığım qutularla dolu kassetlər də işə yarayırdı. Yay vaxtı gün gec batırdı, vaxtımızı öldürməyə yox, (bu sözdən heç xoşum gəlmir. Vaxt sərvətdir, sərvəti də öldürərlər?) səmərəli keçirməyə kömək olurdu. İndi ancaq internet olmayan yerdə işə yarayan, bu sayı bilinməyən kassetlərə vaxtilə Məmməd müəllim dünyanın pulunu vermişdi. Hamısı da orijinal. Burada «Əsas instink»dən tutmuş «Cangüdən»ə qədər nə istəsən var idi. Daha doğrusu, olmayan film yox idi. Bir dəfə bizə rayondan qonaq gəlmişdi. Onu evdə tək qoyub gedəndə darıxmaması üçün dedim ki, nə istəyirsən, qoy bax... Təəccüblə baxdığını görüb soruşdum:

– Ən çox sevdiyin film hansıdır?

– «Xaç atası»…

Tapıb verdim. Sonra?

– «İşdə məhəbbət macərası»…

– Buyur! Bu da sənə «Служебный роман!»

Gedib evdə demişdi ki, AzTv-nin fondunda olmayan filmlər Məmməd əmigildə var...

İyulda sərhəddə fəalliq artdı, həyəcanlı informasiyalar gəlməyə başladı. Az sonra Tovuz istiqamətində döyüşlərin başlandığı, «Şəhidlərimiz var» kimi acı xəbərlər gündəmi tamam zəbt etdi. Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, qərargah rəisi, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülən Polad Həşimovun ön cəbhədə tabeleyində olan əsgərlərlə bir yerdə şəhid olması cəmiyyətdə əsl fenomen, hadisə kimi qarşılandı. Sərt lokdaun olmasına baxmayaraq, general ləyaqət və təntənə ilə torpağa verildi. Polad Həşimov ordumuzun hərbi əməliyyatlar zamanı şəhid olan birinci və yeganə generalıdır. Buna qədər bu yüksəkliyə Qarakənd faciəsi zamanı İsmət Qayıbov və Məhəmməd Əsədov yüksəlmişdilər. Polad paşa irəliyə atıldı və geri dönmədi. Onun hər cür müqayisədən ucada dayanan şəxsiyyəti heç bir tərifə, tərənnümə sığışmır. Danko kimi «ürəyini başı üzərinə qaldırdı. Onun ürəyi günəşdən daha parlaq idi». İşıq adam irəli çıxdı, hamını arxasınca apardı. Getdilər, getdilər, 27 sentyabra yetişdilər. Dəfn mərasimini izlədikcə, yadıma kimin olduğunu xatırlamadığım bir cümlə düşdü: «Təntənəli cənazə törəni improvizasiya deyil. Hər kəs həmin günə ömrü boyu «hazırlaşır».

Bu da sübutu...

Şəkidə olarkən şöbəmizin bir xanım əməkdaşının ağır xəstələndiyi, modul tipli xəstəxanaya yerləşdirildiyi xəbərini aldım. Bununla da korona virusu haqqında olan bütün tərəddüd və şübhələrimə son qoyuldu. Safura xanımın «sayəsində» ilk dəfə koronavirusu yaxından «gördüm». İşim lap taraz oldu. Adi vaxtlarda da, evdə olduğum günlərdə səhər kağızını açıb sabunqabıya təzə sabun qoyurdumsa, axşam ondan ancaq yaş iz qalardı. İş yerimə çatan kimi də spirtlənər, stolumu, telefonumu dezinfeksiya edərdim. Xadiməyə də tapşırmışdım ki, hər yeri sildiyin əsgini mənim stoluma vurma... Bu mənim həyat tərzim idi. Ətrafdakıları qıcıqlandıran vasvasıçılığım indi hamı üçün məcburiyyətə çevrilmişdi.

Tətilimizi başa vurub geri qayıdanda Şəkidə də, Bakıda da sərt karantin davam edirdi, dünyada da beynəlxalq psixoz. «Daha kəskin, daha ciddi». Postlarda saxlayan kimi tələbi gözləmədən pasportlarımızı polisin gözünün qabağına tuturduq. Kürəkənim də «Bizim Cəbiş müəllim» filmindəki Əbili kimi bir-bir sadalayırdı: «Bu, mənim məzuniyyət kağızım...» Mən də təkrar edirəm: «Buu… mənim azad olmağım barədə arayış». Bu... mənim şəhərlərarası vəsiqəm...» (ayaqda göbələk), «Bu mənim Bakı qeydiyyatım» (sidik kisəmdə daş). Tam bir sürr… (realizm).

Deyirlər, yay uçur, qış isə arxayınlıqla gəzir… Dünya yaranandan bəri bu «yay da sona çatmaq üçün başlamışdı». Yayın bitməyi çox istədiyin bir adamdan ayrılmağa oxşayır. Kədərlənirsən… «Gəlişin nə gözəldir, gedişin olmayaydı» kimi…

Beləliklə, iyun, iyul, avqust gəlib keçdi. Qızmar yay yerini nəmli payıza verdi, lakin hərarət azalmadı, artıb, artıb sentyabrın 27-si 27 il gözlədiyimiz «A-təşşş!»ə keçdi. «Payızın deyil, dəmir yumruğun küləyi işğalçı tərəfi neçə onilliklər geriyə atacaqdı».

Payızın erkən dövrü ilə qızıl dövrü arasındakı 44 gün başlasın!!!

## MÜQƏDDƏS BAZAR GÜNÜ

*Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!*
*(Məhəmməd Füzuli)*

*Kim bilir, bəlkə yarın, bəlkə yarından da yaxın…*
*(Mehmet Akif Ersoy)*

Müharibə qədər qaranlıq kəlmə tanımıram, bilmirəm... Ancaq biz bəlkə də, yeganə millətik ki, müharibə başlayanda sevincimizdən ağlamışdıq. 27 il «atəşkəs» dövründə yaşayan, bu yalançı atəşkəsdə nə qədər şəhid verən və üstəlik torpaqları da işğalda qalan Azərbaycan üçün bu qaranlıq kəlmə tunelin sonunda görünən son işıq idi. (Həmin solğun işıq günbəgün artıb düşmənin üstünə şığıyan sürət qatarının işıqlarına çevrildi). Biz Azərbaycanı – sərhədlərimizi, xəritəmizi, 10 milyonun və bütünlükdə dünya azərbaycanlılarının varlığını işğala qədər və sonrakı dövrlərə bölür, belə acı reallıqla onilliklərdir yaşayırdıq. Müharibə haqqında olan ədəbiyyatı oxuya-oxuya böyü-

dük. Paradoks da olsa, «müharibə özü ilə ölüm, əsirlik, səfalət gətirdiyi qədər mədəniyyət də gətirir». Humanitar sahənin ən uğurlu sənət əsərləri məhz bu mövzuda işlənmişdir. 1937-ci ildə Pablo Pikasso «Çernika» adlı rəsm çəkir. Bu rəsmdə İspaniya vətəndaş müharibəsi zamanı Üçüncü Reyxin Çernika şəhərini bombalaması təsvir olunur. Rəssam Gestapo tərəfindən sorğuya alınanda alman zabiti «Çernika»nı göstərib «Bu, sizin əsərinizdirmi?», – deyə soruşur. Pikasso «yox, sizin əsərinizdir» deyir. Pikassonun məsəli, düşmənlərimiz də indi «vaah, 2002» (44 gündə ölənlərinin çoxu 2002 təvəllüd idi) – deyib zarıya-zarıya qalıblar.

1941-45-ci illər müharibəsi sovet ədəbiyyatının sevimli mövzularından idi və necə lazımdı, işıqlandırılmışdı. Ancaq bir də bu duruma düşəcəyimiz, özümün bu barədə və bu qədər çox yazacağım heç ağlıma gəlməzdi.

Sentyabrın 26-dan 27-nə keçən gecə votsap qruplarıma qəribə mesajlar gəlməyə başladı. «İman əhli olan hər birinizdən istəyim budur ki, millətimizin oğullarına dua edəsiz», «Allah bizi sındırmasın!», «Ya Qarabağ, ya ölüm», «Bəlkə, yarın, bəlkə, yarından da yaxın... », «Bizim qohumlardan 3-4 nəfər gedib», «Səhər-səlamət!» kimi... Heç nə anlamasam da, yayda təmas xəttinə yaxın yaşayanlardan müharibəyə üstüörtülü işarə xəbərləri edildiyini xatırladım və yenə də (!) heç nə ağlıma gəlmədi... 27 sentyabrın dan yeri isə sökülür, sübh şəfəqləri dünyanı aydınladırdı...

Sabah... Sabah – ümiddir, gözləntidir, tanrıdan umacaqdır, başlanğıcdır. Tənbəllərin sevimli günü sabahdır...

Siqaret çəkən «sabahdan» tərgidir, pəhrizə sabahdan başlanılır, iki alan şagird sabahdan oxumağa qərar verir, gecikmək azarına tutulan «sabahdan gecikməyəcəyəm», – deyir. Bizim «Uşaqlar – Canavarlar» da «Səfər bizim, Zəfər Allahın» deyib şərəfli yola sabahdan çıxdılar...

Deyirlər, pis hadisələr qəfil baş verir. Elə yaxşı hadisələr də! Gələcək birdən-birə gəldi. 27 il davam edən dəhşətli yuxudan silkələnib ayıldıq. 27 sentyabr uzun illərdə (366 gün) təqvimin 271-ci günü kimi hesablanır. «Qəhrəmanımız» olan 2020-ci ildə olduğu kimi... İlin sonuna 96 gün qalırdı. Qələbəmizə isə 44 gün. Və biz bundan xəbərsiz idik... Ermənilər də 30 il ərzində külli Qarabağda basdırıb üzərində oturduqları minaların partladılma vaxtının çatdığından... Tarixin bu günündə dünyada baş verən, tarixi dəyişən hadisələrin birinin artacağını da bilmirdik.

Beləcə yaşayıb gedirdik. «Yaşamaq» demək mümkün idisə... Düz 27 sentyabra, axının gətirdiyi təzə nəfəsə qədər. Bu istirahət günü 30 ilin sıradan bir günlərindən də ola bilərdi. Lakin olmadı! 30 il sonraya qurulmuş taymer gurultu ilə işə düşdü. Məğlub tərəf kimi yatıb Qələbə əzmi ilə oyandıq. Bir günün içində böyüdük. Və həyatımızda hər şey 360 dərəcə dəyişdi. İlk itən, yoxa çıxan internet oldu. Nə bir deyinən oldu, nə bir narazılıq edən! «Belə məsləhətdir», – dedik. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» – ancaq bu cür ola bilərdi. Əlbəttə, internetsiz də qala bilməzdik. VPN-lər işə düşdü... Açmasını bilmədiyimiz abreviatur kimi dilimizə, şübhəli, təhlükəli olduğu söylənilən əməliyyat kimi telefonlarımıza... Hamı provay-

der olmuşdu, bir-birinə «virtual tunel» yükləməyə kömək edirdi. Əsl həmrəylik idi. Yaşadığımız, vuruşduğumuz o ekstraordinar müddətin qiyməti indidən verilir və gələcəkdə daha çox bilinəcək. 44 günü 10 milyonluq bir ailə kimi yaşadıq. Bütün xalq ordu idi.

Son 30 ildə o qədər acı çəkmişdik ki, ürəkdən sevinməyi də unutmuşdüq. Bizi inandırmışdılar ki, heç kimik. Qaçqın, köçkün yox, xalq kimi itkin düşmüşdük. Özümüzü tapa bilmirdik... Bir o qalmışdı ki, ermənipərəst qüvvələr (bu nisbət dünyanın böyük əksəriyyətini təşkil edirdi) təcavüzkara haqq verib 27 illik işğalı «ləyaqətli işğal» adlandırsınlar. Sonradan düşmənin məğlubiyyətini «ləyaqətli məğlubiyyət» adlandırdıqları kimi»... Ermənilər geri çəkilmirdilər ki..! Onlar sadəcə Maykl Ceksonun «ay yerişi»ni təkrarlayırdılar. Necə ki, Dağlıq Qarabağa aid olmayan 7 rayonumuzu «işğal altında» olan yox, «təhlükəsizlik kəməri», «ehtiyat aeredrom», «ətraf rayonlar» kimi təqdim edirdilər. (Əvvəllər. Harınlaşandan, ayaqları yer tutandan, adları qulaqlarına dəyəndən sonra isə Laçını «berdzor», Kəlbəcəri «karvaçar» edib «türk işğalından azad etmişik» deyirdilər). Gör iş nə yerə çatmışdı ki, Paşinyanın «erməni xalq nağılları» ilə bəslənən yeniyetmə qızı öz planlarını, xəyallarını mənim torpağımla bağlı qururdu, ona hesablayırdı. («Bir qarış torpaq da verməri k» populist şüarı ilə hakimiyyətə gələn atası müharibəni uduzanda isə millətinə sürünənlər dövründən miras qalmış əzabkeş maskasını geyib arzularının puç olduğunu, yarıda qaldığını dilə gətirmişdi. Ağızda şirə qalmaq, geç gəlib tez öyrənmək buna

deyərlər). Erməni şizofreniyasının simptomları eynidir. Hələ Paşikin övrəti Qarabağdan avtomatla bizə sarı poz verib hərbə-zorba gəlirdi. Bax, soruşan gərək, sözünüzün, əməlinzin arxasında dayana bilməyəcəkdinizsə, niyə boş-boş danışırdız, sözləri havaya filəyirdiz? Qarabağ Ermənistandır... Gördük. «DQR» müstəqil ərazi vahididir... Güldük. Bizim isə 92-də səpələdiyimiz daşları bir-bir yığdığımız, 30 uzüqara ilin təqvimini hər gün qırmızılayıb, xəritəmizin yaşılını artıraraq yenilədiyimiz zamanımız gəlmişdi. Belə bir məşhur aksiom var... Müharibəyə beş dəqiqə tez başlamaqdansa, beş il gec başlamaq məsləhətdir. (Necə ki, qələbə yarım saat artıq dözənindir). Ya səbr! Biz isə ortaya peyğəmbər səbri qoyduq, «ya səbr» deməkdən səbr ağacına döndük, qəlbimizin qanında boğula-boğula yeni rekorda imza atdıq... 27 il üfüqə zillənib «birdən görünər...», – deyə axtara-axtara gözümüzün kökünü saraltdıq, qızartdıq, göyərtdik. Dörd il qabaq şərarei-ümid kimi dörd gün yanıb sönsə də (biz o 4 günün haqqını 4 il sonra verəcəkdik. O 4 gün düşmənin sirrini faş etdi. Onların nə qədər zəif, özümüzün necə güclü olduğumuza bizi inandırdı. Əslində, ermənilərin məğlubiyyəti 2020-nin noyabrında yox, heç 2016-nın aprelində də yox, «miatsum» qışqırdıqları 80-lərin sonlarından qabaq, qara-qara düşündükləri tox-rahat 70-ci illərdə başlamışdı), yenə də nəhayətsiz bədbinliyə qərq olduq. Yenə bomboz üfüqlər, yenə ümidsiz sükunət... Qarabağ müharibəmizdə istər özümüzün, istər düşmənlərimizin, eləcə də beynəlxalq icmalçıların müşahidə etdiyi çoxsaylı simvollardan biri də (şəxsən

özümün tapdığım) döyüşlərin məhz 27-si tarixində start götürməsidir. (Rəqəmlərin də öz mistikası var. Bu günü hələ 27 il əvvəl bron eləmişdik). Biz diplomatiya, anlaşma, humanizm, mədəniyyət deyib 27 (!) uzun il ürəyimizin yağını əridə-əridə gözlədikcə, düşmən «yeni müharibə, yeni ərazilər» – deyib getdikcə azğınlaşır, artıq işğalçı ampluası da ona darlıq edirdi. Bu sonun başlanğıcı idi. Və günlərin gözəl bir günü olan müqəddəs (!) 27 sentyabrda 8 noyabr zəfərinə doğru görünməmiş, eşidilməmiş dəmir yumruğa dönüb əks-hücuma keçdik! Hər şey incəldiyi yerdən qopar, zülm qalınlaşdığı yerdən. Başa düşdük ki, xilasımız özümüzdədir! «Boğulanlara kömək etmək də elə boğulanların öz işidir». Həvəsdir – bəsdir! Polad artıq bərkimiş, Zəfər günü yetişmişdi. Biz artıq bütün qəlbimizlə, ruhumuzla, varlığımızla buna hazır idik. Azərbaycanın oğulları ölməyib ki, Qarabağın taleyini bizi başda gəzdirən ATƏT, özünü çoxdan diskreditə etmiş Minsk qrupu bir 30 il də uzatsın, Kazan variantı, Madrid prinsipləri, «mərhələli həlllər», ortada gedib-gələnlər və daha nə bilim nələr-kimlər yenə də baş aldatmağa davam etsin... Və elə ilk günlərdəcə azad etdiyimiz ərazilərdə qurduqları 10 kilometrlərlə uzanıb gedən, sonradan özlərinə kollektiv məzar olacaq (bizə qazdıqları quyuya özləri düşdü, həm də qazdıqları əlləri üstə) istehkamları, tunelləri, bunkerləri gözümüzlə görəndə mənzərə tam aydın oldu. Şəhərlərdə şəhərlik, kəndlərdə kəndlik qalmamışdı. 27 il ərzində yorulmadan törətdikləri eko-terroru, daş-divarla, məzarlıqlarla etdikləri düşmənçiliyi yerində qiymətləndirdikcə bir daha

anladıq ki, «ulu qüvvət» dediyimiz mədəniyyətlə bunlara qalib gələ bilməzdik! Mən qanuna Allah kimi baxan adamam. Yəni nüfuzlu təşkilatların, qurumların öz avtoritetini qoruyacağına, qəbul etdiyi qərarların icra olunacağına uzun illər sadəlövhcəsinə inandım. Amma bu 30 ildə bizə olunan vəhşət sübut elədi ki, bu biokütlə özgə dil bilmir! Yalnız özlərinin dünyada ən iyrənc dillərindən başqa! Sözün birbaşa və məcazi mənasında! Akademik N.Y.Marr yazırdı: «Erməni xalqı kimi, erməni dili də hibrid, calaq dildir». Etnogenezləri, dinləri kimi dilləri də dolaşıq, təcrid edilmiş, ayrıcadır. Məsələn, belə izah edək, qazanı qoyublar ortaya, bir az ondan qatıblar, bir az bundan... Bir az ondan oğurlayıblar, bir az bundan. Ona görə belə əcaib alınıblar... Bir lətifə danışım... Çox isti havada iki azərbaycanlı yol ilə gedirmiş. Boğanaqdan dil-ağızları da quruyubmuş. Qarşılarına bərkdən danışa-danışa, nəyi isə müzakirə edən iki erməni çıxır. Onların danışığı sanki havanı daha da dözülməz edir. Axırda azərbaycanlılardan biri özünü saxlaya bilməyib deyir:

– Sizin özünüzə heç yazığınız gəlmir... Belə havada da ermənicə danışmaq olar?

Yanlış da bir naxışdır...

Uşaqlar döyüş ərazilərinə baxıb məndən soruşurlar ki, niyə müharibə həmişə belə yerlərdə gedir? Dağlıq, düzənlik, səhra... Xaraba, həyat olmayan... Düşündüm. Doğrudan da... SSRİ-nin Əfqanıstanda apardığı 10 il davam edən müharibəni xatırladım. Mücahidlər, «duşmanlar»... Bütün

savaş alanları bir-birinə bənzəyir. Qalıb da o günə. Qoyublar... Daşı daş üstə qalmayıb. Yolların rəddi də itib.

Bizi gözləri götürmür... Müasir erməni ədəbiyyatının banisi Xaçatur Abovyan «Ermənistanın yaraları» kitabında açıq-aydın yazırdı: «Türkcəni görüm lənətə gəlsin. Nə edək ki, bu dil Allah dərgahında xeyir-dua alıb. Onların dili bizim millətin ağzına o qədər dadlı gəlmişdir ki, toylarda və şənliklərdə türkcə oxuyuruq, bizim dilin ən azı 50 faizi türk sözləridir». (Mən də həmişə düşünürdüm ki, onlar bizim dili nədən belə yaxşı bilirlər və asan öyrənirlər? Özlərinin dili tikanlı, dığır-dığır, qulağı deşən, çətin mənimsəniləndir. Yəni, bunu biz demirik... Öz qaynaqları deyir). Dil erməni şərqşünaslarının, türkoloqlarının, ədəbiyyatşünasların yaralı yeridir. Necə desinlər ki, Dəlləkyan erməni familidir. Nə inkar edə bilirlər, nə qəbullənə. «Hələ tək rəng adları türkcəyi sevmək üçün yetərli səbəb ola bilər» etirafı da düşmənlərimizin elə özlərinə məxsusdur. Şərabqırmızısı, samansarısı, buzmavisi, atəşqırmızısı, duman rəngi... Görənin gözü, eşidənin qulağı, oxuyanın xəyalı sevinir... İşıldaquş adamı diskindirən xırda qurddur, ona «atəşbəcəyi» kimi gözəl ad verib şəninə mahnı qoşmağa ancaq türk dilinin gücü çatar:

*Eşq bağçamı süsləyən inciçiçəyimmisən?*
*Gecəmi aydınlatan atəşböcəyimmisən?*
*Gənclik başımda duman, ilk eşqim, ilk həyəcan*
*Qovaladıqca qaçan atəşbəcəyimmisən?*

Mətləbdən yayınmayaq... Bunlarınkı qılıncdır! Qılınc ermənilərdir... Daha doğrusu, «Bayraqdar»dır, «Harop»-dur! «Vətənin müdafiəsində gərəyindən artıq mərhəmət Vətənə xəyanətdir». Necə də düz deyib Mustafa Kamal. Elə bil bizə deyib. Rəhmimizdən, mərhəmətimizdən o ki, var yararlandılar. Tək Vətənə yox, elə vətəndaşa da. «Namərdin yalvarışı – mənə aman ver, gör sənə neyləyərəm, deməkdir». Biz xalq kimi hamıya, birinci növbədə özümüzə sübut etdik ki, adımız canımızdan qabaqdır. İlahi, itirdiklərimizi görmüşdük, qaytardıqlarımızı da gördük.

Görəsən, bir xalq olaraq nə vaxt bu qədər sevinmişdik? Bilmirəm... Hər şey bir günün içində dəyişdi... (Əlbəttə, mənim kimi siyasətdən uzaq, sıravi vətəndaşlar üçün... Paşinyanın  əməlicatları ilə vurduğu və sonradan başına bəla olacaq məşhur halayına baxanda «niyə Şuşanı vurmuruq?» deyən insanlarımız pərdəarxasından, orada görülən MÖHTƏŞƏM işlərdən xəbərsiz idilər axı!) Biz fırtınada açıq dənizə çıxmadıq. Havanın bir az açılmağını, sakitləşməyini gözlədik...

İşğalçılar özlərini elə inandırmışdılar Qarabağın daha onların olmağına, son 30 ildə bizim torpaqlarda törəyənlər yazırdı ki, «biz Qarabağın sahibi deyilik, biz Arsax uşaqlarıyıq». O qədər arxayınlaşmışdılar, cənnət məkanlarımızda elə yer-yataq salmışdılar ki, bir gün qəfildən əks-həmləyə keçəcəyimiz ağıllarına belə gəlmirdi. Özü də onlar «hücum olarsa, Ağdam tərəfdən olar», – deyə düşünürdülər, ona görə tank əleyhinə müdafiəni əsas orada möhkəmlətmişdilər. (Biz də onları bu düşüncədə möhkəmlət-

mişdik. Sağı göstərib solu vurmaq kimi. Burada Silahlı Qüvvələrimizin ən gizli xüsusi bölməsi olan «Yarasa»nın düşmənin arxa cəbhəsində göstərdiyi fəaliyyətini xüsusi qeyd etmək lazımdır). Erməni hərbçiləri həm də arxayın idilər kli, əgər bir gün, işdi-şayət, Azərbaycan torpaqlarını qaytarmaq niyyətinə düşsə, ancaq tank hərəkət edə bilən yerlərdə irəliləyə bilər. Ərazinin dağlıq, relyefinin sərt olduğunu nəzərə alsaq, bu proqnoz bizim üçün tam perspektivsiz idi. Xüsusi günlərdə nümayiş etdirdiyimiz hərbi texnikanı isə qardaş Türkiyəninki sayır və özümüzü göstərmək üçün müvəqqəti gətirdiyimizi düşünürdülər. Hərbdə düşməni layiqincə qiymətləndirməmək ən böyük taktiki səhv hesab edilir və nəticəsi də göz qabağındadır. Nəhayətdə erməni rəsmiləri də «biz azərbaycanlılara «qoyun» deyib güləndə onlar dronlarla döyüşməyi öyrənirdilər», – deyə etiraf etməyə məcbur oldular. Biz ermənini həm də psixologiyasını bildiyimiz üçün udduq). Başı qələbə eyforiyasından gicəllənən düşmən deyirdi: «Bu möhtəşəm bir qələbə idi, 150 min nəfərlik əhalisi olan DQR Ermənistandan gələn könüllülərin dəstəyi ilə 30 qat çox olan metropoliyanı (yəni Azərbaycanı – D.A.) məğlub etdi. Bu, bizi 30 dəfə çox özünəinamlı etdi». Zamanla kağız üzərində də bunu qəbul edəcəyimizdən arxayın idilər...

Birdən-birə onlara cəmi Qarabağın sərvətinin üz verməsinə baxmayaraq, bu 27 ildə bir addım da irəli gedə bilməmişdilər. 7 yox, 27 ilin bac-xəracını soyub aparıblar bizdən... Bu qədər var-dövlətimiz daşınıb Ermənistana. Hanı bəs? Nələri artıb? Haram mal belədir, xeyir gətirməz. Nə

qüvvətli dövlət qurmuşdular, nə güclü ordu yaratmışdılar. 2020-lərə 80-ci illərin kəm-köhnə silahları ilə gəlib çıxmışdılar. Elə pərakəndə marketinq fəaliyəti ilə məşğul olublar özləriyçün xımır-xımır. Qazandıqları bu olub. Qarabağ onlar üçün tükəndi, 30 il qabaq tapdıqları xəzinə əllərindən çıxdı, yığdıqları əridi. Xəcalət, borc isə qaldı. Ermənistan bu gün də əlini dünyaya açıb dilənməklə dolanan ölkədir.

Sovet dövründə Federativ Almaniya bir tərəfə qalsın, hətta ADR-i gedib görən hər kəs bir sualla yanıb-tökülürdü: «Axı biz müharibəni udmuşuq, onlar isə uduzublar. Amma yaşayışımız, inkişafımız tam tərsini deyir»...

Şamil Basayevdən soruşanda ki, «niyə azəraycanlılar müharibədə ermənilərə məğlub oldu», suala sualla cavab verir:

– Kim deyir ki, Azərbaycan məğlub oldu?... İstəyir 100 faiz işğal olunsun, onlar sakitləşib? Yox. O zaman “kimsə məğlub olub” demək lazım deyil. Bu müvəqqətidir, əbədi deyil...

Uzaqgörənlik ayrı şeydir. Döyüşü udmaq, özünü qalib hiss etmək – hələ zəfər çalmaq demək deyil. Ortada kapitulyasiya yoxdursa, qələbə heç kimindir. Bir var hissə qapanmaq, bir də var, belə – məntiqlə mülahizə yürütmək, hərəkət etmək! Möhkəmlənmək, Allahın başımızdan tökdüyü ruzini düzgün dəyərləndirmək, silahlanmaq! Bizim rifah, onların tənəzzül dövrü elə onda başladı…

Düşmənlərimiz bir yana, elə Azərbaycanın fəal dostu, bizi istəyən Maksim Şevçenko da, ölkəmizin müasir mü-

haribə aparmaq iqtidarında olmadığını proqnozlaşdırmışdı: «Azərbaycan büllur vazadır, intensiv döyüşlərə bir həftədən artıq tab gətirə bilməz». Amma Azərbaycan dünyanı lərzəyə gətirən 44 gündə sübut etdi ki, 30 ili boş-boşuna, onlar kimi zarımaqla keçirməyib, əlbəyaxa döyüşdə düşməni dişi ilə parçalayan qəhrəman oğullar yetirib.

Biz özümüz də bu ölkənin içində yaşaya-yaşaya, hazırlanan böyük hücum planından xəbər tutmamışıq, eşidəndə də, ümidsizcəsinə başımızı bulayıb əlimizi yelləmişik... Hətta, yayda Bərdədən, Qazaxdan qeyri-rəsmi xəbərlər sızanda ki, həyətlərdə səngərlər qazılır, döyüş hərəkəti var, şaiyə sanmışdım. Mənbə yaxınım olsa da. (Ayın görünməyən tərəfi də var axı). Çünki  ölkə daxili müharibə ab-havası yox idi... Hələ ki, «Bağdadda sakitlik idi». Uğurun bir ucu da yetişən məqamı qaçırmamaqdadır. Bəli, «səbr insana ömrü boyu dözmək üçün yox, imkanı düzgün seçmək üçün lazımdır». (Əbu Turxan) Sonralar Vətən müharibəmiz əvvəlindən sonuna qədər politoqlar, hərbçilər, dövlət xadimləri tərəfindən qiymətləndiriləcək, demək olar hər günü analiz olunacaq... Bizim necə  pandemiya qarışıqlığından, ABŞ-nın  seçki  ilə  başının özünə qarışmasından, Trampın gedərayaq hadisələrə passiv mövqeyindən istifadə edərək dünyanı necə «yuxuya verib» hücuma geçməyimizdən danışılacaq, yazılacaq... Səbrimizin sınağı Qələbə qarşılığı!

Halal olsun Prezidentimizə, Müdafiə Nazirliyinə, kəşfiyyatımıza! Hələ dünyada mövcud olan, qatılaşıb qurumuş ictimai fikri lehimizə dəyişdirmək nə qədər qüvvə,

enerji, vəsait və diplomatik gedişlər tələb edirdi. Ölkə rəhbərliyi görünən və görünməyən tərəfləri ilə bir neçə istiqamətdə mübarizə aparırdı. Özü də heç nədən xəbərsiz vətəndaşının dolanacaq, məişət, Formula – 1, karantin və s. narazılığı, qınağı, şikayəti qarşısında...

Biz düşmənimizi tək döyüş meydanında qırmadıq, həm də hamı bir nəfər kimi Prezidentimizə arxa-dayaq durmaqla, ordumuza inanmaqla, ermənilərin əks təbliğat və təşviqat maşınını ən yüksək səviyyədə iqnor edib ruh yüksəkliyimizi saxlamaqla sındırdıq, məhv etdik! Dəli oldular!

«Məngənə» əməliyyatı bir neçə gün idi başlamışdı. Paşinyanın face hesabında qələbəlik idi. Tıxacı da biz yaratmışdıq. Orada ermənidən çox azərbaycanlı var idi, hamı «ürəyini boşaldırdı»... Elə mən özüm... Paşinyanın «takibçisinə» çevrilmişdim, səhərim onun səhifəsinə baş çəkməklə açılırdı, «bir noo adətkarda olmuşdum». Nikol akkauntunda özünü ara-sıra poeziyaya verir, Matevosyandan şeir də deyirdi. (Yeri gəlmişkən, məşhur erməni yazıçısı Hrant Matevosyan Xocalı soyqırımının dünyada tanınmasının tərəfdarı olan və bunu ucadan söyləyən ilk-azlardandır). Nə Nəsibə xanımın yeridir... Deyərdi ki, uç bala, uçan vaxtındır... Mən deyə bilmərəm ki, Paşinyana Azərbaycanın çörəyini yeyib buz bulağından su içən, bal kimi havasını udub sonra da nankor çıxan Köçəryandan, onun cinayət ortağı quldurbaşı, elə sir-sifətdən də yolkəsənə oxşayan Sərkisyandan, ya soyadının əvvəlinə «ter» artırıb özünü öz aləmində zadəgan sayan Petrosyandan artıq

nifrət edirəm... İlanın ağına da lənət, qarasına da, hələ üstəlik çəhrayısına da! Bu heç... Bu məlum… Mən ən çox Ter-Petrosyana nifrət edirəm. O, filoloq idi. Bizim peşənin sahibləri isə daha duyğusal, daha həssas olurlar. Xocalı onun vaxtında baş verdi. Lüsiferin ta kəndisi! Düzdür, indi bilmədiyimiz faktlar üzə çıxır, guya 5 rayonu qaytarmaq istəyirmiş, parlamentləri qoymayıb, ya da Rusiyanın o vaxtkı  Xarici İşlər Naziri A. Kozerev mane olub... Dəxli yoxdur! Sən niyə mənim torpağımı işğal edirdin ki, sonra onu mənə sədəqə kimi qaytarasan. Petrosyan deyibmiş ki, indi 5 rayona razılaşmırsınız, vaxt gələcək, muxtariyyət üçün yalvaracağıq.

Necə də bunların saitsiz «tkrmkr» adları leksikamıza düşdü. (Əlifbalarında 30 samit var). Müzakirə obyektimiz oldu... Mnasakyan, şuşan, araik, tonoyan...

Şuşa alınan gün idi, amma rəsmi məlumat hələ çıxmamışdı. Necə ki, gedəndə qorxu içində qulağımız səsdə idi, indi də ürəyimiz ovcumuzun içində şad xəbər sorağındaydıq. Evdə  oturmuşdum, bir də gördüm qızım zəng vurdu:

– Mama, mən yoldayam, işə gedirəm, internetim də yoxdu, tez Araikin səhifəsinə bax, gör nə yazıb? Hamı ondan danışır...

Məni necə gülmək tutdu... Situasiya özü gülməli idi. Mən hara, terrorçubaşı hara? Amma baxdım, çünki Aynur gözləyirdi. «Həyatımın ən ağır şəfəqini qarşıladım» sözləri ilə şəklini yerləşdirmişdi. Boş Xankəndində əlləri cibində dayanıb üzü Şuşaya baxırdı. Bundan gözəl mənzərə ola

bilməzdi! Bizimkilər də şərhlərdə anasını ağladırdılar… Bax, yaxşı bax, bundan sonra elə uzaqdan baxacaqsan! Masada 30 ilə heç vəchlə yerindən tərpənmək belə istəməyən məsələni əlimizi-qolumuzu çırmalayıb cəbhədə 44 günə özümüz həll etdik. El bir olsa, dağ oynadar yerindən! Əsir torpaqlarımızda ümumxalq «iməciliyi» keçirib 3 onillik yığılıb qalmış zir-zibili süpürüb atdıq.

Erməni qədər məkrli, bir gilə gavur qanlarından qarışsa, bütün soy-kökü murdarlayıb xas-xalisi də batil edəcək «başqa bir qövm tanımıram», – demirəm... Dünya tanımır... Başdan ayağa infeksiyadırlar. Bəşəriyyətə qan udduran koronavirus sütül körpədir bunların yanında. Yenə onun müalicəsi var, vaksini var, qorunmaq olur, ipə-sapa yatır. Erməni isə dünyanın ən amansız, ən qansız, hiyləgər canlısıdır. Əksəriyyəti potensial qaniçəndir. Xocalını bir an belə yadımızdan çıxarmayaq! Azad olunan ərazilərdə əhali evinin xarabalığını kafel parçalarından tanıyır. Bu millətdən olan heç kimə yazığınız gəlməsin! Allah Azərbaycanı qorusun!

Qapı qonşumuzda bir ailə yaşayırdı, ata azərbaycanlı, ana erməni idi. Evdə bizim dildə danışırdılar, 4 uşaq Azərbaycan məktəbində oxuyurdu. Bütün göstəriciləri ilə əsl Azərbaycan ailəsi idilər, hətta, çox adam Gövhər xanımın (Knarik) erməni olduğunu da unutmuşdu. Hadisələr başlayanda uşaqların dördü də, «Qarabağ ermənilərindir də» – deyib analarının tərəfinə keçdi. «Bədəsildən hərgiz olmaz heç əsil». Düzdür, bədəlini də ağır ödədilər. Ataları elə hadisələrin içində dərddən öldü, uşaqların heç biri ev-

eşik yiyəsi olmadı. Dilim də gəlmir gözəl deyim, ay parçası kimi idilər. Ermənidən şəkililər demiş, «sifətdi» çıxmaz, neandertalın fizionomiyası var üzlərində, amma bunlar atalarına oxşamışdılar, bədbəxt çox yaraşıqlı idi. Sadəcə, bəxti gətirməmişdi, «Gövhər xanım» lazım olmayan yerdə lazım olmayan zaman qarşısına çıxmışdı. Allah adamı bədbəxt etmək istəyəndə onu erməniyə ürcah edir.

Başqa bir qonşumuz... Orada vəziyyət tərsinə idi, qadın bizdən, kişi «onlar»dan idi. İki oğlanları var idi. Çox xoşbəxt görünürdülər. Qadın cavan və gözəl, kişi xeyli yaşlı idi. Tipik erməni: ağbaş, bir az da əyripəncə idi. Qonşu qadınlar Tamaraya bəxtəvərçilik verirdilər ki, «Toma sumkası ilə gedir, sumkası ilə gəlir», yəni bir dənə çörək də almır. Kişi qadının başına dolanırdı, hər bazar günü eyvanda kabab çəkirdi, qonaqları çox olurdu. Mötədil sovet ailəsi... Bir dəfə imtahana gedirdim, liftdə Volodyanı gördüm, «ни пуха, ни пера» dedi. Nə illah elədisə, «к черту!» demədim. Dedi ki, mən də cavan vaxtı utanardım böyüyə belə deməyə... Sonra... müharibə başladı. Elə ilk gündəcə «ailəcanlı» Volodya yoxa çıxdı. Tomanın atası gəldi, qapının üstündəki «yan» familiyasını Eyyubova ilə əvəz etdi və qızı, nəvələri ilə bir yerdə yaşamağa başladı. Bir az keçəndən sonra kiçik oğlan əsgər getdi və o gedən getdi. Anası deyirdi Qarabağda itkin düşüb. Daha bilmədim, doğru deyirdi, ya düşmən tərəfə keçmişdi. Günlərin bir günü böyük oğlan da yox oldu. Tamara saçını ağardıb oturdu. (Oldu əsl erməni arvadı). Heç yerə köçüb eləmədi, qalan ömrünü dörd divar arasında keçirtdi, adamlardan

qaçdı, yeni tanışlıqdan uzaq düşdü. Daha evinin kandarından bayıra çıxmadı, ya qorxudan, ya sorğu-sualdan, deyə bilmərəm. Qonşuların həsrət şəkdikəri Tomadan əsər-əlamət qalmadı.

Onlar və onlar kimi qırılan, məhv olan talelər, ailələr qoy oturub-durub Balayana, Ağambekyana «dua» etsin... Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik A.Ağambekyan 1987-ci ildə Fransanın «Humanite» qəzetində DQMV-nin Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış edəndə etnosunu hansı «yenidənqurma»ya apardığının fərqində olmalı idi. Yəqin torpaq ilahi ədalətin qələbə çaldığını görməsi üçün onun bu dünyada 90 il təpik döyməsinə dözüb. Şərin «akademik»i bu gün də Dağlıq Qarabağda baş verən hadisələrdə, insan itkilərində özünü günahkar saymır, Yuqoslaviyada və Ukraynada daha çox adamın öldüyünü söyləməklə, faciənin miqyasını azaltmağa çalışır. Azərbaycanla Ermənistanın kökləri çürük olsa da, hər halda, üzdə xeyli normal görünən münasibətlərinin təcavüzə uğramasında onların və onlarla beyni və əli qanlı ekstremistlərin «xidməti» danılmazdır.

Bir qadın işləyir mənimlə, Ağdamdandır, danışır ki, bir erməni arvadı var idi, qızı ilə birlikdə evimizi təmizləyirdi, əri də həyət-bacaya baxırdı. Bir gün başındakı darağa diqqət yetirdim. Dedi ki, haa, Farida, bu darax İspanakertdə 10 kəpikdi, Şuşada 50 kəpik, Ağdamda 1 manat. (Ağdam varlı idi axı, onun üçün 1 manat pul idi bəyəm?) İndi neynəmək lazımdır? Hər yer İspanakert olmalıdır ki, biz

bu daraxı 10 kəpiyə ala bilək. Demək, sən mənim evimin çirkli işlərini gör və onu mənim əlimdən almaq üçün o quş beyninlə plan qur... Xainliyə bax!

Diasporalarının əsas sütunlarından biri Türkiyədədir. Hamısı da «yan»ı xalis türk soyadına dəyişib, böyük vəzifələrə sahiblənibləṙ. Bizimkiləri sıxışdırmaqla, gözdən salıb işdən uzaqlaşdırmaqla məşğuldurlar. Saman altından su yeridirlər. Tək Türkiyədə, Azərbaycanda deyil, elə Gürcüstanda, lap elə Avropada da, öz adları ilə yaşamırlar. Etnik azlıqlarda olduqlarını gizlədib əcnəbi soyadlarla, ən müxtəlif pasportlarla maskalanırlar. İkinci belə xalq var? Pardon! İcma... Türkdən qorxurlar! Bütün dünyada bizə qarşı mitinq, piket keçirtdilər, gör Türkiyədə səsləri çıxdı? Qardaşımız od qoyar onlara! Türkiyənin bizə qardaş deməyi cızdaqlarını çıxarır. Açıq-açığına deyirdilər ki, kaş bizə də belə canı yanan, qardaş deyən olaydı. Aramızı vurmağa çox çalışdılar. Aqillər «Heç vaxt «heç vaxt» demə» – deyirlər... Amma mən deyirəm! Münasibətimizdən, köklərimizdən, bağlarımızdan o qədər əminəm yəni. Özü də biz onlar üçün Azərbaycan deyilik, Can Azərbaycanıq! Bizim aramıza heç kim girə bilməz! Əti dırnaqdan ayırmaq olmaz! Əbdürrəhim Karakoç ağır işğal günlərimizdə qəlbinin qanı ilə yazmışdı:

*Kəndimizdən qopdu kəndi bağrımız...*
*Zülüm girdabında yandı bağrımız...*
*Hədəf taxtasına döndü bağrımız...*
*Alovlar sizdəysə, közü bizdədir.*

*Sizdəki yaranın özü bizdədir.*

Yəni bundan artıq heç nə demək olmaz... Dil kasıb, söz aciz qalır.

Hələ böyük Turan qurulacaq, erməninin kabusu!

Bizi saymırdılar, «qoyun» deyirdilər. Özümüzü elə göstərmişdik, elə tanıtmışdıq... Dünyada belə bir klişe formalaşdırmışdılar ki, «azərbaycanlılar ancaq pomidor əkə bilirlər, döyüşdə bir erməni on azərbaycanlıya dəyər». Belə deyib bizi aşağılayır, təhqir edir, ümidsizlik təlqin edirdilər. (İndi kabus keçmiş olandan sonra düşünürəm ki, biz bütün bunlara necə dözmüşük? Alimlər deyir ki, qəlbin çəkisi 21 qramdır. Daşıdığı, çəkdiyi isə bir dünya. Eh…) Özgə adı altında yaşayanlar nə qədər üzdə kimliklərini gizlətsələr də, müharibə başlayandan bunu bacarmadılar. Sosial şəbəkədə izlədiyim biri var, dözə bilmir, ad çəkməsə də, oxu atıb yayı gizlətsə də, özünü hər hali ilə, erməni xisləti ilə biruzə verir: «Yenə çənəmi tutamadım. Savaşlar politik nədənlərin və insan hirsinin sonucu. Bu dünyada hər kəsə yetəcək torpaq var. Yetər ki, barış və sevgi içində yaşamağı bilək. Mənim üçün savaş deyincə, tərəf yoxdur. Haqlı, ya da haqsız». Son cümləyə diqqət! Haqlı ilə haqsızın fərqi yoxdur? Özü də, nə qədər ki, torpaqlarımız işğalda idi, hər gün atəşkəsi pozurdular, şəhid verirdik, susurdu. 20% torpağımızı işğal edəndən sonra müharibə istəmir, pasifizmi təbliğ edir, qırılan «yavrularına» (boyeviklərə) ağlayır. Bizim anamız ölməsin, bizim balamız bala deyil? Sizinki ətdən, qandandır, bizimki daşdan, betonda-

n? Demir ki, Qarabağı yiyəsinə qaytarmaq lazımdır, halallıq lazımdır ki, sülh olsun. Özləri də ölürlər böyük danışmaq üçün... «Adəmdən atoma deyirlər»... Adəm də erməni olub, atomu da «titullu xalq» kəşf edib... Bunlarda əsgər yoxdur, «döyüşçü» var, torpaq anlayışı yoxdur, «tarixi vətən» var... "Halva-halva" deməklə ağız şirin olmaz. Vətən sevgisi ideoloji deyil, təbii duyğudur, insanın torpaqla ruhi rabitəsi olmalıdır. «Kimdə nə çatışmır, ondan bəhs edər» müddəasını kim bilmir ki? Ürəyinizə yaxın götürməyin, «kafaları öylə çalışıyor», elə bil «müqəddəs» vartapet ayin vaxtı ümummilli zəhəri filəyib, çiləyib tayfasına. İtdən soruşurlar ki, niyə hürürsən, deyir qorxuduram, yaxşı, bəs onda niyə quyruğun əsir? Deyir qorxuram… Biz niyə ölkəmizdəki qeyri-dinlərə məxsus abidələri qoruyuruq, təmir edirik, hətta Bakının göbəyindəki erməni kilsəsini də əzizləyib saxlayırıq? Nə özünküləşdiririk, nə də dağıdırıq. Erməni ilə bizim fərqimiz də bundadır. Onlar Ermənistan ərazisində bir dənə məscid, alban məbədi qoymayıblar, biz isə bolşeviklərin Bakıda məhv etdiyi «Aleksandr Nevski Başkilsəsi» üçün hələ də heyfslənirik. Bu kafedral məbəd bizim də tariximiz idi. Kilsənin tikintisi üçün məbləğin 75% müsəlmanlar toplamış, Hacı Zeynalabdin Tağıyev də yığılan vəsaitin üstünə 10 000 manat qoymuşdu. Bu münasibətlə imperator III Aleksandr ailəsi ilə Bakıya gəlmiş, kilsənin bünövrə daşının qoyulmasında şəxsən iştirak etmişdi. Stalin hökumətinin həmin «Qızıllı kilsə»ni partlatması ilə biz nə qazandıq, nəyimiz artdı? Əksinə, şəhərin mərkəzini bəzəyən, maraqlı tarixi olan bir

abidədən məhrum olduq. Biz belə mədəniyyətin daşıyıcısıyıq. Bütün dinlərə hörmət edirik, elə də münasibət istəyirik və görürük. Heç kim bizi bunun tərsi ilə ittiham edə bilməz. «Hərçənd bizə milliyyətçi deyirlər. Amma, biz elə milliyyətçilərik ki, əməkdaşlıq edən bütün millətlərə hörmət və riayət edərik. Onların milliyyətlərinin bütün zərurətlərini tanıyarıq. Bizim milliyyətçiliyimiz hərhalda xudbincə və məğrurca bir milliyyətçilik deyil». Mustafa Kamal türk millətinə belə bir xasiyyətnamə vermişdi. Əməllərimiz də sözümüzü təsdiq edir. «Kaş biz Şuşanı 92-də yerlə bir edib səhraya çevirəydik, sonra da kimya ilə zəhərləyəydik». Bunu da onlar deyib… «Vətən» aşiqləri... «Sevginiz» elə bu qədərmiş? Ermənivari... Aid deyillər bu torpaqlara, zorla deyil ki... Heç vaxt dövlətçilik ənənələri olmayıb, qurub-yaratmaq nədir, bilməyiblər. Bizi hər mənada indi durduğumuz mövqeyə çatdırmaq üçün əllərindən gələni etdilər. Hər cür ziyan vurdular. Bir əsrdə üç dəfə tarixi torpaqlarımızdan qətliama bərabər deportasiya etdilər. Öz torpağımızda və «sivil» dünyanın gözü qarşısında öldürdülər, təhqir və qarət etdilər... Öz yurdlarımıza 30 uzun il həsrət qoydular. Uzaqdan baxdıq, xarici reportyorların vertolyot çəkilişləri ilə xəbər tutduq, onların ümidinə qaldıq... Faciənin miqyasını saymaqla, deməklə qurtarmaz...

İndi qarşımızda dayana bilmirlər! Bilməyəcəklər də! Mən həmişə elə bilirdim ki, ən böyük vətənpərvər ruslardır, bir də türklər... Xeyr, ən böyük patriot elə özümüzük! Sadəcə xəbərimiz yox imiş. Təslim olmayıb nə edəcəklər?

Deyirlər ki, öldürmüsən, azdır, üstəlik başımı da əz... Hitlerdən artıq dirənməyəcəklər ki? (Ruhuna lənət olsun!) Ondan da betər rəzil-rüsvay olsunlar! Yaşasın Azərbaycan! Allah əsgərlərimizi qorusun! İtkimiz az, Qələbəmiz bol olsun! O gün də olar… Hələ ki, oktyabrı qarşılayırıq.

## D Ö N Ü Ş!

*Mən torpağı öpdüm, torpaq da məni öpdü...*
*(Əsgər sözü)*

*«Bizi torpağa gömdülər,*
*toxum olduğumuzu bilmirdilər...»*

«Hər kəsə yaxın, sənə həsrətəm, Qarabağ... Mən səninçün darıxan, candan keçməyə hazır olan Azərbaycan əsgəriyəm. Çox uzaqda deyiləm. Döyüş mövqeyindən tarixi torpaqlarımızı, uçub-dağılmış evlərimizi görəndə səni necə sevdiyimi bir daha anladım. Bu ordu əbəs yerə güclənməyib, həsrətdən güclənib. Bir gün uğrunda şəhid olan hər kəs cənnətdən abad Ağdərəyə, Şuşaya, Laçına ... baxıb sevinəcək. Bəlkə mən də onların sırasında olacağam». İşğal sürəsi bir əsgərin Qarabağa yazdığı sevgi məktubundandır bu sətirlər. Qarabağın kölgəsi sətirlərə çöküb və dünyanın məşhur naməyazanlarını öz kölgəsində buraxıb. Gərək həsrətdən necə alışıb yanasan ki, Vətənə belə dadlı

və yanğılı məktub yazasan... Və sonda da Qarabağın adsız yüksəkliklərindən birini adınla əbədiləşdirib şəhid olasan.

Gözəl Vətən – mənan dərin…

Şəhərlərdən birinci Çəbrayılı azad etdik. Bir ağrımız azaldı. Erməni lovğalığının beli qırıldı. Ondan qabaq kəndləri «topdan» alınmışdı. İnformasiya müharibəsində düşmənlərimizin qəzəbinə tuş gəldiyim üşün bloka düşmüşdım, ona görə virtual şadyanalıqda iştirak edə bilmədim. Torpaq tapdaqdan, dağlar zəncirdən, çaylar həbsdən xilas oldu. Bu cəbhədə qazandığımız ilk böyük qələbəmiz idi. O da öz başlanğıcını 2016-cı ilin aprel döyüşlərindən götürürdü. O zaman ordumuz dördgünlük müharibə zamanı düşmənin 830 hərbçisini məhv edərək Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə kimi strateji yüksəkliyi 40 dəqiqə ərzində işğaldan azad etmişdi. Düşmənin 30 ildə «bufer zona» deyib müdafiə qurduğu, «Ohanyan xətti» adı ilə qorxutduğu «dəmir-dümür» isə hücumun 18-ci dəqiqəsində 8 ay hərbi xidmət keçən əsgərlərimizlə yarılmışdı. Erməni politoloqları isə pərtliklərini mazata mindirib Stalinqrad döyüşü ilə müqayisə edirdilər. «Ohanyan...» dediklərini də fransızlardan oğurlayıblar – «Majino xətti». Ölürlər də gurultulu sözlər üçün. Bunun adı deqradasiyaya teatral donu geyindirməkdir. Xəstə, «minillik» əzabçəkmiş üzdəniraqlar üçün Ermənistan yoxdur, «müqəddəs Ermənistan» var. Xalq yoxdur, «qədim xalq» var. Millət də elə... Bu qəbildən təyinlər, sifətlər artırıb fikirlərini qüvvətləndirməyə çalışmaqla ancaq münaqişədən məlumatsız, aktiv həyatdan

uzaqlaşıb yalnız iti-pişiyi ilə maraqlanan qoca fransız məşhurlarını aldada bilərdilər. Avropanın mədəni həyatında Fransanın rolu, nüfuzu böyükdür. Amma olar ki, indi bu barədə yazmayım?...

Torpaqlar azad olunandan sonra dilimiz də, əlimiz də uzandı. «Sualtı daşlar» üzə çıxdı, "yeraltı çaylar" dənizlərə axdı… Cənnətməkanlarımızı necə xarabaya döndərdiklərini bütün dünya gördü, «Şuşa Bəyannaməsi»nin Natəvanın evinin xarabalıqları qarşısında bağlanmasına isə dost da tamaşa etdi, düşmən də… Rüsvay oldular. Heç olmamasındansa, yenə gec olması yaxşıdır. Kimdə nə yoxdu, ondan danışar. Hələ inciyirlər də ki, «niyə bütün yollar Romaya aparmalıdır?» Ermənistana nə gəlib ki? Vallah, adam şərh verə də bilmir. «Elə Roma imperiyası da, «erməni imperiyası»nın ardınca süquta uğrayıb», – demək keçir ürəyimdən. Amma susuram. Sonra onu da ciddiyə alacaqlar. Qonşu bizimdir, «kəramətinə» bələdik. Yazıq İtaliya bir tay çəkmə ilə qalıb, (xəritədə uzunboğaz çəkməyə oxşadığı üçün), səsi də çıxmır...

Mən aprel döyüşlərinin həcmini, mənasını, əhəmiyyətini Vətən müharibəmizdə anladım. Lələtəpəni yenidən geri almaq işğalçı tərəf üçün prinsip məsələsi idi. Çox itki verdiyindən, ya bizim hərəkətə keçməyimizdən qəzəblənən düşmən, necə olursa-olsun, vəziyyəti əvvəlki yerinə qaytarmağa çalışırdı. Məqsəd həm də keçmiş hakimiyyətin zəifliyini sübut etmək kimi piar-aksiya idi. Anna Akopyan da «istəyir lap 6000 adam ölsün, Lələtəpə alınmalıdır», – deyə fərmayiş veribmiş. Müharibə fədakarlıqdır. Amma o

halda ki, başqasının uşağından yox, öz oğlunun canından keçəsən… Düşmənin Lələtəpə arzusu gözündə qaldı bir tərəfə, Azərbaycan əsgərinin son dayanacağı da olmadı. «Lələtəpə-2» əməliyyatında düşmən tərəf 1300 hərbçisini, 42 tankını itirməklə Zəngilana qədər qovuldu.

Al-Kaponedən soruşurlar:

– Siz düşməni bağışlaya bilərsinizmi?

– Allah bağışlasin! Bizim vəzifəmiz onları görüşdürməkdir.

Mafioz, qanqster olanda nə olar? Onun təzadları ilə işimiz yoxdur... Bu fikri isə dahiyanədir. Bəlkə də, içində bizim «Allah bağışlasın»ımız var, ona görə belə doğma gəlir?

Dilimizdə ən nifrət etdiyim söz «işğal»dır. 27 il iyrənə-iyrənə «qol-boyun» yaşamışıq. Mənə qalsa, lüğətdən də çıxarılmalıdır. Müharibə bitəndən sonra evdə uşaqlardan biri o birisi haqqında dedi ki, bəs mənim «zaryadka»mı işğal edib. Çox pis reaksiya verdim. Kontrolumu itirdim. Anidən elə bildim bədnam işğal dövründəyik. Bu sözə qadağa qoydum. Son 27 ildə ən çox eşitdiyimiz, işlətdiyimiz kəlmə. Minalar təmizlənəcək... Mexaniki prosesdir. Yaralarımız isə... Hər halda hadisələrin müasirləri olan bizlərinki çətin qaysaqlana...

Qarabağ silsiləsində yerləşən Cəbrayıl Arazboyu İran İslam Respublikası ilə həmsərhəddir. Gözəl dağlıq landşaftı olan Cəbrayıl «Siklop tikililəri», «Divlər sarayı» və s. kimi tarixi «əsər»lərlə, dini təyinatlı abidələrlə, habelə, Orta əsrlərdə Araz çayı üzərində salınmış, Azərbaycanla İranı birləşdirən Xudafərin körpüləri ilə bəllidir. Bu körpülər

həm də o tay-bu taylı Azərbaycanın mənəvi dəyəridir. Cəbrayıl Aşıq Qurbani, Aşıq Pəri kimi söz-saz sahiblərinin yurdu olub. Bu yerlərin erməni ilə yerlə göy qədər əlaqəsi olmadığı faktının müzakirəyə çıxarılması belə normalda anormallıqdır.

Sentyabrın 27-si ilk qaytardığımız 7 kəndə necə sevinmişdiksə, Cəbrayıla da elə sevindik. Hələ ki, qələbəyə öyrəncəkli deyildik. Dünya da dayanmadan «dayanın» deyirdi. Hər an hər şey qurtara bilərdi. Azad edilən ərazilərimizin coğrafiyası günü-gündən genişlənirdi. İlk dəfə Xocalının adı keçdi. Ordumuzun başqa kəndlərlə yanaşı Xocalıdan da iki kəndi azad etdiyi xəbəri elan ediləndə bütün Azərbaycan titrədi, haldan-hala düşdü, dərindən bir "ah" çəkdi. Xocalını bir ayrı cür gözləyirdik. Ora daxil olan əsgərlərimizin keçirdiyi hissləri düşünəndə sevinmək adına ağladım. Mövqelərimiz bərkidikcə, kövrək qələbəmiz də möhkəmlənir, üfüqdə güclə sezilən Şuşa sevdamızın reallaşacağının gün məsələsi olduğuna dair qeyri-rəsmi xəbərlər daha çox və daha ucadan eşidilməyə başlayırdı. Rəsmilər təsdiq olunmamış xəbərləri yaymamağa çağırırdılar: «Ay camaat, lokomotivin qabağınca qaçmayın, səbrli olun, «Qurdlar vadisi» izləmirsiz. Qoyun ordu işini görsün». Təhlükəli idi. İnternetə də elə buna görə məhdudiyyət qoyulmuşdu. Amma şad xəbərin müjdəsini vermək, birinci çatdırmaq hissi də qüvvətli idi. Hətta bilib susmaq əsl mazoxizm idi. Qoy hamı bilsin, hamı sevinsin. Camaat üstüörtülü, kodla, parolla danışırdı. Məsələn, belə... Müharibə etno-folkundan... Xalq belə «nağıl»ları se-

vir… «Anam uşaq vaxtı Şuşada pioner düşərgəsində dincəlib. Xalamın da adı Laçındı. İndi bacım mənimlə telefonla guya işarəli danışır:

– Anası durub, xalasının ürəyi gedib…

– Nə?

– Eeee… Deyirəm ki!!! Mamanın uşaqlıqda getdiyi yeri alıblar, xalanın da üstündə dava gedir... İndi başa düşdün?»

Arxa cəbhə öndəkilərdən «xızlı» irəliləyirdi. Cəbhədəkilər coğrafi lokasiyanı arxadan öyrənirdilər. Hücuma ara verəndə evə zəng vurub xəbər alırdılar ki, indi hardayıq? Özlərindən soruşanda isə ya «nə olacaq? Qar, yağış, duman», – kimi meteoroloji cavablar verir, ya da, «sərçələrdi də… Ordan bura uçurlar, burdan ora», – kimi sözlərlə baş aldadırdılar. Hərbçilərimiz əzmlə susurdular.

Hamı cəbhəyə, qələbəyə köklənmişdi. Hamının amalı bir idi. Prezident də, vitse-prezidentlə bərabər ilk olaraq elə Füzuli-Cəbrayıl bölgələrinə yola düşdü. Səfər zamanı xarabazara çevrilmiş yurdlarımızı ürək ağrısı ilə gözdən keçirən İlham Əliyev torpaqlarımızı məlun düşməndən təmizləyən Azərbaycan əsgərini göylərə qaldırdı, bir daha erməni faşizmini lənətlədi. Prezident, Ali Baş Komandan kimi yüksək statusları daşıyan İlham Əliyev, həm də sözün birbaşa mənasında dünyagörmüş şəxs olaraq bizim kimi iki əli, iki ayağı olan, dünyaya guya insan qismində gələn məxluqatın törətdiklərinə mat qalmağa davam edirdi. Ən dəhşətlisi də o idi ki, əvvəli gülüstan olan bu şəhərləri top, tüfəng, lap elə dron bu günə qoymamışdı... Bu urbisidi erməni adlanan, ən aşağı DNK-lı həşərat sürüsü tö-

rətmişdi. Xaraba, toz-dumana bürünmüş yollarla Prezidentin idarə etdiyi avtomobil 27 il həsrət qalıb İran ərazisindən nisgillə baxdığımız «əsəri-əzim»ə – Xudafərinə yetişdi. «Xuda-afərin» – «Allaha mərhaba», «Allah tərəfindən yaradılmış», «Tanrıya şükranlıq» mənalarını verir. İşqala məruz qalan ərazilər Azərbaycanın ən bol sulu, məhsuldar torpaqları idi. Bu bilgini AzTV vasitəsilə «Virtual Qarabağ»a tamaşa edən zaman aldım. Qarabağ və ətrafının tarixi abidələri sırasında körpülər əsas yeri tuturdu. Araz üzərində çox keçidlər atılsa da, ən məşhuru və ən işləyi Xudafərin körpüləridir ki, çayın ən dar, qayalıq yerində, sal daşların üzərində inşa edilmişdir. Yeri sənətkar dəqiqliyi ilə əlverişli seçildiyindən əsrlərin sel-sularına tab gətirərək bu günə gəlib çatmışdır. Xudafərinin pünhanlarından biri də, 15 aşırımlının Antik dövrdə inşa olunmuş körpünün dayaqları üzərində qaldırılması gümanıdır. Körpülər haqqında deyirlər ki, onlar insanlığın ən xeyirxah əməlidir... Körpü çəkməyi nə ilə müqayisə etmək olar? Suyun üzərində quru təbəqəsi yaratmaqla üzərində salınan hər bir körpü, özündə «qovuşdurmaq» kimi müqəddəs missiyanı daşıyır. Dünyanın ən məşhur asma körpülərindən tutmuş, Asiya ilə Avropanı birləşdirən Boğaziçi körpüsünə, heç bir memarlıq dəyəri olmayıb yalnız öz əsas funksiyasını yerinə yetirən ermitaj keçidlərə qədər – hamısı eyni məqsədə xidmət edib eyni vəzifəni icra edir. Fərq yalnız masştabdadır. Vahid Azərbaycanın rəmzi olan Xudafərin körpüsündən zaman-zaman danışılıb, haqqın-

da bayatıdan belə bağlanıb, şeirlərə, «Xudafərin körpüsü»nə qədər yazılıb.

*Əzizim bu yan dağlar,*
*Al qana boyan dağlar,*
*Bu yan zülmətxanadır,*
*Necədir o yan dağlar?!*

Hər iki körpü İpək Yolunun üzərində yerləşir. Nisbətən kiçik körpüyə «Sınıq körpü» də deyilir. Bu körpülərin nə vaxt tikilməsi barədə dəqiq məlumat olmasa da, təxminlər bir-birini itələyə-itələyə tarixin daha dərin qatlarına aparır. Xudafərin dərəsində atılmış bu körpülər təkcə Xan Arazın iki sahilini bir-birinə bənd etmirdi, həm də, hərbi-strateji əhəmiyyət daşıyırdı. Xudafərinin bu «aşırımlar»ı (11+15) nələr görməyib, nələrə şahidlik etməyib? Daşqınlar, yaxın-uzaq müharibələr, yürüşlər, köçlər, işğallar... «Atını minən» sürüb bura. Amma… atını da qoyub qayıdıb... Hətta bu baxımsız, mamır basmış, yaralı halı ilə də möhtəşəm idi. Mənə elə gəldi ki, bu möcüzəli tağlardan keçə bilsəm,  tamam başqa bir dünyaya düşərəm... Sanki sirləri bu tağlara hopmuşdu. «Qabaqda Qarabağ, arxada Qaradağ. Bu körpünü Qaradağdan Qarabağa tərəf tikiblər. Sonra onun üstündən keçib Şirvana gəliblər, onun üstündən yəqin ki, Hülaki xanın qoşunları keçib, Əmir Teymurun orduları adlayıb». («Xudafərin körpüsü» – Fərman Kərimzadə) Ermənininin isə izi-tozu da olmayıb. Bu körpülər unikal memarlığı, mühəndis həlli ilə də seçilir, içində

olduğu mənzərəyə bədii ifadə verməklə onu daha da möhtəşəm edirdi. Ağa Məhəmməd Qacarın Azərbaycana yürüşü zamanı körpünün bir hissəsi uçurulsa da, sonradan bərpa edilmişdir. Dövlətimizin başçısının Cəbrayıl və başqa azad edilmiş ərazilərimizə səfərlərinin video görüntülərinə baxanda, reaksiyalarını izləyəndə əmin oldum ki, bu torpaqlardan heç kəs (!) onun özü kimi reportaj hazırlaya bilməz. Bayrağımızı Xudafərin üzərində şəxsən Prezident özü qaldırdı, bir sahilinin də olsa, azadlığa çıxmasının kefini yaşayan Arazda əl-üzünü yudu, o taya uzun bir nəzər saldı.

*Bu bayrağa kəm baxan,*
*Həm baxmayan, həm baxan*
*Bədgüman istəmirəm!*
*(Qabil)*

Allah bir də xalqımıza heç bir ayrılıq göstərməsin! Ayrı düşənlərimiz də birləşsin. Qədim Xudafərin üzərində qürurla dalğalanan üçrəngli bayrağımızı görəndə düşündüm ki, bir qaldı oradan tamaşa etmək!

## TƏHLÜKƏLİ SÜKUT

*«Əgər fasiləsiz uçuruma baxarsansa, uçurum da sənə baxmağa başlayar».*
*(F.Nitsşe)*

*«Hərdən elə uzaqlara getmək istəyirəm ki, özümü belə özümlə aparmaq istəmirəm».*
*(Anonim)*

12 may 1994-cü ildən, Bişkekdə Azərbaycan, Ermənistan və «dqr» arasında ilk atəşkəs sənədi imzalandı. Və o gündən bu söz dilimizə, həyatımıza daxil oldu və nə az… uzun 26 il (!) dilimizin acı, çarəsiz əzbərinə çevrildi.

Öz gücünü 27 sentyabrdan götürən «Dəmir Yumruq» əməliyyatı uğurla irəli getdikcə hürkü qəlbimizi yeyirdi. «Yumşaq gücün» işə qarışacağı səksəkəsi ilə yatıb-dururduq: «Bir dayanmasınlar! Qarışan olmasın! Tökülən qanlar hədər getməsin!» Yarı canımız yox, keçmişimiz, bugünümüz, gələcəyimiz, bir söz – bütün varlığımız cəbhədə idi. Haqsızlıq bizi o günə qoymuşdu ki, sülhdən qorxurduq, müharibə istəyirdik. (Əslində, biz düşmənə qarşı iqtisadi, informasiya müharibəsini çoxdan başlamışdıq). Camaat necə döyüş, qələbə əzmində idisə, müntəzəm atəş, mərmi altında yaşayanlar səs kəsiləndə, atışma olmayanda, «birdən dayanarıq» – deyə isterikaya düşürdülər. «Bomba səsləri layla kimi gəlir», – deyirdilər. Vuruşmağa,

intiqama təşnə idik. Şəhriyarın «ya azad ol, ya tamam yan, Azərbaycan» istəyini – ya oyanlıq olaq, ya buyanlıq «edib» gecə-gündüz təkrarlayırdıq. Heç nə gözümüzdə deyildi... Bircə torpaqlar azad olsun. Bu ləkə, damğa üstümüzdən götürülsün. 30 il çəkdiklərimizdən ağır günümüz olmayacaqdı ki? Mərd bir dəfə ölər, namərd yüz dəfə. O da aydın idi ki, «böyük məsələlər qətnamə və danışıqlarla deyil, dəmir və qanla həll edilir». Şəhidlərimizi analarına qoşulub sonra ağlayacaqdıq. Layiqincə. Hələ ki, «vaxtımız yox onların matəmini tutmağa». Həm də ağlamağa üz lazımdır. İndi isə hücum vaxtıdır. Üzdəniraqlar əsgərlərinin meyidini də aparmır, biz tərəfdən çuxur qazıb üst-üstə necə gəldi basdırırdılar. Bunların qanından bir damcı tökülən yerdə qanqal bitər, ya da həmin yer daşa dönər. Hələ çox əməllərinin hesabını verəcəklər, ciddi hazırlaşdıqları soyqırımın, başqa müharibə cinayətlərinin… Sıra ilə. Hələ ki, «payız marafonu» davam edir, hələ ki, «Allah-Allahla» hücumdayıq. O hücum, bu hücum…

Paşinyanın Pyero sifətilə durmadan Kremlin telefonlarını bombardman etməsi (vəziyyət «ermənicə» idi), çoxvektorlu fəaliyyəti nəticəsində havadarlarının müdaxiləsi öz ilk «bəhrəsini» verdi. 10 oktyabr 2020-ci il saat 24.00-dan düşmən tərəflər arasında humanitar atəşkəs elan edildi.

Atəşkəs barədə razılıq gecə 12-dən nəzərdə tutulsa da, elanı xeyli gecikdi, yəni bütün Azərbaycan oyaq qalıb Moskvada baş tutan görüşün necə qurtaracağını ürəyi ovcunda gözləsə də, xəbər çox gec çıxdı. Hər halda mənim

əsəbim və fiziki dözümüm səhərə qədər gözləyə bilmədi. «Gecənin xeyrindən səhərin şəri yaxşıdır» deyib, telefonu söndürdüm. Səhər gözümü açan an ilk düşündüyüm də, gecəki nigarançılığım oldu. Xəbər saytında birinci oxuduğum isə hansısa «yan»ın ləzzətlə «istiotlayıb basdırdığı» zəhərli replikası oldu: «Ну, что, деффочки, как себя чувствуем?» İblis kam alırdı. Öldüm qurtardım. (İnsan həssaslığı, qüruru dərəcəsində sınır). Elə bildim məni itələyib qırx arşın quyunun dibinə saldılar. Başa düşdüm ki, ən qorxduğumuz hadisə baş verib, atəşkəs elan edilib. İmzaya baxdım: Təhminə Ambarsumyan! Lap od götürdüm. Gördüm bizimkilər cavabını verib: «Azz, Təhminə, kiri...»

Dünənə qədər siyasi, kütləvi informasiya və sosial medianın bütün perimetrləri boyunca «kiçicik Artsax 10 milyonluq Azərbaycan və böyük Türkiyəyə qarşı mübarizə aparır», «Ölkədə adam qalmayacaq» (Hə, bax, bunu düz deyir), «3 milyonluq Ermənistan xristian dünyasını təkbaşına qoruyur» (Görəsən xristian dünyasının bundan xəbəri var? Ümumiyyətlə, mətləbə necəsə dəxli var? Hər şeyi dinə yönəltməyi qazanca çevirmək «dindar» qonşularımızın özləri kimi «qədim» adətidir), «Dünya bizi azərbaycanlılarla təkbətək buraxıb, Azərbaycanı dayandırın!», «Bizim xaricdəki ermənilərimiz niyə yatıb qalıblar, heç bir nümayiş və hərəkət etmirlər? Qələbənin açarı başqa yerdədir, iyulda çox aktiv idilər», – deyə ilan dili çıxaran erməni «xor kapellası» («harda hay, orda vay») dərhal başlarını qaldırıb vur-çatlasın edir, hər şeyin bizim üçün yarımçıq qaldığını, bu atəşkəsin də daha 27 il sürəcəyini, «qələbəyə

bir nəfəs qədər yaxın» olduğumuz halda, yenə də məğlubiyyətin acısını yaşamağa məcbur ediləcəyimizi güman edirdilər. Emosional təcavüz bütün «cəbhə boyu» davam edirdi. Yəqin Allah-təala yaranışdan Yer üzünün cəmi günahlarını bunlarda toplayıb, yoxsa ola bilməz ki, bir etnos bu qədər qüsurlu olsun. Atəşkəsdən qabaq isə sosial mediada Nikol qarışıq ahü-nalələri ərşə dirənirdi. Paşinyan məsələ qaldırmışdı ki, «Türkiyəni NATO-dan çıxarmaq lazımdır». (Deyəsən işlər xarabdır, biz Paşiki itiririk…) Anna «amazonka»larını səhnəyə çıxarmağa hazırlaşırdı. Görünən hər saman çöpündən yapışır, gah Israildəki səfirlərini geri çağırır, gah da, Saakaşviliyə verdikləri fəxri doktor adını ondan alırdılar… M.Saakaşvili o qədər yerin fəxri doktorudur ki, Allah bilir, Ermənistanın da olduğu yadından çıxıb. Elə bil verdiyin hədiyyəni geri istəyirsən, Ermənistan hökumətinin demarşları «broşkuyu qaytar»a oxşayır. Bütün mümkün saytlarda, istər internet jurnal olsun, ya dil kursları, ya kulinariya həvəskarlarının qaynar diskussiyası, ya da Skandinaviya yürüşünün forumu – dərhal yuyulmamış çömçə kimi özlərini ortaya atır, dünyadan, əsas da rusdan kömək istəyirdilər. Bu ona bənzəyir ki, oğurluq elədiyin evə polis çağırırsan. Onlar pişxidmətlik etdikləri «rus»a arxayın idilər. Rusiya isə ilk dəfə onları yatımına qarşı sığalladı. Bunu gözləmirdilər, buna alışmamışdılar. Yanaşma dəyişmişdi, devalvasiyaya uğramışdı. Vətən müharibəsinin qızğın çağında, daha dəqiq desəm, 5 oktyabrda rejissor Andrey Konçolovski özünün sosial media hesabında aktrisa İnna Çurikovanı ad günü münasi-

bətilə təbrik etmiş, onu «milli sərvət» adlandırmışdı. Təbrik ünvanına çatmamış «təbaşir dövründən qalanlar» çəyirtgə sürüsü kimi nə tökülüşdülər… Psixoloji atak öz işini görmüşdü, başlarını itirib ayaqlarını gəzirdilər… «Bizi öldürürlər, qırırlar… Bu aprel, Tavuş hadisələri deyil, hazırlıqlı klassik müharibədir», ay belə asdılar, belə kəsdilər, «Siz öz kefinizdəsiniz» kimi qeyri-adekvat şərhlər… Salam-kalamsız. Nə bir təbrik, nə üzrxahlıq... Birbaşa hücum! Hamı bunlara borcludur. İzləyicilər də çaşıb qalıblar ki, İnna Mixaylovna neyləsin? Amma... Səviyyə başqa şeydir. Andrey Sergeyeviç nə onlara baş qoşdu, nə də cavab verdi. Qərardan getməyərək dinməz-söyləməz bütün şərhləri sildi. Məhvi-nabud oldular... Bunlarla belə lazımdı. Bilməmişdi, elə ictimai-siyasi çəkidə şəxsiyyət bir də durub Mkrtıçla, Qariklə, Lüdviqlə ağızlaşacaqdı... Amma bunlara da hay deyiblər a! Balıqsatanın (çox üzr, təbir mənim deyil, sürüşkən mənasında) sifəti var bunlarda. Burdan bir şey çıxmadığını görən «6 № palata»nın pasiyentləri cumdular instaqrama, bu dəfə reper Timatini hədəf seçdilər. Daha doğrusu, onun instaqram hesabındakı paylaşımını bizə hədyan yağdırıb ruslara yalvarmaq üçün platformaya çevirdilər. Məşhur reper Baykaldakı balıqların vəziyyətindən yazmış, təbiəti çirkləndirməməyə çağırmışdı. Bunlar isə öz amplualarında idilər... «Biz balıqlar qədər olmadıq... Rusiya hara baxır? Niyə bizi müdafiə etmir? Dünyanın gözləri və qulaqları bağlıdır və s.» (Salam-əleyküm! Gör kimlər deyir). Heç bizim bir söz deməyimizə ehtiyac qalmadı. Nə emojilər qoyuldu bunların şərhlərinin

qarşısına… Xeyli əylənən followerlər ağızlarının payını verdi.

Biz tez ruhdan düşən millətik. Nevrotik dərəcədə. Qınamaq da olmur. Qorxunun gözləri böyük olur. Özü də 30 il dondurulmuş qorxunun… Dərslərimiz də ağır olub. Dərhal büzüşür, sınır, bu atəkəsin də o biri ataşkəslərdən olduğunu düşünürdük. Bu xəbəri eşidən kimi evin camaatına «bu gün məni heç kim danışdırmasın» ultimatumunu verdim. Bir an içərisində ətrafımda nə var rəngini dəyişdi, öz mahiyyətini itirdi. Qərara gəldim ki, şəhərə çıxım. Həm görüləsi işlərim var idi, həm də içimdəki havanı dəyişib millətin ab-havasını bilmək istəyirdim. Həyətdə birinci mərtəbədən olan cavan qonşumla rastlaşdım. Cırıq denim, Çelentanonun futbolkasına oxşar, sanki şirlə pəncələşmədən çıxan əzik-üzük köynək geyinmiş, qızımın məktəb rəfiqəsi Ülviyyə balalarını maşına «yükləyirdi». (Cavan, ideal bədən forması olsa da, qlamur kanonları saya saymırdı, bu qız rahatlıq, azadlıq aşiqi idi. Əsl Avropa tipi…Nə qədər o tərəf bu tərəfə sürüşdürsək, xarakterlə geyim düz mütənasibdir). Niyə yükləyirdi? Çünki birini oturdana qədər ikincisi o biri qapıdan düşüb qaçırdı. Lap «Osminoqlar» multfilmində olduğu kimi. Dörd uşaq... Allahsaxlamışlar od-alov idilər. Amma anaları nə hirslənirdi, nə çığırırdı, hövsələ ilə onları tovlayıb bir-bir maşına dürtürdü. Əlbəttə, belə əsəb yiyəsi olmasaydı, dörd uşağa da qərar verməzdi... Hə, hələ qucağında ağ "balonkası" da vardı, iti də körpəsinə qatıb böyüdürdü.

– Dilarə xala, hara gedirsiz? Gəlin, aparım.

– Sağ ol, Uleçka!

Adətimdir, mənə edilən birinci təklifi mütləq rədd etməliyəm, özü də düşünmədən, ekspromt.

Tərəddüdümü dərhal tutdu:

– Sağ ol «hə», ya sağ ol «yox»?

«Hə» və «yox»un çəkisi eyni deyil, «hə»ninki bir az artıqdı…

– Kakoy budet Vaş polojitelnıy otvet?

Gülümsədim… Keçib onun yanında əyləşdim. Nəqliyyat vasitəsindən çox, ünsiyyətə, fikrimi dağıtmağa təməl ehtiyacım var idi. Ona görə etiraz üçün zəif təşəbbüs də etmədim, «limitim» bitdiyindən özümə «yoldan çıxmağa» rahat içazə verdim. Ulya da ki, lazım olan vaxtda və lazım olan yerdə qarşıma çıxmışdı. Sifarişlə də, xoşbəxt olmaq olarmış... Bir az dərdləşdik.

– Dilarə xanım, vsyo eto pustyaki, ne perejivayte, perejivem. Bizim panikaya düşən vaxtımız qaldı 92-də. Pasiyent (erməniləri nəzərdə tuturdu) skoreye mertv, çem jiv... Ölüblər e, hələ özlərinə demirlər... Ha-ha-ha...Vsyo budet tip-top, bax, görərsiz.

Söhbəti elə ustalıqla başqa məcraya yönəltdi ki, mövcud vəziyyətlə bağlı həyəcanım hara isə yox oldu. O mənə görə canfəşanlıq etmirdi, sadəcə belə pozitiv ruhlu, mobil insan idi. Bayram-xanım...

Mən də ürəkləndim:

– Ulya, prava aldın?

Bilirdim axı, 10 ilin sürücüsüdür, amma sənədi yoxdur, «qaçaqçılıq» edir... Anası həmişə şikayət edirdi ki, 35 000-

lik maşın sürür, 1000 manat verib «prava» almır. Həm qaçaq idi, həm də qoçaq. İmtahan vermək, prosedurları keçmək onluq deyildi.

– Yoo... Prava ilə sürənə pis baxırlar – deyib, mənə göz vurdu. (Nə deyirsiz deyin, hazırcavablıq, yumorla yolavermə də bir intellekt səviyyəsidir).

– Bəs QAİ (Mən köhnə qayda ilə elə «QAİ» deyirəm) saxlamır?

– Əvvəla, səliqəli sürürəm, pravam olmadığı üçün ikiqat… Sonra da, saxlayan olanda boynumu büküb məsum sifətlə deyirəm:

– A ya doma zabıla... (Deynən nə zülümdü?)

– Lap «gündəliyim evdə qalıb»a oxşadı. İnanirlar?

– Əlbəttə, yox. Bir az qaragözlük edirəm, baxıb görürlər maşının içi uşaqla qaynaşır, cığ-bığ... Bərkini tutmurlar, yazıqları gəlir, buraxırlar. Lap kənəyi düşəndə deyirəm: «Yoxdur, vur öldür!»

Hələ ki, ilişməmişəm. Adrenalindi... Ən çox nənəm narahatdır mənim «заяц» kimi gedib-gəlməyimə... «Zakoposluşnıy» sovet adamı kimi özünü öldürür, vay səni tutacaqlar, bu podsudnı işdi-filan. Deyir məhkəməndə hakimə deyəcəyəm ki, sud (məhkəmə) sağ olsun, sən o dəftər-kitabı qatla qoy bir tərəfə, mənim sualıma cavab ver, indi sən bu qızı aparırsan, bəs dörd uşağa, üstəlik də, itə kim baxacaq?

«Elə nənəli-balalı eyni xəmirdəndilər» – düşünüb, gülməkdən yaşaran gözlərimi sildim.

– Yaxşı, bəs bu qanun pozuntusuna Tural necə baxır? (Bu epataj xanımın həyat yoldaşı orqan işçisi idi).

– Heç nə cür. Bilirsiz mənimçün nə deyir? Deyir «o fərasət ki, səndə var, ölüm hökmünü də ləğv elətdirərsən...» Ha-ha-ha...

Bir dəfə cibgir çantasına girəndə kosmetiçkasını pul qabı bilib götürmüşdü. Ulya da fikirləşib ki, kosmetiçka oğrunun nəyinə lazımdır? Tini burulan kimi tullayacaq. «Amma mənə lazımdır, onsuz işim keçmir. Oğrunu bir tərəfə çəkib bunları sakit-sakit ona dedim. İnanırsız, qaytardı». Düz deyir də Tural... Oğrunu inandıran, onunla sövdələşən nəyi bacarmaz ki?

Hər gün belə, özü də, Maştağada yaşayır. Bu qayda ilə «ekipaj»ını maşına qoyub şəhərə gəlir, birini liseyə, birini məktəbə, üçüncüsünü baxçaya paylaya-paylaya körpəsi ilə gəlir anasıgilə... Gün qurtaranda da, colma-cocuğunu toplayıb qayıdır evinə. Uşaqlara da elə tərbiyə verib ki, qonaq da gedəndə yeyib süfrədən qalxanda atalarına dua edirlər: «Allah atamızın canını sağ eləsin…»

– İşə düzələndə prava da alacam. Söylü demiş, «sünnəti ilə pasportunu birləşdirəcəyəm». (Elə özü də, Söylünün günündə idi). Tural mənə notarius açır axı…

Məni əzən «minor» hara getdi, bilmədim... Ay Allah, bu qədər kef əhli olmaq özü «cinayət»dir… Mən onunla əylənməkdən yoruldum. Gülməkdən üzümün əzələləri ağrıyırdı. Deyəsən Qurbanolduğum bu qızı bu günümü xilas etmək üçün mənə rast gətirmişdi. Demədim axı, mənim bu «əhmədi-biqəm» qonşum BDU-nun hüquq fakül-

təsini qırmızı diplomla bitirmişdi, öz işinin mahir ustası idi, qonum-qonşunun da havayı hüquq məsləhətçisi. Yoldaşı ilə də elə universiyetdə tanış olmuşdu, bir oxumuşdular. Bu da məndən onun imicinə orijinal bir əlavə.

– İndi sən məni qoyub gedəcəksən? – deyə yazıq-yazıq soruşdum...

– Sizin podderjkaya ehtiyacınız yoxdur, yalnız çətin dönəmdən keçirik. Gördüz sizə çətindir, bir-iki qab sındırın, hündürdən şeir deyin, lap himn  oxuyun. İçinizə də çəkilib susmayın. Ruhunuzu yüksək tutun!

Ülviyyə məni «Sahil»də düşürdəndə əlimi tutub sıxdı. Əli pəncə kimi, dırnaqları caynağa oxşasa da, bu mənə münasibətinin göstəricisi idi. Özüm də belə edirəm, çox istədiyim adamla danışanda əlinə toxunuram. Əl insan anatomiyasının ən hissiyyatlı üzvüdür. Özü də belə ağır, relyefli olanda… Ehtiyata bir az da qəlbinin işığından verib sürüb getdi. Dənizdəki gəmilər kimi aralandıq... Hərə bir tərəfə. Kefim olmadığı üçün obrazlı xəyal etdim... Və yenə də qarmaqarışıq  düşüncələrə qərq oldum. Çarpaz suallar, cavab isə yox… «İlahi, bu gün də rəhm elə bizə, sabahı demirəm, təkcə bu günü».

Hər tərəfdən Şəmistan Əlizamanlının bas-bariton səsi gəlirdi:

*Gecədir, ilahi bir yay gecəsi*
*Tutulub ayın da məsum çöhrəsi...*
*Amma ötüşməyir qəlbin payızı,*
*Onun nə yayı var, nə də ki, yazı.*

Yoldan keçənlərin üzlərinə baxdım. Günəşin saçaqları üzlərdə parıldasa da, qəlblərdə payız idi. Ovqatım lap təlx oldu… Qırmızı orqanzadan paltar geyinmiş meymunla da şəkil çəkdirən-filan yox idi. Elə məhzun gözlərlə baxırdı. Dünən «Tarqovı»dan keçəndə eyvanların birindən üç mərtəbə boyu sallanmış ipək bayrağa heyranlıqla baxıb fərəhlənən mən bu gün onu ilişmiş, süzülmüş, solğun gördüm. Bayrağın bezdən olanına da qurban olum. Amma dünənki bayraq o qədər parlaq idi ki, güzgü kimi. Bu gün gördüyüm halı isə yəqin ki, atəşkəsdən idi, əhvalım elə diqtə edirdi. Nəzərlərimi çəkdim… Yox, sınaq sınamırdım, sadəcə, nağılda qoca balıqçı hər dəfəsində dənizi bir cür görən kimi idim. Biofizikanın qanunudur, diqqət hardadırsa, enerji də ora axır…

Ülviyyə kimi pozitiv düşünənlər azlıqda olsalar da, mənim kimi dağılmış həmvətənlərinə başa sala bildilər ki, humanitar atəşkəs qısamüddətli olub ekoloji katastrofanın qarşısını almaq üçündür. Beynəlxalq Qırmızı Xaç Komitəsinin meyarlarına uyğun «ermənilər gəlib leşlərini götürüb rədd olsunlar» deməkdir. Yəni, başqa narahatlığa əsas və səbəb yoxdur.

Paşinyan kabineti «sələflərinin atını çapmadı». Yeni ssenari üzrə spekulyativ sirkulyasiyalar edərək düşünürdü ki, demokratiya adı altında hakimiyyətə gəldiyinə görə dünya Ermənistanı dəstəkləyəcək və yeddi rayona dair münasibətini dəyişəcək. «Dünyanın dərdi tək Ermənistandır və illüminatordan baxanda yalnız Ermənistan görü-

nür» illüziyası düşmən ölkənin tam iflasını sürətləndirdi. Hər cür dayaq, dəstək olmaq öz yerində, amma Rusiya indiyədək Qarabağı Azərbaycanın tərkib hissəsi saymayan bir dənə də olsun layihəyə qol qoymayıb. Tərkibində iyirmi Qarabağın yerləşməsi əlbət ki, əsaslı səbəbdir. Amma yenə də olsun! Onlar isə fasiləsiz rusa yalvarır, təhdid edir, kömək istəyir, batdıqca batırdılar:

– Rusiya, ölkəmizə kömək et, yalnız sən qadirsən.

– Bizim sahibimiz rusdur, qalanlar fonoqram şeylərdir.

– Ermənistanı rusa verin, bəsdir bizim uşaqlarımızı mayak etdiniz...

– Vaah, ağrımız necə də böyükdür, bizim nəsil verən nəslimiz qırılır.

90-larda bizə yaşatdıqları demoralizasiya bumeranq kimi özlərinə dönmüşdü. Həyat bumeranqdır. Bunların başına gəyən isə bumeranqın klassiki.

Bundan sonra müharibə sürəsi daha iki atəşkəs elan edildi. Birincini təskinedici həblərlə, damcılarla ötürən mən, sonrakıları sakit qarşıladım, heç bilmədim hardan gəldi, hara getdi... Hətta, «bu Trampın atəşkəsidir» deyib qorxudanda da vecimizə almadıq. Həmişə ağlayası deyildik ki? Atəşkəsi lağa qoyub dolayır, məzələnirdik. Mən xalis realistəm. 26 il atəşkəs sürər? Artıq bu işin məntiqini tutmuşduq. Atəşkəsdən iyrənən bizlər atəşkəsi sevdik. Həm də, əsassız şübhə zehnin düşmənidir, insanı içəridən gəmirir, tarazlığını pozur. Bir də, heç olmasa, ona görə ki, düşmənlərimizin razılığı pozacağından yüz faiz əmin idik…

## ÜZÜ BƏRİYƏ...

*Hər kəsə bəyandır bu ki, həmişə,*
*Şəhiddən cənnətin qoxusu gəlib.*
*Bu Vətən nə gözəl lay-lay deyib ki,*
*Bu qədər igidin yuxusu gəlib...*

İlk qələbə sevincini Füzulinin kəndləri yaşatdı bizə... Sentyabrın 27-si ordumuzun əks-həmlə hücumu nəticəsində Füzulinin 7 kəndi işğaldan azad edildi. Qələbə sevincini qorxa-qorxa, arxaya baxa-baxa daddıq. Çünki Birinci Qarabağ müharibəsində və daha sonra yüksəkliklər, məntəqələr, hətta böyük ərazilər də azad etmişdik. Lakin ya təzyiqlər nəticəsində saxlaya bilməmiş, ya da çoxlu sayda səbəblərdən ardı gəlməmişdi. Tez-tez Xocavənd rayonu, Hadrut yaxınlığındakı Ərgünəş yüksəkliyi, Ərgünəş qalasının adı çəkilirdi. Yaxınlığındakı dağlardan daha yüksək olduğuna və günəş şüası ilk dəfə həmin dağın zirvəsinə düşdüyü üçün dağ Ərgünəş adlanırdı. Deyirlər, oradan baxanda adamın ürəyi açılır. O vaxt mənə elə gəlirdi ki, bu gözəl adı olan yüksəkliyi ələ keçirsək, daha bizə zaval olmaz. Dövlət müstəqillik günümüz yaxınlaşırdı. Qələbəyə doğru yolumuzda ən böyük zirvə olan RUH yüksəkliyini qazandıqdan sonra hiss edirdik ki, bayram münasibətilə Prezidentin «ehtiyat fondundan» («revizorun payından») şad xəbərlər olmalıdır. Tvitsiz bir günümüz olma-

sın! (Müharibə folklorundan). Oktyabrın 17-si səhər evdən çıxdım. Liftə minməyimlə dayanmağı bir oldu. Beş dəqiqə keçməmiş binamızın komendant, ocaqçı, meyvəsatan, ev-dar xalaşkalardan ibarət «təcili yardım» – çətinə düşənə dəstək komandası liftin qabağına toplaşdı. Emosiyalar da ki, zəngin… Mən də bir az soyuqladığımdan səsim batmışdı, çətinliklə danışırdım. İçəridən eşidirəm ki, deyirlər:

– Qoca arvad qalıb liftdə, yazığın səsi də çıxmır.

Fikir çox xoşuma gəldi, elə lazım olan, istədiyim də bu idi. Mənim cavab reflekslərim çox zəifdir. Adətən, situasiyaya ləng reaksiya verirəm, hadisə məni möhkəm tutanda isə sanki transa düşür, sonra da altını çəkirəm. Ancaq bu dəfə belə olmadı. Sövqi-təbii telefonumu çıxarıb liftin divarında yazılmış «lifdorun telfonu»na zəng vurdum. Sözün açığı, cavab verəcəyini gözləmirdim, telefonumun enerjisi də «ölmək» üzrə idi. Amma verdi... Liftçi telefonu açar-açmaz kabinada qaldığımı, qoca olduğum üçün dayana bilmədiyimi söyləyib təcili kömək istədim. Dəqiqəyə kömək yetişdi. Liftçi işləyir, səsə yığışanlar da mənə «bir azca da döz» deyə-deyə ruh verirdilər. Hələ gerisinə qulaq as… Nəhayət, qapıları aralayıb məni hamının iştirakı ilə bayıra dartıb azad etdilər. Yaşlı qadını xilas etməyə tələsdiyindənmi, ya həyəcandanmı qan-tərə batmış liftçi bayaqdan canfəşanlıq göstərib indi çaş-baş qalmış «əməliyyat qrupuna» bozardı:

– Budu qoca?

Tərs kimi də həmin gün ən yaxşı formamda idim. Başıma gələnin «əsl «Mozalan»lıq» ssenari, bu günə uğurlu

başlanğıc olduğunu düşünüb, yoluma davam etdim. Yadıma düşmüşkən, liftlə bağlı başqa bir epizodu da danışım… Bir dəfə toya gedirəm, minmişəm liftə. Yay vaxtı, ağcaqanadın sezonu. Lift mərtəbələrin arasında ilişdi. Taksi də aşağıda gözləyir. Panika içərisində kabinanın düymələrini bir-bir basmağa başladım. İşıq da söndü. Axırda hansı möcüzə ilə isə qapı açıldı. Dərhal özümü bayıra atıb pilləkənlərlə üzü aşağı qaçmağa başladım. Taksiyə yetişən kimi «bağışlayın, liftdə qalmışdım», – deyə üzrxahlıq elədim.

Sürücü sakit əda ilə:

– Çağıraydız, çıxardaydım da, – dedi.

– Aaaaa, liftyorsuz?

– Bəli, «bolt»da podrabatıvat edirəm.

Təəccübləndim, əvvəl elə bildim zarafat edir. Mənim aləmimdə sürücü işləmək üçün şəhərin hər tinini tanımaq lazımdır. İndinin özündə də, bir yeri soruşmaq lazım gələndə gördüyüm ilk taksiyə yaxınlaşıram. Naviqatora görə liftçi də şoferlik edir. Vay o gündən ki, naviqator xarab ola. Onda gərək sən şoferi aparasan… Yəni… başıma gəlib.

Qayıdıram söhbətimin mabədinə. Həm də həmin gün ümumdünya yoxsulluqla mübarizə günü idi. Qərara aldım ki, nə olursa-olsun, yaxşı xəbər eşitməliyəm. Niyə qəlbimə belə çökmüşdü, özümü niyə belə pozitivə proqramlamışdım – orasını hələ müəyyənləşdirməmişdim. Hər əlamətdə müsbət nəsə axtarırdım... Elə də oldu! Həmin gün xəritəmiz bir az daha yaşıllaşdı, Cəbrayıldan sonra

Füzuliyə də «yaz» gəldi. Oradan olan yaxınımı bu münasibətlə təbrik edəndə nə dedi ki, evimizi belə tikərəm, nə də ora sürünə-sürünə gedərəm... Sadəcə:

– Xəcalətdən qurtardıq. Onların göyə sovrulmalarıyla 30 illik xəcalətimiz çıxır canımızdan, – dedi.

Budur, işğaldan xilas olmuş Füzulidən kadrlar yayımlanır. Görüntü rəngli olsa da, kadrda rəng görünmür. Heç ağ-qara da deyil. Müdhiş mənzərə. Türkiyə türkcəsindəki kimi gözəl, heyrətamiz mənasında yox. Dəhşətli, tükürpərdici anlamında. Nə vaxtsa Mədəniyyət evi olmuş indiki küllükdə, içi gicitkan basmış qapı-pəncərəsiz, damsız dörd divarın arasında, qozbel ağacların əhatəsində skripkaçı qız sərgərdan-sərgərdan viranəlik musiqisi ifa edir. Sivilizasiyanın əlaməti belə yox. Miskinliyin qalıqlarına baxdıqca düşünürdüm ki, nə ağır qisməti var imiş bu alətin. Ya gəmi batanda çalınır, ya insanları elan olunacaq ölüm xəbərinə, bədliyə hazırlayır. Skripka mövzusu Şerlok Holmsun da süjetlərindən keçir, əfsanəvi xəfiyyə hər "qəlb krizisi" keçirəndə sakitləşmək üçün skripkasını kökləyirdi. Kədərli siyahını Eynşyeynlə də davam etmək olar, amma bu qədər bəsidir…

İndi də səsi xarabalıqdan gəlir…

Əlbəttə ki, Füzuli və başqa şəhərlərimizdə atom bombası partlamayıb, erməni nifrəti fışqırıb. «Rossiya» kanalının hazırladığı bir verilişdə deyildiyi kimi, «тут воевали с мертвыми». Bütün bir şəhər tikinti materiallarına bölünüb satılmışdı. İnsan ağlı bunu qəbul etməkdən imtina edirdi. Erməni faşistlərinin torpaq təcavüzü və düşünül-

müş qətliamdan sonra bizə vurduqları ən böyük ziyan mənəvi-psixoloji zərbə idi. 30 il ağrı-acını canında, qanında daşıyan bizlər, görəsən onların bizə böyük porsiyalarla davamlı aşıladıqları natamamlıq kompleksindən, zədələnmiş psixikadan xilas ola biləcəyikmi? Nə qədər ki, torpaqlarımız işğalda idi, biz ancaq bu iki faktordan danışırdıq… Əlbəttə, bilirdik ki, qəsb etdikləri ərazilərimizdə daş daş üstdə qalmayıb, məzarlıqları da şumlayıblar… «Burada qəribi möhkəm bir ağlamaq tutur…» Lakin eşitmək ayrı, hissi-təmas bir başqa… Atalarımız nahaqdan demirdilər ki, nə gözüm görsün, nə könlüm qubar eyləsin. İndi azad olunmuş şəhərlərimizə, kəndlərimizə baxanda başa düşürəm ki, «torpağını torba ilə daşıtdırmaq» nə deməkdir, necə olur. Qasım bəy demiş, «xəbər alsan bu vilanın əhvalın»… Şəhərlər ölüb, sümükləri qalıb. Qarabağ və ona bitişik rayonlar əsl genosidə uğrayıb. Yeni işğal olunanda söz gəzirdi ki, erməni «sənətkarları» Füzulinin, Ağdamın imarətlərinin mıxlarını da səliqə ilə çıxarıb Xankəndinə aparıblar, aran Qarabağı xaraba qoymaqla dağlıq Qarabağı təzədən qurublar.

Füzulini bərpa etmək mümkün deyil. Yenidən özül qoyulub tikiləcək. Erməni də modern villagelərdə yaşayan füzulililərə bizim yayımlarımızdan baxıb köks ötürəcək, keçmiş xarabazarın həsrətini çəkəcək. Müasir Ermənistanın qədim torpaqlarımızda törətdiyi barbarlığın həcmi və miqyası o dərəcədə idi ki, mütəxəssislər müqayisə üçün alternativ göstərə bilmirdilər. Stalinqrad həsəd aparardı. Xarkovun işğal şəkillərini xatırladım. Abad şəhərdi, alman

hərbçiləri çiyinlərində tüfəng müəyyən yerlərdə durublar. Camaat da öz iş-gücündə...

İlk qələbə müjdəsi Füzulidən gəldiyi kimi, sonrakı peşmançılıqlar demirəm, kədər, hüzün də Füzulinin şəhərindən gəldi: «Füzuli uddu balalarımızı...» xəbəri üzdü, yandırıb tökdü bizi. Onsuz da gec-tez bu can bizdən çıxacaqdı. Yenə də özümüzü o yerə qoymadıq, sındırmadıq, Şuşada çəkilən şəkillərdə yeri görünən «uşaqların yerdə qalanı yəqin o biri küçələrdə şəkil çəkdirir» – dedik, «bir ölər, min dirilərik» – dedik... Sözü, şeiri köməyə çağırdıq: «Sanmasınlar yıxıldıq, sanmasınlar çökdük, bir başqa bahar üçün yalnız yarpaq tökdük»... Bu gün sıramızda olmayanlar qəlbimizdədir… «İlk düşməni siz gördüz, sizi görən isə cəhənnəmi gördü». Dünyasını dəyişənlərin həyatı sağ qalanların həyatı ilə davam edir.

*Mənə ölümdən danış.*
*Bu həyatın o tayında nələr var,*
*ondan danış.*
*Danış gərək ora qaranlıqdımı?*
*İşıqlıdımı?*
*Cənnət yaraşıqlıdımı?*
*Necə görünür buralar buludlardan?*
*Deyirlər mələklərin qanadları olur.*
*Sənin də qanadların varmı?*
*Ya həmişə var idi, biz görmürdük sadəcə?*
*Bəlkə elə ruhların qidası arxasınca tökülən göz yaşıdır?*
*Bəlkə gedən ruhları qalanların acısı, dərdi yaşadır?*

*(Bir ananın "layla"sından...)*

Düz yerdə başımıza gələn bu müsibət bizə lazım idi? Cavanlar təhsil alacaqdılar, işlərinə gedəcəkdilər, analarına, balalarına dönəcəkdilər...

«Əsgər ocaq əmanəti, od əmanəti» deyə-deyə problemi sülh yolu ilə, danışıqlarla həll etməyə çalışdıq. Olmadısa, olmadı... Qələbə ölümün tərəfinə keçdi. Prezidentimiz döyüşlərdən sonra: «məni ən çox kədərləndirən itkilərimiz, ən çox sevindirən isə Azərbaycan xalqının iradəsidir», – demişdi, «ərazilər dronla işğaldan azad edilmir, onu əsgər azad edir». Amma yenə olmayanı etdi, üç ağır rayon döyüşsüz, qansız qaytarıldı. Aldığımızı alandan sonra «pis sülh yaxşı müharibədən yaxşıdır» deyimi ilə razılaşdıq. 2020-ci ilin 27 sentyabrı səhər saatlarından başlayıb 17 oktyabra qədər davam etmiş Füzuli əməliyyatı Azərbaycan ordusunun qələbəsi ilə başa çatdı. Nə qızıl qanlar töküldü lay sinələrdən Qarabağın qara bağrına... Əməliyyatın qəhrəmanları, iki monolit – Mais Bərxudarov və Hikmət Mirzəyevin adı bütün Azərbaycanın dilində idi.

## Günlərdən ZƏNGİLAN!

*Mənim yurdumdan başqa söylə görüm harda var?*
*Çinar kimi oğullar, oğul kimi çinarlar.*
*(Zahid Xəlil)*

*Qəlbimi qalın bir kitabın arasında qurutdum,*
*Onu orada* beş *barmaqlı bir çinar yarpağı tək unutdum.*
*(Didəm Madak)*

Oktyabrin iyirmisi idi. Evdə oturmaqdan bezib, həm də bir az fikrimi dağıtmaq üçün, ortancıl nəvəm Nəzrini də götürüb yürüş etmək qərarına gəldim. Marşrutumuz yaşadıqları Milli Məclisin arxasından oxuduğu akademik Zərifə Əliyeva adına liseyə qədər uzun bir məsafəni qət edirdi. Yol boyu ancaq bir mövzu ətrafında söhbət etdim. Söhbəti də bilərəkdən, müəllimə ədası ilə uzaqdan başladım. Faciələrimizdən, Qarabağ yalanından, onların kökündən, indiki Ermənistan ərazisində qalan torpaqlarımızda – İrəvanda, Qafanda, Gorusda, Zəngəzurda, Göyçədə etnik filtr əməliyyatı aparıb bizi necə qovduqlarından, mənfur düşmən tərəfindən qətl edilən soydaşlarımızdan, onların məkr və hiyləsindən, bu dəqiqə yolumuzda cəbhədə qanı tökülən nər kimi oğlanlardan 14+ imkan verdiyi qədər danışdım. Peyğəmbərimiz də deyirdi ki, insanlara ağıllarının ölçüsü qədər söz deyin… Deyirdim ki, Nazi, müharibə bitəcək, zaman keçəcək... Hamı normal həyatına dönəcək... Amma «onlarla» mənəvi mübarizəmiz heç vaxt bitməyə-

cək. Erməni faşizminin kökünü birdəfəlik kəsmək üçün! Sən böyüyəcəksən, xarici ölkələrə çoxlu səfərlər edəcəksən. Amerikada mühazirə deyəcəksən, orada ermənilər də olacaq... Amma sən onları həndəvərinə buraxmayacaqsan. Olanları bir daha təkrar etməmək üçün! Mən danışdım, o qulaq asdı... Özü də diqqətlə. Həmin trayektoriya üzrə də geri qayıtdıq. Uşaq gəzməkdən yox, mənim mühazirəmdən yoruldu... Adətən, onunla «qız-qıza» ünsiyyətdən sonra elə bilirəm günəşi udmuşam. Qucaqlayıb sinəmə sıxanda isə, bütün dərdi-qəmim quş kimi uçub gedir. O qədər içərisi işıqlı, nurlu insancığazdır. Amma bu dəfə susurdu, hiss edirdim ki, düşünür. Bir onu dedi ki, erməni necə olur, mən heç erməni görməmişəm... Dedim, qızım, heç görməyəsən də! Dünyaya gücümüz çatmaz, inşaallah ki, siz ermənisiz Azərbaycanda yaşayarsız. Yeniyetmə olsa da, «tik-tok» oynayan, danışıqda «krinj, a mne fioletovo» – kimi sözlər işlədən uşaqdı. Öz aləmindədi, maraqları başqadı. Səhərisi bacım Sona deyir ki, xəbərin var, Nəzrin instaqramda militari geyimdə Qarabağla bağlı paylaşım edir...

Evə qayıdanda elə qapıdaca bizi bir çox kəndlərin və Zəngilanın özünün azad olunması xəbəri ilə qarşıladılar. Hədsiz sevindim, daha doqquz gün sonra işğal tarixini hüznlə qeyd etməyəcəkdik. Bir də heç vaxt işğal günü kimi xatırlamayacağıq. Tarixə dönəcək, tarix isə qan yaddaşımızdır. Düşündüm ki, müharibə təzə başlayanda deyirdik ki, heç olmasa bir-iki rayon alaq da... Bir az özümüzü gələk, qəddimiz düzəlsin. İndi sanki meteorit yağışının al-

tında qalmışdıq. Mən bu duyğuları heç vaxt görmədiyim, lakin həmişə təbiət hadisəsi kimi təsəvvür etdiyim, canlı görməyi çox arzuladığım göydaşı yağışına bənzədirdim.

Evimin yanında «Zəngilan» mərasim evi var. Hər gün qarşısından keçirəm. Hər dəfəsində də fikirləşirdim ki, Zəngilanın adına heç şadlıq evi, restoran yoxdur… eşitməmişəm...

Həm də, Birinci Qarabağ müharibəsində Zəngilandan sonra işğal dayandı, tilsim sındı. O minvalla Bakıya qədər gələ bilərdilər. Düşmən Ağcabədiyə qədər dirənmişdi. Məqsədləri bizi Kürə qədər qovmaq, sonra istədikləri müqaviləyə qol çəkdirmək idi. Amma alınmadı. «Dəmir yumruğ»un, «İtiqovan»ın qovduğu erməni İrəvanda deklamasiya deməyə başladı: "Məni Zəngilana qaytarın, başqa yer istəmirəm. «Ya Zəngilan, ya heç yer».

Dədən-baban Zəngilan tanıyırdı..?

Yenə də bir zəngilanlıdan dəqiqləşdirmək qərarına gəldim:

– Sizdə erməni var idi?

– Barmaqla göstərməyə dənəsi də yox idi, – dedi...

Zəngilan çinarlar yurdudur. Belə olub həmişə. Avropada ən böyük çinar meşəliyi Zəngilanda yerləşirdi. Bu meşənin çinarları 800-1000 ilədək yaşayırdı. Qansızlar kəsməsəydi, çapıb talamasaydı, qırıb «mebel»ə xarici şirkətlərə satmasaydı… «Bizim elə bir imkanımız yoxdu ki, orada əkin-biçin işləri aparaq». Bunu da onlar deyib, dünyaya mədəniyyət oxuyan yamyamlar. «42 hektar (!!!) sahənin ağacı xüsusi qurğulardan, kimyəvi-yuyucu məhlullardan

keçirilərək toz halına salınıb». Təbiəti də xaraba qoyublar. Onlar edib. Kimlər? Daha sözüm qalmadı... «Nesenzuraya» da keçə bilmərəm. Silah-sursat qablaşdırılmasında istifadə ediblər. Öz meşələrimizi silah edib özümüzə qarşı çeviriblər. Amma bizi «kəsə» bilmədi, çünki kökləri dərinlərə işləmişdi. «Çinar ağacının kölgəsi sərin, kökləri dərin olur...» Ağaclar hardasa insan kimidir, özü burdadır, rişələri harda... Ağac da qucaqlaşmağı sevir, budaqlar bir-birinə sarmaş-dolaş olur, sevgisini bildirir, sevdiyindən bərk-bərk yapışır, buraxmır. Zədə alanda ağlayır, kəsiləndə qarğış edir. Deməyin, ən böyük yırtıcı insandır... Yox, İnsanı təhqir etməyin, İnsan yer üzünün əşrəfi olaraq qalır. Vəhşi erməni və onun həmcinsləri xaric... Kəsilən çinarların yerinə meyidləri səpələndi. İşğal altındakı torpaqlarımızda hansı vəhşiliklərin törədildiyindən əlbəttə ki, xəbərimiz var idi. Amma görməmək bir zülüm, görmək ikiqat zülüm... Bizim əsgərlər məscidə daxil olanda dəhşətli mənzərə ilə qarşılaşmışdılar, orada donuzlar qaynaşırdı. Məscidlər bilərəkdən donuzxanaya çevrilmişdi. Müsəlmanların murdar saydığı, ikrah etdiyi heyvanı qəsdən müqəddəs məkanlarımızda saxlamışdılar. Bu qeyri-insani əməl mənəvi işğal, bütün müsəlman aləminə hörmətsizlik, təhqir idi. Dünya isə üzünü o tərəfə çevirmişdi. Guya görmürdülər. Gözlərinə çöp düşmüşdü…

## AĞ OĞLAN

*İlhamdır sabaha inandığımız!*

İndiyədək «Hadrut» deyib özlərini öldürürlər. Hadrutun qayıtması ilə Ermənistan rəhbərliyinin paxırı açıldı, ciddi-cəhdlə gizlətməyə çalışdıqları məğlubiyyət üzə çıxdı. «Mövqe itkilərimiz var», – deyə etiraf etməyə məcbur oldular. (Bu boyda qəsəbəni hansı çuvalda gizlədəcəkdilər?) Kiçik Ermənistan çoxdan qurumuş piroq kimi ovulub tökülməyə başladı. Erməniləri Şuşa Hadrut qədər yandırmadı. Hadrut Şuşaqabağı iştahalarını küsdürən «aperitiv» oldu. Hadrutdan sonra əlimiz daha da bərkidi. Çünki Şuşa ilə yaxından-uzaqdan heç bir bağlılıqları yoxdur. Özləri də bunu gözəl bilirlər, önündə, sonunda Paşinyan da isbata ehtiyacı olmayan bu sadə faktı etiraf etməyə məcbur oldu. Nə qədər zoruna getsə də, heç olmasa, revanşistləri susdurmaq naminə eqosuna belə bir güzəşti etdi: «Şuşa bədbəxt, boz, ölü şəhər idi». Gözəllik – baxanın gözlərindədir. (D.A.) «O bizə lazım idi? Lazım idisə, niyə bu vəziyyətdə idi? Erməni elitası «dqr»-nın prezidentinin tacqoyma mərasiminin Şuşada keçirilməsinin əleyhinə idi». Paşinyanın hakimiyyətə gəlməmişdən qabaqkı fikirləri də maraq doğurur, hərdən düşməni də dinləmək olar, necə deyərlər, caninin də son söz haqqı var. Erməni «Mandelası» jurnalistlik fəaliyyəti zamanı yazırdı: «Gəlin, əcdadlarımızı tərifləməyi dayandıraq və özümüzə praqmatik bir sual verək: bəs bu atalar bizə nəyi vəsiyyət etdilər, özlərin-

dən sonra nəyi geridə qoydular? Heç bir şeyi! Ona görə də «heç bir şeyi» sıfırdan başlamaq məcburiyyətindəsən, çünki atalarımız bizə yalnız soyqırımı, alçalma, xəyanət və əxlaqsızlıq hisslərini qoyub getmişlər... Mən əcdadlarımızı qınayıram, onları lənətləyirəm, çünki onlar bu gün bizim ləyaqətlə və daha qürurla yaşamağımız üçün heç nə etməyiblər».

Necə istəyirlər yaşasınlar, istəyirlər sıfırdan, istəyirlər sondan. Ancaq bizsiz və bizdən uzaq!!! Mifik «böyük ermənistanı» başqa yerdə qursunlar. Onsuz da, kor tutduğunu buraxmayan kimi bunlar da iki-tək, bir-cüt ermənisini bu gen dünyada, bu günəşin altında yerləşdirməyə bir yurd tapmır.

Amma Hadrutda yaşayıblar, bizim olub, amma onlar yaşayıb. Yaşadıqca da iştahaları açılıb, özlərininki hiss ediblər, buna özlərini inandırıblar, inandıqca arxayınlaşıb, arxayınlaşdıqca harınlaşıblar. Ona görə gedəndə nə Hadrudu yandırdılar, nə Stepanakerti. Hadrutda bizə çoxlu tələlər qurulmuşdu, nə qədər insanımızı apardı. Biz müharibənin başlayacağına inanmasaq da, onlar düşünüb hazırlaşmışdılar. Ərazi dağlıq olduğu üçün texnika ilə hücum etmək demək olar mümkün deyildi. Yaralı və şəhidləri arxaya düşməndən müsadirə etdiyimiz tanklarla daşıyırdıq. 2020-nin noyabrında orada top-tüfəngin səsindən dəliyə dönmüş çöl donuzlarının əlindən tərpənmək mümkün deyildi. İndi Hadrut özümüzdədir. Lazım olduğu yerdədir. Qanla aldığımız üçün ora erməni ayağı dəyməyəcək. Hadrut uğrunda gedən döyüşlərdə baş gizir Camal İsmayılov

erməni dili bildiyindən onları aldadıb tələyə salmış, 17 nəfərdən ibarət dəstə ilə mənfur düşmənin 500 əsgərini məhv etmişdi. «Hadrut fatehi» kimi tanınan Camal İsmayılov ölümündən sonra Prezidentin sərəncamı ilə «Vətən Müharibəsi Qəhrəmanı» adına layiq görülmüşdür. Ali Baş Komandan Hadrut əməliyyatının mühüm strateji, tarixi, mənəvi-psixoloji əhəmiyyəti haqqında demişdir: «Hadrutda ermənilərin çox böyük canlı qüvvəsi olmasına baxmayaraq, bizi orada gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz az itkilərlə qəsəbəni azad etmək əzmində idik və buna da nail olduq. Hadruta ermənilər XlX əsrdə İrandan köçürülüblər. Ermənistan rəhbərliyi və ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır – istər Füzuli olsun, istər Cəbrayıl, istər Hadrut».

Əvvəllər elə bilirdim Hadrut erməni sözüdür. Nə isə, bir az dilimizə yatmır. Araşdıranda öyrəndim ki, qədim insan məskənlərindən olub, farscadan tərcümə etdikdə «iki çay arası» deməkdir. Keçmiş toponimlərdə Ağoğlan adlanan Hadrut Qozluçayın dərəsində, Ərgünəş dağının yaxınlığında bina olub. Türkiyədə istiqbal hərbindən sonra şəhərlərin adının qarşısına «qəhrəman», «şanlı» kimi sifətlər artırmaq bir adətdir. Məncə biz də tətbiq edə bilərik…

Adama yuxu kimi gəlir. Biz doğrudan da Hadrutdayıq? Gəbrayıl, Füzuli, Zəngilan bizdədir? Heç vaxt başlamaq gec deyilmiş. Əsas odur ki, əlin-ayağın soyumasın, heç nə də gözünü qorxutmasın. Belə bir pritça var... «Bir dəfə ki-

çik bir çaya dənizdən bəhs etdim. Çay mənim mübaliğəni, şişirtməyi sevən xəyalpərəst olduğumu düşündü. Və bir dəfə də, dənizə kiçik çaydan danışdım. Dəniz məni hər şeyi kiçik görən fərsiz sandı». Nə böyükdən qorxduq, nə kiçiyi küçümsədik. Heç kəsin sözünə qulaq asmadıq, çoxluğun onların tərəfində olmasından çəkinmədik, gücümüzü real dəyərləndirdik, stereotipləri dağıtdıq və BACARDIQ! Vətən müharibəmizin qəhrəmanlarından olan Hikmət Hacıyev «şəhidlərimiz geosiyasi oyunları darmadağın etdilər» – demişdi.

Xoş qayıtdın, Hadrut! Sənin dadın başqa! Gəlişin mübarək və əbədi olsun! Hadrutun dönüşü bir nüansla da yadımda qalıb. Həmin axşam internetin üfüqlərində var-gəl edərkən cumhurbaşqanı, əzizimiz cənab Ərdoğanın şarkı oxumasına rast gəldim. Yaxşı mənada təəccübləndim:

*Bərabər yürüdük biz bu yollarda*
*Bərabər islandıq yağan yağmurda*
*İndi dinlədiyim tüm şarkılarda*
*Mənə hər şey səni xatırlatıyor...*

Azman siyasətçi və duyğulu, könlü zəngin, kövrək bir romantik, yol, həyat yoldaşı... İnsana xas olan heç nə bu İNSANA yad deyil. Hələ necə yaraşır! Adam var, müəyyən mərtəbəyə yüksələndə insanlığı atrofiya olunur, yükün ağırlığından cansız, ruhsuz maşına çevrilir. Bizim Ərdoğanımız isə gücləndikcə, yüksəldikcə, daha da sadələşir, «təbəə»lərinə can atır, onlara doğru gedir, mikrofonu

əlinə götürüb səsi ilə deyil, qəlbi ilə həzin-həzin oxuyur. Bizim üçün elədiklərindən sonra bir başqa cür gördüm onu. Böyük insan və Böyük lider. Belə ifaçılıq məharəti olduğunu bilmirdim. Canlı, içdən gələn, sanki özünü bütünlüklə həsr etdiyi perfomansdan böyük zövq aldım, «bu şəxsiyyətin əlindən gəlməyən, bacarmadığı nə isə var?» – deyə düşündüm... Allah səsinə qüvvət versin!

## KeyQubad, Bərgüşad mahalı və bugünün Qubadlısı

*Gecələr qrad atırdılar, qızara-qızara gəlirdi, səsi də vahiməli id, eşidəndə yerə yatırdıq.*

*(Uşaqlıqlarını Qarabağda qoyub gələnlərin xatirələrindən...)*

İşlədiyim şöbə qarabağlılardan ibarətdir. Acılı-şirinli, sevincli-kədərli xatirələri ilə yaşayıb gedirlər. Keçmişində şirini, doğmaları, sonrasında həsrəti, bu günündə yeni ümidləri ilə. Rasta uşaq olanda çıxıb Qubadlıdan. Amma sözü-söhbəti də elə Qubadlıdır. Gözləri yol çəkə-çəkə «Yazı düzü»nü mənə təsvir edir... Yaylıq kimi dalğalanan qıpqırmızı lalə dənizini sanki görürəm. Dəlicəsinə çiçəkləyən lalələrin altındakı mina «yataqlarını» da... Qırmızı və qara. Frederik Stendalın əsəri deyil... Xeyir və şərin dueti. Sonuncu dəfə 1987-ci ildə öz maşınları ilə İrəvandan keçib Kislovodska getməklərini xatırlayır. Qayıdanda görüblər ki, ara qarışıb. Danışır ki, evimiz rayonda «kastinsa» (qostinisa) adı ilə tanınırdı. 3 mərtəbəli idi, işğalda da son gü-

nə qədər dağıtmamışdılar, çaxır fabriki kimi işlədirmişlər, tərk edəndə yandırıblar. Hətta, birinci mərtəbədəki iri soyuducumuz da durur, sınıq-salxaq günə qalsa da. (Mal yiyəsinə oxşamasa haramdır, burada təbii ki, sonrakı yiyəsinə).

– Həyətimizdə marala qədər varımız idi. Rayonda bir ovçu vardı, adına «quş Əhməd» deyirdilər. Həyətində heyvanxana düzəltmişdi, əsas da vəhşi və qırmızı kitaba düşən heyvanlardan. Heyvanları tərtəmiz qəfəslərdə, kök, tox, baxımlı saxladığı üçün uşaqlı valideynlər buradan əskik olmurdu. Kiçik qardaşım əl çəkmədiyindən quş Əhməd balaca bir ceyranı ona bağışlamışdı. Bu bala ceyran da bizimlə bir böyüməyə başladı və yekəldikcə də, qulaqlarını evin, hasarın divarlarına qanı çıxana qədər sürtürdü, uşaq diş çıxaranda əlinə keçəni damağına sürtən kimi... Demə, ceyran yox, maral imiş. Multfilmlərdə göz qabağında heyvanlar böyüyən, meyvələr yetişən, güllər açan kimi, bizim körpə ceyran da qısa zamanda gözəl buynuzlu marala çevrildi...

Söhbətin axırını eşitməyə tələsdiyimdən səbirsizliklə soruşuram:

– Sonra nə oldu, Rasta?

– Sonra... ermənilər gəldi. Özümüz necə çıxdıq bilmədik, amma atam ilk onu yerləşdirdi, maşına qoyub apardı, «sənsə azad ol» deyib meşəyə buraxdı.

Başqa qaçqınlardan da eşitmişdim, evlərini qoyub çıxanda ilk iti açıb buraxırmışlar. Körpə uşağı gözünün içinə baxa-baxa öldürən, sahibinə vəfalı heyvana acıyar?

«Qubadlı azad olandan sonra bizə həyətimizdən torpaq gətirdilər. Açanda ağladıq... Həmin o soxulcanlı torpaq idi. Anam deyərdi ki, soxulcanlı torpaq münbit olur. Aparıb qəbrinin üstünə tökdüm, «ana, bax, sənə çox sevdiyin Qubadlı torpağı gətirmişəm», – dedim. Torpaq dəyişməmişdi. Sərvəti yağmalansa da...

Palıd bu yerlərin arxası, vələs dövləti idi. Mütəxəssislər işğalsonrası real vəziyyəti qiymətləndirərək hesablamış, bu nəticəyə gəlinmişdir ki, 300 illik qoz ağacları, iberiya ağcaqayını, saqqızağac, söyüdyarpaq armud, kiparis, qırmızı palıd və eldar şamlarından ibarət hektarlarla yaşıl massiv, münbit torpaq qatı ermənilər tərəfindən məhv edilmişdir. Hərəsinin yaşı 1600 il hesablanan 3 ədəd Şərq çinarı torpağın Qubadlıda ucaltdığı təbiət abidəsi idi. Görməmişlər vəhşi barbar kimi meşələrin canına daraşmış, daşınanı daşımış, apara bilmədiklərini qırıb yandırmışdılar. Əslində dəyişməyən bir torpaq qalmışdı, bir də çaylar... Düşmən yeddibaşlı əjdaha kimi çayın qabağını kəsib suyu geri vururdu. Onlar da azad oldu, suları duruldu. İndi şükür, öz cuvarlarımız nəzarət edir.

«Su həyatdır. Hər axan suyun bir hədəfi vardır, o, həyatı paylaşmaq üçün bir yerlərə daşır…» Gələnlər danışır ki, yenə də Bərgüşadın suyu isti, Həkəri buz kimidir. Adların gözəlliyinə bax... Eşidəndə də elə bil çay kimi axır, qulağa layla çalır. Laçınlılar deyir ki, biz Qubadlı demirdik, «çay» deyirdik. «Çaya getdik, çaydan gəldik…» Rayonda çay çox olduğu üçün. Ağalar, Daşlı dərə, Taxtakörpü çayları Qubadlı təbiətinin yaraşığıdır.

Lakin bu torpağın ən böyük sərvəti onun istedadlı, vətənpərvər insanlarıdır. Xalq yazıçıları Süleyman Rəhimov və Cəlal Bərgüşad, Xalq şairləri Qasım Qasımzadə və Ramiz Rövşən, xanəndə Ağabala Abdullayev Qubadlının adını elə onun igid övladları – xalq qəhrəmanı Qaçaq Nəbi, general-mayor Mais Bərxudarov qədər yüksəkliyə qaldırmış, tanıtmışlar. Şair Eldar Baxış son nəfəsində «Qubadlı alınanda sümüklərimi ora aparıb atamın yanında basdırarsınız» vəsiyyətini etmişdi. Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşdə Mais Bərxudarov tankın üstündə öndə gedərək, ordunu da arxasınca aparmışdı. General-mayor rütbəsi də ona elə göstərdiyi bu qəhrəmanlığa görə verilmişdir.

Bir də deyirlər ki, rayonda yiyəsiz donuz və erməni meyidi əlindən gəzmək olmur. Nə düşündürücü paralel... Qubadlı hara, donuz hara? At izi it izinə qarışıb. Gizli hikməti görməmək mümkün deyil, hər kəs özünə oxşayana can atar, yanında onu görmək istəyər. İşğaldan qabaq hər ağacın başı hacıleylək yuvası imiş. İndi həmin ağacların altında, çirkabın, ifrazatın içində yaradanın «xoşuna gəlməyən heyvan»lar  eşələnir.

Necə də utanmırlar. Nə olar düşmən olanda? Axı indi görürük necə yaşadıqlarını, eyiblərini, murdarçılıqlarını... Bu qədər xarici jurnalist, nümayəndə heyəti gəlir Qarabağa. 10-u «görməsə» də, biri görür axı, çəkir, göstərir. Heç olmasa onlardan da olsa, utanırlar? Axı insan həmişə pisini gizlədər. Özü də düşməndən. Bəli, bu da sualıma özümün cavabım. İnsan deyillər! Olmayacaqlar da! İnsanlıq

hara, erməni hara? Hərə özünə yaraşanı edir. Bir yaxşı tanışım var, əri atıb, başqa qadının yanına gedib. Olur... Mövzu da o deyil. Siz görəsiz, həmin qadın keçmiş əri üçün nə boxça yığdı... Bəy boxçası. Bütün paltarlarını yudu, ütülədi, tikdi, çatmayanı aldı. «Allah vurmuşdu onu» deyənlərə qısaca: «Mənim adımdır», – dedi.

Bir az lirikanın yeri var… Belə bir yarıgerçək var ki, proza içindəki poeziyanın hesabına indiyə qədər yaşayır. «Elə ki, payız gəldi və şəhər təzədən çadırşəbini başına çəkdi, şəhərin övzalı tamamən dəyişilir». Əbdürrəhim bəy… Havalar soyumağa, «göylər payızla nəfəs almağa» başladı... Puşkin… Mən isə «ayrı vaxt olsaydı təbiətin sonbahar adlanan bu ekstrovaqant qızının görüşünə nə geyinəcəyimizin həşirində idik», – deyə düşünürdüm. İndi hər şeyi havanın üstünə atmaq, ağır halsızlığa, yüngül əzginliyə «havadandır» donu geyindirmək bir adət olub. O da bu ədalətsizliyə etirazını öz hadisələri ilə bildirir. Amma ən azından unuduruq ki, hava dəyişməsəydi, on nəfərdən doqquzu söhbətə nədən və necə başlayacağını bilməzdi. Hava durumu haqqında dünyanın bütün yaradıcı adamları öz sözünü deyib. Şeirdə, nəsrdə, musiqidə, kinemotoqrafiyada, akvareldə... Həmişə də bu mövzunun romantik çaları olub, qəlbimizi isladıb. «Santyaqoda yağışlar yağır», «Yağış bütün izləri silir», «Bakıda küləklər əsir», «Nyu-Yorkda payız», «Şirin noyabr», «Payız haqqında əfsanə», «Sinoptik»… «Bir axşam taksidən düşüb payıza...», «Göz yaşları içində payız dul kimi...», «У природы нет плохой погоды...», «Осень мне ответила проливным дож-

дем…», «В этой осени никто не виноват», «Осенний джаз» və daha nələr, nələr. (Yəqin ki, sən də öz əlavələrini etdin, əziz oxucum). Yaradıcı insanlar çox zaman romantik olduqları üçün bu sıranı sonsuza qədər uzatmaq olar. Hər kəsin qəlbinin öz havası var, hər qəlb bir cür meteohəssasdır. Kiminin qəlbində həmişə şimaldır, kimininkində Şimal buzlu okean. Kimə isə günəşli tərəf daha çox düşüb...

27 ildən sonra Qarabağın hava məlumatı yenidən gündəmə gəldi. Şair Şücaət ölümündən qabaq yazmışdı:

*Yavaş-yavaş unudulur Kəlbəcər*
*Bəzi ürəklərdə odu qalıbdı*
*Hava bürosunun məlumatında*
*Səkkizcə hərflik adı qalıbdı…*

Əlimizi yelləyib, başımızı bulayıb, kövrələrək «kimin üçün?» deməyib («əsla» dediyimiz nə varsa qapının ardındaymış məgərsə»), bütün varlığımızla müharibə gedən ərazilərimizdəki meteo dəyişiklikləri həyəcanla izləməyə başladıq.

*Payız, səndən bir ricam var:*
*Çox tələsmə, qoy geciksin boranlı qar...*
*Vətənimin yad əllərdə hələ əsir torpaqları*
*Döyüşlərdə əsgəri var...*

*Sən həlim ol, asta tərpən*
*Leysan olub yağma birdən...*
*Bir az bəslə buludları ətəyində*
*Üşüməsin əsgərimin əli silah tətiyində*

*Gəl xəsis ol gözəl payız, torpağıma su qatanda,*
*Yüngül olsun əsgərimin çəkmələri zirvələrə can atanda.*

Güneydən olan Yusif Savalanın bu nəğməsindən bir misra da çıxara bilmədim...

Ən çox da daxili hava proqnozuna Şuşadan başlamaları ləzzət edirdi... Bundan sonra bəzən qıcıqlandıran atəşfəşanlıq da bir ayrı gözəlliklə görünər yəqin...

Telefon zəngi məni Qarabağın havasından ayırdı. Tanıdığın Nəzrin idi, ortancıl nəvəm... Rus məktəbində 9-cu sinifdə oxuyur. Azərbaycan dilindən tapşırıq həll edirdi, kömək istəyirdi, özü də gülə-gülə:

– Nənə, privet, «evin yıxılsın» cümləsinə antonim nə yazım?

– Evin tikilsin!

– Bəs, «Allah qorusun?»

Duruxdum. Yenə də, «lənət şeytana» deyib cavab verdim:

– Allah öldürsün...

– A esli, «bəbbəxt olasan?»

Bu hal gülməli olmaqdan çıxırdı... Yaxşı ki, «Allah başına daş salsın»ı soruşmur tapşırıq. Yəni şagirdə leksikalogiyanı başqa misallarla başa salmaq olmazdı? Mütləq vulqa-

rizmdən istifadə etmək lazımdır? Nəzakətli nitq manerası daha dəbdə deyil? Nə bilim, vallah. Vaxtilə dilçilikdə nalayiq sözlər «əhəmiyyətsiz fellər» hesab olunurdu. Sərt, kobud mənanı yumşaltmaq üçün «bəzəkli təzahür» formaları da mövcuddur… Bu fikirlərlə və küçədən səs eşitdiyimdən pəncərəyə yaxınlaşdım. Külək yağışı qabağına qatıb qovurdu. Bir anlıq baxdığım hissəyə qaranlıq çökdü. Quşlar qatarla isti ölkələrə köçürdülər. Bəlkə də, birinci dəfə idi bunu canlı görürdüm. Uşaq baxçasında məşğələ zamanı payızın təsvirinə köçəri quşları çəkməklə başlayırdım. Bizi belə öyrədirdilər. İki qövsü birləşdirib bir-birinin ardınca düzür, uçub gedən dəstəni öz aləmimdə belə təsəvvür edirdim. İbtidai sinif kitablarımızda da uzaqlaşan durnaların üçbucaqlı qatarı payız mənzərəsinin parçası kimi yadımda qalıb. Əsl hava içimizdə olandır... Cəbhədəkiləri fikirləşdim. Əfqanıstanda vuruşmuş bir əsgərin sözlərini xatırladım: «Qışda çayda çimmişəm». Burnuma barıt qoxusu gəldi... Döyüş zonasından uzaq, lakin döyüşün tam ortasında olan, ermənilərin ikinci «Stalinqrada çevirmək» istədiyi Tərtəri, Gəncədəki, Mingəçevidəki mülki əhalini düşündüm. Hələ qədim Arranın anası, paytaxtı Bərdə… Mənbələrdə «Qafqaz Albaniyasının qəlbi» adlandırılan, hər daşının üzərində əsrlərin tozu olan Bərdə. Müharibənin başlanmasından 1 ay sonra – oktyabrın 28-də əli yerdən-göydən üzülən düşmən Bərdəyə içərisində 144 bombacıq olan «Smerç» tipli 2 ədəd ballistik raket atmış, nəticədə 27 nəfər dinc sakin şəhid olmuş, 70 nəfər yaralanmışdı. Düşündüm deyəndə ki, elə işimiz, əlimizdən gələn on-

ları düşünmək, nəfəs çəkmədən dua etmək idi. O mülki əhalini ki, atışma kəsəndə narahat olur: «Birdən müharibə dayanar a? İşimiz yarımçıq qalar. Onsuz da təzyiqlər çoxdur. Heç vaxt Qələbəyə bu qədər yaxın olmamışıq...» Bu görünməmiş hadisə, həyat-məmat məsələsi idi. İnsanlar şəxsi maraqlarını ümummilli maraqların içərisində əridib qələbə, intiqam təşnəsi ilə müharibənin sona qədər davam etməsini istəyirdilər. Dünyanın heç bir xarabasında arxada bu qədər itki olmur. Bilmirdik ön cəbhədə şəhid olmuş əsgəri ağlayaq, yoxsa onun evdə beşikdə uyuyan balasını. Dünya da rəsmisi-sıravisi qatışıq divanda oturub bizə fokuslanmış nəzərləri ilə bu dəhşəti izləyirdi. Məşğulat edəedə.

Kaş elə dərdimiz dərslikdəki qüsurlar olaydı... Qarabağda isə bu an leysan, dolu, güllə, mərmi, korona və erməni virusu yağırdı. Qarabağda havanı əsgərlərimiz təyin edirdi.

## KULİMİNASİYA

*Vətən bağı al-əlvandır,*
*Yox içində xarı bülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı, sarı bülbül?!*
*(Ağabəyim ağa Cavanşir)*

*«Sən sabahlar və şəfəqlər qədər gözəlsən!»*
*(Nazim Hikmət)*

«Hər qaranlıq gecənin bir işıqlı gündüzü var», – deyirlər. Mən isə xüsusilə bədbinliyə köklənib dünya ilə təması kəsmək istəyəndə «böyük sevgilər ya sonsuzdur, ya onsuz», – deyə düşünüb, şəxsimdən belə «intiqam alırdım». Və özümə edə biləcəyim təsəlli bəhanələrini rədd edib bu qara düşüncələr içərisində günü-gündən kiçilir, azalır, bir gün yoxa çıxacağım günü də uzaqda görmürdüm. Fyodor Dostoyevskinin «Qalanı müdafiə etmək sənəti nə qədər güclü olur-olsun, qalaalma sənəti daim ondan bir addım qabaqda olacaqdır» kəlamı da arada bir cücərən ümidimin başından vururdu. Bundan əvvəlki kitabımda ürəyim qan ağlaya-ağlaya Şuşanın işğalından yazmışdım. Onda heç düşünə də bilməzdim ki, belə tezliklə bizim də küçəmizdə bayram olacaq, həyatımızın, arzularımızın, istiqbalımızın şəhəri Şuşa xəyallarımızın çin olan azadlığına qovuşacaq və mən də bu barədə yazacağam. Doğrusu, hələ də, nə yazacağımı bilmirəm... Qələmimin nə yazacağını... Məni

Şuşaya necə aparacağını... Günü bu gün onu düşünəndə belə ürəyim yarpaq kimi titrəyir. Yazmağa qorxuram? Ürək eləmirəm? Bədgümanam ki, yaza bilmərəm? Qətiyyən yox! Adam çoxdan görmədiyi (ya həmişə görməyi arzulayıb heç görmədiyi!) kimsəni gözləyəndə necə həsrətlə, yanğı ilə düşünərsə, mən də (biz də!) Şuşa haqqında elə düşünürəm. Onun barəsində yazmağa belə həyəcanlanıramsa, gör indi görüşünə gedəndə necə olacaq..! Xəyalı belə gözəl! Şuşanı görmək, görə bilmək və... ölmək! İlk dəfə İ.Hötedən gələn, Şuşaya aid etdiyim bu məşhur ibarə qanad açıb dünyanı dolaşsa da,ədəbiyyat, incəsənət adamları onunla müxtəlif cür «oynayıb» Neopol, Roma, Paris, London kimi şəhərlərə şamil etsələr də, məna dəyişmir, birdir. «Ölüb qalam orda mən!» Məna gücü, vurğu odur ki, buranı görməmiş ölmək ol-maz. «Dünyanın harasında olursan ol, olduğun yerdə deyil, düşündüyün yerdəsən». Şuşanı ancaq xəyallarında görən mənim kimi azərbaycanlılar üçün, bəli! Gözəlliyini gözlərində qoruyub saxlayan şuşalılar üçün isə «bir daha», «yenə də…» sözləri daha uyğun gəlir... Şuşanın kosmosdan çəkilmiş fotolarına baxıram... Adi həvəskar fotolarda da Şuşa elə belə görünür. Şuşa özü kosmosdur, yaxın planetdir, Yerdə ikinci planetdir.

Özüm də bilmədən oradan olan tanışlarımı düşünürəm, onların Şuşa haqqında söhbətlərini yadıma salmağa çalışıram... Şuşanın rəsmini çəkmək, portretini yaratmaq üçün «bəlkə kömək oldu» düşüncəsi ilə.

Mənimlə universitetdə şuşalı qız oxuyurdu, Sədirxanova İradə... Onunla elə yaxın olmasam da, münasibətimiz

yaxşı idi. Əla oxuyurdu. Bir dəfə nə isə söhbət düşmüşdü, şikayətləndi ki, Bakıda dənizə görə rütubət çoxdur. Şuşanın havası qurudur, paltar sərirsən, bir saata qupquru olur. Adi məişət epizodudur, amma indi o qədər əziz gəldi mənə. Şuşalı vaxtlarımızdandı, yəqin ona görə. Birdənbirə İradəni də görmək istədim.

Cıdır düzündə gözəl çağlarda hər kəsin olmasa da, hər ailədən kiminsə şəkli var. Özü də bir rakursda, uçurumun kənarında. Hər kəsin riski, cəsarəti dərəcəsində, sal qayaların ustündə. Kim nə qədər yaxına gedə bilib. Xəzinə qayası… Tarixin özü danışır… «Bir yanda qayadan uçur Xuraman». Bir tərəfdə Vaqif oğlu ilə edama hazırlanır... Cəlladın xırıltılı istehzasını da eşidirəm: «Bir az sonra səni «Xəzinə qayası»ndan elə diyirləyəcəyəm ki, heç ruhun da inciməyəcək». Arxada duman içində itən dolanbac yollar, aşağıda heyrətamiz Daşaltı dərəsi, uzaqda Xankəndi görünür. 27 ildə yaramızı qazımaq üçün baxırdıq. Baxırdıq və düşünürdük də ki, biz belə gözəlliyi necə itirə bilmişik? Respublikamız haqqında olan bütün foto-bukletlərdə belə şəkillərdən var, altında da Səməd Vurğunun «Azərbaycan» şeirindən sətirlər… Necə mədəniyyətimiz olub. Mən yenə də bu zümrüd ənginliklərə «baxıram». «Böyüdüb» yenə baxıram… Ən müxtəlif mövqelərdən, müxtəlif işıqlarda … Arxada, yaşıl fonda görünən ikihaçalı ağ zolaq nədir elə? Təyyarənin izi, arxazınca buraxdığı şleyf kimi. Bütün fotoların arxa divarı. Heç kimdən də soruşmuram, elə bilirəm cavab verə bilməyəcəklər. Cavab qaldı özüm

gedənə. Şuşanı içimdə deyil, nəhayət ki, özümü Şuşada görəcəyim o gözəl günə.

Noyabrın əvvəlləri idi... Bir məlumat verilməsə də, hamı məsələdən agah idi. Prezident mesajını vermişdi: «Şuşasız bizim işimiz yarımçıq qalar». Ermənilərin Şuşanı boşaltmaları, şəhərin mühasirədə olması, hücuma hazırlaşmağımız, hətta, artıq almış olduğumuz kimi həyəcanlı xəbərlər bir-birini əvəz edirdi. («Dünyada şad xəbərin intizarını çəkməkdən böyük zövq ola bilməz»). Qardaş ölkənin televiziyası da şad xəbəri yaymışdı. Artıq Şuşadan əsgərlərimizin hənirtisi duyulur, «uçuq minarələrdən qopan səslər» eşidilir, çiçəklərin tacı xarıbülbülün ətri gəlirdi. Ön cəbhə ilə nəfəs alırdıq... Hər günü tarixə salnamə kimi yazılacaq günlər yaşadığımızın da qürurla fərqində idik. Hədəfə az qaldıqca ürəyim dayanır, «az qalıb, gözəlim, aç qucağını, bu qədər dözmüsən, bir azca da döz, çatırıq», – deyə öz-özümə pıçıldayırdım. Müharibənin ilk günlərindən dilimdə olan, qabarından ləzzət duyduğum duamı dayanmadan təkrarlayırdım: «İlahi, sona qədər bizim tərəfimizdə, o görünməz ordunla yanımızda ol, bizi tək buraxma!»

... Bəlkə (yəqin ki!) düşündüyümdən daha unudulmaz, mehriban, doğma, isti olacaq? Bəlkə, bunların heç biri o möhtəşəm görüşün yanından belə keçməyəcək! Təsəvvür etməsəm də bilirəm... Şuşa orqanik şəhərdir. Bildiyim, oxuduğum qədər... Relyefi, arxitekturası ilə. Gözəlliyi də poetik, düşündürən, intellektual... Bərpada da gərək bunlar gözlənilsin, elə edək ki, urbanizasiya orqanikanı üstələ-

məsin. Şiş qayalıqların ucunda dumana bürünmüş göydələnlərin necə möhtəşəm görünəcəyini təsəvvür edirəm və hətta görürəm. Lakin bu göydələnlərin «monstra» çevrilib təbiəti udmasına yol vermək olmaz. İşğaldan əvvəl Şuşanın gözəl dizaynlı, maraqlı, səliqəli bazarı olub. Erməni quldurları bu bazarı «evroremont» edib, öz aləmlərində yenidən qurublar. Bakının Passaj bazarına oxşayan Şuşa bazarının 27 il qabaqkı fotolarına baxanda insanı vintaj və nostalji hissləri bürüyür.

Şuşa Qafqazın incisi, mədəniyyətimizin beşiyi, Azərbaycanın say-seçmə ziyalılarının – bəstəkarların, musiqiçilərin, xanəndələrin, ifaçıların, qələm sahiblərinin vətənidir. Şuşanın bizim olduğunun bündan gözəl sübutu da ola bilməz. XVlll əsrin sonlarından başlamış ta işğala qədər Şuşa yetişdirib, pərvazlandırıb, dünyaya tanıdıb! Bizim 1000 məşhurumuzun, tanınmışımızın, istedadımızın qarşısına çox demirəm, 1 ad çıxarsınlar. Ondan başlayaq ki, Şuşadakı mühüm əsərlər və qalanın özü  İbrahimxəlil xan Cavanşirin eşikağası Molla Pənah Vaqifin birbaşa başçılığı altında tikilmişdi. Biz bu 27 ili itirdik, amma düşmənlərimiz də  qazanmadılar. «Dəvə hacı olmaz gedib-gəlməklə Məkkəyə... » Şuşanın havası, suyu onlara düşmədi, sonra da irinə, qana dönüb donqar  burunlarından töküldü.

Şuşanın adı özü markadır, şuşalı olmağın məsuliyyətidir. Şuşa o qədər tarixi şəxsiyyətin adı ilə bağlıdır ki, tarixi olmayan qarışı yoxdur. Elə Qarabağın tarixi də bu şəxsiyyətlərin tərcümeyi-halında əks edilmişdir. Sənətdən feyl anlayan əcnəbilər Şuşanı ədəbiyyat tariximizdəki roluna

görə alman klassiklərinin vətəni kimi tanınan Veymarla, yetişdiydiyi musiqiçilərə görə isə Vena ilə müqayisə ediblər. Görürsən handa bir böyük şəhərdə baxmağa maraqlı bir yer tapmırsan. Şuşa kimi balaca şəhəri isə gəzib, tanış olub, hər yeri görmək günlər istəyir. Azərbaycan tarixinin, mədəniyyətinin «qızıl əsr»inin nümayəndələri, Qafqazın İtaliyasının – «Şuşa konservatoriyasının saysız-hesabsız, unudulmaz məzunları» ilə bağlı məkanlardan tutmuş, Azərbaycan SSR Xalq artisti, bəstəkar Süleyman Ələsgərovun qədim Mamayı məhəlləsində qərar tutan evinə qədər – hərəsi dövrünün bir mədəniyyət ocağı idi. «At ölüb, itlərin bayramıdır» prinsipi ilə qalaya köçürülən (köklü şuşalılar özlərinə elə qalalı deyirlər) «sıravi, dinc» ermənilərin Azərbaycanın tarixi, mədəni irsinə tutduğu divan, saqqallı «səhra komandirlərinin» şəhər və kəndlərimizdə apardığı etnik təmizləmə siyasətinin, ağlasığmaz vəhşiliklərin davamı idi. Şuşa kimi şəhəri əsir düşərgəsinə çevirmişdilər. Nasistlər də 1937-ci ildə, müharibəyə hazırlaşanda İ.S.Baxın, K.Rixterin, İ.V.Hötenin, F.Şillerin, F.Listin, F.Nistşenin adı ilə bağlı Veymar kimi mədəniyyət mərkəzində Buhenvald əsir düşərgəsi yaratmışdılar. Şuşadan da Veymar kimi yaşıl kəmər, qurşaq keçirdi. Yəqin ki, istər köhnə, istər yeni faşistlər üçün gözəlliyi korlamaq bir zövq, bəşəriyyətdən intiqam idi. Tanıyanlar deyir ki, Şuşanın tən yarısı yoxdur... Azərbaycan teatr məktəbinin və ədəbiyyatımızda faciə janrının əsasını qoyan Nəcəf bəy Vəzirovun erməni vandalları tərəfindən talanıb yandırılan evi, Azərbaycan ədəbiyyatının klassiki Əbdürrəhimbəy Haqverdiyevin

dağılan tifaqı, Şuşada doğulub, Şuşada vəfat edən yazıçı, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın XlX əsrin ortalarında tikilmiş ev-muzeyinin nadir eksponatları ilə birlikdə məhv edilməsi məşhur azərbaycanlıların izlərini silməyə, Şuşanı məqsədli şəkildə erməniləşdirməyə yönəldilmişdi. Yəni burada heç yerli-dibli azərbaycanlı olmayıb. Zavallılar... Onlara qalsa sürünənlər uçur, quruda yaşayanlar üzür.

*Qızılgülə başqa bir ad versələr,*
*Onun gözəl ətri dəyişər məgər?*
*«Romeo və Cülyetta»*

«Nəcəf bəy cənabları, siz həmişə diri qalacaqsınız. Dünyada siz əkdiyiniz ağacların meyvələrinin toxumlarını külək müsəlman aləminin səhralarına səpib, göyərdib, minlərcə Nəcəf bəylər yetirib, gözəl niyyətlərinizi daha da rövnəqləndirəcəklər. Sizin adınız tarixlərin vərəqlərində səbt olunub dillərdə zikr olunacaqdır». Nəcəf bəyin ruhu inciməsin, sanki Üzeyir bəy bu sözləri tək onun haqqında deyil, bütün Şuşa münəvvərləri barəsində söyləmişdir. Natəvanın sümüklərini qəbirdən çıxarıb aparmaqla, Vaqifin məqbərəsini dağıtmaqla, heykəlləri güllələməklə tarixdən faktları, mədəniyyətdən izləri, qəlblərdən məhəbbəti silməyi düşünmək əsl ermənilikdir. Prezidentimiz demiş, «görün, biz hansı vəhşilərə qarşı mübarizə aparmışıq, öz torpağımızı və Cənubi Qafqazı hansı bəladan xilas etmişik».

Tarixlə döyüşüb onu dəyişmək üçün, bacarsaydılar, təbiəti də dəyişərdilər...

«Vaqif» dramındakı Xuramanın özünü qayadan atdığı yer durur, onu yox etməyə erməninin gücü çatmaz. İlk müdafiə nazirimiz Səmədağa Mehmandarovun dədə-baba evini sökmək olar, lakin bu gözəl məhəllənin onlara məxsus olduğunu unutdurmaq, gizlətmək olmaz. Bu dünyada həqiqəti yalandan ayırmaq üçün fakt kimi tərs «hakim» var.

Şahidlər danışır ki, Şuşa alınana qədər hava çox xoş keçirdi, azad olandan sonra gürşad yağışlar yağdı, (təbiət belə istədi) bu yağış şəhəri yuyub təmizlədi, təmizləyib pak elədi, gün qurutdu. İşğalçıların izləri-tozları da qalmadı.

ONU düşünəndə ilk eşitdiyim musiqi səsi olur. Gördüyüm də. Deyə bilmirəm hansı musiqi qulağıma gəlir... Çünki tez-tez dəyişir... Özünü bildirmir. Fon kimi... Elə bil görmədiyim şəhərin küçələrini gəzirəm və hər tin bitəndə, sağa-sola burulanda, yoxuş qalxanda, eniş düşəndə musiqi də, ifaçı da dəyişir. Şuşa azad edilib, lakin mən hələ də nisgildən azad ola bilməmişəm. Yəqin kökü dərindədir, buraxması zaman istəyir. Şuşa ilə bağlı qəlbimdə, ruhumda iki əsas yara var. Onu düşünəndə, eşidəndə, görəndə halbahal oluram, zaman və məkan hissimi itirirəm. Birincisi, «Qarabağ bülbülləri»nin Qarabağın möhtəşəm mənzərələrini tamamlayan, dağlarında əks-səda verən musiqisiz ifasıdır. İlk eşidəndən, (işğaldan qabaq da), ağlamadan dinləyə bilmirdim. Hələ indiyə qədər mənə belə təsir

edən, qəlbimi bürüyən, duyğulandıran, ruhumu saran nə şeir olub, nə avaz... Ana laylası kimi...

*Sən mənim köksümdə çarpan ürəksən,*
*Mən sənin köksündə – kiçik bir zərrə.*
*Mənə qanad verən odlu diləksən,*
*Adına, özünə Vətən deyirəm,*
*Çölünə, düzünə Vətən deyirəm...*

Elə bilirəm özüm yazmışam, o qədər içimdən keçir... «Hər misrası ayaq üstdədir». Eyni vaxtda dərinliyi və ucalığı ancaq belə hiss etmək olar. Bir şeir insanın hiss və duyğularını yalnız bu qədər net əks etdirə bilər. «Səndən ötrüymüş demə inqilablar, savaşlar, axan qanlar, kəsilən başlar...» Bu misralar əslində qadına yazılıb... Lakin qadın da elə Vətən deyilmi?

Bu qara 28 ildə özünü viranə qalmış könlümüzə xatırlatmadığı, yada salmadığı bir gün belə olmadı, ruhdan ruha yaşadıq. Şuşa deməkdən dodaqlarımız cadar-cadar oldu, dilimizdə tük bitdi. Nə qədər soydaşımız bu nisgillə son mənzilə ağır köç edib «torpağı bir ovuc da artırdı». Əlimizdən aldılar, lakin qəlbimizdən ala bilmədilər. Daha çox sevdik, bir ayrı cür can atdıq. Daşı-torpağı bir tərəfə dursun, tozuna-yarpağına da qurban olmaq istəyirəm. Üzdəniraqların «tarixi torpaqlarımızdır» deməyi ilə torpaq nə qiymətli olur, nə əziz... Nə də onların. Torpağı hiss etmək, səsini, pıçıltısını eşitmək, nəfəsini duymaq, cazibəsinə doğru qaçmaq gərəkdir. Haradasa oxumuşdum... «Oğ-

lanların irəlidə qəhrəmanlıq göstərəcəklərini əvvəlcədən heç nə məlum etmir, əksinə, gələcək qəhrəmanlar gündəlikdə çox darıxdırıcı, maraqsız insanlar olurlar». Müharibədən əvvəl Bakının küçələrində gəzən sısqa, kəkilli gənclərin günahına batıb fikirləşirdim ki, biz Qarabağı bunlarla qaytaracağıq? Bir kitab da oxumayıblar. Qarabağı elə onlar aldı! Kitabla böyüyənlər verdi, kitab oxumayan nəsil geri aldı! Burada mən əsla oxumağın anti-təbliğatını aparmıram. Sadəcə, bu müharibə çox nəsnəyə gözümüzü açdı. Qarabağdan valideynlərinin qucağında qovulan bu günün qəhrəmanları «vətən eşqi məktəbində can verməyi öyrənib» qarı düşmənin əlindən Qarabağ «şümşadını» almaq üşün ən qaydasız döyüşə atıldılar. Öz şümşadları al-qan olsa da. Ermənilər isə Kəlbəcərdən çıxanda «tarixi torpaqlarını» plastik butulkaya doldurub apardılar. Bütün Qarabağı torba ilə daşımaqdan doymayıb butulkaya keçdilər. Torpağı bundan artıq hörmətsiz etmək olar? Onlar torpaq qədri nə bilir, torpaqdan nə anlayırlar? Yurda dəyər verən onu heç od vurub yandırarar? Əli qalxar? Hissə qapılıb irrosional davranan biri olanda da, min nəfər onu tutub saxlayar. Kəlbəcərlilər 10 saatın içində qaçqın düşəndə özləri ilə ancaq təmiz, pak parçada bir ovuc vətən torpağı götürə bilmişdilər. Onu da ailənin ağsaqqalı, ağbirçəyi alnını torpağa qoyub, «İnşaallah, qayıdacağıq» deyərək edirdi. İnsan sakitcə sevməlidir, qara-qışqırıqla yox...

Hər şey zamana möhtac, zaman isə hər şeyə əlacdır... Yəqin. Dünyanın ağıllı adamları belə deyir, özümüz də belə görmüşük... Lakin bir var fərdin faciəsi, bir də var, bü-

töv bir xalqın başına gətirilənlər... Nə qədər vaxt keçməlidir, nələr olmalıdır, hansı gözəl hadisələr baş verməlidir ki, o qara günlər unudulsun, kədərin rəngi solsun... 2020-nin payızında 27 ilə bərabər 44 gün yaşadıq. Eşitmədiklərimizi eşitdik, görmədiklərimizi gördük, bilmədiklərimizi öyrəndik. Hər şey təzələndi. Yaralar açıldı, qaysaqlar qopdu, közlər düşdü. Bu lənətəgəlmişlərin hansı faşistlikləri qaldı daha üzə çıxmamış? Tükürpərdən sirlər, Hitlerin əsir düşərgələrini unutduracaq dəhşətlər... Necə də onlar üçün qanlı şikar imişik. Bizdən day adam olmaz yəqin. Bundan sonra nə yaşadıq, yaşadıq... Qənimətdir. Birinci Qarabağ müharibəsindən elə müsibətlər eşitdim ki, qıyıb bir yaxınıma danışa bilmədim... Göz yaşlarımı öz qəlbimə axıtdım. «Çünki hər gerçək hər qulağa görə deyildir». Necə də yiyəsiz, sahibsiz imişik... Ananın balasını qucağından alıb aparırlar, atası məğmun-məğmun baxır. Buna ancaq anesteziya altında tab gətirmək olar. Belə bir kəlam var; ya yaşat, ya öldür. Onlar isə bizi yaralı buraxdılar… Xocalını qana gömləndən dərhal sonra soyğunçuların camaatın evlərini çapıb-taladıqlarını əks etdirən kadrlar yayıldı. İndi sülh deyirlər... «Daşnaksütun» üzvlərinə «türkü, kürdü hər yerdə, hər şəraitdə öldür» – əmrini vermişdi. ASALA-nın rəhbəri M.Melkonyan kimi beynəlxalq terroristi, Xocavənd, Qaradağlı və Xocalıda törədilən vəhşiliyin «beyni» olan hərbi canini fetişləşdirib Milli Qəhrəman adı verib öyünəndə metofizik qanunların hələ ləğv edilmədiyini düşünməliydilər. Melkonyan dünya terrorunun «ikona»sı sayılan çaqqal ləqəbli Ramirezin dostu və da-

vamçısı idi ki, bu da artıq danılması mümkün olmayan fakt idi. Zatən danan da yox idi… Etdikləri vəhşilikləri özləri yazıb yayıblar, çəkib bizə yanıq veriblər. Onilliklərlə heysiyyətimizlə oynayıblar. Üzüağlıq, cəzasızlıq kimi... Bizim əsirləri necə bölüşdürdüklərini, necə qruplaşdırdıqlarını, neçəsini orqana, neçəsini bordelə, nəqədərini qul kimi işlətməyə verdiklərini çəkinmədən, qorxmadan bir delfin üçün özünü öldürən, sahibsiz it-pişiyin hüquqlarını qoruyan Avropaya elan ediblər. Baxın, eləmişik, əcəb eləmişik. Biz dünyanın ərköyün uşağı, ali irqin daşıyıcılarıyıq, (qoy bir bərkdən gülüm, onu da faşist babaları Hitlerdən oğurlayıblar… Faşizmin də nə ilə bitdiyini hamı bilir), xristianlığı ilk biz qəbul etmişik... Neyləyək? «Həsən ağanın qohumusansa, gəl otur… » Hə, hələ 1941-45 müharibəsindən də SSRİ ermənilərin sayəsində qalib çıxıb, haylar olmasaydı, indi ruslar alman dilində yazıb-oxuyurdular. Həyasızlıq ikinci xoşbəxtlik deyil, özünü dünyaya güldürməkdir. Ay sənə qurban olium, biri səhvdən əmələ gələr, ikisi azıb yolunu bu dünyaya salar, bəs qalanları? Melkonyanın qəddarlıqda onda geri qalmayan «yazıçı» qardaşı «Mənim qardaşımın yolu» kitabında açıq-aydın yazır ki, Xocalının strateji əhəmiyyəti  qisas hissimizin yanında «heç nə» idi. Eyni sözü separatçı prezident Sərkisyan da demişdi: «Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, biz zarafat edirik».

Qırmızı kitaba düşəcəkləri qədər az qaldıqlarını iddia edən ermənilər tələb edir ki, (birinci növbədə Rusiyadan...) bizi qoruyun, bizdən yoxdur, bir də olmayacaq. De-

yirəm, bəs niyə bir ovucsuz? Deyir, mentalitetimiz belədir, əsas keyfiyyətdir, kəmiyyət deyil. (Bir keyfiyyət nişanları çatmır, yoxsa kalitələri daşıb tökülərdi). Dağ ermənilərinin döyüş ruhu güclü olurmuş... Bu qədər tarix oxumuşuq... Qədim dünya tarixindən «Ən yeni tarix»lərə qədər! Hansı müharibədə erməni adı keçib? Bədbəxtlikləri də bundadır. Sürü davranışı və düşüncəsi! Olmayan yalanı uydurmaq və ona inanmaq! Olanı yox, arzuladığını, xəyal etdiyini görmək. Dərmana başbilənləri tapılmadı desin ki, ayıbımıza kor olub susun... Mənə görə Rusiyanın siyasəti rus xalqından ayrıdır. Şovinistləri də çoxdur, lakin obyektiv düşünən, həqiqəti deyən, ağıllı ziyalıları da nə qədər istəsən var! Bizi sevib-sevmədiklərindən, bəyənib-bəyənmədiklərindən asılı olmayaraq, nə qədər məşhur isim var ki, şəxsən izləmişəm, mövqelərini, adlarını qorudular. Bizim vəziyyətimizdə bitərəflik özü də kömək idi. Ermənilər isə sanki bir başdan idarə olunurlar. Türk qardaşlarımız demiş, «kafa aynı». Daşnakı nə deyirsə, böyüyü də, kiçiyi də, qadını da, uşağı da, elmi də, ədəbiyyatı da şinəbub kimi onu təkrarlayır. Öz içindən kor olmaq budur... Ermənistanın birinci prezidenti L.Ter-Petrosyan deyirdi ki, ermənilər Qarabağda 3000 ildir yaşayır. (Bunu deyəsən anası uşaq vaxtı əlindən salıb). Elə bilir belə deməklə millətinə yaxşılıq edir. Bu iddianı ortaya qoyub bisavad və zavallı erməni kəndçilərini şirnikləndirərək uçuruma sürükləyən «adam»ın filoloq-şərqşünas, poliqlot, alim və yazıçı olduğunu düşünsək, «ağıllınız kimdir? Qabaqda gedən zəncirli!» atalar sözünün harada və hansı halda çəkildiyini anla-

maq olar. Mən Petrosyanı Çikatiloya bənzədirəm. Ağır-ağır yeriyib özündənrazı işaranda da gözümə danadiş Rostov manyakı görünür. Səhvimi düzəltmək istəyənlərə, «görünüşcə oxşamırlar axı» söyləməyə tələsənlərə deyim ki, bənzətmə, assosiasiya boş yerə, duran yerdə, heç nədən olmur... Forma fərqli ola bilər. Əsas məzmun, mahiyyətdir. Nəyi artıqdı ki? Qəlbi (o da varsa) cəhənnəmdir. 43 nəfəri amansızlıqla qətlə yetirib kriminal aləmdə sadist, pedofil kimi tanıtdırılan Çikatilo ölüm hökmü ilə güllələnmişdisə, bir şəhəri əhalisiqarışıq xəritədən silən, 20 faiz torpağımızı işğal edib, Azərbaycanı qaçqın və məcburi köçkün ölkəsinə çevirən Petrosyan hələ 6 il də prezident postunda oturmuş, indiyədək də cinayəti üzünə oxunmamışdır. Çikatilo ilə fərqi isə «çirkli işi» başqalarına gördürməsidir. Xocalı soyqırımında Köçəryan, Sərkisyan kimi öz əlləri ilə yandırmasa da, didib-parçalayıb dağıtmasa da, işkəncə verib öldürməsə də, elə onu icra edənlər qədər cinayətkardır, qatildir! Hətta onlardan da artıq! Çünki bizə edilən zülmün ilhamvericisi kriminal avtoritet yox, ölkənin birinci şəxsi olub. Lenin ömrünün axırında stol-stuldan əff diləyirmiş. Biz səbrliyik, gözləyərik…

İndi gördük «qoyun sürüsü» kimdir! Paşinyan müharibənin əvvəlində onu anıb-sonu anıb qövmünə müraciət edəndə ki, istəyirsiz, torpaqları qaytaraq, müharibə olmasın, hamısı özlərini cırıb dağıtdı ki, Qarabağ bizimdir, vermirik. 44 gündə anbaan xronika təzələndi, 27 il əvvəlin zülmünü, çarəsizliyini bir də yaşadıq, ağlamaqdan kor olduq... Bilmədik, şəhidlərimizə ağlayaq, yoxsa yerdə qal-

mış, tapdalanmış haqqımıza... Dərd çəkənin idisə, qəm hamımızın idi. Baxmayaraq ki, mütəxəssislər, hərbiçilər, nəhayət statistika deyir ki, bu 30 ildə Qarabağda 44 gündəki qədər qan tökülməyib, mən «qan dənizi» deyəndə 90-ları düşünürəm. Elə gözümün qabağına laxta-laxta qan gəlir. Yəqin ki, hadisələrin masştabına və faciəvi nəticələrinə, onların az, bizim isə qat-qat çox itki verməyimizə, əzilməyimizə, qovulmağımıza görə... Nahaq tökülən qan yandırır adamı... Reallıqdan uzaqlaşdırır. Getsin, gəlməsin!

*Qarabağda talan var,*
*Zülfün üzə salan var,*
*Gedirsən, tez qayıt gəl,*
*Gözü yolda qalan var.*

*Əzizim buyan dağlar,*
*Al qana boyan dağlar,*
*Bu yan zülmətxanadır*
*Necədir o yan dağlar?*

Tarix boyu belə olub. Şuşa 3 dəfə yandırılıb, 1905, 1920, 1992-ci illərdə. Kədər, qüssə bayatıya xas olsa da, Qarabağ bayatıları başlarına gələnlərdən dolayı daha nisgillidir. Görəsən Şuşa nə vaxtsa xoşbəxt olubmu? Şəhərin özünü deyirəm. Mövcudluğunun hansı dönəmindəsə… Nə qədər zərbə alıb, həmişə təhlükədə, qarğa-quzğun əhatəsində.

Hər tərəfdən biri dişini qıcadıb. Kaş ki, bu qədər gözəl oymayaydı, saralıb solmayaydı…

Şuşa ilə bağlı qəlbimdə qövr edən ikinci yara isə əslən İrandan olan fransız jurnalisti Rza Diqqətinin «Şuşada son çay» fotosu idi. Müharibənin ortalarından bizim seqmentdə yenidən yayılmağa başladı. «Dindirsən danışan, sussan susan şəkil»... Natəvanın memorialı önündə yerdə iki əsgərimiz oturub. Qarşı-qarşıya... Silahları əllərində... Küçə döyüşləri də bitib. Deyəsən bütün Şuşada qalan ancaq onlardır. Və üç ədəd armudu stəkanda rəngsiz çay... İndi ayağa qalxıb gedəcəklər. Gedə biləcəklərmi? Ya əbədilik Şuşada qalacaqlar? Çaylar da çox güman ki, içilməmiş soyuyacaq. Kadrda bir nəfər də var, çəkənin özü... Özü görünməsə də, kədəri görünür... İlahi, bir şəkildə də nə qədər qüssə olarmış. Divardakı yazı da bu hüznü tamamlayır:

*Zaman unutmayır ötən bir anı,*
*Xalq üçün xeyirxah olan insanı.*
*Gözlər aydın olsun görməsin kədər,*
*Xan qızı yaşasın tarixlər qədər!*

Nə yaxşı son sətir var…

Bizim hələ Xan qızının məzarının vəhşicəsinə dağıdılmasından, sümüklərinin çıxarılıb İrəvana aparılmağından xəbərimiz yoxdur... Biz bu məşum faktı Ağdam işğaldan azad ediləndə biləcəyik. Natəvanın əsərlərinin Azərbaycan xalqının dövlət varidatı elan edilməsi bir tərəfə, şairə-

nin gözəlliyi, təbiəti, xoş duyğuları tərənnüm edən qəzəl və rübailəri bir tərəfə, heç olmasa, onun Şuşaya çəkdirdiyi sudan içdiklərinə görə məqbərəsinə toxunmamalıydılar. Qalaya su çıxarmaq, onu tikmək qədər çətin idi. 1752-ci ildə Pənahəli Xan Cavanşir tərəfindən salınan Şuşada içməli su problem idi. Həyətlərdəki quyulardan ancaq şor su çıxırdı. Camaat suyu Daşaltı çayindan gətirirdi. Və bu işin öhdəsindən yalnız soy-kökü Qarabağ xanlarına dayanan, «dürrü yekda» (tək inci) adlandırılan Xan qızı Natəvan gələ bilərdi. Şairə Şuşaya 10 km. uzunluğunda kəmər çəkdirməklə şəhərin su problemini həll etdi. 1873-cü il 18 avqustda kəmərin təntənəli açılışı oldu. Su içdiyi quyuya tüpürmək... Nə qoyub, nə axtarıram? «İnsan erməni ola bilər, amma ermənilər, əfsus ki, heç vaxt insan ola bilməyəcəklər...» İstisnasız formul. «Kimisi quyu qazar, hər susayan içsin deyə, kimisi də quyu qazar, gələn-keçən düşsün deyə». (İbn Xəldun) Xanlar-xanzadələr bilsəydilər ki, torpağımısda künc verdiyimiz erməni indi bizə köçəri, qoyun deyir... Hələ yurd-yuva necə talanıb. Şuşa süqut edib, Xocalı xəcil olub. (Yəqin ruhlarına əyan olub). Nəzərə alsaq ki, Natəvan Qarabağın sonuncu xanı Mehdiqulu xan Cavanşirin qızı, elatın məşhur, mötəbər, say-seçmə adamlarından olub, rəhmətə gedəndə camaat onu Şuşadan Ağdama qədər çiynində aparıb, dəfninin necə hörmətlə, təntənə ilə keçdiyini təsəvvür etmək çətin deyil. Məsələn, Nizaminin nəşi kəfənlənəndən sonra şala bükülüb və dördayaqlı tabuta qoyulub. Tabut da şala bükülüb. Bütün bunlar xalq ehtiramının, məhəbbətinin əksidir. Necə deyərlər,

«bizdə şeir də var, sənət də vardır, şairə, sənətə hörmət də vardır». Və belə dəyərlərlə yaşayan bizlərin qonşu olduğu ünsürlərə bax... Xan qızı onsuz da yaşayacaq! Könüllərdə təxti-rəvan quranlar unudulmur. Bunun əksini düşünmək nadanlıq, bisavadlıqdır ki, o da bədbəxtçiliyimizdən gəlib tapılıb qapıbir qonşumuzda.

27 il sonra Rza bəy «Şuşada ilk çay» fotosunu da çəkəcək. Lakin o ağrılı yaz günündən bu xoşbəxt payız gününə hələ çox var... Ömür qədər uzun, dolanbaclı bir yol. Geri sayım 8 maydan başladı və 8 noyabrda böyük final marafonunu tamamladı! Bunu isə hələ dünyada heç kəs bilmir, Biləndən başqa!

(8 rəqəminin təfsiri zamanı onun həm cənnətin, həm də sonsuzluğun rəmzi olduğu söylənilir. Həm şans gətirmək, həm itkiyə səbəb kimi ikili xüsusiyyətə malik olduğu da deyilir. Hər ikisini millət kimi canımızda, qanımızda yaşamışıq. Oddan, sudan keçib milli mənliyini qoruyan xalq kimi daha bizə zaval olmadığını düşünürəm).

Müqayisəyə bir video da gəlir... 2017-nin və 2020-nin Şuşası. Hər iki çəkiliş Yeni il qabağı Şuşada aparılıb, birini düşmənlərimiz çəkib, digərini özümüz. Şuşa işğalda və sonra... Birinci çəkiliş «əclaflar Şuşanı gözəl düzəldiblər, biz qədrini bilmədik» kimi yanlış təəssüfləri darmadağın edir. İnsanın xisləti belədir, təhlükə hiss etmədiyi hər şeyə – maddi, ya mənəvi hər dəyərinə soyuqqanlı yanaşır. Gənclikdə san sağlığı arzusu təəccübləndirir, canım onsuz da sağdı da… Torpaq? Onsuz da mənimdir, bu gün olmasın, sabah gedərəm… Bu il olmasın, gələn il düzəldərəm.

Məncə burda qınanmalı bir şey yoxdur. Özümüzü bir tərəfdən də belə çarmıxa çəkməyək. Onlar isə 200 il sahiblənmək istədikləri Şuşada bu 27 ildə heç nə artırmayıblar, qurub yaratmayıblar. Nə qalıb, bizdən qalıb. Prezidentimiz Şuşa səfərindən sonra heyrətlə: «Elə bil şəhərdən vəhşi qəbilə keçib», – demişdi. Necə cəsarət ediblər buna? İndi necə altından çıxacaqlar? Deyə bilərsiz ki, Xocalıda, Kəlbəcərdə törətdiklərinə necə cəsarət etdilər? Torpaqların qayıtdığını gördüyümüz kimi, Qarabağ çöllərinə səpələnmiş meyidlərini hələ də yığıb qurtara bilmədiklərini izlədiyimiz tək, vəhşi instinklərinə cavab verəcəkləri o günü də görəcəyik. Necə? Bilmirəm. Amma bundan əminəm. İşğaldan sonra Şuşaya yerləşdirilən ermənilər şəhərin mərkəzini boş qoyaraq daha dağlıq, daha uzaq hissəsinə çəkilmişdilər. Buna psixologoyada «dəvəquşu effekti» deyirlər. Öz aləmlərində guya bastion yaradır, özlərini sığorta edirdilər. Qarabağı talan edən bandit sürüsü özünə bir neçə zövqsüz imarət tikibsə, bu Şuşanı düzəltmək deyil, korlamaqdır. İsa bulağının qarşısını da elə tikiblər ki, diqqətlə baxsan «on üçüncü saniyədə» küncünü görmək olar.

«Arxamca, əziz oxucu!» M.Bulqakov «Master və Marqarita»da belə deyirdi. Ancaq arxamca! Mən sənə əsl Vətən məhəbbəti necə olar, göstərəcəyəm!

Deməк, 2017-nin Şuşaşı... Qar yağıb... Şəhərdə seyrəklikdir. Düşünürəm ki, heç orda elə bir məskunlaşma da olmayıb. Bu da özlərinin olmadığına dəlalət edir. Arabir kimsə görünür, axçişka küçədə yolka bəzəyir, bacalardan tüstü çıxır. Arxayınlaşıblar... Elə bilirlər həmişə belə ola-

caq. Lakin!!! Rəşadətli Azərbaycan ordusu bir həmlə ilə hamısını süpürüb «cəhənnəmlik» etdi!

Yenə də qar yağıb... Şuşamız ağ örtüyə bürünüb. O həmişə bizim olub, bizim idi, onu unutmamışdıq, bizi zülm ilə ayırmışdılar... Balanı anadan ayıran kimi. Bu gün yenə bir yerdəyik, bu dəfə həmişəlik! Azərbaycan vətəndaşı Azərbaycan himninin təranəsi altında qədim şəhərin qarlı küçələrini gəzir. Bu qar o qardan deyil, torpağımızı erməni mikrobundan, çöpündən dezinfeksiya edir, bizim də üzümüzü ağardır. Himni xor oxumur... Xoş pauzalarla solo ifa edir. Şuşa qalasını boyaboy «mələklərin üzərinə kölgə saldığı» bayrağımız örtüb, xain düşmənə göz dağı kimi! Bu bir yuxudumu? Bir kərə yüksələn bayraq, bir daha enməz!!! Bayrağımızın böyük tərənnümçüsü Cəfər Cabbarlı da misraları ilə bu cəlala qatılır:

*Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,*
*Şu sevimli üç boyalı, üç mənalı bayrağı.*

Gözəlliyinə doyulmaz, qüruruna soyumaz!

Kamera işğalçıların çayxana kimi işlətdikləri (elə bu səbəbdən də salamat qalıb) məscidi lentə alandan sonra, ermənilərin tarix boyu yeganə qiymətli «sərvəti» –hələ onlar «tayfa kimi yaranmamışdan qabaq Şuşanın ən gözəl yerində zühur edən», daşından-divarından qalxan kimi istifadə edib arxasında şirma kimi gizləndikləri kilsəni bizə göstərir... O kilsəni ki, arxadan vurulan xəncər kimi namərdcəsinə Şuşanın kürəyinə sancılıb. Həmin kilsəni ki,

ermənilər arxalarını yerə verməmək, guya hər şeyin yaxşı olduğunu, hələ suyun üzərində qala bildiklərini bizə göstərmək üçün müharibənin qizğın vaxtı orada liturgiya, nigahkəsmə mərasimi də keçirmişdilər. (Əslində, etiketə görə gəlinin geyimini üstələmək olmaz. Amma o söz bu «gəlin» üçün deyilməyib axı... Ayağında palçıqlı krossovka, başı yağın içində. Bəy də avtomatlı. Guya... Tələm-tələsik gözdən pərdə asmaq, qorxutmaq üçün toy təşkil eləmişdilər. Avamlıqdan hələ də belə nömrələrin işə yarayacağını düşünürdülər... Yəqin kilsədən çıxan kimi Şuşa-Laçın yolunda «İtiqovan» «hədiyyə»lərini verib. "Evlənən günü başıma daş düşəydi" misalındakı kimi). O kilsəni ki, hər yoldan ötən «jurnalist» sınmış şüşəsinin hesabını istəyir, amma və lakin və nədənsə, Putinin məşhur kəlamını unudurdu: «Terrorçunu ayaqyolunda belə tutsanız, gəbərdin».

Ürək ağrısı ilə deyim ki, Bakıda ən gözəl evlərdə yaşayıb, ən mötəbər vəzifələrdə işləyən, hər şeyin ən yaxşısına sahib olan ermənillərin özəlləşdirdikləri, dünyaya «bizimdir» deyib bağırdıqları Qazançılar kilsəsi də Şuşanın ən yüksək, ürəkaçan, qəlboxşayan yerindədir. Ovuc içi kimi geniş ərazidə... Xeyli aşağıda trass görünür, maşınlar gedib gəlir. Sakitlikdir. Şəhər dincəlir. Top-tüfəng səsindən deyil, murdar nəfəsdən dincəlir, 92-ci ildə donub qalan Şuşa özünə gəlməyə, azadlığın havasını almağa başlayır. Əfsanəyə görə, qara 8 maydan (Mən bu tarixə həmişə nifrət edəcəyəm) sonra Şuşanın başının üstündən çiskin, qar, duman heç əskik olmayıb... Başqa bir əfsanəyə görə isə,

xarı-bülbül ona görə yad yerdə bitmir ki, ayrılığa dözümü yoxdur. «Qarabağ bu savaşda gül oldu, Azərbaycan əsgəri bülbül. Bu dəfə də bülbülün qanı axdı, amma gülü – Qarabağı, Şuşanı əyilməyə qoymadı» və qələbimizin ikonasına çevrildi.

Ordumuz Şuşanı şit yağın içindən tük çəkən kimi götürdü. Hərb elmi daşlı, yarğanlarla örtülü bu cür relyefdə hücum əməliyyatını real hesab etmir, olsa belə, həddindən çox itgi ilə sonuclanacağını vəd edirdi. Şuşa 1795 və 1826-cı illərdə iki uzunmüddətli mühasirəni yarmış, düşmənə təslim olmamaqla «dünyanın alınmaz qalalarından biri» adını qazanmışdı. Şəhər «qala» adlansa da, heç zaman hərbi fort olmayıb. (Bundan sonra heç olmayacaq). Şuşaya hücumu zamanı ağır müqavimətə rast gələn Şah Qacar naçar qalaraq İbrahimxəlil xana məktub yazıb oxla qalaya atmışdı: «Fələyin mancanağından bəla daşları yağır, sən isə əbləhcəsinə şüşə içərisində oturmusan». Pənahəli xan şəhəri dağın zirvəsinə çəkəndə, onun alınmasının mümkünsüzlüyünü, keçilməzliyini, güclü müdafiəsini təmin etmək istəyəndə məhz bunu qəsd etmişdi. Adı yeri-göyü titrədən Ağa Məhəmməd Şah Şuşaya uzaqdan baxa-baxa qalmışdı. Şuşadan 25 km. aralıda yerləşən Əsgəran qalası arandan gələn hücumlara sipər kimi yaradılmışdı. Qala azsaylı döyüşçülərlə müdafiə olunsa belə, düşmən onların yanından keçib Şuşaya girə bilməzdi. «Qafqazda rus hökmranlığının bərqərar olması» kitabının 1901-ci il nəşri, l-ci cildində oxuyuruq: «Əsgərançayın qayalı sahilləri o qədər sıldırımlı və uçurumludur ki, istehkamdan dolanıb

yan keçmək mümkün deyil». Ordumuz mümkün olmayanı etdi. Ruzigarın gözü belə savaş görməmişdi! Ancaq qartalın qanad saldığı bu sıldırımlara elə quş kimi sızdı, külək kimi qalxdı. «Oranı necə qalxdız?», – deyə bir hərbçimizdən soruşanda: «Şuşa çəkib apardı, Vətən! Onda hər şey asan olur» – demişdi. Özü də Azərbaycanın Dövlət bayrağı günü! Bununla da, ermənilərə elə dağ çəkdi ki, bir də çətin özlərinə gələrlər. Gedişi ilə bizi sümüklərimizə qədər yandıran Şuşa, möhtəşəm qayıdışı ilə onilliklərə işləyən yaramıza məlhəm oldu. Azərbaycan Ordusunun Şuşaya necə daxil olduğunu erməni hərbi ekspertləri heç cür anlaya bilmədi. Bu onlar üçün 92-də boş şəhərə girib «qələbə» qazanmaq deyildi. Dişlə, dırnaqla, qanla, canla qazanılan qələbə idi. Təqlid edilməyən və təqlidi olmayan cəsarət idi. Mən hər uyğun məqamda türkü, onun gücünü gözə soxmağın, mifləşdirməyin tərəfdarı deyiləm. Düşünürəm ki, buna ehtiyac yoxdur, türkün tarixi göz qabağındadır. Amma Napoleon da balaca adam olmayıb... Deyir, oxucu istinad verilən müəllifin kimliyini araşdıracaqsa, heç sitat gətirilməsə yaxşıdır... İmperator deyib: «Mənə türklərdən ibarət bir ordu verin, sizə dünyanı fəth edim». Üst-üstə qalanan «leş-baş üstə» hərb tariximizə yazılan Daşaltı əməliyyatının qara hərflərini qızıl hərflərə dəyişdi. Özü də müamilə ilə! Arsaxları kimi qondarma illüziyalarını, başlarından böyük hikkələrini qırdıq! Xüsusilə havadarlarının. Nüfuzdan düşdülər. 44 gün qırğına verdiklərinin tamaşasına dayandılar, ancaq heç nə edə bilmədilər. Əsgərlərimiz sanki canavar qanı içmişdilər, elə döyüşür-

dülər. Beyin, şüur, toxuma, refleks, nə varsa – dünyaya qapadılıb şəhadətə açılmışdı. Biz «bu yola ağılla çıxmışdıq, sonra ağıldan çıxdıq». Bəzən deyirlər ki, belə deyib, ermənilərin kilometrlərlə yol qırağına tökülüb qalan leşlərini videoya çəkib yaymaqla düşməni qısqatmayın. Niyə??? Bu fikirlə kökündən razı deyiləm. Onlar Xocalını törədəndə qıcıqlandırmışdıq? Kəlbəcərdə əlsiz-ayaqsız qocalara, körpələrə, ömründə kəndindən, ailəsindən başqa bir yer görməyən qız-gəlinə cəbhə açanda qıcıqlandırmışdıq? Aborigen üçün nə səbəb-nəticə? Azərbaycanlı idik, ona görə. Torpağımızı vermirdik, vəssalam! Gör dünyanın nə yeridi ki, Şuşa fəth ediləndə özləri də dilə gəldilər: «Sanki dəniz dalğaları ilə mübarizə aparırdıq, canlı qüvvənin ardı kəsilmirdi. Onlar çox yaxşı hazırlaşmışdılar. Avtomat atəşindən çiyni yaralanır, əhəmiyyət vermir, elə bil zombidir. İnsan can ağrısı hiss etməz? Öldürmək olmurdu, vurduqca yıxılıb yenidən qalxırdılar. Bu gün öldürdüyümüz əsgər sabah dirilərək yenə üstümüzə gəlirdi. Əsgərlərimizi boğub öldürürdülər. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, artıq canavar sürüyə girən kimi içimizə giriblər, həm də yalın əllə. Erməni əsgərlərini dişləri ilə parçalayırdılar. Xankəndinə gətirilən meyidlərin əksəriyyətinin boyunlarının şah damarı dişlə qopardılmışdı. Güllənı üstlərinə səpirdik... Terminator kimi irəliləyirdilər. Hamısı belə idi... «Yaşma»çılar qəfildən ölüm mələkləri kimi iki-iki, üç-üç qarşımızda peyda olur, 25-30 əsgərimizin meyidini birdən qoyurdular. Biz onları dumandan çıxan ac canavarlara bənzədirdik». Xüsusi təyi-

natlılarımız yıxılıb ölmürdü, ayaq üstdə, döyüşə-döyüşə şəhid olurdu, yalnız son nəfəsini verəndən sonra düşürdü.

*Qorxu nədir bilmərik*
*Biz dağların ərləri.*
*Yuva yapdıq göylərə*
*Baş döndürən yerlərə.*
*Əngəl tanımaz, aşarız*
*Uca əngin dağlara!*
*Əl verir, uzanırıq mor siyah buludlara!*

Qospitala düşən xüsusi təyinatlılarımıza iynə vurmaq, sistem köçürmək mümkünsüz idi. Top kimi möhkəm, idmançı bədənləri var idi ki, qol əzələləri iynəni qırırdı.

92-də Xocalını törətdilər ki, camaat qorxub qaçsın. Qismən nail də oldular. Vəhşiliklərinin yayılması üçün şərait də yaratdılar. Dünyaya özlərini güclü, bizi zəif göstərmək üçün. Belə qalacağını zənn edirdilər. Yer kürə şəklindədir, haraya getsən başa dönürsən. Bir var banditin cinayəti qorxutsun, bir də var Ordunun ƏZƏMƏTİ vahimələndirsin! Zalımın cəlladı ədalətdir! Yəqin ki, əsrin sonrakı 80 ilini başlarını xəcalətdən qaldırmazlar, istəsələr də bacarmazlar! Bir qohumum var, iki oğlu əsgər yaşındadır, minbir əzab-əziyyətlə, atasız böyüdüb onları. Oturub anasının qolundan sallanan 18 yaşlı erməni əsgərləri üçün ağlayır. Deyirəm heç bilirsən o bizim nə qədər uşağımızı öldürüb? Qaxılıb oturaydı onlara peşkəş etdiyimiz İrəvanda, nə iti azmışdı bizim Qarabağda? Keçinin əcəli çatanda ço-

banın çomağına sürtüşər. Özümüz bir tərəfə, qaçqın, köçkün, şəhid, qazi ailələrinin hisslərini düşünün. Bir 30 il də yazıq, xəcil olmaq istəmirsinizsə, yazığınız gəlməsin. Bu an dünyanın ən şərəfsiz düşməni ilə üzbəüz dayanan əsgərlərimizi gözünüzün qabağına gətirin. Yoxdu da, yoxdu… qanımızda aqressiya. PUA-lardan göyə sovrulub şan-şan olan düşmən əsgərləri əks olunan videoları post edirəm… Sülhsevər, qəlbikövrək naturamız burda da özünü biruzə verir. Dostlarım nə sevinc smaylikləri qoyurlarlar, nə də bəyənirlər... Reaksiya vermədikləri üçün utanıram… Ən yaxşı halda deyirlər ki, axı sənin özgə torpağında nə işin vardı ki, cavan canını puç edəsən? Pis halda isə xahiş edirlər ki, belə şeylərə baxa bilmirəm: «Xəstə adamam…»

«Hərə öz pozisiyasında» bəyannaməsindən sonra Şuşa, ətrafı və meşələrindən 730 erməni cəsədi yığılmışdır.

*Qanı suyla yusalar da su aparmaz hər qanı,*
*Qana-qanla geri alsın gərək millət Şuşanı!*
*Qabil (2001)*

Bizim «Daşaltı» adlandırdığımız əməliyyata ermənilər fəxrlə «Qanlı dərə» deyirdilər. Taleyin kinayəsi ilə 28 ildən sonra 44 günlük müharibəni ağlaya-ağlaya «Ölüm dərəsi» adlandırdılar. Hal-şahidlər deyir ki, Şuşa 2 rəngli idi: xaki (hərbi geyim) və qırmızı rəngdə. Havadan da qan iyi gəlirdi. Qırmızı rəng duyğulandırıb həyəcan artırdığı kimi, həm də gücün rəmzidir. Nahaq deyil ki, kontrolsuz adam-

ların qırmızı rəngdən uzaq durmaları tövsiyə edilir. 1992-ci ilin Daşaltı əməliyyatında Azərbaycan ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa müdafiə taboru pusquya salınaraq bir gecədə Daşaltı ilə bərabər özünün 94 hərbçisini itirmişdi. Milli Qəhrəman Riad Əhmədov daxil neçə hərbçimizin öldü-qaldısından bu gün də xəbər yoxdur. (Ermənilər meyidləri qaytarmamışdılar). Əziz oxucum, gəl burda dayanaq… Qəhrəmanlıqlarını əbədi daşlara yazmış o igidlərin də xatirəsini anaq. Azərbaycan cəmi 3 ay idi müstəqillik qazanmışdı. O qeyri-bərabər döyüşdə düşmənə boyun əyməyən, sona qədər döyüşən oğlanların ruhları qarşısında baş əyək. Şuşa Qarabağın açarıdır, Daşaltı da Şuşanın... Şuşaya xüsusi təyinatlılarımız gecə saatlarında Daşaltı tərəfdəki meşəlikdən daxil olublar. Daşaltı Cıdır düzündən aşağıda, başgicəllədən uçurumda, nəhəng qayalığın altında, «əsrlərin dibindən axan» eyni adlı çayın sahilində yerləşir. İllərdi «Şuşanın daşlarına, qayalarına sığınıb yaşayır». Təqdimata bax... Təsvirin möhtəşəmliyinə bax! Əsli isə heç bir təsvirə gəlməz! Elə bil daş parçaları havadan asılıb. Daşaltının azad edilməsinin mənəvi əhəmiyyəti hərbi, strateji əhəmiyyəti qədər önəmlidir. Kənd azad olunandan, əsgərlərimiz orada peraşki bişirib video paylaşandan sonra, «bəlkə özləri yaşayanda abad idi, bizə verəndə viranəyə çeviriblər?», – yarımşübhəsi ilə düşmənin işğal vaxtı çəkdiyi görüntülərə baxdım... və dəhşətə gəldim. Yoox... Bu torpaqları 30 il cinlər, şəyatinlər idarə edib... Daşaltını çətənə plantasiyasına çevirmişdilər. Əsl erməni estetikası. Traktorlar işləyir, maşınlar şütüyür, hə-

yat var. Amma necə... Yaşayış demək mümkünsə. Hər kəs öz qəlbindən su içər. Xərabət aşiqləri... Bir qutuya daş-qaş qoysan mücrü olar, siqaret kötüyü qoysan külqabı. Yaşayırdınız da, yaşayırdınız, daha «qədim məskənlər»inizi xaraba niyə qoyurdunuz? Heyvan heyvandır ki, oturduğu yeri təmizləyir. Bunlar heyvandan da beşbetərdirlər. Təbiətin füsünkar gözəlliklərinin fonunda xarabazar daha zəlil, daha xəcalətli, rüsvay görünür. Şıq geyimli adamların arasında çılpaq, cır-cındır içində olan bomj kimi. Ön planla arxa planın yaratdığı dissonans sanki kadrarxası özü danışır. Mənim Allahdan diləyim, niyyətim var... Bakıda peraşki bişirib Daşaltıda paylamaq! Ruhu göylərə qarışan şəhidlərimizin ehsanı kimi! Mən o videodan, kefləri ala buludlarda süzən o uşaqlardan nə qədər pozitiv almışdım. Allah saxlasın hamısını! Hamısına qurban olum! Həmişə düşmən tapdayasız! Qolunuz, arxanız güclü, özünüz bir yerdə olasınız! Kefiniz də yerində! Arzum –həmin əsgərlərin yerində dayanıb uşaqlarının əlindən tutub tələsmədən gəzən həmvətənlərimə, lap elə turistlərə də Daşaltı peraşkisi paylamaq. Qoşulmaq istəyənə ideyamı halal edirəm.

Qarabağın istilaçılar üçün zaman-zaman yağlı tikə olduğunu ilk dəfə «Vaqif» dramından öyrəndiyim yadımdadır. Yeni işğal olunanda da Qacarın monoloqunu ürək ağrısı ilə xatırlayırdım... «Keçdi əlimizə gözəl Qarabağ»... Ya da... «Bu gün alınmalı Şuşa qələsi»... Qarabağla, onun təbiəti ilə yadda qalan tanışlığım sevimli yazıçımız İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» pyesindən başlayır. (Yazıçı əsəri teatra «Topxana meşəsi» kimi təqdim etmişdi.

Məşq prosesində daha teatral adla əvəz olundu). Mən bu pyesi demək olar əzbər bilirdim. Tamaşa başlayanda səhnəarxası söylənilən şeirə öz aləmimdə musiqi də yazmışdım.

*Deyirlər Qarabağ bir cənnət imiş...*
*Bəslərmiş qoynunda mələklərini.*
*Məndə qüdrət hanı qələm çalmağa*
*Tərif eləməyə yalnız birini...*

Qəribədir ki, məni nə əsərin inqilabi sületi, nə də məhəbbət mövzusu cəlb edirdi. Ekzotika kimi gələn toponimlərə türk qardaşlarımız demiş, takılıb qalmışdım. Cıdır düzü, Qirxqız yaylağı, İsa bulağı, Topxana meşəsi, Xəzinə qayası, «Ərim gəldi» qayasının adını ilk dəfə idi eşidirdim. Gülgəzin kəklikotu qoymadığı Cıdır düzünü dünyanın ən geniş, xoşbəxt guşəsi kimi xəyalımda canlandırır, hətta, kəklikotunun havasını da alırdım, özümü ora aid edirdim, orda görürdüm. Növbə gözlədiyi Xanqızı bulağı, ehsan sahibi haqqında düşünürdüm. Şahnazı ovsunlayan, gecə-gündüz cözünü çəkmədiyi Topxana meşəsindən qorxurdum... «Ərim gəldi»dən qırmızı qoşunun ağzının açılıb Əsgəran qalasını işğal etməyini də görmüş kimiydim... Böyükbəyin Cavanşir nəslini yaşatmaq arzusu, Fəxrəndə xanımın son anda Xəzinə qayasına üz tutmağı mənə bilmədiyim, tanımadığım bir aləmdən xəbər verirdi. Qarabağ mahalının məşhur xanəndəsi Keçəçi Məhəmmədin adını da ilk dəfə bu tamaşada eşitmişdim.

Şuşa Qarabağın «Qüdsü» hesab edilir. Ermənilərin bu müharibədə birinci səhvi Şuşanı bizim əlimizdən almaq oldu. Bununla bizi sındırdılar. Amma sadə həqiqəti unutdular, atəş düşdüyü yeri yandırar, bumeranq da yubandıqca qüvvəti artar, («Morozko» filmini xatırlayın). «Təhqir edənin niyyəti sizdən cavab almaqdır. Təhqir edən sizin beyninizin nə cür reaksiya verəcəyini bilmədən riskə girmiş olur». (Z.Freyd) Eynən! Şuşa kimindir, Qarabağ onundur. Xankəndi müasir şəhərdir, dünyada belə şəhərlər nə qədər istəsən... Əlbəttə, yaradıcılıqları, vəsaitləri yox ki, orijinallıq etsinlər, relyefi nəzərə alıb xüsusi nəsə yaratsınlar. Neçə illərdir onlar yaşayır, erməniləşdiriblər. «Stepanakert, Stepanakert» deyib zarımaqlarına baxma, bilirdilər ki, Qarabağın qəlbi Şuşadır. Ermənilər Şuşanın altında yerləşən Xanın balaca kəndinə yerləşmişdilər, buranı Qarabağ xanları tövlə kimi işlədirdilər. Şuşa xanlar tərəfindən salınıb inkişaf olunduğuna görə kifayət qədər sənədləşdirilib, şəhərin baş planı, gerbi, qalabəyisi, gümüşdən açarları, çoxlu sayda fotoları olub, Moskva ilə sıx ticari əlaqələri olub. «Pənahabadi» adlanan gümüş sikkəyə qədər zərb edilib. Bu qədər sənəd-sübutun içərisində yalnız şüursuz ermənilər tarixi aldadıb onu erməniləşdirəcəklərini düşünə bilərdilər. Güvəndikləri erməni «sənətkarlığı» da işə yaramayacaq. Tarix riyaziyyat olmasa da, dəqiqliyi sevir. Onu aldatmaq olmaz. XIX əsrdə Şuşa Qafqazda yalnız Tiflisin rəqabət apara biləcəyi mədəniyyət paytaxtı olub. Ona görə hətta oyuncaq «respublika»larının paytaxtını da ora köçürmək istəyirdilər. Köçəryanda son-

da dedi ki, gərək Stepanakerti verib Şuşanı saxlayaydıq. Onlar üçün qiymətli olduğu üçün yox, bizim yarıcanımız olduğuna görə. Həm də, mənəvi qələbə kimi qəbul etdiyimiz, qürur duyduğumuz sarıdan. Bu həmin o Köçəryan idi ki, Azərbaycan ərazisini işğal etdiyi üçün fəxr edirdi. Yenə fəxr elə də… İndi odu söndürüb külü ilə oynayırsan. Belə məqamda da qisası düşünürlər. Elə bil Şuşa, ya Xankəndi onlara Karapet atalarından qalıb, Xoren babalarından. Yoxsa Anahit analarından? Rus yazıçısı və diplomatı A.S.Qriboyedov imperatora yazdığı məktubda onları yaxşı çözmüşdü: «Əlahəzrət! Ermənilərə mərkəzi rus torpaqlarında məskən salmağa icazə verməyin! Bunlar elə tayfadırlar ki, bir neçə onillik yaşayandan sonra bu ərazilərin dədə-baba torpaqları olduğunu dünyaya car çəkəcəklər»... Özü də guya bunlardan asılı nə isə vardı? «Gəldik, götürdük!» Şaquli istiqamətdə, aşağıdan yuxarıya. İndi də həmin şaquli xətt üzrə onlara yuxarıdan aşağı baxırıq. 27 il əvvəldə olduğu kimi. Qoy başlarını daşlara döyüb sındırsınlar ki, bu necə baş verdi… Şuşa qalamız üçrəngli bayrağımıza bürünəndə onların da şuşisi məlum yerə getdi.

Lakin Şuşa... Şuşa ayrıdır... «Ölkənin qəlbi Şuşa, hər yerdən qəlbi Şuşa...» Dünyada ikinci belə şəhər yoxdur, ola da bilməz! Dəniz səviyyəsindən 1300-1600 metr yüksəklikdə yerləşən Şuşa ovalığı bütün Qarabağın ən sərt, əlçatmaz mövqeyi, təbii qalasıdır. Qalanın inşa edildiyi sahə isə amfiteatr formalı dağ yaylasıdır. Əhməd bəy Cavanşir – Pənahəli xan Sarıcalı-Cavanşirin nəticəsi, Həmidə xanım (ona da «ağa» deyiblər) Cavanşir-Məmmədquluzadənin

atası yazırdı: «Şimal-şərq tərəfdən Şuşaya çatmağa üç verst qalmış başını qaldırıb baxdıqda üzərində möhtəşəm qala divarları və qüllələr ucalan sıldırım qayalar taclı başını sıx tutmuş əfsanəvi nəhəngləri xatırladır».

Şuşanın adlı yerlərindən birincisi Cıdır düzüdür. Şuşa salınandan ta işğala qədər Cıdır düzü yarışların, bayramların, şənliklərin, festivalların kütləvi və təntənəli keçirildiyi məkan olub. «Vaqifin şux gözəli» burda gəzib, Natəvanın qəzəli «ruhunu buradan alıb». Sovet dövründə yerli və xarici rəssamlar, professional və həvəskarlar Cıdır düzündə molbert qurub naturadan çəkərdilər. Cıdır düzü plener (açıq hava) ustaları üçün əvəzsiz yer idi. Məşum işğal dövründə isə bizim rəssamlar Cıdır düzünü gen yaddaşının köməkliyi ilə xəyallarında yaradıb emalatxanada tabloya köçürürdülər. Xalq rəssamı Sakit Məmmədovun məşhur «Cıdır düzü» əsəri 2016-cı ildə belə yarandı.

Onlar Şuşanı itirməyi ağıllarına belə gətirmirdilər. (Elə sadə aksiomdan başlayaq ki, sənin olmayanı necə itirə bilərsən?) Ya özlərinə çox güvənirdilər, ya da, bizə Şuşadan Stepanakertə baxan kimi baxırdılar. Şəhər azad olunandan sonra Köçəryan Şuşanın heç vaxt danışıqlar paketində olmadığını söylədi. Şuşanın bizim üçün hansı yerdə olduğu, onun üçün nələrdən və necə canlardan keçdiyimizi 8 noyabrdan sonra düşmənlərimiz görəcək və etiraf da edəcək! «Şuşa azərbaycanlılar üçün sakral şəhərdir! Hər hansı bir yad müdaxiləyə cəhd tərəflərindən təhqir, küfür, həqarət kimi aqressiv qəbul edilir». Gec də olsa, çatıb onlara!

Qarabağ hadisələri həyatımıza Topxana meşəsinin qırılması ilə daxil olmuşdu, elə həmin ssenari ilə də başa çatdı. Bütün Qafqazın oksigeni sayılan Topxana azad edilməsi ərəfəsində yenidən ekosidə (ekoloji soyqırım) məruz qaldı, neçənci dəfə yandırıldı, yerində nüvə tullantıları, zəhərli maddələr basdırıldı. 1795-ci ildə Şuşanı 33 gün uğursuz mühasirədə saxlayan Ağa Məhəmməd Şah Qacar toplarını bu meşədə yerləşdirmişdi, o zamandan bu meşəlik «Topxana» adlanır. Azərbaycanın ən məşhur meşələrindən olan Topxana meşəsinin bizim üçün böyük mənəvi əhəmiyyət daşıdığını düşmən də bilir, ona görə çətinə düşən kimi bizim canımızı yaxmaq üçün ona hücum çəkir. Bərdə ilə Ağdam arasında yerləşən 500 hektardan artıq ərazisi olan Soltanbud meşəsi tamam məhv edilib, minlərlə ağac susuzluqdan yanıb. Erməni şərəfsizlər işğal zamanı Suqovuşandan gələn kanalı bağladıqları üçün bu meşə 30 ildir sulanmır, su üzü görmür. Az miqdarda susuzluğa davamlı saqqız ağacları qalıb. Palıdlar tamamilə məhv olub. Öz suyumuza həsrət qalmışdıq. Meşəyə benzin töksən də, yanmayacaq, çünki yanmağa bir şey qalmayıb.

Budur, Prezident İlham Əliyevin avtomobili ailə üzvləri ilə səhər tezdən Bakının yuxulu küçələrindən keçib Şuşaya – «könül şəhərimizə» istiqamət alır. Röya kimi... «Zəfər yolu» ilə! Yol abadlıqdır, iqtisadiyyatdır, həyatdır, inkişafdır, mədəniyyətdir, nəhayət, sivilizasiyadır – deyiblər. Yol xalqın sərvətidir. Dünyaya mədəniyyət «öyrədən» yolsuzların birinci dağıtdıqları elə yollar olub. Müharibədən sonra Ermənistandan Zəngəzura, Xankəndinə səfər

edən jurnalistləri, nümayəndə heyətlərini ən çox təəccübləndirən köhnə, təmirsiz, parça-parça yamaqlı yollar olmuşdu. Yəni, öz ərazilərini də bərbad gündə saxlayıblar. Bunun bir ucu kasıbçılığa bağlıdırsa, digər ucu pintiliyə gedib çıxır. «Məramlılar» yerləşəndən sonra onların nəzarəti altında Azərbaycan ərazisindən get-gəl başladı və ermənilərin xeyrinə olmayan fərq də ortaya çıxdı.

Körpə uşağın ilk addımlarına sevinən valideyn kimi başladıq Şuşanın dirçəlməyinə, inkişafına fərəhlənməyə. Şuşaya birinci dəfə qar yağdı! Xəbər yayıldı, nə yayıldı. Şuşada ilk çörəkçi açıldı. İlk şirniyyat sexi, «Bravo», otel istifadəyə verildi… Hər xırda uğuru bütün ölkə böyük hadisə bildi, ürəyimiz dağa döndü. Necə də Şuşadan sevinmək üçün darıxmışdıq. Özümüz də onunla birlikdə yaxşılaşmağa, sağalmağa başladıq. Canımız səndə imiş, ay Şuşa!

*Nə əcəb dövlət imiş, seyri-şikari Qarabağ,*
*Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ!*
*(M.S.Nigari)*

Kadrları izləyərkən elə sevindim ki, sanki özüm gedirdim Şuşaya. O dərəcədə ki, Azərbaycan Prezidenti işğaldan sonra Şuşaya ilk getdiyində səfər proqramını dəyişib gecəni orada qalmağa qərar verdi. Hələ bərpa edilməmiş, dağıdılmış, yarıxaraba şəhərdə. Məmməd Arazın «Şuşada bir gecə» şeirində olduğu kimi.

*Bu gecə gecənin son qatındayam,*

*Bu gecə bir qəndil qanadındayam.*
*Sağımda bir dərə – qara hörükdü,*
*Solumda bir dərə – qara hörükdür.*
*Gecənin qoynunda yanır dağ şəhər,*
*Fəzadan asılı, çilçıraq şəhər.*
*Dağlar öz ovcunda yandırıb onu,*
*Ulduzlar qoynuna qaldırıb onu...*

8 may ermənilər üçün üçqat bayram idi. Şuşanın işğalını, dağlıq Qarabağ müdafiə ordusunun yaranmasını və Böyük Vətən müharibəsində qazanılmış qələbənin ildönümünü qeyd edirdilər. O səbəbdən Şuşa gedəndə ermənilər deyirdilər: «Bizim əlimizdən qələbəmizi, bayramımızı, qürurumuzu aldılar». Getdi o günlər! «Dövlət oldur ki, düşmən ola zəbun». İştə bu!!! Ordumuz Şuşanı soyuq noyabr gecəsində duman altında sıldırımları dırmaşıb birbaşa təmas döyüşü ilə aldı. Rusiya mediası yazırdı: «Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir?!». Biz bu sevgini balalarımıza 30 il ərzində günbəgün, saatbasaat aşıladıq. Övladlarımızı özümüz kimi deyil, «onların dövrü üçün» yetişdirdik. Hamı «müharibə» deyib dururdu. Müzəffər Azərbaycan ordusu, dağ piyadalarımız Şuşanı üstündə əsə-əsə, «şüşə» kimi qoruya-qoruya, «amandır, sınmasın, cızılmasın, çatlamasın» ehtiyatı ilə düşmənin caynağından qopartdı. Bizə isə xalq kimi mövcudluğumuzun ən xoşbəxt gününü yaşamağı, bu tarixə şahidlik etməyi qismət etdi. Həm qismət, həm də nəsib etdi.

Şuşa elə belə də alınmalıydı! Dronlar dünyasında əlbəyaxa döyüşlə! İlahi bir «eşq»lə!

Noyabr ayının 9-da isə «tarixlə qaynayan» Tuğ kəndi də azadlığına qovuşdu. Kəndin adı 1727-ci ilin qaynaqlarında «Haderud» kimi keçir. Görünüşcə İtaliyanın dağ kəndlərinə bənzəyən, dəfələrlə düşmənin «xaç yürüşü»nə məruz qalan qədim kəndin heç olmasa adı hamıya tanışdır. Böyük dramaturqumuz Cəfər Cabbarlının «1905-ci ildə» pyesində qanlı erməni-müsəlman dramı Tuğdan başlanır. C.Cabbarlı onların mayasına bələd idi, ona görə pyesi Baxşının məhz «Sarı gəlin»i (başqa musiqi də ifa oluna bilərdi) tarda çalması ilə başlamışdı. Təəssüf ki, bu bir əsr 16 ildə Tuğda heç nə dəyişməyib. 1905-ci ilin kazaklarını bu günün məramlıları əvəzləyib. Qarabağın kəndləri çox olsa da, Tuğun adı gələndə, hamı – hətta adı uydurma sayanlar da «bu həmin Tuğdur?» deyə maraqlanırdı. Elə qoruyaq, gözümüz kimi elə baxaq ki, bir də yad əllərə düşməsin. Erməni tapdağından xilas olunandan sonra ölkə prezidenti Hadrut və həmin bu başıbəlalı Tuğ kəndinə də zəfər səfəri etdi.

*(II kitab)*

## Yubileyimə düşən kapitulyasiya aktı

*Əgər müharibə olmasaydı, biz silahları marten sobalarında əridib Yerlə Mars arasında körpü yarada bilərdik.*
*(Məmməd Araz)*

Noyabrın 10-u gecənin bir aləmində ev telefonum zəng çaldı. Çox qorxdum... Erkən və gec zənglərə fobiyam var. Onsuz da vəziyyətə görə yuxu ilə reallıq arasında yaşayırdım. Qızım idi:

– Müharibə qurtardı!!

Oxuduğum yüzlərlə bədii əsər, onlarda müharibənin bitməsi, Qələbə xəbərinin təsviri gözlərim qarşısına gəldi. Konkret də deyə bilərəm, deyəsən İsa Hüseynovda idi, bir nəfər ucqar kənddə tələsə-tələsə nərdivanı qoyub dama çıxır, özü də ayaqdan «mayıf» olur, çıxanda yıxılır, qalxıb davam edir, var səsi ilə qışqırır: «Müharibə qurtardı, Qələbə!». Bu barədə çox düşünmüşdüm, bu günü çox xəyal etmişdim, ondan idi. Amma yenə də xəbərin qəfil, özü də belə erkən gəlməyi məni şoka salmışdı. Özümü fiziki toparlaya bilmirdim. «Sonra nə oldusa, yadıma gəlmir»…

Görəsən mənim ayıq olmadığım bu bir neçə saat ərzində nələr baş vermişdi? Elə titrədirdim ki, atmasın deyə, çənəmi, dizimi əlimlə tutub saxlamışdım. Bilmirdim yerdəyəm, ya göydə... Morfeyin «səltənəti»ndən yarımçıq ayrıldığım üçün gözlərim də açılmırdı. Bütün arteriyalarım

«yuxulu» idi. Müharibənin başlanması xəbərini «çətini başlamaqdır, gerisi Allah-kərim» deyib sakit qarşılayan mən, indi reflekslərimlə bacarmırdım. Təfərrüatı bilmədiyimdən sevinə də bilmirdim. (Xəbərə qəfil yaxalandığımdan sual vermək də ağlıma gəlməmişdi). Bir neçə gün öncə də, Aynur məni beləcə çıldağ eləmişdi. Elə bugünki kimi səhər ertə loxəbərlə zəng vurmuşdu ki, bəs şəhəri su basıb. Gecə yağan leysanı nəzərdə tuturmuş, mən də zənn etmişdim ki, bu sağı-solu bəlli olmayanlar Mingəçeviri partladıblar. Bilirdim ki, mümkün deyil, türklər demiş, blöf yapırlar. İndi o qədərinə cürətləri çatmaz, həm də tədbirimizi almışdıq. Elə bir şey olsa, su basmamışdan saniyələr içində buza çevrilir. Necə deyərlər, «Ermənistanda ana balasını elə qorumur, necə ki, biz SES-mizi elə qoruyuruq».

...Bəzən uşaqlar mənə bir xəbər deyəndə reaksiya vermədiyimi görüb inciyirlər... İzah etməyə çalışıram ki, qızım, ya oğlum, gərək deməyə bir sözüm olsun da? Bunun üçün də eşitdiyim mühüm məlumatı içimdən keçirməliyəm, onu yaşayıb dərk etməliyəm, energetikasını duymalıyam. Lap ən gözlədiyim xəbər olsa belə... Sədi Şirazi də deyir ki, dərrakəni özünə vəzir et! Susmaq tək atalarımızın sözündə «qızıl» deyil, şifahi nitqin də əsasıdır, insanı istəmədiyini deməkdən qoruyur, sığortalıyır. Birtəhər toparlanıb həyəcanımı yatırtmağa, vəziyyətə nəzarəti ələ almağa qərar verdim. İşığı xəfif elədim. Bəzi adamlarda prelüd yoxdur, çox rahatlıqla şəraitdən şəraitə keçir, gözünü açmamış çilçırağın 24 lampasını birdən yandıra bilir və bu

ona heç bir diskomfort gətirmir. Mənim anatomiyam isə adaptasiya istəyir. Yavaş-yavaş geyindim. «Şaxta babanın xalatı» dediyim qalın, yumşaq xalatıma büründüm. Uqqilərimi geyib başıma papaq qoydum. Eyvana çıxdım ki, görüm nə var, nə yox... Xalqı bu gecənin içində gördüm. Pəncərəmin altındakı ağac həmişə bu vaxtlar gözəl saralardı. Amma indi elə bil gecənin bu vədəsində aşağıda gün çıxmışdı, ağac işıq saçırdı. Bilmirəm, təsvir edə bildim, ya yox? Qaranlıqda günəş, özü də yerdə… Gündoğmadan nələr doğar... «Günəş çıxmamış qəlbin mənalara hamilə olduğu vaxtdır». Dahi Nizami belə deyirdi... Şeyxin sözünə əlavə kimi çıxmasın, mən işıqla qaranlığın çarpışdığı vaxtdan çox ehtiyat edirəm. O yerdəyişməyə Xeyir və Şərin, Mələklə Şeytanın mübarizəsi kimi baxıram. İndi «oralarda» nə baş verir görəsən? – deyə düşünürəm. Həmin gecəmi deyim, ya səhər, (səhər deyək, gecənin xeyrindənsə, səhərin şəri yaxşı deyilmi?) göydə bir dənə də olsun ulduz yox idi. Üşütməm keçmirdi... Mətbəxə keçib qaz plitəsini yandırdım, çay tədarükü görüb ehtiyatla televizoru açdım. «Bir çay dəmləyin, sözüm var»… Osmanlı sultanları çətin günlərdə xalqa belə təsəlli edərdilər… Bir az toxtamışdım, karvalol öz işini görmüşdü. Divardakı saat 4.30-u göstərirdi. Pəncərənin arxasında başa çatmaqda olan payız, qarşımda zoğallı çay. Çayı qarışdıra-qarışdıra düşünürdüm. «Titanik» filmində olduğu kimi. Kapitanın köməkçisi fincanın üzünə qalxan limon dilimini görəndə aysberqin görünməyən hissəsini necə xatırlayırsa, məni də fikir elə aparmışdı… Bir nöqtəyə baxıb dururdum. Öz

enerji sahəmə çəkilmişdim, sanki çayımla baş-başa qalıb meditasiya edirdim. Artıq pəncərədən görünən qatı qaranlıq mavi toranlığa çevrilirdi. Gün başlayırdı. Yadıma düşdü ki, Şəkidə «sübhdən» yerinə «gejdəndən» deyirlər, yəni gecədən. Bu gün də bizim üçün gecədən başlayıb. Sözsüz ki, bu bizim müqayisəsiz üstünlüklə qazandığımız böyük Zəfərimiz idi. Himayədarlarının imkan verdiyi qədər də düşmənin kapitulyasiyası... Dildə nə deyilməyindən asılı olmayaraq, erməni dünyanın ərköyün uşağı idi (səbəbini bir bilsəm...) və Rusiya hər iki müttəfiqinə eyni gözlə baxmırdı. «Ey buzlu şimal ayısı, quduz daşnakın dayısı»… Əgər bu ayrı-seçkiliyin bir ucu rus reformatoru Böyük Pyotra gedib çıxırdısa, əsas, oturuşmuş, özünü doğrultmuş tərəfi hazırkı Kremldə idi. Dəli Pyotrun ermənilərə qəyyumluq edib onları himayə etmək fərmanı bu gün də qüvvədədir və 300 ildir ki, Rusiya hakimiyyəti tərəfindən qeyd-şərtsiz əməl edilir. Hətta, SSRİ-nin mövcudatı ərzində, xüsusən sonlarında əksər respublikalara ordu ilə güç tətbiq edilsə də, Ermənistan Rusiyanın əbədi protejesi kimi oyundan kənar vəziyyətdə qalıb sudan quru çıxmışdı.

Bir tərəfdən də xəbər gözlənilən idi. Düşüncələrim tezis şəklində ümumi vəziyyətin «üstündən keçib» hal-qəziyyəni özümə başa salırdı… Qış qapını almış, sazaq, qırov başlamış, hava «müxalifət»ə keçmişdi. Yağışın əlindən də nə gizlənmək olurdu, nə də qaçmaq. Döyüş zonasında gecə ilə gündüz arasında 20 dərəcə temperatur fərqi var idi. «Aralıq» dekabra deyilsə də, noyabra daha çox aidiyyəti var, payızla qışın arası, deyişməsi kimi. Təbiət bir gün pa-

yızdan buyurur, bir gün qışdan. Noyabr dekabrla bir müddət bərabər addımlayır, heç cür ayrılmaq istəmir, bəhsə-bəhs edir. El arasında da deyirlər ki, payızın «qəpsi»nə – yəni yaş torpaq donana kimi bütün işlər yekunlaşmalıdır. Hər işin qaydına vədəsində qalmaq lazımdır. O ki qala, tropik leysan altında sərt dağ keçidlərində, sıldırımlar arasında ağır döyüş əməliyyatları aparmaq... Atalar da deyir ki, payızdan qorx ki, qabağından qara qış gəlir, qışdan qorxma – qarşıdan yaz gəlir. Fenoloqlar (təxminən, metereoloqa yaxın bir peşə) daha professional xəbərdarlıq etdilər ki, bu vaxtı bu relyefdə gündüzün günorta çağı sübhün şəfəqləri şərin toranına qarışır. Hava qaralmağa başlayır, bilmirsən gün çıxır, yoxsa batır. Obrazdan çıxsaq, saat 4-də elə qatı duman çökür ki, yol-riz görünməz olur.

Dövlətimizin qətiyyətli siyasəti, ordumuzun qəhrəmanlığı qarşısında duruş gətirə bilməyən düşmən təslim olmağa vadar edildi. Ermənilərə azərbaycanlılara qarşı bacardıqca çox cinayət törətməyi tövsiyə edib, yalnız bunun əvəzində xoşbəxt həyat qazanmağın mümkünlüyünü vəd edənlər 44 gündə həyat əlaməti bildirməyib gözə görünmədilər, nə səsləri çıxdı, nə səmirləri. Paşinyan da dünya liderlərindən bir real kömək gəlmədiyini, regionun söz sahibi Rusiyanın çəkilib bir kənarda dayanıb qarışmadığını, qarışmaq istəyənlərin hüququ çatmadığını və qoşununun milçək kimi qırıldığını görüb sülhə məcbur oldu.

Noyabrın 11-i mənim ad günümdür, həyat hekayəmin başladığı gün. Və həyatımın 60-cı payızı... Qarabağda isə topların susduğu ikinci gün. Bu nədirsə, artıq ciddi bir

şeydir. Bu – mənim ağlım kəsəndən bəri yaşadığım ən kədərli və ən sevincli payızdır. Bu – mənim qarşıladığım ən kədərli, elə o qədər də sevincli, amma heç olmayan kimi qürurlu ad günümdür. Bu dəfə ad günüm deyildi, yubileyim idi. Sadə rəqəm də deyildi, 60 idi, (rəqəmlər qocalmasa da, ağırlığını dərhal hiss elədim, sanki üstümə müdrik bir kədər çökdü). Hələ keçən ildən necə keçirəcəyimi düşünürdüm, planlar qururdum, ssenari fikirləşirdim, belə edəcəyəm, elə edəcəyəm, harda keçirəcəyəm, kimləri dəvət edəcəyəm, tortu hardan sifariş verəcəyəm... Yaxınlarım da gözləyirdi. Ağ, sarı qızılgüllər, «skorpi»nin simvolikaları... Özümü təbrik etməyi, hədiyyə verməyi sevirəm. (Bütün bunlar yenə də olacaq! Ürəyimiz bir az açılandan, ümumi evimiz Yer kürəsi şəfa tapandan sonra! Hələ ki, maskaların üzərinə «ya Şafi» aplikasiyası tikirik). Amma Tanrının planlarının yanında mənimki nədir ki? Mən Allahdan özümə belə gözəl hədiyyə istəyə bilməzdim... «Heç kim özü üçün gizli saxlanılan müjdə və xoşbəxtliyi bilməz». («Səcdə», 17)  Bundan artığını demirəm, heç bənzərini də xəyal edə bilməzdim... Bu bir KOSMİK hədiyyə idi! Eksklyuziv! Əsl yubiley bəxşeyişi! Doğum gününün bayrama – özü də belə bayrama düşməsi nə xoş hadisə imiş. Hər yaşın öz illüziyası var, deyirlər. Kəşfləri… Demək ki, mən nahaqdan bu yaşa gəlib çatmamışammış… Bu günü görmək üçün, onun sevincini yaşamaq üçün! Və birdən hiss etdim ki, həyatım indi başlayır. Neçə yaşın olmasından asılı olmayaraq, heç vaxt həyatı sevmək, sevinmək, arzulamaq, yenidən başlamaq üçün gec deyil. Biz bu vaxta

qədər yaşamamışıq, miskin, utancverici bir ömür sürmüşük. Bunu indi başa düşdüm, Qələbənin ləzzətini duyanda. 30 il əvvələ qayıdıb qaldığım yerdən davam edə biləcəyimi düşünəndə. Həm cavanlaşaram (axı deyirlər, komada insan qocalmlr, biz də 30 illik komadan ayılmış kimiyik), həm də indiki ağlımla, həyat təcrübəmlə yaşamağa, itirdiklərimin əvəzini çıxmağa, qayıdanların qədrini bilməyə başlayaram. Psixoloqlar insan ömrünü əsas 2 dövrə bölürlər. Əksər insanlarda belədir, tanınmış, sıravi fərq eləməz, miqyası da fərdinə görə… Məsələn, L.Tolstoy da həyatını «Karenina»ya qədər və sonraya ayırırdı. Normalda, ikinci yarıya tədricən, ömür sərhəddini necə keçdiyini hiss etmədən yavaş-yavaş daxil olursan. Amma bizim kimi içindəki zəlzələdən silkələnib ikinci fazaya qədəm qoymaq da var imiş, özü də bütöv bir nəsil olaraq.

Özümə Ramiz Rövşəndən şeir oxuyuram, 60 yaşın lirikası:

*Hər ömür romandı, uzun, ya qısa.*
*Şirin sevgiləri, acı səhvləri*
*Sənin yaşadığın o romanınsa*
*Nə çoxdur cırılan səhifələri…*

Doğum günü hər il səliqə ilə öz vaxtında gəlir, nə tələsir, nə yubanır, istəsək də, istəməsək də. Qeyd etsək də, boş versək də. Bu ad günüm tam fərqli «formatda» keçdi. Təbrik edənlər hamısı əvvəlcə torpaqlarımızın qayıdışını mübarəkləyir, öz emosiyalarını bölüşür, sağollaşanda mənim ad günüm yada düşürdü. İncimək? Nə demək?

*Nə deyir uzaqda səslənən əzan?*
*Deyir innən belə bu giley nədi?*

Düz deyir böyük «romançı»! Qəlbim böyük bayram içərisindəydi. Doğum gününün bayrama, özü də belə bir bayrama düşməsi nə xoş hiss imiş. Bütünlükdə noyabrın qələbə ilə assosiasiyası... Elə Zəfər ayı da deyə bilərik. Zəfər qızı olmaq çox qürurverici! Şüuraltı əlaqələndirmənin acısını dadmışdıq, növbə şirinindir. Şükür ki, şirini-acısı, sevinci-göz yaşı, həyəcanı daxil, bu günləri yaşamaq qismətimdə var imiş. Gör nə qədər yaxınım bu qubarla yaşayıb dünyasını da nisgilli dəyişdi. Çox fərəhlənirdim! Kaş həmişə ad günüm belə gözəl xəbərlərin içində itib-batsın, unudulsun! Bu dəfə belə, Deleçka! Hər şey əladır! Ad günləri qurban olsun, qurbanı olduğum Qarabağa! Qalx ayağa, həyatında təmizlik yap! «Əşyaların yenilərinə evində, insanların iyilərinə içində», dünyanın gözəlliklərinə qəlbində yer aç! Yeni həyata gec qalma!..

O qədər başımız cəbhə xəbərlərinə qarışdı ki, qızıl payızı da əldən verdik. İlkbaharı pandemiya əlimizdən almışdı, sonbaharı da müharibə oğurladı. Qəlbimizlə də payıza toxuna bilmədik, romantika hayında deyildik. Elə yaxşı ki, torpaqlarımızın xəyalı ilə yaşadığımız zamanlar deyil. Həyatımızın ən gözəl payızı elə indi pəncərə arxasında sona çatmaqda olandır. Bu PAYIZ o qüssəli payızlardan deyil, bu payız bir başqa payızdır, bizə Qarabağımızı qaytaran payızdır. Biz onu bahar kimi yaşadıq... Əsl hava durumu

içimizdə olandır, qalanı sadəcə fəsildir. Hər iki virusdan azad payızları isə hələ yaşayacağıq.

Müharibənin ən qızğın vaxtı Əqrəb bürcünə düşdü. Azərbaycanın böyük bir hissəsi də əqrəbin nəzarətindədir. Əqrəbin güclü eqosu var, aqressiv və qisasçıdır. Özünü də Mars himayə edir. Mars da müharibə allahıdır. Qədim zamanlarda ölkələr müharibə aparanda belə şeyləri nəzərə alırdılar. Hər padşahın özünün münəccimi, rəmmalı, yuxuyozanı olurdu. Dronlar işə düşəndə ulduz fallarına ehtiyac qalmasa da, təsadüflərin üst-üstə düşdüyü (təsadüflərinmi?) bu müharibədə diqqət çəkəcək dərəcədə maraqlı olduğunu düşünürəm.

44 gün davam edən «Dəmir Yumruq» əməliyyatı zamanı Azərbaycan 5 şəhəri, 4 qəsəbəni, 286 kəndi və Azərbaycan-İran sərhəddini qanla, canla işğaldan azad edib düşməndə qalan ərazilərimiz üçün perspektivli platsdarm əldə etdi. Müharibənin aktiv mərhələsi bitdi, yeni etapa daxil olduq... Bundan sonrası siyasətlə. Suallar peyda olmağa, günü-gündən çoxalmağa başladı. Erməni ilə işimiz qurtarmamışdı, başqa yöndən davam edirdi. Bilən də, bilməyən də danışır, fikir yürüdür, proqnoz verirdi. Rəy bildirmək hər kəsin haqqı olsa da, təsir altına düşməmək çətin idi. Elə həssas, çətin dönəm idi ki, kim nə deyirdi, inanırdım. Hisslərimiz açıq idi, ona görə... Bir tank o yana getdi… «Niyə?» deyə gecə səhərə qədər yata bilmirdim. «Birdən Kəlbəcərdən çıxmazlar, son anda Laçında nə isə baş verər, Hadrutu geri istəyərlər», – qorxuları içində, «düzəldərik, gəlib yenə kor qoyarlar», – şübhələri qəlbimi

yeyə-yeyə xəbərləri izləməkdə davam edirdim. Politoqlar, ağlı kəsənlər deyirdilər ki, ermənilər Qarabağda yaşamağa yer tapmayacaq. Onların məskəni Hadrut idi, qanımızla almışıq... Xocavəndin 70 % bizdə... Xocalıya qayıtmaları ağlabatan deyil... Qalır bir Xankəndi, o da azərbaycanlıların nəfəsindən dəryada yelkən kimi titrəyir. Əsas Dağlıq Qarabağın status məsələs idi, o da «gorbagor» oldu. Rusiyanın düşmən televiziya kanalları və onların aparıcıları birbaşa efirdə «gorbagor oldu», «cəhənnəmə getdi» sözlərini açıq debata çıxarmışdılar. Birincini «многократно эксгумированный», ikincini «иди напреисподнюю» kimi tərcümə edirdilər ki, bu da milli koloriti çatdırmadığı üçün gülüş doğururdu.

Postmüharibə dövrünə qədəm qoyduq. Demək, indi bizdən tələb olunan soyuqqanlılıq, provokasiyaya getməmək, təmkin göstərmək idi. Səbr acı olsa da, meyvəsi şirindir. Hövsələ etmək, sual verməmək, işi Komandana buraxmaq və gələcəyə inanmaq! Prezidentimiz çox uzaqgörən və düşmənlərimizi hər kəsdən artıq tanıyandır. Sübut etdi ki, qisasın klassiki süfrəyə soyuq verilməsindədir. Bumeranq qanunu həmişə işləyir, sadəcə əlverişli məqamı qaçırmamaq lazımdır. Bütün bunları düşünərkən, analiz edərkən gözümün önünə «Tülkü və Durna» nağılı gəlirdi. Tülkü şorba bişirib durnanı qonaq çağırır, nəlbəkiyə töküb qabağına qoyur... Durna da aş dəmləyir, ağzı dar qabda süfrəyə verir... Demək, məntiqlə düşünsək, eyni mənzərədir. Təklif edə biləcəyimiz bu! Bu şərtlərlə yaşamaq istəyirsiniz, yaşayın... Dörd bir yanınız azərbaycanlılar... Qa-

rabağda «dinc erməni» anlayışı yoxdur. Hamısının əli dirsəyə qədər qana batıb. Hərəsinin də «şkafda öz skeleti» var. Elə bilməsinlər ki, bir müddət dibə yatacaq, sonra yenə öz işlərində olacaqlar. Hə, hələ elədikləri də var... Əməlləriniz rahat buraxacaqsa, yaşayın... «Azərbaycanlılar vuruşa bilmir» təsəllisinin iflasa uğradığını görən, məğlubiyyətə, təklənməyə öyrəşməyən ermənilər bizim qələbəmizi həzm edə bilmir, ümidlərini yaxın Rusiyadan üzüb okeanın o tayına əl açırdılar. Əlbəttə ki, əsas himayədarları Fransanın timsalında 27 il boş-boşuna «fəaliyyət» göstərən, əslində isə ermənilərin başına beynəlxalq «çətir» tutan Minsk qrupunu da ehtiyat variant kimi unutmurdular. Kapitulyasiya aktını imzalayan Ermənistan kapitulyasiyanın özünü qəbul edə bilmir, bunu «işğaıçı» şəninə sığışdırmır, torpaqlarımızdan bacardıqca qopardıb özünə pay saxlamaq istəyirdi. «Biz ermənilər məğlub olmağı bacarmırıq» deyirdilər. «Hər sahədə beləyik, lap elə idmanda». Uduzmağı da bacarmaq lazımdır! Allah elə bilib dəvəyə qanad verməyib. Hər santimetr uğrunda siyasətlə, diplomatiya ilə, səbrlə mübarizə aparmaq da var imiş Qarabağın qara qismətində. İndi də itin-qurdun parçalayıb bölüşdürə bilmədiyi, hər cür toponimik cinayət törətdiyi müqəddəs torpaqlarımızı min bir əzabla, yenə də şəhid verməklə, zərrə-zərrə, ilmə-ilmə ordan-burdan toplayıb ərazi bütövlüyümüzün tam bərpasına başladıq.

## «Firdövsi-Dilaradır Gərçi Qarabağ»

*Uşaqlara Vətəni sevdirmək lazım deyil,*
*onlara Vətəni tanıdın, özləri sevəcəklər.*
*(Xudu Məmmədov)*

*Sitatdan o zaman istifadə etmək lazımdır ki, həqiqətən də, nüfuzlu fikir sahibinin sözü olmadan keçinmək mümkün olmasın.*
*(İ.NET-dən)*

Ağdam deyəndə ilk növbədə Birinci Qarabağ müharibəsində verdiyi 6000 Vətən fədaisini – şəhidini düşünürəm. Elə həmin müharibədə Şuşaya dayaq, Füzuliyə arxa, Xocalıya ümid olan ağ damlı şəhəri düşünürəm. Sonra da gözəl-gözəl imarətləri gəlir gözümün qabağına. «İmarətli» günləri... Bir məclisdə ortayaşlı qadın söhbət edirdi ki, sovet vaxtı hind filmlərində milyonçuların villalarına baxıb «ah» çəkənlərə deyirdim ki, siz Ağdamın evlərini görməmisiz… Həmin evlərdən çıxan insanların ömrü illərlə yataqxanalarda çürüdü. Lakin biz azərbaycanlılar üçün ev anlayışı atamızın, babamızın qoyub getdiyi mülklə məhdudlaşmır. Bizim əsas evimiz qoynunda bir dənə də olsun abad ev qalmayan Qarabağdır.

Gözəl Qarabağın ürəyində yerləşən Ağdam Yuxarı Qarabağ sayılsa da, o qanlı hadisələr başlayandan «müharibənin paytaxtı» olub. Əslində, Ağdam həmişə paytaxt olub, ticarət, rifah paytaxtı. Təcavüzkarlar Ağdamı təhvil verməyə məcbur qalanda qarğış edirdilər ki, o torpaqlarda

bizim gözümüz, ah-vayımız qalıb, orada sizə (yəni bizə!) xoşbəxtlik yoxdur. Xirtdəklərində qaldı... «Ağıldankəmliyin ilk əlaməti utanmaq hissindən məhrum olmaqdır». (Z.Freyd) Bizimcə desək, Allah adamı (burada bütöv bir qövmü! Qəzəbin şiddətinə bax!) cəzalandırmaq istəyəndə birinci ağlını alır. «Ağdam bizim vətənimizdir» şüarı «Şahpələngova»nın erməni familiyası olması məntiqi ilə eynidir. Absurd teatrı! Amma heç bir janra oxşamır, nə farsa, nə parodiyaya, nə tragikomediyaya. Heç satiranın hüdudlarına da sığmır. Ha fikirləşdim, «itin duası qəbul olsaydı, göydən sümük yağardı» misalını çəkməkdən başqa, ağlıma bir şey gəlmədi. Yenə də it... Yazıq it, dəsxoşa gedib...

Demək nə qədər ağır olsa da, 80-lərin əvvəllərində «Qarabağın ağ günlü gözəli» adlandırılan Ağdam işğaldan sonra böyük bir qəbiristanlığı xatırladır, uçurub dağıdılmış evlərin qalıqları da baş daşlarını. Yüksəlişinin zirvəsində olanda xain əllərlə daş-daş, kərpic-kərpic sökülüb tikinti materialına çevrildi. (Yəqin ki, tarixdə belə şey olmayıb... Bundan betərləri olub yəqin ki. Müharibə gedib, bomba düşüb, döyüşdə dağılıb. Amma «insan» əli ilə abad şəhərin santim-santim sökülməsi... İnanmıram. O qədər məntiqə sığmır). «Nə qar yağmağa ağ damlar var, nə də quşlara yuva qurmağa ağaclar». Faciə, fəlakət, dəhşət, vəhşət! Düşmənin nifrəti daşda, divarda, yolda, bağda, bağatda, ağacda, yarpaqda – bir sözlə, hər addımda və hər şeydə istəməyə-istəməyə adamın gözünə girir. Xaraba Ağdam – Ermənilərin «şah əsəri», gələcəklərinə qoyduqları

üzqaralığı, xəcalət, imic, «miras»dır. Canlı görənlər deyir ki, hələ televizor instalyasiyanı bir az «malalayır», orta və uzaq plan gizlədir, ağaclarda tək-tük görünən xurma, armud, nar ümumi panoramı canlandırmaq istəyir. Mənzərənin əsli isə adamı reallıqdan ayırır, həcmi – insan və ermәni müqayisəsi ətrafında dərin düşüncələrə qərq edir. İstər onlayn gör, istər oflayn, lap get peykdən bax, təəssüf ki, heç nə dəyişmir. Ağdam yoxdur. Qurmaq deyil ki, əllərindən gəlsin... Nədən yaranıblar, kimdən törəyiblər? Heyvan kimi heyvan deyillər, insan kimi insan sayılmazlar... Qarabağ saqamızın memarı Pənahəli xanın 1751-1752-ci illərdə inşa etdirdiyi Şahbulaq qalası qalıb, onu da yəqin necəsə, öz adlarına çıxmaq istəyirlərmiş. Səfixan Qarabağinin tikdiyi Cümə məscidi qalıb, onu da hədəf, istiqamət üçün saxlayıblar. Bu məscid son 30 ildə hansı vandallıqlara məruz qalmayıb, nələrə şahidlik etməyib? Alqan içində gətirilən Xocalı şəhidlərini qəbul edib, şəri qaydada dəfn edib, 30 il düşmənin tapdağına, istismarına, təhqirinə dözüb.

Şəhərlər tək öz tarixi abidələri, görməli yerləri, qədim məhəllələri ilə məşhur olmur, həm də nekropolları, panteonları ilə tanınır. Camaatı şil-şikəst, lüt-üryan qovandan, mülkləri son mıxına qədər soyandan sonra da ürəkləri soyumayıb (bizi qınayanlar, sülhə çağıranlar, indi biz necə soyuyaq?), goreşən kimi üz veriblər qəbiristanlıqlara. Mərmər qəbirüstlərini çıxarıblar, nə mümkündü aparıblar, qalanını da ərinməyib buldozerin altına verib şumlayıblar. Ən böyük təhqirə Ağdamın siması – Qarabağ xanlarının

türbələri, Xurşud Banu Natəvanın məzarı yerləşən İmarət-Qərvənd qəbiristanlığı məruz qalıb. 2016-cı ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Belçikanın Vaterloo şəhərində Xan qızına qoyulan heykəl də oxşar barbarlıqla üzləşmişdi. Postomentdə «Şərqin müasir maarifçi və şairə qadını Xurşudbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan» sözləri düşmənlərimizi möhkəm qıcıqlandırmış, yazı qopardılaraq heykəlin üstünə boya tökülmüşdü. Bildiyimiz erməni. Qara əməllərindən qalmır ki. Natəvanın Almaniyada yaşayan kötücəsi Lev İsmixanov-Laytman (burada düşüncələrimə bir mötərizə açım, görəsən niyə bütün klassiklərimizin, görkəmli şəxsiyyətlərimizin xələfləri uzaq xaricdə yaşayır?) yaşadığı şəhərdə Xocalı soyqırımına həsr edilmiş sərgi təşkil etmiş, Qarabağ müharibəsində Azərbaycanın haqlı mövqeyini alman ictimaiyyətinə çatdırmaqda böyük təbliğat-təşviqat işləri görmüşdür. O, hələ 1983-cü ildə anasının İrəvanda elmi ezamiyyətdə olduğu zaman erməni həmkarının evində qarşılaşdığı hadisəni də danışır... Evin 10-12 yaşlı oğlu məni xəritənin qarşısına gətirib Qara dənizdən Xəzər dənizinə qədər olan məsafəni göstərərək «buralar böyük Ermənistan olub», – dedi. «Ermənistan bu konfliktdə küçə uşağına oxşayır. Sataşır, çətinə düşəndə isə qaçıb dünya liderlərinin arxasında gizlənir», – deyə Qarabağ xanlarının varisi söhbətinə yekun vurur. Bizə dəyən fiziki, mənəvi, maddi ziyanın ölçüsü, əvəzi yoxdur. Bunun hesabını kim verəcək? Necə olur, bir məktəbli topla vurub kiminsə şüşəsini sındıranda cəza alır, valideyni pulunu ödəyir... Bu boyda şəhərlər, kəndlər

viran qalıb. Düşünürəm ki, bircə-bircə cavabını verəcəklər. Hamısı olacaq. Biz xalq olduğumuzu sübut etdik, Xalq olaraq yenidən doğulduq. Qızım deyir, mama, elə bilirəm İlham Əliyev atamdır. Xüsusilə, ingilis dilində Cocuq Mərcanlının adını elə şirin çəkir ki, istəyirəm ürəyimi çıxarıb ona verim...

Sosial mediada cəmi bir dəfə (!) çalışdım dinozavrların sələflərinə (sitat özlərindəndir, iddia da) nə isə başa salım... Həşir qaldırmışdılar ki, ay Şuşanı belə vurduz, Xankəndini belə dağıtdız... Mən də dedim ki, öz torpağımızdır, istəyərik dağıdarıq, istəyərik qurarıq. (Təbii ki, sarkazmla!) Bir də dedim ki, bizdə pis nəsə varsa, bunun üçün sizə borcluyuq, siz məcbur etmisiz, sizdən öyrənmişik. Rədd olsun hər cür faşizm! Dünyada yaşayan 50 milyon azərbaycanlının bir terror təşkilatı da yoxdur. 10 milyon ermənininin isə ayrı-ayrı ölkələrdə yaratdığı 13 terror partiyası dünyanın hər yerində qanlı olaylar törətməkdədir.

Bir video yayılmışdı onlar Ağdamdan gedəndə. Ağdamı dağıdan həmin ermənilər əşyalarını götürmək üçün hərbçilərimizdən icazə istəyirlər. «Mən fəhlə adamam, böyüklər nə deyir ona baxıram» filan, – deyə maskalanmağa çalışan erməniyə bizim əslən Ağdamdan olan "Xanı" ləqəbli kəşfiyyatçımız Səyyaf Əhmədov «ay «fəhlə», bura haradır?» kimi sadə sual verir:

– Ağdam...

– Ağdam. Bəs sən burda nə gəzirsən?

Təbii ki, dilini sürüyür, verməyə cavab yox..

– İcazə verirəm, amma ağ bayrağı əlindən qoyma, telefondan istifadə etmə, əldən də zirək ol!

O da dinməz-söyləməz ağ bayraqla əli ayağına dolaşa-dolaşa yükünü maşına yığır.

Bax belə! Torpağın, yurdun sahibi evinə gəlib!

Ağdamı yenidən salmaq lazımdır. Quru yerə ağac sancıb yurd salan kimi. Tək Ağdamı yox, Füzulini də, Zəngilanı da, Qubadlını da... Hamısını. Heyvanların dağıtdığını İnsanlar bərpa edəcək. Halal olsun torpağımıza, murdar götürmədi. Yadelliləri sona qədər qəbul eləmədi, günəşi ilə isitmədi. Səbrlə gələcəyimiz, qayıdacağımız günü gözlədi.

Azad etdiyimiz ərazilərdə hələ çox yaralar sarımalıyıq. Torpağı, meşələri, çayları sağaltmalıyiq. Hara baxsan, yazıq görünür. Ağdamın kəndləri «ağıllı», özü isə smart-şəhər olacaq, əvvəlki növrağı da qayıdacaq. Yenə də keçmişdə olduğu kimi ermənini yandıracaq, bağrını çatladacaq.

Və biz bu cür məxluqatla yanbayan yaşamışıq.

Bir məclisdə tanış qadın bir hadisə danışdı:

– Xalamın üst qonşusu vardı, Sevda nənə. Yaşlı, tək, köməksiz, fil xəstəliyindən əziyyət çəkən bir qadın idi. Amma o qədər şirindil, mehriban, qayğıkeş biri idi ki, qonum-qonşu ona təmənnasız əl tutur, ailəsinin bir üzvü kimi baxırdı. Özü haqqında heç nə danışmırdı, soruşanda güc verirdi göz yaşlarına. Özü də Qarabağ ləhcəsi ilə danışırdı. Tək bir dəfə onu Anuş deyə axtarmışdılar ki, bu da hamını çaşdırmışdı. Günlərin bir günü Sevda nənə köçüb getdi. Və getdiyi yerdən xalama zəng vurub gözünü yumub ağ-

zını açdı. Şəhidlərimizi söydü, özümüzü qarğadı, Azərbaycanı lənətlədi. Məlum oldu ki, Sevda nənə erməni agenti imiş, onlar üçün imza toplayırmış, evinin də pulunu həmin cəmiyyətə keçiribmiş. Əslində, bu ümumiləşdirilmiş obrazdır, hər kəsin qonşuluğunda belə bir Sevda nənə olub.

Universitet rəfiqəm Ağdamdandır. Nüşabə Səfərova... Daha doğrusu, Məhəmmədzadə. Sonradan Səfərova oldu, Nəsibə xanım demiş, «Aslanlını Nəcibliyə» dəyişdi. Biz hamımız onunla birlikdə Ağdam dərdini çəkmişik, Şuşanı, Cəbrayılı, Xocalını çəkən kimi. Onların müsibəti daha böyük idi. Özü və həyat yoldaşı Ağdam, Füzuli kimi çiçəklənən şəhərlərdən, dədə-baba yurdlarından, topdağıtmaz imarətlərindən böyük ailələri ilə didərgin düşmüşdülər. İndi düşünürəm ki, Nüşabə 17 yaşında Bakıya gəlib ömrünün çox hissəsini paytaxtda yaşasa da, sözün ən yüksək çalarında bakılı ola bilmədi, istəmədi... Mənim ağdamlı yaxınlarım çoxdur, amma Ağdam deyəndə gözümün önünə ilk o gəlir. Nüşabə canlı tarixdir. Nələr bilir, nələr... Mərmi yağışı altında qardaşına nişan aparıb, atasının erməni girovluğunda qalan məzarı üçün 27 uzun il için-için ağlayıb, bacı-qardaşına böyüklük edib, ata-qaynata ocağını yandırıb yaxınlarını başına toplamağı bacarıb.

Anamın erməni qonşuları vardı. Kişi jurnalist idi, guya ziyalı, Jurnalistlər İttifaqının üzvü... Mükafatları da var idi. 90-larda köçəndə kənddə yox... Bakıda çoxmərtəbəli binada mənzilin qapı-pəncərə çərçivələrinə qədər söküb aparmışdı. Seyf qapını çıxarıb yerinə köhnə bir qapı sal-

mışdı... İndi deyəcəyəm onun da zəhmətini niyə çəkmişdi. Köçəndə son ziyanəvərliyini etmək üçün... Qapını bağlayıb 9-cu qatdakı mənzilin su kranlarını açıb 1-ci mərtəbəyə qədər illərin qonşularını su altında qoymuşdu. (O zamanlar indiki kimi sərbəst mənzil almaq mümkün deyildi. İnsanlar «gor qonşusu» olurdular, doğulduqları evdən də son məkanlarına köçürdülər). Tanış mənzərə, indi televiziya ilə əsəblə, həyəcanla izlədiyimiz erməni vandallığı... Xaraba qoymaq qanlarındadı. Tikib-düzəltməklə işləri yoxdu. O bir tərəfə, «bizə qismət deyilsə, qoy heç kimin olmasın» prinsipi ilə yaşayırlar. O dəfə bir siyasətçiləri deyir ki, biz nəyimiz var, Qarabağa qoymuşduq, indi necə dolanacağıq? (Qarabağ sizin idi bəyəm? Başqasının torpağını necə itirmək olar?) Nə qoyublar görəsən? Öz aləmlərində yatırım-filan ediblər. Ermənisayaq. Bir gülməli şeyi də deyim, mən unutmuşdum, bacım yadıma saldı. Toyuğu "qurban" kəsib qonşulara paylayırdılar, birinə bir qanad, o birinə boğaz... Kağızın içinə qoyub sapla sarıyırdı Aşğen «xanım»... Hərdən virtual aləmdə bizimkilərin erməni qadınlarına «madam» deyə müraciət formasına rast gəlirəm. İstifadəçi fikrini bildirir, sözünü deyir, amma xitabı dediyim kimidir. Mənim xoşuma gəlmir, etirazımı da bildirirəm. Demirəm söy, kobud sözlər işlət, amma, dəyərindən artıq da qiymət vermə. Əvvəla, layiq deyillər. Sonra da, bizim qadınlara elədiklərini unutmaq nədir, düşüncəmizdə də yumşaltmaq olmaz. Həə, dediyim Aşğenin qabiliyyəti ona çatırdı. Hələ biz bunları guya əhliləşdirmişdik... «Əl ermənisi» deyirdik. Gör o birilər nə gündə imiş-

lər... Onlar nə bilirlər qurban nədi? Həmişə bizə oxşamağa çalışıblar, amma bacarmayıblar. Bacarmayanda da oğurlayıblar.

Bunlar elə-belə, yeri düşdüyünə görə... Torpaqlarımız bir-bir geri qayıtdı, növbə Ağdama da çatdı. Bu həsrət bitdi. Həmişə elində-obanda, bacı! Həmişə deyirdin ki, kaş xarabalıq qayıdaydı, biz də o xarabalığı yenə bülbüllər oxuyan cənnətə çevirərik! Allah araya bir də yurd ayrılığı salmasın. Ümumiyyətlə, hər cür ayrılıq bizdən uzaq olsun! Amin!

Mənim sosial profillərim bağlıdır. Dostlarım, postlarım, fotolarım... Tək öz kitablarımdan etdiyim paylaşımları oxunsun deyə, hamı üçün açıq qoymuşam. Bir erməni girib profilimə, başdan-ayağa oxuyub, qarşısına da təəccüb işarəsi qoyub. Əvvəl pis oldum ki, düşmənin mənim səhifəmdə nə işi, istədim deaktiv edim. Sonra sakitləşib fikirləşdim ki, qoy görsün onlar haqqında onlar görmədən nə düşünürük. Bir var, fərqli düşünüb özünü düşmənin qabağında sındırmamaq üçün ayrı şey deyəsən, bir də var, öz yaxınlarının arasında mətbəx söhbəti... Yazılarım hamısı Qarabağ haqqında idi. Hamısında da erməniləri yıxıb sürümüşdüm, faktlarla, sənədlərlə. Mənə qəribə gələn bu qədər mətni oxuması oldu. Bəlkə də özlərini tanıdığı üçün... Həqiqət çəkib aparıb. Kitabın yarısını oxuyub. Dərdləri bizik də... Hamısı Azərbaycan üzrə «elmlər doktoru»dur. Qoy özünü tanısın, görsün ki, bizi bu qədər daş qəlbli özləri, əməlləri edib. Və çatlasınlar!

Faşist Almaniyası acı məğlubiyyətləri ilə rüsvayi-cahan olandan sonra dövlətin siyasəti dəyişdi. Almaniyanı da düşdüyü bataqlıqdan həmin o düzgün mövqe xilas etdi. Xalq öz düşmənini tanıdı. Tanıtdırıldı. 75 ildir ki, Almaniyada demokratik, federativ qarışıq «Adolf» adı qoyulmur, lənətli kimidir. Nasizmin mərkəzi olan Almaniya indi maksimal tolerant bir ölkədir. Bizim Vətən müharibəmizdə Ermənistandan Qarabağa, özü də birbaşa ön xəttə, atəş altına atılan 18 yaşlılar birmənalı ölümə göndərilirdilər. Dövlət rəsmiləri güclərin bizim xeyrimizə qeyri- bərabər olduğunu müharibənin ilk günlərindən gördü və xalqı aldatmağa davam etdi. Bilərəkdən təslim olmadı, bizə qarşı 30 il dayanmadan sərgilədikləri faşizmi bu dəfə özlərinə tətbiq etdilər. Bizim ərazilərdə atıb getdikləri, Qızıl Xaçın dəfələrlə etdiyi çağırışlara baxmayaraq yığışdırmadıqları meyidlərini yenə özümüz yığıb Gürcüstan vasitəsilə onlara ötürdük. Götürmək istəmirdilər. Meyid sənəd-sübutdur, gizlədə bilməyəcəkdilər axı... Sahibinə verməməkdən, xalqı «taktiki geriçəkilmələri» ilə daha bir müddət yola verməkdən ötrü öz millətinin balasını qurda-quşa yem edirdi Ermənistanın rəhbərliyi. Bizim bəzi vətənpərvər iş adamları döyüş bölgələrinə soyuducu-maşınlar göndərmişdilər ki, nə yerləşdi yığın verin özlərinə, maşını da geri almayın. Təki üfunətli qalıqları müqəddəs torpağımızda qalmasın! Amma onlar 90-larda bizim şəhidləri bazarlığa çıxartmışdılar. Əvəzində ya əsir düşmüş «boyevik» istəyirdilər, ya da benzin. Bu biz, bu da onlar... Qarabağın çöllərinə səpələnmiş yerdə qalan cəsədləri isə özləri kimi əsl

çaqqallar didib parçaladı. Absolyut ədalət! Bu ədalət bizə baha başa gəlsə də... Çox gözləsək də.

Nə vaxtsa, «yüz min behiştin həsəd apardığı» Qarabağ yenə də cənnət olacaq! Aşıq Ələsgər demiş, «başa Xaçın, ayağa – Qarqar axan» Qarabağ «şəfa» olmaya bilməz! Səbrlə, birləşib, hamımız bir yerdə Yeni Qarabağ yaratmalıyıq. Daş üstdə gül bitirən kimi. Heç kim də deməsin ki, bu «O» Qarabağ olmayacaq. Bu gün bəşəriyyətin sərvəti sayılan nə qədər şəhər, tarixi abidə, əsər yenidən həyata qaytarılıb. Napoleonun işğalından sonra Moskvanın yenidən qaldırılmağı 30 il çəkdi. Həmin o Paris Notrdam dəfələrlə yandırılıb, bəlkə də, əslindən çox az şey qalıb. Dünya muzeylərində heyran qaldığımız əsərlər ayrı-ayrı dönəmlərdə cırılıb, üzərinə rəng, turşu tökülüb, bıçaq zədəsi alıb. Bu gün də göz, könül oxşayır. Ruhdan düşməməliyik! Keçmiş Qarabağın əsasları üzərində Yeni Qarabağ salınacaq.

Belə deyim var: «Vətən üçün hər şey edilməyibsə, demək kifayət qədər edilməyib». Biz isə Qarabağı yenidən cənnətə çevirmək üçün mümkün olanı da edəcəyik, mümkün olmayanı da! «Külli Qarabağın abi-həyatı» yenə də «nərmü-nazik bayatı» olacaq!

*Görüm abad olsun ol Qarabağı…*
*Şənlik olsun, dağı, bağı, irmağı…*
*(M.Nigari)*

Onlara isə xəyali «arsax»larını doymayan iştahaları ilə bir yerdə dəfn etməkdən savayı, bir şey qalmayacaq.

## «KƏLBƏCƏRƏ GÜZAR DURUR QARŞIDA!»

*Getmə, ey yolçu, dayan, bir oturub ağlaşalım.*
*Ələmim bir ürəyin payı deyil, paylaşalım...*
*(Məhmət Akif Ərsoy)*

Əfsanə geri döndü. Yaralı, bağrı qan-qeysan olsa da, döndü. Qəlbində 27 ilin sirləri ilə. Danışacaq yavaş-yavaş... Fəqət onun yaşadığını dinləməyə gücümüz yetəcəkmi? 93-cü ilin görüntülərinə baxıram... Kəlbəcərin iflasına... Odlu halqada olduğu zamanlara. Ara qarışıb, məzhəb itib. Jurnalist yerli sakindən rayondakı vəziyyəti xəbər alır... «Kəlbəcərin vəziyyəti çox ağırdır, özü də indi yox, dünəndən, daha əvvəldən ağırdır. 90% boşdur. Qaçanların xilas olmaq şansı da çox azdır. Murov ətrafında tıxaca düşüblər, köməyin gəlmə imkanı da yoxdur, nə o tərəfə getmək mümkündür, nə bu tərəfə»…

Görənlər deyir ki, yalnız Tərtərçayın sahillərini, Çaykəndi görməyən İsveçrəyə heyran ola bilər. Sanki bu yerləri Allah-təala xoş gündə, xoş saatda yaratmışdı. Bu gözəlliyə təslim olmamaq, qarşısında heyrətdən donub qalmamaq mümkün deyildi. Deyilənə görə Tərtərçayın «zümzüməsi» də fərqlidir.

Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonu olub dəniz səviyyəsinə istinadən 1500-3800 metr hündürlükdə, Tərtər çayı vadisində, Kiçik Qafqaz dağlarında yerləşir. Rayon zəngin flora və faunaya malik təbiət muzeyidir.

«Divarları silsilə dağlar, bürcləri dağ zirvələri olan», hər qayası sirli Kəlbəcər özü təbii «səngərli-qalalı» bir istehkamdır, Qarabağın qala qapısıdır. Bu yerlərin o qədər əzəmətli təbiət abidəsi, ilk yaşayış məskəni olan mağaraları, erkən orta əsrlərə aid qalaları, məbədləri var ki, bilmirsən, hansından başlayasan, danışasan. Kəlbəcər qalalarının ən yüksəyi «Comərd» qala, dəvə boynunu xatırladan Lex qalası, uğrunda yüzlərlə igidimizin qanı tökülən, 3260 m. hündürlükdə yerləşən Azərbaycanın ən yüksək dağyolu «Ömər aşırımı», «Bir qalanın sirri» filminin çəkildiyi «Dirək qayalar», «baş-başa gələn» Qamışlı qaya və yenə də qayalar, qalalar, qırçınlı dağ keçidləri... Gözəlliyi ilə qan donduran Laçınqaya, gözəlliyi olub da, bəxti olmayan yüksəkliklərdəndir. Laçınqaya hələ 120-ci ildə monqollar tərəfindən dağıdılmış, əhali qılıncdan keçirilmiş, insan qanı qayalar arasından sel kimi axıb Tərtər çayını qırmızıya boyamışdı.

Mezozoyun suxurlarından ibarət olan Dəlidağın yamaclarında qədim buzlaqların izlərinə hələ də rast gəlinir. Ən yüksək zirvəsində alp və subalp çəmənlikləri vardır. Yayda 4 fəsil yaşayır. Səməd Vurğunun məşhur «Yada sal məni» qoşmasında adıkeçən, sözügedən Dəlidağ Laçın və Kəlbəcər rayonları sərhəddindədir.

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə,*
*Kəklikli dağlardan xəbər al məni.*
*Ceyran bulağından qızlar içəndə,*
*Saz tutub, söz qoşub yada sal məni.*

*Gəlmişəm gəzməyə sizin dağları,*
*Baxım yaylaqlara doyunca barı...*
*Bu yerə şairin düşdü güzarı,*
*Gözəl qarşıladı xoş iqbal məni.*
*(Səməd Vurğun)*

Az qala Dəlidağdan da bir şey qalmamışdı... Yaylaqlardan da, oylaqlardan da, buzlaqlardan da. Başı çəkdiklərindən dağın daş qəlbi ovxalanıb tökülürdü. Şairin də, ozanın da xatirəsi önündə üzümüz qara idi. Üz ağardanlarımızın haqqı ödənməz! «Torpağı qanları ilə suvarıb, sümükləri ilə bərkidən» oğulların sayəsində bu gün Vətənli olmuşuq.

Kəlbəcəri «dünyanın tavanı» adlandırılan Tibetə bənzədirlər.

Vəngdəki «Xudavəng» monastırı və Vəngli kəndində yerləşən Gəncəsər məbədi dünya alban irsinin əhəmiyyətli nümunələrindəndir və Azərbaycan ərazisində ən böyük monastır kompleksidir. Allahın şəninə tikilmiş Xuda-vəngin (Tanrı məbədi) kimə məxsus olduğu adından məlum edir. Bunun üçün dilçi, araşdırmaçı olmaq lazım deyil. «Allahverdi»yə bir yan əlavə edib özünə soyad düzəldən oğru qonşularımız Xudavəngə də özlərinə oxşayan iyrənc ad qoyub guya ziyarətgaha çevirmişdilər. Bunlar üçün deyiblər, «чужой монастырь со своим уставом…» İşğal nəticəsində əlinə düşən fürsəti fövtə verməyən məkrli düşmən monastır üzərində qlobal manipulyasiya aparandan,

öz aləmində onu guya tam gavurlaşdırandan sonra özünün yalan makinəsini işə saldı. 1000 ildən artıq yaşı olan Xudavəngi 1993-cü ildən bəri 1000 cür hoqqa ilə özlərininkiləşdirə biləcəklərini sanmaq – daşın tərkibindən yaşının müəyyən edildiyi innovasiya dövründə çox bisavad düşüncə idi. Ağılları vaxtilə Qarakilsənin (Sisyan) alban mədəniyyətinə məxsus abidələrinin, kitabə və təsvirlərinin ayravana daşınıb erməniləşdirilməsinə, dünyaya guya ermənilərin daş dövrü abidəsi kimi təqdim edilməsinə getmişdi. Lakin, əlyazmalar yanmır... «Ən qədim zülmətdən dillənər yazılar və kitabələr!» (İvan Bunin) Bəli, hələ «xaçlılar»ın tarixi faktları falsifikasiya edib monastırı erməni apostol kilsəsi kimi təqdim etməklə 1954-cü il Haaqa konvensiyasının şərtlərini kobud şəkildə pozmasını demirəm. «Plaqiat» fransız sözü olub qeyri-maddi irsin oğurlanmasına deyilir. O birinci növbədə paxıllıq, sonra da bacarıqsızlıq, bəxti gətirməmə hallarında baş verir. Burada söhbət nə kiminsə kimdənsə oğurladığı bir-iki cümlədən gedir, nə mahnıdan nə soyaddan… Alban tarixinin total şəkildə saxtalaşdırılıb oğurlanması əslində heç plaqiatın təyinatına da sığmır. Ümumiyyətlə, ermənilər iki məsələdə ixtisaslaşıblar, iki sahə üzrə «məhsul» istehsal edirlər. Bir xaçın ustasıdırlar, bir də minanın. Kəlbəcərdə xaç sexləri var idi, gündəlik təlabat malı kimi, ehtiyac çox idi axı… «Hünərvər xalq» sirkə ilə tarix ştamplayırdı. Bəli, dünyanın gözünə kül üfürüb özlərinə belə bir saxta imic formalaşdırmışdılar. Bir də hələ sovet dövründən İrəvanda mina zavodu fəaliyyət göstərirdi. Ermənistanın 30 il ərzində

Azərbaycan ərazisinə döşədiyi mina 340 milyon dollar məbləğində dəyərləndirilir. Sonra da deyirlər niyə uduzduq? Əllərinə düşəni ya xaç düzəldib daş-kəsəyin arasında dürtüblər, ya minaya verib torpağın altında basdırıblar. Biz isə, tariximizi tarixçilərə buraxır, tarixi coğrafiyamıza lazımi diqqəti göstərmirdik.

9 tikilidən ibarət olan bu külliyə dağlar qoynunda, yaşıllıqlar içərisində, axar-baxarlı, mənzərəli bir yerdə, yüksək təpəlik üzərində yerləşib böyük ərazini əhatə edir və təbiətin gözəlliklərinin fonunda daha da möhtəşəm görünür. «Məzlum» erməni xalqı əllərindən alınan «ibadətgah»larından, əslində isə 27 il silah ambarı kimi işlətdikləri Alban kilsəsindən heç cür vidalaşıb «ayrıla bilmirdi». Vurnuxa-vurnuxa ora-bura gicəllənir, bir az da artıq qala bilmək üçün bəhanə axtarırdılar. Tülkü həccə gedir... Nəyi var sökmüşdülər, quru divarlardan da əl çəkmirdilər. Gedin öz ərazinizdə ibadət edin. Heç nəyiniz olmasa da, kilsədən bolsuz. Guya haradan öz xoşları ilə çıxdılar? Şuşa alınanda bir erməni qızı paltarını başına çəkib səsinin də cır yerinə salmışdı ki, bəs Qazançılar kilsəsində mənim toyum olacaqdı? Bizimkilər də qatı açılmamış «xeyir-dua»nı bol etdilər... «Ata, oğul, müqəddəs ruh heç kömək etməsin» və s. Amma bizim insanlarımız dağlarda parça-parça olanda da bu abırsızlığı eləməmişdilər.

Nə cırtdan da olsa, tarixləri boyu, nə 27 illik işğal sürəsi Qarabağda, bu tayfa kilsədən, xaçkardan savayı heç nə qurub yaratmayıb. Elə onu biliblər ki, özlərinə, adlarına «layiq» surroqat bir şey düzəldib göz qabağına, yol ayrıcı-

na qoysunlar və sonra bu əldəqayırmanı min hoqqa ilə əskildib dinozavrlardan qalmış xaraba kimi bizə sübut etməyə çalışsınlar. Daha başa düşmürlər ki, daşın elə yaddaşı var ki, onu əsrlər silə bilməyib, nəinki siz fırıldaqçılar. Özlərini bu «atavizmləri» ilə dünya ilə bir biabır ediblər. Hələ Adəm və Həvva da olmayanda, dinozavrlar tək-tək görünməyə başlayanda bunlar var imiş də, əzabkeş əpəcdadları əncir yarpağına bürünüb bizdən oğurladıqları dolmanı bükürmüşlər də... Hə, hələ o qüsurlu  profilləri də milli sərvətləri və qürur mənbələri imiş, həm də ağıl-kamal göstəriciləri. Hələ bu mövzuda müsabiqə-filan da təşkil olunur. Vallahi, adam bilmir nə düşünsün. Köhnəlik xəstələri... Onilliklər, yüzilliklər keçir. Dünya tanınmaz dərəcədə dəyişir... Bunlar isə  süni surətdə yaratdıqları ampluada ilişib qalıblar,  özlərini oradan çıxmağa qoymur, dünyəviyə adaptasiya ola bilmirlər. Tarixdə adları xəyalı ilə yaşadıqları qədimliklə deyil, satqınlıqla, xəyanətlə bağlı xatırlanır. Dünya bunlara necə dözür? Qara yer örtsün bunların ayıbını. Spartakı erməni satıb, Tiqran... Babəki erməni ələ verib... Babək Bəzz qalasını tərk edib yuxarı Azərbaycana keçdiyi zaman Səhl ibn Sumbat adlı bir xristian onu görüb tanımış, ərəblərə təslim etdiyinə görə məlik titulu ilə mükafatlandırılmışdı. Nə qədər belə nümunə var... Hələ  Mayakovski... O dəfə şəbəkəiçi rusların özləri bunları xeyli ələ saldı, "Kaynazoydan, Mezozoydan qalanlar, ən qədim toyuq erməni toyuğudur" – filan... Bir babat ağlı kəsəni yazdı ki, bəsdirin, yığışdırın bu söhbəti.

Normal ölkələr qədimliyi ancaq turizmdə qabardır, biz isə hər sözün əvvəlinə əlavə edirik.

*Yox, bu millət işi deyil:*
*Dava sərhəd davasıdır,*
*Dava torpaq davasıdır,*
*Namus, qeyrət davasıdır...*
*Qüdsi Quran davasıdır*
*Qara xaçla.*
*Qədim Turan davasıdır*
*Qara xaçla...*
*(Qabil)*

Bu nə düşmənçilikdir? Xaç çevirib qaranlıq varlıqların ağlına gəlməyən əməllər düşünən və icra edən bu toplumun görünməmiş düşmənçiliyinin səbəbi nədədir? Elə bil ömür boyu bunlar qazanıb, biz yemişik... Ya bəlkə haqlarını yemişik, havayı işlətmişik...

Səbəb ancaq birdir – paxıllıq, gözügötürməməzlik.

Torpaqlarımız işğal altında olanda mən həmin ərazilərin köhnə kadrlarına baxmırdım, baxa bilmirdim. Yəqin elə sən də. Azadlığa çıxandan sonra səhifələrdə videogörüntülər paylaşıldıqca Kəlbəcərin əzəmətli təbiətini görüb «dəhşətə» gəldim... Başlanğıcını bilmirəm, dağların harasındansa götürən (Lahıcda balaca bir şəlalə var. Əslində suyu gurdu, əlini altına tuta bilmirsən, suyun gücünə tab gətirmir, özü də qar-buz... Sadəcə, hündür deyil. Dedim, qalxım baxım görüm hardan başlayır? Təbiətin sirlərini

necə məharətlə gizlətdiyinə bir daha əmin oldum. Hara baxırdım, elə bilirdim, su ordan çıxır...), yerə qaynayan şəlalə kimi tökülüb  çaya çevrilən dirilik suyu İstisu... Bizi dünyada «loğman» kimi tanıdan İstisu... Gözəl zamanlarda Şövkət oxuyurdu...

*Vətənimin yaylağında iz açan,*
*Dəlidağın ətəyində göz açan,*
*Min məclisdə söhbət açan, söz açan,*
*Ələsgər tək nüfuzlusan, İstisu.*
*Nə dadlısan, nə duzlusan, İstisu.*

Keçilməz dağların içindən keçən təbii tunelləri... Buna bənzər tunelləri mən Tiflisə, İrana, Türkiyəyə gedəndə görmüşdüm. Sovetin çiçəklənən dövründə inşa edilən məşhur Laçın-Kəlbəcər arteriyasının uzunluğu cəmi 200 metr idi. İşğaldan qabaq əsas problemi yolsuzluq olan Kəlbəcərdə bu gün 5 km., 11 km. uzunluğunda tunellər inşa edilir. Xeyirliyə işlənsin! Elə bu yolsuzluq səbəbindən də düşmənin hücumu zamanı nə qədər insanımız tələyə düşüb məhv oldu. Düşmən Kəlbəcəri boşaldanda bu tuneli də partlatmaq istəyib. Lakin başı yandırmağa, dağıtmağa, sökməyə qarışdığı üçün vaxtı çatmayıb, daşıhadaşı idi… Mənim ağlım kəsən, qədir-qiymət anlayan vaxtımda Kəlbəcər işğal olundu. Bu əsrarəngiz bölgəmiz haqqında onu bilirdim ki, heç kim təyinatla ora işləməyə getmək istəmirdi. «Uzaqdır, dağlıqdır, soyuqdur, şəraitsizdir» – deyirdilər...

Çox da uzaq olmayan 70-ci illərdə bibim 3 uşağını «mızıkaya» qoymuşdu. İkisi yüksək bal toplayıb fortopiano bölməsinə, biri isə daha az yığdığı üçün kamançaya düşmüşdü. Valideynləri «hələlik oxu, sonra pianinoya keçirdərik» – deyə nə illah elədilərsə, uşaq çalğı alətinə ögey münasibəti görüb razılaşmadı... Erməni də gördü ki, yiyəsiz qalıb, götürdü özünə... Ümumiyyətlə, nəyimizi bəyənməyib qədrini bilməmişik, dərhal ermənınin favorisi olub. İstər kamança olsun, istər küftə-bozbaş. Anam bozbaş bişirəndə «serıy» deyib ağız büzərdik. Şəxsən mən klassik ədəbiyyatımızın ən mənfi personajlarını xatırlayırdım. Mənə elə gəlirdi ki, bozbaşı Məşədi İbad yeyər, Hacı Qara sevər, Qurbanəli bəyin evində bişər. Qonşu da adını «armyanskiy sup» qoyub kulinariya kitabına daxil etdi. Sənin, mənim sayəmdə. Deməyim odur ki, özümüzdə də olub. Neptun Qriqoryanlara yol açmıçıq... Mədəni dəyərlərə həssaslığı qismən azaldan kimi maddiyyat da əldən gedir.

Kəlbəcərin fakturasını videolardan mənim kimi indi görən yuzerlər yazırdılar ki, bura Şveysariyadır, nə bilim, Nepaldır... Mən bu görüntüləri şöbəmizin kəlbəcərli əməkdaşına göstərəndə «bəli, Kəlbəcərdir» – təsdiqini aldım. Özüm isə 2018-ci ildə ziyarət etdiyim Petranı xatırladım...

Noyabrın 15-i çıxmalıydılar Kəlbəcərdən. Amma çıxmadılar. Əlavə 10 gün də verdik. Banketin davamı kimi. Dağıtmadıqlarını dağıtmaq, yandırmadıqlarını yandırmaq, talamadıqlarını talamaları üçün. 27 il 20 faiz torpağımız haramıolmuşları yedirdib-içirdib. Gərək nə qədər dib-

dən-dibə düşəsən ki, su içdiyin quyunu murdarlayasan. 30 il yeməklə doymayıblar, indi yalamaqla doyacaqdılar. İtə dözərlər yiyəsinə xatir. Erməni kişisinin həyatda etməli olduğu 3 şey: «ağac kəsmək, ev yandırmaq, heç olmasa, bir türk öldürmək». Ən başlıcası: «genosid» deyib vay-şivən etmək! Ağacları kəsirmişlər ki, biz soyuqdan ölək... Hər ağacın ahı var üstlərində! Yandırmaq kimi bir maniakal həvəsi də var «qədim xalqın»... Məktəb direktorunun məktəbi yandırması kimi şərhə belə gəlməyən perfomansı...

Çəkdirdiklərini yaşamayınca bu dünyadan köçməyəcəksən! Şirindən şirin həqiqət! Necə ki, başqasının yolunda əkdiyin «gül», mütləq öz yolunda «açacaqdır». Ən ağır aqoniyanı Kəlbəcərdən çıxanda yaşadılar. Bucağa sıxışdırılıb torpaqlarımızdan çəkilməyə məcbur edilən hazıra nazir düşmən bir anda hər şeyin əlindən çıxdığını görüb nə edəcəyini bilmir, hirsini əlinə keçən hər şeydən – daşdan, ağacdan, elektrik dirəklərindən, arı yeşiklərindən, heyvanlardan çıxırdı. Allah onları həmişə pis əməllərlə məşhur eləsin!

Bəs deyirdin mənimdi? Nooldu? Adam da özünün olana çalin-çarpaz dağ çəkər? Yəqin ki, tarixdə belə şey olmayıb. Maddi, materiya olan bir tərəfə, təbiətə ölümünə divan tutublar. Özü də bu gözəllikdə təbiətə! Burada bitən ağac və otlar başqa yerdə əmələ gəlmir. Kəlbəcərdəki «Ayı fındığı meşələri»nin yerində indi boş ərazi qalıb. Düz deyiblər, meşəni yanğından deyil, insan demirəm, ikiayaqlıdan qoru... Bacarsaydılar, sıldırımları qum kimi üyüdərdi-

lər, xarabalıqları dallarına çatıb apardılar. Amma bu sıldırımlar əsrlərdir burda dayanıb, durduqca da, duracaq.

Füzulidə, Cəbrayılda yaşamayıblarsa, Kəlbəcərdə yaşayıblar. Göz dikdikləri arzuları imiş. Kəlbəcərlilər də eynən zəngilanlılar kimi danışır… İşğaldan qabaq bizim rayonda erməni çıraqla da tapa bilməzdin. Çünki yerli-dibli olmayıblar. Gərək murdar canında nə qədər fəsadlıq ola ki, səninlə heç bir əlaqəsi olmayan torpağı belə həyasızcasına məngirləyəsən. Bir dənizi də olmayan ölkə «dənizdən dənizə ermənistan» xülyası ilə yaşayır. Məşhur rus satiriki və yumoristi Mixail Zadornov da onları yaxşı dolayırdı ki, bir sınıq gəmiləri də yoxdur, iki dəniz istəyirlər! Dissonans özünü ilk olaraq elə burada göstərir. Sonra da, bu boyda torpaqlara yiyələnib Prezidentimiz demiş, it damında yaşamaqda... «Estetika»ları fəcidir, iddiaları ilə heç düz gəlmir. Bunlarınki «özümü sənə çatdıra bilmirəm, amma səni öz günümə qoyaram» – məsələsidir. Keçməz! Mənə zövq verir İlham Əliyev onları pərt edəndə. Acgözlüklərindən düşdükləri səfaləti, rəzaləti dəfə-dəfə onların başına vuranda! «Gözəl-gözəl» epitetlərlə «bəzəyəndə!» «Ermənistan, sən dalansan!» Paşinyan da dalandar. Gör nə yaraşdı... Dövləti olmayan «ölkənin» «prezidentinin» bir dəfə adını çəkmədi, elə xunta dedi. Biz də deyirik, bütün günü sosial mediada biabır edirik onları. Biz ayrı, amma Prezident deyəndə bir ayrı, yeddi qatlarından keçir. Necə ki, açıq-aşkar yumşaltmadan, ümid yeri qoymadan, bıçaq pendiri kəsən kimi dedi: «Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur!» Onla-

rın sözü artıq Prezidentin hökmünə qarşı olur və təbii ki, dünyanın gözündə yüzdə yüz uduzur!

Nə qədər dilənçi, yolçu, acgöz, şəxsiyyətsiz tayfa imiş bunlar. «Animal Planet» kanalı ilə verilişə baxırdım. Kaftarları, goreşənləri göstərirdilər. Əsasən, ölü heyvan leşi, şirdən, pələngdən qalan artıq yeməklə qidalanır, xəstə, zəif heyvanlara hücum çəkirlər. Aslan doydu, məğrur-məğrur çıxıb gedir, arxasına da baxmır ki, qoy başqası səbəblənsin. Çaqqal isə yediyini yeyir, artığını öz həmcinsinə qismət olmasın deyə murdarlayır, məhv edir. Güclülərdən qorxur, əsasən uşaqlara hücum çəkir. Portret tanış gəldimi? İnanıram ki, gəldi! Nahaqdan deyildi ki, müharibə zamanı bir-birinə xəbərötürmə üsulu kimi gecələr çaqqal ulamasından istifadə edirdilər. Bunu bizim döyüşçülər çox sonra anladı. İkiayaqlı çaqqalların siqnalını həqiqi heyvanların ulaşması pərdələyirdi. Səs-səsə verirdilər. Düşünəndə adamın tükləri biz-biz olur. Şeytandan bac istəyirlər. Heyvan olanda nə olar? Bəzən insanları müəyyən xüsusiyyətlərinə görə heyvanlarla müqayisə edirlər. At, it vəfalı, pişik mehriban, ceyran gözəl hesab edilir. Bunlar isə faunanın ən murdar, ən iyrənc canlısına bənzəyirlər, onların yolunu gedirlər. O qədər iyrəndim ki! Goreşəndən də, hiyenadan da çox, ermənidən! Bir tərəfdən ev heyvanlarını yandırırlar, elektriklə məhv edirlər, digər tərəfdən sahibsiz iti-pişiyi humanizm adı ilə yollardan yığıb Ermənistana aparırlar, nümayişkaranə heyvan sığınacaqlarına təhvil verirlər.

90-cı illərdə Kəlbəcər nələrdən keçib, nə zülümlər, faciələr yaşayıb... «Düşmən süngüsünə də keçib, əsir düşüb, zəhər də içib». Yəqin ki, tarixinin ən bədnam səhifələrini yazıb. Müharibə dövründə bir video da dayanmadan tirajlanırdı. Əsli-nəsli bilinməsə də, dünyanı Ermənistan bilən Melkonyanın başçılığı ilə əli-ayağı yalın kəlbəcərlilər 10 saat ərzində evlərindən qovulur, Murovun qarlı aşırımları ilə canını, ailəsini götürüb qaçan kənd camaatı arxadan güllə yağışı və düşmənin qəhqəhələri, əlçalmaları ilə «yola salınır».

Melkonyan bizi heç rəqib olaraq da görmürdü, «azərbaycanlılarla dava-dava oynayıram», – deyirdi.

Kəlbəcərin sıldırımlarından, şiş qayalarından nə qədər kəlbəcərli namərd düşmənə əsir düşüb rüsvay olmamaqdan ötrü özünü qorxunc uçurumların qucağına atıb. Xocalı seriyasından – Ağdaban, Ballıqaya faciələri, Başlıbel qırğını, yazıya gətiriləsi mümkün olmayan, lakin vətəndaşlarımızın canlarında yaşadıqları dəhşətlər... Hələ uzaqlaşmamış, şahidləri sağ olan yaxın tariximizin unudulmuş, bilmədiyimiz keçmişi də var. Məmməd Aslan «Sümüklü dərə» şeirini Göycə qətliamının qurbanlarına həsr etmişdir. Adı eşidənin sümüklərini yandırır:

*Mən dərə görmüşəm: moruq qoxulu,*
*Mən dərə görmüşəm: nərgiz yuxulu...*
*Bu dərə nə qədər müdhiş, qorxulu – Sümüklü dərə.*
*... Bura şəhidlərin şəhidlərin gorsuz gorgahı,*
*Bura qatillərin məhşər günahı!*

1969-cu ildə, sovet hökumətinin gəlhagəlli vaxtında yazılıb. Xəbərim yox idi. Nə şeirdən, nə Məmməd Aslanın belə cəsarətindən. Bu barədə məlumat çox azdır. Mən onu daha çox «Dərədən-təpədən», uzun illər aparıcısı olduğu «Əkil-bəkil» uşaq verilişlərindən tanıyırdım. Folklor bilicisi, folklor sevgisi ilə. Amma gör, papaq altında necə oğullarımız olub, Hayastan-Azərbaycan «qardaşlığı» dövründə nəyə qalxıblar, nələr yazıblar.

44 günlük şərəf müharibəmizdə 15 yaşlı kəlbəcərli Zabil Səfərovun nənəsindən güclə qopardılıb tanka mindirilərək əsir aparıldığını qəlbim yana-yana izləmişdim. Bu nə müsibət idi? XXl əsrə çataçatda evinin içində sakit oturduğun yerdə gəlib səni əsir aparsınlar? Xırda-xırda uşaqları... Kadrlar yayılandan sonra bu adamın fikrini çox çəkdim, onun barəsində çox düşündüm. Şükür, xilas ola bilib. 3 il sonra əsirlikdən qurtulan, indi 42 yaşı Zabil kadrarxasında olanlardan söz açır. Onu cəlladların əlindən ala bilməyən nənəsinin qorxmadan ermənilərə nalə-nifrin etdiyini, onsuz da ordumuzun bir gün qayıdıb bu torpaqları azad edəcəyini onların üzünə söylədiyini deyir... Gözünün qabağında qətlə yetirilmiş qoca nənəsindən, ermənilərin gülə-gülə «gəl, basdır» deyə gülüşdüklərindən göz yaşları ilə danışır. Mənə ən çox təsir edən, yox, məhv edən isə əsir qadınlardan birinin Zabilə «niyə qohumlarına məktub yazmırsan? Bəlkə xilas olmağına kömək etdilər?» deməsi və balaca əsirin «bunu eşidəndə dəli oldum, axı mənə heç kim heç nə deməmişdi», – sözləri oldu. Onun qəfil peyda olan ümidini düşündüm, axı heç azad olmaya da bilər-

di. Əsirlikdə keçirtdiyi əzabla dolu 3 il ürəyimi parçaladı. Əsirlər Qırmızı Xaçdan gizlədilir, elementar insani hüquqlardan məhrum edilirdilər. 28 il qabaq itkin düşən 4500 vətəndaşımız hələ də axtarışdadır. Mizan-tərəzi deyilən bir şey də var, hər şeyin geci-tezi olduğu kimi... Bu gün dövlətimiz vətəndaşlarının 30 il davam edən tapdanmış hüquqlarının qanun çərçivəsində detallı-təfərrüatlı araşdırılması, bərpası istiqamətində böyük işlər ortaya qoyur. Əslində bu işlər həmişə aparılıb, biz indi görürük. Bizə olunan zülümlərdə damcı boyda «zəhməti» keçən erməni də haqq-hesabdadır. Kim qovdu, kim rəhbərlik etdi, kim taladı, hərəkətverici, icraçı, entuziast, volontyor... İşğal vaxtı Qarabağa oğru kimi gəlib-gedən... Məhv edilən tarixi və təbiət abidələri, infrastruktur, bir söz – düşmənin Qarabağda qoyduğu heç bir «iz» cəzasız qalmır. Cani həmişə cinayət yerinə qayıdır. Detektiv filmlərdən yadımızda qalan... Damaqlarında qalıbmış bizim zəif, özlərinin gəvi vaxtları, cəzasızlıq. 90-larda vətəndaşlarımıza qan udduran qatillər köhnə hava və həvəslə yenə müharibəyə qatılmışdılar. «İki dənə qumbara atacağıq, qacacaqlar» xəyalı ilə... «Düşmənin iştahası həmişə çürük dişinin altında olur». (Sitat özümdəndir). Nə gördülər? Əsgərlərinə verdikləri «roqatka»ya qarşılıq göz açmağa qoymayan, başlarına yağan dronlar, həbs, məhkəmə, hökm.

Həyatdı da, olur, bir də görürsən kiminsə pis əməli ilə qarşılaşırsan, möhkəm gözündən düşür, daha onu tanımaq istəmirsən. O zaman həmin şəxsi xatırladan nə varsa ləğv edirsən. Həyatından da, göz önündən də. Torpaqları-

mız azad olunduqca mənzilləndikləri evlərimizdən nələr çıxmirdi? Üstü yazılı əşyalar, xatirə hədiyyələri... «Gültəkindən bacısı Zəhraya ad günü münasibətilə – 1988» xatirə vazası Xocavənddəki evlərdən birindən çıxıb. Bunu da qənimət bilib 30 il saxlayıb işlədiblər... Daha mənim sözüm yoxdur. Təsəvvür edin ki, bir azərbaycanlı ailəsi adı batmış «Haykanuşdan Siranuşa» üstü yazılı güldanı əzizləyib 30 il saxlasın… Çoxdan rədd etmişdik. Elə bil hamısı bir başdan idarə olunur. Xankəndidəki evlərdən Nazpərinin, Brilyantın şəkilləri tapılıb. (Bizsiz yaşaya bilmirlər). Lap içində adlarımız həkk olunan üzük də taxıblar yəqin... Bizə aid nə var, relikviya kimi qoruyub saxlayırlar. Əcəbdir, özümüz pisik, qoyunuq, heç nəyimiz yoxdur, amma maddi, qeyri-maddi nəyimiz var, gen-bol oğurlayıb sağa-sola işlədirlər. Biz onların qaçhaqaçda imkan tapıb yandırdığı evlərimizə də heyfslənmirik ki, nəfəsləri ilə murdarlayıblar. Əslində bunlar və daha sonra tapılacaqlar xalis muzey eksponatlarıdır. İşğal muzeyi... Olacaq. Dərsimiz çox ağır olub. Qalın oğuz elləri «dastan yaratmaqdan baş açıb dastan yazmağa fürsət tapmayıblar». Ona görə başımıza bu bəlalar gəlir. Bu gün Qarabağda yazdığımız yeni tarixi hər şəhərdə, kənddə işğal muzeyləri ilə bərkitməklə nəsildən nəsilə ötürəcəyik. Mənfur düşmən! Bizim sonrakı ağlımızı istəyirdin... Onu da bizə çox görürdün. O özümüzdə! İndi qorx bizdən!

Kəlbəcərin təbii ehtiyatları 27 il zəli kimi sorulub, sovrulub. Xromunu, qızılını daşıyıb aparıblar, İstisu mineral bulaqları vəhşicəsinə istismar edilib başqa adla dünya bazarına çıxarılıb.

30 000-dən artıq nadir muzey eksponatı olan, Sovet İttifaqında zənginliyinə görə Ermitajla ilk iki yeri bölüşdürən Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi də işğal müddətində erməni vandalları tərəfindən dağıdılıb talan edilmişdir. Kəlbəcərin qızılından, yarımqiymətli metallarından yığılıb dəfə-dəfə cilalanan, üstü rəngbərəng daşlarla, minerallarla bəzədilmiş qeyri-adi heykəllər, artefaktlar illərin əziyyətli zəhmətinin bəhrəsi idi. Hamısı qədirbilməzlər tərəfindən soyuldu, göyə sovruldu, yerlə yeksan edildi. Əvəzində dinc azərbaycanlılardan müsadirə etdikləri avtomobil nömrələrindən bədnam xislətlərinə uyğun «panno» yaratmış, ictimai ayaqyolunun da divarlarını bizim maşın nömrələri ilə örtmüşdülər. Erməni xalq yaradıcılığının gücü və dərinliyi bu qədərə çatırdı. Belə şərəfsizliyi düşünnək və bununla üzüağlıq etmiş kimi utanmadan öyünmək – yalnız damğası oğurluq olan millətin əlindən gələr. Öz aləmlərində bizdən qisas alırdılar. Qurbanolduğum Rəşadətli Ordumuz onların döyüş meydanında qoyub qaçdığı hərbi texnikanın nömrə nişanlarından «Qarabağ Azərbaycandır!» nəhəng şüarını hazırladı və Zəfər Paradımızda dünyaya və onların özlərinə təntənəli şəkildə nümayiş etdirib xain ürəklərinin başına od qoydu! Qisas belə alınar! Ləzzətlə izlədik. Ən azı əsrin sonuna qədər özlərinə gəlməzlər…

Di, indi gedin, bir özünüzdən demək istəyəndə beş də bizdən deyin, bədnam «miatsum»la böyük siyasətə səriştəsiz soxulmağın axırını gördüz.

Sevinirəm ki, qədim insan məskənlərindən olan doğma Kəlbəcərimiz ikinci cəhddə də olsa, amma bu dəfə qansız

qayıtdı. Gedənbaş qayıdışının da qanını vermişdi. Ermənilər gedəndən sonra Kəlbəcərdə bəbirlər, qaplanlar görünməyə başladı, onlar da qayıdıb gəldi.

Nə qədər imişlər Kəlbəcərdə... Bütün erməni ordusu burda yerləşibmiş. Çıxanda gördük. Rədd olanda. Mədəni sözə layiq deyillər. 30 il müftə kirayənişin olar? «Tülkü ilə dovşanın nağılı»ndakı kimi... Dovşanın evi taxtadan idi, tülkününkü buzdan. Qar əriyəndə tülkünün də evi suya dönür. Dovşanın yazığı gəlir, sığınacaq verir. Gerisi məlum... Son 30 ildə gördüklərimiz. Nə yazıq ki, acı gerçək elə nağıl kimi başlayır.

Qovulurlar, hələ bir V (Viktory) də göstərirlər. Deyən gərək hansı rəzil gününüzə sevinirsiz? Onlara da bu yaraşır. Sonra biz bunların «ağlından» nəsə umuruq...

92-ci illər milli özünümüdafiə batalyonu döyüşçülərinin fotolarına baxıram. İlahi, necə kişilər olub. Vətən Müharibəmizin döyüşçüləri kimi sütül deyillər, orta yaş civarında. Arxasız, dayaqsız, silahsız... Heç tam hərbi geyimləri də yoxdur. Amma baxışlarından od, düşmənə qəzəb saçılır. Təkbaşına ermənilərin anasını ağladıb bir ordunun işini görüblər. 1023 nəfəri əsirlikdən və 500-dən çox dağ və meşə yolu ilə qaçan Xocalı sakinini ölümdən xilas edən Qarabağ şiri Allahverdi Bağırov, adı qardaşı ilə qoşa çəkilən, onu cənnətdə də tək buraxmayan Eldar Bağırov, artilleriya atəşi altında UAZ-la öndə gedib batalyonu arxasınca aparan Fred Asif, 4 əsgərlə ermənilərlə dolu 28 vertolyotu 8 saat Xocalı aeroportunda saxlayıb uçuşa buraxmayan, son gülləsinə qədər döyüşərək şəhid olan hava lima-

nının komendantı Əlif Hacıyev müasir əfsanə kimi bu günün gənclərinə nümunədir. Hər deyəndə belə kişilər gəlib keçməz bu dünyadan! Arzu ilə, çalışmaqla da, bu cür olmaq mümkün deyil. Bu təcrübə ilə qazanılası bir şey də deyil. Sadəcə, gərək anan səni belə şir ürəkli, aslan pəncəli doğa!

Kəlbəcəri heç qaytarmaq fikirləri yox idi. Özləri də deyirdilər ki, biz onu qaytarmaq üçün tutmamışdıq, bəd ayaqda «dqr»-nin tanınmasına dəyişə bilərdik. Ümumiyyətlə isə, 90-ların sonunda Ermənistanın və keçmiş vilayətin əhalisinin 30 % Azərbaycana ərazi güzəşti «jestinə» etiraz edirdisə, 2020-ci ildə bu rəqəm 100 % çatmışdı. 2006-cı ildə «dqr» yeni konstitusiya qəbul edərək rəsmi surətdə 7 rayonu da dünyanın heç bir xəritəsində görünməyən və heç bir ölkə tərəfindən qəbul edilməyən qondarma respublikaya daxil etmişdi.

Zar kəndi tarixdə Şəhrizər adı ilə tanınır. Şəhrizər qızılla zəngin olan şəhər deməkdir. Kəlbəcər Azərbaycanın «zəri» idi. Məmməd Aslan «qayıtsa yüz Kəlbəcər, qayıtmaz o, Kəlbəcər» desə də, biz onun tökülmüş zərini yerinə qaytaracağıq, o yenə parıldayacaq.

*Şücaət, neyləyək, baxt belə baxtdı,*
*Darıxma, hər şeyi həll edən vaxtdı.*
*Bir gün gülə-gülə qayıdacaqdı,*
*Ağlaya-ağlaya köçən Kəlbəcər!*

Əsl şairin şeiri zamanı qabaqlayır. Dili-ağzı fal imiş Şücaətin! «Fal» sözündən diksinməyin, ərəbcədən «öncəni

görmə» deməkdir. Şərq hikməti də «əgər qəlbinizdə heç olmasa bir çiçəkli budaq qalıbsa, orada cəh-cəh vuran bir quş oturacaqdır», – deyə təsəlli edir. Elmi izahı da var, kainata mesaj. Mesajın xarakteri necə idisə, qarşılığı da elə oldu. Tini şad, yeri uçmaq olsun!

Kəlbəcər gülə-gülə qayıtdı, onlar isə «Qarabağsız Ermənistan yoxdur», – deyə-deyə, qədim adətləri üzrə zarıya-zarıya çıxdılar. Həmişə belə, yas içində! Beyninizə yeridilən budur. Qara paltarınızı geyib, saçınızı ağardın. Budur sizin simanız, sizə yaraşan. Allah bir tərəfdən onlara xeyir-dua verməyib. Azərbaycanın altı da, üstü də sərvətdir. Bunlara isə torpağımızın qeyri-məhsuldar, gəlir gətirməyən hissəsi düşüb, ya da bunlar qurudublar, ayağıağırlar... Gözəllik sarıdan da gözünüz həmişə türk xalqlarında olsun... Bu millətin kürəkəni ya azərbaycanlıdır (üzümüzə qaralıq), ya türk, ya Krım tatarı, bədbaşına uyğur... Harada nəzarətsiz, anasının gözündən uzaq bir növcahan görüblər, tez qamarlayıblar.

Noyabrın 25-i bacım qızının ad günüdür, həm də bu günü Bakı zəlzələsinin ildönümü kimi yada salırıq. Amma 2020-nin 25 noyabrı Fidanın ad günündən çox Kəlbəcərin azad edilməsi ilə yadda qaldı və tarixə düşdü. Baxmayaraq ki, karantin idi... Baxmayaraq ki, toplaşmaq məqbul sayılmırdı... Amma o qədər sevinirdik ki, cəzamızı çəkməyə də hazır idik... Düşmənlərimiz tərəfindən onilliklərlə məruz qaldığımız, son 10 gündə isə daha da güclənən siyasi və psixoloji zərbə öz işini görmüşdü. Birdən yenə də çıxmazlar? Yenə də «elçi»lərini göndərib güzəşt istə-

yərlər? Gör dünyanın nə yeridir ki, yaşadıqları keçmiş evlərimizi yandırdıqlarını görəndə rahatlayırdıq, daha hara qayıdacaqdılar? 27 ilin həsrətinin səbrini daşırırdı 10 gün... Ona görə rəsmi xəbəri eşidən kimi toy-bayrama başladıq. Qaldı  Laçın... Kəlbəcərin qardaşı... Azərbaycanın zümrüd qaşı...

## AY LAÇIN...

*Axan çay Xaçındı, qoca?*
*Görünən Laçındı qoca?*
*Dəli qəmlər yolan nədir?*
*Saqqalın, saçındı, qoca?!*
*(Dəmir Gədəbəyli)*

İlk dəfə Laçının adı çəkildi. Üzdük, üzdük, sonuna gəldik. Ordumuzun erməni əsirliyindən azad etdiyi kəndləri sadalandı. Ürəyim titrədi. Laçın qıfıl idi, Qarabağın qıfılı. Laçının işğalı Ermənistanla Qarabağı coğrafi tərəfdən faktiki birləşdirdi. Əvvəl gedənlərdən idi, son da... o qayıdırdı. Şüşanı yad əllərdə tək qoymamaq üçün 10 gün sonra ardınca yola düşmüşdü. Yazda odlara qalananda üşüyərək getmişdi, qışda isti nəfəslə evinə dönürdü. Cəbhədə müəyyən qədər qələbə qazanıb nisbətən özümüzə gəlməyə başlayanda AzTv də işğalda olan ərazilərimizin virtual görüntülərini nümayiş etdirməyə başlamışdı. Bir gecə də Laçını göstərirdi. Gözəl təbiət mənzərələrimizə, saysız-he-

sabsız tarixi abidələrimizə ürək yanğısı ilə baxır, «görəsən nə isə qalıb?» nigarançılığı qəlbimi didirdi. Hamısını izləmişdim, lakin mənə Laçın qədər təsir edən, belə böyük cazibə ilə ekran qarşısına çəkib özünə məftun edən olmamışdı. (Söz-sözü gətirərmiş… 1964-cü ildə ekranlara çıxan «Cazibə qüvvəsi» filminin çəkilişləri də Laçında aparılıb). Adının mənası şahin, igid, batur, özü qartal yuvası olsa da, adına yazılan melos kövrəkdir, həzindir, qəlb sızladandır. (Əvvəllər «Abdallar» adlansa da, 1924-cü ildə rayon kimi təsis olunanda Tağı Şahbazi Simürğ ona Laçın adı vermişdi). Azərbaycan necə coka-coladan cavan ola bilər ki, hələ tək bu mahnısının 150-dən çox yaşı var. Düşmənlərimizin bu gülünc iddiasını ciddi qəbul edib ürəyimə salmıram, sadəcə yalançını evinə qədər qovarlar... «Laçın» mənim üçün həmişə ayrılıqla assosiasiya olunur, yəqin bayatı üstündə oxunmasından, Arazın adının keçməsindən, Laçının 28 il işğal altında qalması səbəbindəndir.

*Bağçaların barı gül,*
*Yarı qönçə, yarı gül.*
*Gec açıldın, tez soldun,*
*Açmayaydın barı gül...*

«Laçın» mahnısının sətirləri ilə xəyali Laçını göz önündə canlandırır, qarış-qarış gəzirdim. Doğrudan da, ən böyük yetimçilik torpaq yetimçiliyi imiş. Bunu indi başa düşdüm, Böyük Qayıdışda! Öz vətən torpağını virtual görmək çox ağır idi. Ümummilli liderimiz Heydər Əliyev bizim «dağlar gözəli» haqqında demişdi: «Laçın dağları

da bizə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik... Təsəvvür də edə bilmərik». İtirdiyimiz 30 ili bizə kim qaytaracaq? Bizdə olmadığından, gediş-gəlişin kəsildiyindən Laçın haqqında demək olar heç nə bilmirdim, onun barəsində yalnız yaxından tanıdığım insanlara baxıb fikir yürüdürdüm. Laçının respublikamızın ən ağır sərhəd məntəqəsi olması, yağı düşmənlə böyür-böyürə yaşamağa məcbur qalması, yarğanlara parçalanan çətin relyefi (azad ediləndən sonra Laçında faktiki, aeroport tikmək üçün hamar yer tapmaq qeyri-mümkün görünürdü. Mütəxəssislər deyir ki, birinci dəfədir dünyada belə relyefdə aeroport tikməyə cəhd edilir), sərt iqlimi laçınlıların mərd, məğrur, mətin, vətənpərvər xarakterinin formalaşmasına bilavasitə təsir etmişdir. Mən Laçında bu qədər sayda tarixi abidə olduğunu ağlıma belə gətirmirdim, özü də kəndlərdə. Qədim körpülərin çoxluğu da burada axan bol sulu çaylardan xəbər verirdi. Sərt və mürəkkəb relyef gediş-gəlişi mümkün etmək üçün dağ çayları üzərində körpü salmağı tələb edirdi. Şəlvə çayı, Minkənd Həkərini əmələ gətirir, birləşib Araza qovuşmağa tələsirlər. Azərbaycanda körpütikmə ənənəsinin qədimliyi də bu səbəbdəndir. Maraqlananda öyrəndim ki, işğala qədər Laçında, xususən kəndlərində lX-XV əsrlərə aid 200-dən artıq tarixi abidə vardı. Mağaralar, məbədlər, kurqanlar, bürclər, qəbirüstü yadigarlar, süjetli daşlar, fiqurlar... Əsasən, at, qoç fiqurları... Keçmişdə bu yerlərdə igidlərin qəbri üstündə at fiquru qoymaq kimi bir ənənə vardı. Abidələr «tarixin nida işarə-

ləridir», deyirlər... Ermənistana daşınan tariximizin yerini nə ilə dolduracağıq?

*Laçının yanı dağlar*
*Ürəyi, canı dağlar*
*Burda bir el var idi*
*Siz deyin hanı, dağlar?*

Ahın dağlarına, Laçın… Hələ Laçının təbiəti... Bu torpaqda dünyada tayı-bərabəri olmayan qırmızı dəmirağac, dərman bitkiləri yetişir, qızıl, uran, mərmər, kobalt yataqları, çoxlu mineral sular vardır. Laçın-Şuşa yolunun uzunluğu 44 km-dir. Görünüşcə bu «serpantin» sanki dağa toxunmuş xalçadır. Məsafənin az olmasına baxmayaraq bu «şahdamar»ı qət etmək saatlar aparır, çünki maksimum diqqət və minimum sürət tələb olunur. «Bu dağların zirvələrini fəth etmək mümkün deyil, ən yaxşı halda, ən zirək alpinist ən yüksək nöqtədə bir neçə dəqiqə dayana bilər. Sonra isə külək izləri olmamışsan kimi silir...» Bura bütün Qarabağın seyrəngahı, yaylaq yeri idi. İnsanlar yüzilliklərdir yay ayları buralarda yurd salar, oba həyatı yaşayardılar. İlin 3-4 ayı yaylaqlarda keçərdi. Camaat istirahətə, maldarlar heyvanlarını otarmağa gələrdilər. Köç tökülər, alaçıqlar qurular, tütəklər çalınar, sürülər yamyaşıl çəmənliklərə səpələnərdi. «İgidlər oylağı, mərdlər yaylağı» Laçının indi məhv edilmiş meşələrində olmayan heyvan yox idi. Ona görə hər çoban yanında bir-iki qurdbasar it saxlayardı. Birdən-birə kadr kəskin dəyişir… Bütün vizual effektlər itir. Mənzərədən rənglər yoxa çıxır, dağlar

keçəlləşir, sular çirklənir. Heç bir montaj da yoxdur. Buna kino dilində «zaman sıçrayışı» deyirlər. Realda isə erməni işğalı. Lakin təbiətin şərə qarşı öz qanunu, instinkti, refleksi var. Yanmış torpaq yenidən çücərəndə daha güclü, daha məhsuldar olur. Böyük ozan alqışları ilə Laçına xeyir-dua verək, daha heç vaxt:

*Qarlı qara dağların yıxılmasın!*
*Kölgəlicə qaba ağacın kəsilməsin!*
*Gur axan gözəl çayların qurumasın!*

Azad olunandan sonra gedib-gələnlər danışırdılar ki, dəstə-dəstə cüyürlər, əliklər peyda olub, ayaq altı olmadığından düşmənin əli çatmayıb. Balavermə dövründə təbiəti bir başqa cür bəzəyirlər. Laçın dağlarına maral, ceyran-cüyür, şahin quşları yaraşır, xain erməni kölgəsi yox.

Laçın evinə qayıtdı. Bir uzun həsrət də bitdi. O yenə də Qarabağın otlağı, sərin kölgəliyi olacaq. Ağ çadırlar qurulacaq, yurd yerləri salınacaq. Şuşaya, Laçına görə may bizim üçün təqvimin qara ayı idi. Daha 18 mayı Laçının işğal günü kimi ağlamayacağıq, heç vaxt unutmayacağıq, amma ağlamayacağıq da. Uşaqlara xəritədə göstərib «buradı Laçın» deməyəcəyik. Ermənінin dağıtdığı nadir muzeylərimizi – 1977-ci ildən tarixi-memarlıq qoruğuna çevrilmiş Şuşanı, Ağdam «Çörək muzeyi»ni (keçmiş SSRİ-də bu adda, bu məramda tək ünvan olması bir tərəfə, «Çörək muzeyi» keçmiş dəyirmanın bazasında yaradıldığı üçün həm də müqəddəs məkan sayılırdı), Kəlbəcərin «Tarix-diyarşünaslıq muzeyi»ni və qarət olunmuş bütün muzeylə-

rimizi bərpa edib «Muzeylər günü» kimi qeyd edəcəyik. 18 may təqvimlə «Tarixi Abidələrin Mühafizəsi günü» olsa da, belə uzun müddət ərzində beynəlxalq aləmdən məhv edilmiş saysız-hesabsız, dünyada təkrarı olmayan tarixi abidələrimizə görə bizə bir dəstək, erməniyə quru qınaq da görmədik. Şuşada Natəvanın 170 yaşı olan bağı dağıdılıb, gözəllikdə dünyada tayı-bərabəri yox imiş. 28 il 18 mayı tənhalıqda qanadı qırılmış Laçın, kor qoyulan mədəniyyətimiz, əsir abidələrimiz üçün göynədik. Bizə gəlib çatan o gözəllər-gözəli Laçın deyil. Əsirlikdə başına gəlməyən qalmayıb, amma müqaviməti güclü olub, dözüb... XVll əsrdə yaşayıb-yaratmış Sarı Aşığın Güləbird kəndindəki xatirə muzeyi, 1927-ci ildə arxeoloqlar tərəfindən aşkar edilən qəbir-sənduqəsi də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmış, abidənin «başı» qopardılıb bir tərəfə atılmışdı. Bu, üstündə saz və müxtəlif rəsmlər olan gümbəzli əsl memarlıq nümunəsi idi. Sarı Aşıq «bayatı qoşmaq qadın işidir» – fikrini alt-üst edərək, yaradıcılığı ilə bayatıya heykəl qoymuş, həm də sanki Laçınının, öz məzarının görəcək günlərini sağ ikən görmüşdü:

*Dağlarda qar qalandı,*
*Yağdıqca qar qalandı.*
*Qarğalar laçın oldu,*
*Laçınlar qarğalandı.*

Amma bu 28 ili «təki o quru dam-daş qayıtsın» demədikmi? Dedik... Sözümüzü tuturuq. Vətən övladları viranəlikdən də enerji alıb bərpa, qurub-yaratmaq həvəsində-

dir. Köçkünlər evlərini kafelin qırıqları ilə tanıyırlar, tapırlar. Hər yer tanınmaz hala düşüb. Gör necə nifrətlə, kam ala-ala dağıdılıb. «Bizi heç bağışlama, Laçın» da dedik... Bu gün dizi üstə əff diləyirik. Qarabağın ekoloji balansının bərpasına onilliklər lazım olacaq. Laçının müvəqqəti dəhliz olmasına da göz yummalıyıq. Qəlbimizdə barışmasaq da, Qarabağın tam azadlığı naminə ağılla dözməliyik. Düşmənin nəzarətində qalan az miqdar torpaqlarımızı onun murdar caynağından qoparmaq üçün dözməliyik. «Bir igidin ömrü»nə bəs olan yaşadığımız dəhşətin cərəyanı Laçın koridorundan başlamışdı, ona da dönürdü. Paslanmış kilidi açmaq zamanı gəldi. Hər şey necə getmişdi, elə də qayıdırdı. İşğalını yaşamışdıq, azad edilməsini də gördük. Xankəndi ilə Ermənistanın gediş-gəliş yolu kimi 5 km. enliyində qurşaq hələ ki, 3 il ərzində Laçın ərazisindən keçəcək. 1001-ə dözən, 1-ə də dözər... Bu da keçəcək! Gələcək nəsillər onun nə vaxtsa «dəhliz» olduğunu kitablardan oxuyacaq. Ermənilər özləri bu dəhlizi «butafora» adlandırırlar, ona güvənmirlər, qarant kimi baxmırlar. Zamanla bağlanacağını bizdən yaxşı bilirlər.

Laçın boşaldılan gün düşündüm: «Görəsən bu gün neçə Laçın doğuldu?» Necə ki, Füzuli azad olanda doğulan Füzuliləri, Cəbrayıl işğaldan qurtaranda Cəbrayılları, Şuşanı alanda Şüşəxanımları düşünmüşdüm. Prezident Vəng kəndinin adını dəyəşəndə həmin günlərdə doğulan qızlar da, Çinarlının şərəfinə valideynləri tərəfindən Çinarə adlandırıldılar. Belə günlərdə doğulmağın xeyir-duasını göydə Allah, yerdə Azərbaycan xalqı verir. Prezidenti-

miz demiş: «Adı mübarək olsun!» Bütün xalqın toy-bayram etdiyi qələbə naxışlı, heç vaxt unutmayacağımız günlərdə həyata başlamaq! Ayağınız yüngül olsun, adınıza da layiq olun! Poladın, Mübarizin də adı yerdə qalmadı. Məktəbdə elə sinif, baxçada elə qrup yoxdu ki, orada Mübariz olmasın! Polad adı isə tam olmayan bir ildə görünməmiş populyarlıq qazanıb, hələ 4 ay ərzində 99 uşağa qoyulub. 2021-ci ildə 306 Polad doğulub, hələ «Poladhəşim» kimi yeni ad da yaranıb. «Xudayar» da geri qalmır... 33 oğlan «Xudayar»la şərəfləndirilib. Xudayar Yusifzadə bu adı kəndxudalıqdan çıxarıb şəhadətə yüksəltdi. (Elə illər olub ki, statistikada «Xudayar» heç qeydə alınmayıb). Xalq şəhidlərin adını sevə-sevə balalarına qoyur. Həmişə azad olun, əziz balalar, azad torpaqda da yaşayın!

*Diz çöküb, ayağa düşəndə yağı,*
*Yandırın yurdumda sönən çırağı.*
*Əkin qəbrim üstə bir Laçın gülü,*
*Tökün dibinə də Laçın torpağı,*
*Yel vursun, üstünə ləçək tökülsün,*
*Qızılgül içində məzarım gülsün.*
*(Hüseyn Kürdoğlu)*

# AXIR Kİ...

*Şübhəsizdir ki, bir gün həqiqət parıldayacaq!*
*(Məmməd Əmin Rəsulzadə)*

Həqiqət ikili standartlar əsasında çəkilə bilməz. İstər üst-üstdən geyindir, istər lüt soyundur, o birdir, o batindir, o xaricdir və əvvəl-axır qalib gələcək.

Axır ki, iti qovan kimi qovduq, gənə kimi qopartdıq, tilişkə kimi çıxarıb tulladıq. Bizim kimi vəhşicəsinə qovulmasalar da, izal oldular. «Yadplanetlilər» yad ellərdən qovuldular. Bəzi ististisnalarla (o da müvəqqəti) Qarabağ çəkildiyi sahilə qayıtdı. Hakimiyyətimiz bərpa oldu. Qalan borcumuzu da Allaha həvalə edək. 27 il qövr edən yaradan qurtulduq. Dekabrın 1-i qışla bir yerdə Laçını da qarşıladıq. Onlar da guya Laçından ayrıla bilmirdilər, (nə yatdılar ki, nə də yuxu görsünlər) bir-birinə sarılıb həsrətli baxışlarla itən ənginliklərə baxır, sentimental şəkillər çəkdirib ağlaşırdılar. Bu «romantizmə» inansa-inansa, ancaq fransalı məşhurlar inanar. Sən demə, Laçın onların "qəhrəmanlıq" keçmişi, erməni silahının "zəfər şöhrəti"nin simvolu imiş. Pəs, ya pəs! Daha bu qədər də ola bilməz! O silah ki, günahsız insanların qanını töküb, o "qəhrəmanlıq" ki, qətliamlarla yadda qalıb, o "qələbə" ki, 44 günə cəhənnəmə vasil oldu… Laçını qaytarmaqla Ermənistan tək bədənindən deyil, ruhundan da məhrum oldu. Payız bir illik yığışıb getdi, Laçın əbədi qayıtdı. Halal sahibini tapdı. Biz daha səni gözümüzdən o yana qoymayacağıq, Laçın!

«Tərlan oylağında sar ola bilməz!» Gedən payızı da heç vaxt unutmayacağıq. Ən xoş duyğular kimi! Çirkli caynaqları ilə bərk-bərk yapışdıqları, zəli kimi qopmaq bilmədikləri torpaqlarımızdan təmizləndilər. Torpaqlarımızı özümüzə qaytardıq, indi qaldı özümüzü torpağımıza qaytarmaq.

«Abo»ları deyirdi: «Biz özümüzü hər şeydən məhrum etməli olsaq da, müharibəni udmalıyiq. Arsaxı itirmək – Ermənistan tarixinin son səhifəsini qapatmaq deməkdir». Qapatdıq! Nijdeləri isə «Sünik və Arsax Ermənistan coğrafiyasının onurğa sütunudur», – deyə sayıqlayırdı. Onu da sındırdıq! Və millət kimi təsdiqlənib öz gözümüzdə ucaldıq. Sərkisyan kapitulyasiyadan sonra demişdi: «Biz danışıqları nəyi verəcəyimiz yox, nəyi alacağımız ətrafında aparırdıq... O vaxt biz öz qanunlarımızı yaza və həmin qanunlarla DQR-in müstəqil mövcudluğuna rəsmi xarakter verə bilmədik. Biz yaza bilmədik ki, Ermənistanın qonşusu Dağlıq Qarabağ Respublikasıdır. İndi Azərbaycanla sərhəd bu qanuna əsasən çəkilərdi». Azğınlığın, qudurğanlığın, həm də siyasi bisavadlığın, hamını öz ağlında görməyin onlar üçün acı sübutu! Bizim QƏLƏBƏDƏN əvvəl qazandığımız ən böyük qələbəmiz böyük məğlubiyyətimizə, ağır mənəvi vəziyyətimizə baxmayaraq, səbr, səbat göstərib danışıqlarda heç bir sənədə imza atmamağımız, Ermənistanın Qarabağda ikinci müstəqil qondarma erməni dövləti yaratmasına razı olmamağımız, «heçdənsə nə isə» əldə etməyə səy göstərməməyimiz olub. Torpaqlar son qarışına qədər qayıtmalıdır! Bizim torpaqlar bizim tor-

paqlardır. O yerdə ki, qurban vermişik, ora bizə ikiqat əzizdir. Həddini aşan düşmən arxayın idi ki, nəhayətdə onları hər mənada dəstəkləyən beynəlxalq ictimaiyyət vasitəsilə bizim iradəmizi özünə tabe etdirə biləcək. Tək qalmışdıq... Lakin dövlətimizin 27 il boyunca masa arxasında göstərdiyi müdrik siyasət, qətiyyət iqtisadi inkişafla, vətənpərvərlik təbliğatı ilə birləşərək ZƏFƏRLƏ nəticələndi. Xocalının hər ildönümündən sonra başımızı bulayıb təəssüflə deyirdik: «Onsuz da bir nəticəsi olmur, bu dəhşəti 1-ci sinif uşaqlarına niyə göstərib psixikalarını zərbə altında qoyuruq?» Bəs o şəkillərdəki uşaqlar? Həmin dəhşəti körpə canlarında yaşayanlar? Bütün bu yadasalmalar, hər rayonun işğal gününün hüznlü xatırlanması, iztehza ilə «kimin üçün» deməyimizə baxmayaraq, usanmadan hava haqqında məlumatda işğal altında olan bölgələrin durumunu xəbər vermək – bax, bu günə hesablanmışdı. Unudulmağa qoymamağa! Daim yaddaşda saxlamağa! Qarabağı siniflərinin qabağında vurulmuş stendlərə baxıb qanlarına qəltan olmuş yaşıdlarını görən həmin o ibtidailər aldı. Qarabağ biz yaşlıların deyil, cavanlarındır! Yaxşı ki, də onlarındır, gələcəyimizindir!

Dekabrın 4-ü saat 12-də Respublika Prezidentinin sərəncamı ilə Vətən müharibəsi Şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Biz də canımızla, qanımızla haqq etdiyimiz Zəfər Paradı hazırlığına, «Mehtər Marşı»nın sədaları altında Zəfər keçidinə başladıq.Yanıçar havası tək şənlik əlaməti deyildi, həm də, əzəmətə, ehtişama, ruh yüksəkliyinə bir işarə idi. «Hərbi ovqata sənət ov-

qatı qatırdı». Motsart özünün məşhur «Türk marşı»nı «Mehtər»dən təsirlənərək yazmışdı.

Ərazi bütövlüyümüz namus məsələmiz idisə, qələbə paradımız onu qoruduğumuz gücümüzün, qüvvətimizin dünyaya nümayişi olacaqdı! Oldu da! Düşmənlərimiz 20 faiz ərazimizi işğal etsələr də, «qələbələrini» qeyd edə bilməmişdilər, qursaqlarında qalmışdı. Heç bir ölkənin (!), hətta özlərinin belə tanımadığı, adı var – özü yox «respublika»larına oğru kimi gedib-gəlir, qonaqlarını da elə aparırdılar. Reputasiyasını qoruyan məşhurlar belə dəvətləri rədd edir, qeyri-leqal Qarabağa gedənlər isə həmin an işğalçının tərəfdaşı kimi Azərbaycanın qara siyahısına düşürdü. Şuşanın işğalını Cıdır düzündə sərxoş vəziyyətdə yallı getməklə qeyd etmələri ən böyük təsəllilərі idi. Biz isə..! Alnı açıq, üzü ağ iti qovan kimi işğalçını qovub torpağımızı təmizlədik və dünya da prosesləri divanda oturub izləmək məcburiyyətində qaldı! Dostlarımız həyəcanla, bitərəflər popkorn, düşmənlərimiz dırnaqlarını, dirsəklərini yeyə-yeyə! Hansı tərəfdən baxsaq, paradın kolossal əhəmiyyəti məhz orada özünü göstərirdi.

Bu müharibədə biz bir daha dostumuzu-düşmənimizi tanıdıq. Həm siyasi, həm əməkdaşlıq, eləcə də ədalət, humanizm müstəvisində! Oljas Süleymanov rus jurnalistinin «Siz niyə Azərbaycanın tərəfindəsiniz?» sualına: «Azərbaycan futbol komandasıdır ki, mən onun tərəfində olum? Azərbaycan xalqı öz dədə-baba torpaqlarını işğaldan azad edir» – kimi əsl dost cavabı vermişdi. Mstislav Leopoldoviç Rostropoviç deyirdi ki, mən Bakıda doğulmamışam,

məni Bakı doğub! Bakının açar sözünü necə də gözəl tapıb. Bəli, «Daşkənd çörəkli şəhərdir»sə, Bakı həm çörək, həm də «kürək verən», arxa duran şəhərdir. Qanana da, qanmayana da! Nə olar, bir dəfə də Kasparov ağzından çıxarardı... (Mən də heç ondan əl çəkmirəm. Elə yandırıb-yaxıb ki, məni haqqı-sayımızı itirməyi...) Harada oğlunun yanını kəsdirib onu mənəviyyatsız işlərə, tərəflərə təşviq edən ana görürəmsə, anası Klara yadıma düşür. «Moskva göz yaşlarına inanmır» filmindəki Rudolfun anası mənim bu siyahımda birincidir...

Birinci Qarabağ müharibəsi milli faciəmiz, dərdimiz idisə, Vətən müharibəmiz şanlı tariximiz oldu. 10 milyonun bir nəfər olduğu (hələ dünya azərbaycanlılarını demirəm) 44 günlük Vətən Müharibəmizdə bir şeyi də anladım. Xalqımız doğrudan da qəhrəman xalqdır. Yox, mən bunu yeni tariximizin qəhrəmanları – şəhidləri, qaziləri, tibb işçiləri, mərmi altında yaşasa da, müharibənin yarımçıq qalmaması üçün gecə-gündüz dua edən təmas xəttinə yaxın yaşayanlar, arxa cəbhənin alovlu vətənpərvərləri, sosial mediada «yatıb» ermənini hər an ağzindan vuran, gecə-gündüz tarixi araşdırıb onları dəlillə-sübutla susduran, dəli olub «отстанъ да, липучка» demələrinə qədər gedən vətəndaşlarımız haqqında demirəm... (Baxmayaraq ki, söz savaşı zor savaşı qədər çətindir). Onları bilirik, hamımız tanıyırıq, göz önündədirlər, hələ uzaqlaşmayıblar, dilimizdədirlər. Mən Birinci Qarabağ müharibəsinin qəhrəmanlarından – 92-dən danışıram... Yeni faktlarla tanış olduqca, hər erməni qulduru haqqında vikipediyada açıb

oxuduqca görürdüm ki, hamısı elə 92-də qırılıb. Qurtulanları da olub, amma əsas «qan-qan» deyənləri tamah saldıqları müqəddəs torpağımızda gəbərdilib. Demək, biz də onlara eləmişik, elə o zaman müəyyən qədər qisasımızı almışıq. Bunu bilmirdim, biləndə çox sevindim, o zamanlara görə bir az ürəyimə su səpildi.

“Qara polkovnik” ləqəbli Fətullah Hüseynov Qarabağ probleminin hərb yolu ilə həllini dəstəkləyənlərdən, 1994-cü ildə keçirilmiş uğurlu Horadiz əməliyyatının rəhbərlərindən olub. 90-ların əvvəllərində çəkilmiş nə qədər arxiv video-materialı var. Polkovnik ordan-burdan azərbaycanlı qırmağa Qarabağa yığışan xeyli ermənini cərgəyə düzüb danlayır, döydürmür, qapazlamır, sivilcə sözünü dinləyir, cinayətinin səbəbini soruşur, sadəcə, öyüd-nəsihət edir. İşğaldan qabaqkı görüntülərdir. Nə gündədilər, gah nala döyürlər, gah mıxa. Hələ işğalın ləzzətini dadmayıblar, bizi dişlərinə vurmayıblar… Necə ki, vəhşi heyvanın dilinə insan əti dəyəndən sonra yenə ondan istəyər, olar adamyeyən. Gör kimlərin qabağından qaçmışıq. Polkovnik də onlara yuxarıdan aşağı baxır, vəzifədə olan kolxoz, kooperativ sədrlərini bir-bir ortaya çıxarıb tənbeh edir, onlar da əlləri arxalarında quzu-quzu cavab verirlər. Nə deyir, deyirlər baş üstdə. Hələ bunun bir nəticə verəcəyinə inanır, elə onlar da inanır, bizdən çəkinirlər, xofumuz hiss olunur. Özləri də necə azərbaycanca danışır, Qarabağ ləhcəsi ilə “indiyənətən…”

– Sən hardan gəlmisən?

– Sumqayıtdan.

– Sumqayıtdan gəlmisən ki, onun heyfini burda azərbaycanlılardan alasan? Ne poluçitsya! (Ona barmağını silkələyir). Başqa birinə “ay biqeyrət erməni, get çörəyini ye də, kəndçi adamsan, indi qorxudan tir-tir titrəyirsən, toyuq cücəsinə dönmüsən, əjdaha idin əlində avtomat olanda”, – deyir. “Hamınız elədiklərinizin cavabını verəcəksiniz. Sizin millətin müəllimi boyevik hazırlayır. Niyə bizim mal-qaramızı vurursuz? Azərbaycan xalqından əl çəkin. Bax, gedin bu sözlərimi qalanlarınıza da deyin. Torpağı verməyəcəyik. Adam kimi yaşayırsız, yaşayın, yoxsa, hamınızı it kimi qıracağıq ”.

Dinləmədilər. İmperiya ambisiyalarından əl çəkmədilər. Nəticəsi göz qabağında. İt kimi qovduq da, qırdıq da. “Böyük Ermənistan”dan böyük qəbiristanlıq qaldı.

## 10 DEKABR

*Vətəni öncə dili, sonra ordu qoruyar.*
*(Rəcəb Tayyib Ərdoğan)*

*Azərbaycan ordusu! Yoxdu onun qorxusu!*
*(Vətən Müharibəmizdə uşaqların dilinin əzbəri!)*

Dekabrın 10-u, səhər 9.30, havanın temperaturu +10. Qızımla sözün əsl mənasında parad geyimində – papaqlı-şallı, əlcəkli-maskalı evdən çıxdıq. «Covid-19» qorxusunu «Allaha pənah» deyərək, «onsuz da aydan artıq evdə otu-

racağıq, heç olmasa, bu günə şahidlik edək», – düşünüb parada yollandıq. (Tədbirdən dərhal sonra sərt karantin rejiminə daxil olurduq). Tez getdiyimiz üçün yaxşı yer tuta bilmişdik. Arada başımı qaldırıb arıtlanmış səmaya baxırdım, 2783 nur parçasını görmək üçün... Bilirdim axı, cənnət əhli şəhidin məqamının həsrətini çəkir... Qalan ömrümüzü üzüağ gəzməyimiz üçün torpaqları bizə qaytarıb özləri uçub getdilər, qeyb oldular. Onların məzarını yerdə axtarmaq düzgün deyil, hər birinin yeri birimizin qəlbidir. Daha rahat yata bilərik, bir ordu da başımızın üstündədir. Onlar ölməsəydi, biz OLMAZDIQ. Sağ qayıdanlar deyirdilər ki, "bizim ən çox itki verməyimizə səbəb meydanda Şəhid qoymamağımız olub. «Boynuma sarılma, gülüm, məndən sənə keçər ölüm». (Nazim Hikmət) Yoldaşlarımızın nəşini dağ cığırları ilə çiynimizdə gətirirdik, şəhid çiyində olar. Ermənilər isə elə bil leş aparırdılar», ayaqlarından tutub sürüyə-sürüyə… Xudayar da videoda dostlarına zarafatla, «narahat olmayın, hamınızı çiynimdə daşıyacağam», – deyə «ürək-dirək» verir. Sizi verən Allaha qurban olum! Bu sətirləri yazarkən birdən əlimi saxladım və düşündüm ki, hər halda ermənilərin bizdən oğurlamadıqları nəsə qalıb. Bizim Şəhid adımızı mənimsəməyiblər. Bilirlər? Əlbəttə! Zəif damarımızdan tutmuş qədir-qiymətini bilmədiyimiz hər şeyimizə, özəlliklərimizə qədər altdan-altdan «tədqiqat aparıb» bizi öyrəniblər. Yəqin sözün məna yükü onlara çatmır, həm də «şəhid»i oğurlanmaqdan müqəddəsliyi qoruyur. Şəhidlik anı günəşin qürubuna bənzəyir... Başqa bir şey düşünəmədim...

Bir də... Məncə, məqsədə çatmaq, mümkünsüzü fəth etmək arzusu, yüksəkliyə quş kimi uçub ilk bayrağı sancmaq istəyi nə qədər igidimizin canı, qanı bahasına başa gəlib. Bunu düşmən başa düşmür, heç gözləmirik də... Vətən onların deyildi ki, sinələrini bizimkilər kimi qabağa versinlər... Maye ehtiyatları bitdikdə, günlərlə dodaqlarını qayalardakı nəmişliyə sürtməklə suyu əvəz etməyə çalışsınlar... Həmin an «o zirvədən, bu torpaqdan başqa heç kimi sevməməyi bacarsınlar»... Şeytanın maliyyələşdirdiyi nökərlərə nə gəlmişdi?

10 dekabrdan danışırdım... Mən birinci dəfə idi belə səssiz izdiham görürdüm... Onu anladım ki, camaat hələ baş verənləri isti-isti dərk etmir. Bizi elə bil isti sudan çıxarıb soyuq suya salmışdılar. Hamıda bir çaşqınlıq var idi. Postmüharibə sindromu bütün gücü ilə «işləyirdi». Hələ ki, isnişmədiyimiz bir hiss, alışmadığımız dad... 30 ildə bizə təlqin edilən məğlubluq duyğusu o qədər acımasız idi ki, tarmar olmuşduq. Qəlbimizin içi də savaşsonrası kimi idi. Fərəcin intizarında çox olsaq da, sevinə bilmirdik. Qızıma, əslində, elə özümə də deyirdim: «Ağlama, çünki bu artıq bitib. Gülümsə, çünki bu baş verib». Bərpa tədricən olacaq, uzun sürən xəstəlikdən sonra ağır reabilitasiya prosesi kimi. Fərz edək ki, Coviddən şəfa tapana asta-asta dadbilmə, iybilmə qayıdır. Elə bilirdim bir mən beləyəm. 30 ildə yaşadığımız acı o qədər ağrılı, faciəmiz dərəcədə böyük olub ki, psixoloji durumumuz coğrafi, tarixi, fiziki məğlubiyyətimiz kimi sıfıra düşüb. Nə gizlədim, mən onlardan indyə kimi qorxuram... Qorxuram deyəndə ki, bu

qövmün heç bir əxlaqa, tərbiyəyə, insanlığa, heç heyvanlığa da sığmayan mağara düşüncəsindən... Bunlar hələ də göz çıxarır, baş kəsir, anasının məzarını ziyarət edəni cinayətkar adı ilə illərlə həbsdə saxlayırlar. Verib-alması ancaq Allahın səlahiyyətində olan yaşamaq haqqını heç nədən insanların əlindən alırlar, bu onlara zövq verir, eqolarını qaldırır. Hətta Gürcüstana gedəndə də, Qazaxdan yox, Balakən tərəfdən gedirəm. Nə özüm gedirəm, nə də uşaqlarımı qoyuram. Eybi yox, insan yaxşı şeyə tez öyrəşir. Bu da keçəcək. Düşmənlərimiz günü-gündən daha da kiçildikcə, biz Qələbəmizdə də, düşüncəmizdə də möhkəmlənəcəyik! Bizi tam xoşbəxt olmağa qoymayan bir səbəb də verdiyimiz şəhidlər, əlil arabalarında gəzən gənc qazilər, matəm saxlayan ailələrdir. Aşırı sevinməyə də həya edirdik, itkin, əsir, şəhid valideynlərindən... Kaş ki, Qələbə günümüzü hər ailə (daha çox ailə, yox, hamımız) ürək açıqlığı ilə, itkisiz, nisgilsiz bayram edə biləydi… Kaş ki, həyatımızda «kaşkilər» olmasaydı! «Artıq rəsmi açıqlanmışdı: 2783 şəhidimiz var. 10 milyon... yaralımız». Dərd çəkənin idisə, qəm hamımızın idi. Əhməd Cavad demişkən, «can verən sən idin, canı çıxan mən...» Qolu-qanadı tək, qırılmış, fiziki qüsurlu olsa da, qartal məğrurluğunu itirməyən cavan-cavan uşaqlara baxanda adamın ürəyinin başına od düşürdü.

*Çıxma qabağıma, ey ər şikəstim!*
*Qoltuq ağacların sinə dağımdır.*
*Sizləri görəndə mən hər, şikəstim,*
*Elə bilirəm ki, axır çağımdır.*

*Çıxma qabağıma... dözə bilmirəm,*
*Necə rəvan keçim yanından, oğul!*
*Əzab-əziyyətsiz gəzə bilmirəm,*
*Mənimçin keçmisən canından, oğul!*
*(Qabil)*

Elə dünən gördüyüm... Həyətimizdəki «Məhəllə» marketinə gedirdim. Arxadan cavan, şən səs eşitdim:

– Filankəs, səndə filan siqaretdən var?

O da:

– Hə, var, gəl! – dedi.

Zarafatlaşa-zarafatlaşa alver elədilər. İki gəncin adi şux söhbəti. Arxama dönəndə əl-qolum sustaldı. Çox gənc, gözəl bir oğlan siqaretini alıb tək ayağının üstündə hoppana-hoppana qaçırdı. Cavan idi axı, həm enerjisi aşıb-daşırdı, həm də hələ yeni halına öyrəşməmişdi. Bəs bir azdan, yaşa dolanda necə olacaq? – deyə düşündüm və Heminqueyin bir neçə sözdən ibarət hekayəsini xatırladım: «Əsgər, biz çəkmələri cüt satırıq»...

«Qazilər təsadüf nəticəsində sağ qalan şəhidlərimizdir!» Hadisələrin şəhidi yox, yaxın şahidləridir. «Qəzanız mübarək» deyirlər... Lakin «mübarək»i ləyaqətli yaşatmaq boynumuzun borcudur. Özü də tək indi, özümüz həssas, duyğularımız isti ikən yox, onlar durduqca! Sonra da xatirələri. Gələcək nəsillərə ötürülməlidir, soyumamalıdır, köhnəlməməlidir! Onlar getdilər ki, bu torpaqlardan barıt qoxusu çəkilsin, gələcək azərbaycanlılar müharibəsiz bir ölkədə yaşasınlar. Müharibəyə həsr edilmiş filmlərin ge-

niş panoramında mütləq qoltuq ağacı ilə gəzən başı sarıqlı insanları görürdük. 44 günsonrası Bakının küçələrində, ictimai nəqliyyatda qarşıma çıxan təkqol, ayağını çəkən, bir gözü bağlı ya qara eynəkli cavan kişilərə rast gələndə həmin filmləri xatırlamışdım və gördüklərimin film deyil, real həyatımızın bir hissəsi olduğunu düşünəndə qəlbimə ağır kədər dumanı çökmüşdü. Müharibə zamanı qospitalların dolub daşdığı vaxtlarda bir gün qızım ağlamsınıb dedi:

– Kaş ki, bizim qızlar «şikəst» deyib keçməsinlər... Bu igidlər ən böyük xoşbəxtliyə layiqdilər!

Maşallah qızlarımıza! Millətimizin qədrini bilək! Elə eşidirsən, görürsən... qazi evlənir, yanında da bir dünya gözəli, dünya ağıllısı!

Nobel mükafatı laureatı Mixail Şoloxov «Sakit Don» romanına belə bir epiqraf vermişdi:

*«Bu torpağa toxum deyil, kazak başı səpilmişdir,*
*Bizim sakit Donumuzu dul gəlinlər bəzəmişdir.*
*Ata-ana göz yaşları sakit Donda dalğalanır...»*

Müharibəsonrası tanış mənzərə... Bu gün toyunu edib səhər Qarabağa yollanan gənclər, gəlinliyini dul adına dəyişən 20 yaşlılar, ömür boyu oğul deyib yanan gözüyaşlılar... Səbəbkarlara lənət olsun!

Amma yolun kənarında dayanıb gözləyərkən Prezidentimizi və cənab Ərdoğanı asta keçən avtomobildən görmək, bu günümüzün qəhrəmanlarına əl etmək insana ta-

mam başqa ovqat, ab-hava verirdi. Belə gün insan həyatında olsa-olsa, bir dəfə baş verir... Bir də, qardaşımızın «Qarabağ uğrunda həm cəbhədə, həm diplomatiyada qazanılan zəfər Azərbaycanın ana südü kimi halal haqqıdır!» – deməsi... Qızıla bərabər sözlərdir! Bunu eşidəndə sevincdən, qürurdan, həm də illərin nisgilindən, həsrətindən hönkürmək istəyirsən... Həm də köksün qabarır, qəddin düzəlir, qəlbin fərəhlənir! Türkiyə həmişə bizim tərəfimizdə, yanımızda olub, lakin cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın xalqımıza, onun liderinə xüsusi, şəxsi simpatiyasını da görməzdən gəlmək olmaz. Qardaş qardaş üçün daha nə edər? Sadə dildə desək, tutaq ki, qonşu daim başına su tökür, bacara bilmirsən, gücün çatmır. Səni istəyən biri gəlib özünü verir qabağa... Qoy Makron nə qədər istəyir Ermənistana dəstək olmağa çalışsın... Ürək yandıran qan qardaşı ayrıdır! Düşmənlərimizin cızdağını çıxardan da budur! Adamın özününkü! Tanrı türkü qorusun! Bir də, 10 dekabrı bizə xüsusi zövqlü edən səbəblərdən biri də qondarma respublikanın məhz bunu 28 il vicdansızcasına bayram etməsi olub.

Müharibələrdən sonra qazanılmış qələbəni bayram etmək ənənəsi Qədim romalıların, Yaxın Şərq xalqlarının zəfərlərindən qaynaqlanır, məzmununu saxlayıb zaman-zaman formasını dəyişməklə  bu günə qədər davam edir. Qədim romalılar düşmən üzərində qazandıqları hər qələbə sonrası «Əbədi Şəhərin» küçələrində zəfər yürüşü təşkil edir, ölkə sakinlərinə döyüşlərdə fərqlənən leqionları, ələ keçirdikləri əsirləri, onlara aid bayraqları, nişanları, si-

lahları  və başqa hərbi qənimətləri nümayiş etdirirdilər. Bu parad ordunun qüdrətini hər bir romalıya göstərmək və onların bu qələbə ilə öyünə bilmələri üçün lazım idi.

Zəfər paradı haqqında əvvəldən söz-söhbət gəzirdi. Deyirdilər bu paradın tayı-bərabəri olmayacaq, Zəfərimizin özü kimi. Qələbəmiz dünya hərb tarixində iz qoyduğu kimi, paradımız da təşkili, həcmi, simvolları, yaddaşlarda qalacaq detalları ilə dostlarımızı sevindirəcək, düşmənlərimizin üzünü yerlə bir edəcəkdi. Paradın ssenarisi, aparıcısı, qəbulu, nümayişi – yerli-yerində, mükəmməl, təkrarsız və kreativ düşünülmüşdü. Nizamlı və hər cür özfəaliyyətdən uzaq. Şuşaya sancılan bayrağın meydana Pənahəli xanın nəsil budağından olan Vətən Müharibəsi Qəhrəmanı, general-leytenant Zaur Cavanşirin rəhbərliyi altında gətirilməsi və onun qala azad edildikdən sonra ilk komendantı təyin olunması rəmz olmaqla  bərabər, həm də qanunauyğunluq, tarixi ədalətin bərpası idi.

Müqayisə qüsurlu olsa da, demək istəyirəm. Ermənilərdən fərqli olaraq  xalqımız bu günü fanfaralar altında qazanmayıb. Bu – çoxsaylı himayədarlarının sayəsində zəif, hələ ayaq üstündə dura bilməyən Azərbaycana hücum çəkib 20 faiz hazır əraziyə sahib olmaq, yıxılanı canı çıxana qədər vurmaq, bununla 30 il öyünmək, hər şeyini səninlə bölən qonşu dövlətə həmişə arzusunda olduğu müstəqilliyi haram etmək deyildi. Biz bu günə 30 uzun il hazırlaşmışıq, barmaqlarımızın ucunda irəliləmişik, hədəfə addım-addım yaxınlaşmışıq və sonda məqsədimizə nail olmuşuq.

Vaxtilə mərhum Anar Məmmədxanov deyirdi: «Bizim ordumuz xalqımızın elitası olmalıdır. Türkiyədə, İsraildə olduğu kimi. Belə bir orduda xidmət, kimliyindən, sosial statusundan asılı olmayaraq hər bir azərbaycanlı oğlunun şərəf məsələsi sayılmalıdır». Bu gün Azərbaycan Silahlı Qüvvələri dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Hələ ermənilərin «qorxulu röyası» – Xüsusi Təyinatlılarımız, «Yaşma», «Yarasa», «Qarapaltarlılar», «Dəniz piyadaları», Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu!

30 illik savaşımız qərənfili matəm gülünə çevirmişdisə, 28 illik əsarətdən xilas olan Xarı bülbül ZƏFƏRİMİZİN rəmzi oldu. Bu cür zərif çiçək və MÖHTƏŞƏM QƏLƏBƏ! Bu müharibə təzadları ilə də yaddaşlarda qalacaq. Əzildi, soldu, dustaqlıq çəkdi, amma məhv olmadı, yenidən bitdi. Bu gün Xarı bülbülün çiçəyi çırtlayıb. Döşdə gəzir, ən ali hədiyyəyə çevrilib.

*Ər oğullar tufan kimi qalxacaq,*
*Carranacaq murdarlanmış hər ocaq!*
*Gic hay ki var, çaqqal kimi qaçacaq,*
*Düşmən deyil, yol azandı, əyləşib!*
*(Dəmir Gədəbəyli)*

Əmanətə xəyanət edəndi əyləşib! Axır ki, əmanətimizi geri aldıq! Qışqırda-qışqırda! Canlarını boğazlarından çıxarıb! SSRİ zamanında oktyabr çevrilişinin hər ildönümü məcburi nümayişə gedərdik. Tələbə vaxtı bizi parad öncəsi və Brejnev gələndə bir ay bulvarda məşq elətdirərdilər.

Mayda qışdan sonra sevinə-sevinə getsək də, 7 noyabrda könüllü az olurdu, yağışda, soyuqda heç kim saatlarla küçədə durmaq istəmirdi. Getməsən də, yerinə adam tapmalıydın. İş elə gətirdi ki, Əlahəzrət Zaman hər şeyi dəyişdi. 8 noyabr tarixi arzularımızın bayramı oldu. İndi 8 noyabrı Zəfərimizin günü kimi qeyd edirik, getdikcə böyüyüb böyük Qələbəyə çevriləcəyindən də əminəm!

Allahdan istədiyim nədir? Onların başını özlərinə, bizimkini gözəl işlərə qatsın! Nə olsun ki, sərhəd qonşumuzdur? Qonşu sözünə, kəlməsinə, anlamının müqəddəsliyinə də nifrət etdirdi bizi bu nanəciblər. Qonşu – daha biz azərbaycanlılar üçün "uzaq qohumdan irəli" deyil, hər zaman gözdə-qulaqda olub, çomağı əlimizdən buraxmayacağımız nə anlayışdırsa… Sözümüz erməni, oxuduğumuz, yazdığımız erməni… 27 sentyabrdan bu tərəfə nə qədər erməni sifəti gördük…Televiziya, internet məkanında… Dığa-axçik bir yerə yığışanda sanasan qarğabazarıdır. Gözümüzə də, qulağımıza da zərbədir. Kəlbəcərdən, Laçından qovulanların İrəvanın Teatr meydanında «oynadıqları» tamaşalara baxanda, gənc erməni qızının həyasızlığını, isterikasını görəndə düşündüm ki, insanda abır-həya da yaxşı şeydir, doğrudan da, utanmamaq şizofreniyanın birinci əlaməti imiş. «Bəyəm həyasızlıqladır?» – deyə özümə təskinlik vermək istəyirəm. Qızım da, «mama, görürsən ki, bunlarda keçir. Nədirlərsə, qoyun deyillər» – deyir. Öz gücsüzlüyümüzü görəndə dədə-baba torpaqlarımızdan başımızı aşağı salıb ağlaya-ağlaya çıxmağımız yadıma düşür. (Əvvəlcədən belə güclü ordumuz olsaydı,

heç başımıza elə müsibətlər gələrdi? Yiyəsiz, özbaşına qalmışdıq. Erməni də nə bilirdi edirdi). Bunlar isə bizim ərazilərimizdən, yaşadıqları evlərimizdən, becərdikləri sahələrimizdən, qızıl qırdıqları mədənlərimizdən əlləri, ayaqları, donqar burunları ilə yapışıb çıxmaq istəmirdilər. Nə Allah «hidayət etsin», – deyirəm, nə «ağıl-fikir ehsan eləsin». Niyə düşmənə dua edim ki? Qoy elə həmişə pis qalsınlar. O qədər başlarından dərd tökülsün ki, biz yadlarından çıxaq. Allah onları çörəklə, xəstəliklə, təbii fəlakətlə imtahana çəksin! Heç xoş gün görməsinlər! (Bəddua etməyi də öyrətdilər bizə bu qanıpozuqlar!) Bəlkə haqq-hesabın həm də, bu dünyada olduğunu başa düşərlər.

Hətta, Allaha acıq getməsin, müharibə dövrü üçün, içi özüm qarışıq darıxmağa başladıq. Atatürkdən soruşublar ki, dünyada ən çətin iş nədir? Deyib ki, türkü yerindən tərpətmək.

– Bəs ikinci çətin iş nədir?

– Türkü sakitləşdirib yerində oturtmaq...

Böyük sərkərdə Çingiz xan isə türklər haqqında «əgər döyüşə başlarlarsa, şeytanı cəhənnəmdə əsir alarlar», – deyirdi.

Eynən bizim kimi. Silkələnib yerimizdən qalxmaq 30 il çəkdi. İndi sakitləşə bilmirik... Onlar bizi 30 il vam odda yandırdılar. Əvvəl bir qolumuzu kəsdilər, sonra o birini... Kələntər «dayı» kimi, Qaloş kimi. Didə-didə, daş-daş sökə-sökə. Müharibə dövründə arxivlər açılanda nələr gördük, nələr... Getsin, gəlməsin. Biz isə düşməni 44 günə kül etdik. Fərqimiz budur. Bəs biz niyə azad etdiyimiz ərazilə-

rin dərhal bərpasına başlayırıq? Niyə Hadrutu, Şuşanı dağıtmırıq? Düzdür, çünki özümüzündür! Onlar isə bu 30 ildə «nə əldən qoydular», nə də bir addım irəli gedə bildilər.

Əlbət ki, əstəğfürüllah, müharibə üçün hansı normal biri darıxar? Darıxmaq deyəndə, 44 günün əzmi, xalq-ordu həmrəyliyi, dəmir yumruğu, qələbə xəbərləri, zərb-məsəlləri, Prezidentimizin unudulmaz çıxışlarını demirəm, söhbətlərini nəzərdə tuturam. Nə vaxtsa, haradasa, Ali Baş Komandanın bir müraciəti ilə xalqın səfərbər olub bizim kimi yenilməz monolit birlik göstərə biləcəyinə şəxsən mən şübhə edirəm. Olsa-olsa, bəlkə SSRİ Böyük Vətən müharibəsi yaxın gələ bilər... O 44 gün doğrudan da, göstərmə, insanüstü bir hal idi. Heç kim övladını gizlətməyə çalışmırdı, yaşı düşən də, düşməyən də, cəbhəyə can atırdı. Bütün müharibələrə xas fərarilik sıfır dərəcəsində idi. Ermənilərin öz mənbələri müharibənin 5-ci günü onlarda 1500 fərarilik faktı qeyd olunduğunu açıqlamış, «yenilməz» orduda daha artıq çaxnaşma, ikitirəlik baş alıb getməsin deyə, məsələni böyütməmişdilər. Müharibə bitəndə isə «azərbaycanlılar döyüşə bilmir» deyən xalqın 10 000 vətəndaşı fərarilikdə ittiham edildi və onlara cinayət işi açıldı! Dünyada baş verən müasir müharibələr, hərbi toqquşmalar zəminində bu görünməmiş, ağlasığmaz göstərici idi.

Bizə isə bütün dünya mat qalmışdı. Burda qəsdim xalqımızı, millətimizi tərifləmək deyil… Biz dərəcəsindən artıq təvazökar xalqıq. Sadəcə, olanı deyirəm. Bir də, bu 30

ildə özümüzü o qədər pisləmişik, öz gözümüzdən salmışıq ki, düşünürəm ki, eqomuzu bir az qaldırmaqda fayda var. Azərbaycan Qarabağ kimi vüsalına qovuşsun deyə, hər bir oğlu potensial qəhrəmana çevrilmişdi. O qədər sonradan əfsanəyə çevriləcək hadisələr olmuşdu ki, Vətən Müharibəmizdə! Bığ yeri yenicə tərləmiş gəncin söhbətindən:

– Allah bir az mənim sağlamlığımdan kəsib. Şükür, hər əzam yerindədir, amma həmişə zəif, çəlimsiz, inkişafdan qalmış uşaq hesab olunmuşam. Müharibə başlayanda özümə söz verdim ki, mən gərək bu adı üstümdən götürüm... Komissarlığın qapısından qovdular, pəncərədən girdim, axır ki, cəbhəyə düşə bildim. Orada da nər kimi oğlanlar döyüşürdü, komandir də gileylənib deyirdi ki, bu cılız uşağı odun içinə kim göndərib... Mənə də ciddi tapşırdı ki, yeməyə-zada kömək elə, ön cəbhədə işin yoxdur. Mən isə fürsət gözləyirdim. Bir gün əsgərlərə yemək aparmaq lazım idi, yalvar-yaxarla komandiri inandırdım və ön xəttə yola düşdüm. Daha arxaya qayıtmadım! Sona qədər getdim və əjdaha kimi geri döndüm.

«General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil» iddiası hamının bildiyi aksiomdur. Lakin… Aforizmin ikinci hissəsi haqsızlığa «məruz qalaraq» unudulub… Tarixi ədalətsizliyi bərpa edək: «Gələcək taleyi barədə çox düşünən əsgər ondan da pisdir». Belə…

Bu qəbildən əsgər hekayələri hələ çox danışılacaq, haqqınızda neçə-neçə əsərlər, qalın-qalın kitablar yazılacaq... Amma ən böyük qəhrəmanlıq dastanını SİZ özünüz yaz-

dınız, əziz Şəhidlər! Bu yazıları göz yaşı tökmədən oxumaq mümkün deyil... Heç vaxt unudulmayacaq, nəsillərə ötürüləcək şərəf dastanını! Daha ancaq şəhid romanları oxuyacağam! Onlar mənə «dost kitablardır, sıxıntılı vaxtlarımda əlimi atıb istənilən yerindən oxuya bilərəm». Sanki başqa bir şey oxumaq limitim bitib, özümü elə hiss edirəm.

Heç özümüz də özümüzdən bunu gözləmirdik… Bilmirdik. Müharibə bitib itkilərimizin sayı açıqlanana qədər cəmiyyətdə heç kim prezidentdən bunu xəbər almadı. Düşünürəm ki, bu jest İlham Əliyevə olan ehtiramın, inamın, etibarın göstəricisi idi. Erməniləri dəli edən də bu idi. Sosial şəbəkələrdə özlərini öldürürdülər ki, niyə soruşmursuz? Provokasiyaya əl atırdılar, «itkiləriniz çoxdur, sizdən gizlədirlər», – deyirdilər. Bizimkilər isə, hamı bir ağızdan: «biz nəyə getdiyimizi bilirdik, torpaq bizim, şəhidlər bizim, özümüz bilərik, sizə nə?» – cavabını verirdilər. Axı özlərində vəziyyət tam fərqli idi. Onların 44 günü yalan, saxtakarlıq, xalqı aldatma, itkiləri azaltma və bundan doğan məğlubiyyət üzərində qurulmuşdu.

Müharibə vaxtından bir epizodu danışım. AMEA-nın qapısından girib davamiyyət kartımı turniketə yaxınlaşdıranda foyedəki böyük monitorda İlham Əliyevi gördüm. Özümü içəri necə saldığımı bilmədim, salamsız-kəlamsız girəcəkdəki polisdən həyəcanla «təzədir?» – deyə soruşdum. Polis də:

– Sizin rayon işğaldadır? Haranın xəbərini gözləyirsiniz? – deyə maraqla soruşdu.

– Hamısını gözləyirəm! Hamısı hamımızındı, – dedim.

Ekrana doğru gedəndə nə üçünsə məni otaqlara yönləndirdi. Vaxt itməsin deyə, heç səbəbi ilə də maraqlanmadım və birinci mərtəbədəki qarşıma çıxan ilk otağın qapısını açıb tanımadığım əməkdaşlardan hamının eşidə biləcəyi səslə xəbər aldım:

– Televizorunuz var?

– Gəl, gəl, elə indi başlayıb...

İçəridə ancaq qadınlar idi, bir yerə toplaşıb Ali Baş Komandanı dinləyirdilər. Elə bildim müharibə haqqında filmə baxıram. 1941-45 müharibəsini əks etdirən saysız-hesabsız filmlərdən birinə... Başqa müharibə görməmişdik axı… Prezident isə danışırdı... «İtləri» necə qovduğumuzdan, düşmənin itirdiyi canlı qüvvədən, götürdüyümüz qənimətlərdən... Ən yaşlı xanım hövsələsizlik göstərir, çıxışın sonunu gözləyirdi ki, görəsən bu dəfə haranı azad etmişik...

– Kağızı götür, kağızı...

– Kağız sağ tərəfdədir, səsi də gəldi...

Burda da həmrəylik... Çıxış bitəndə elə bildim ki, onları çoxdan tanıyıram, illərin rəfiqələriyik, heç ayrılmaq istəmirdim...

## ЦАРСКОЕ СЕЛО

*Sinəmə çəkilən qara dağımdır,*
*Qara bağrım qanlı Qarabağımdır.*
*(Mir Həmzə Seyyid Nigari)*

*«Ermənilərin Qafqaza köçürülüb gətirilmələri, əslində Qafqaz xalqlarının kürəklərinə sancılan xəyanət xəncəri idi».*

*(L.Tolstoy)*

Bir Xankəndi qaldı gözləri yolda. Xocalı da Xankəndinə bağlı, əsas yuva oradır. Qondarma «dqr» bir tərəfə qalsın, dünyanın Ermənistan kimi tanıdığı keçmiş «İrəvan quberniyasının erməniləri bu ölkənin köklü sakinləri deyillər. Tarixə baş vuraq! Onlar bura 1828-ci ildə əyalətin qeneral Paskeviç tərəfindən işğal edilməsindən sonra köçürülmüş» və süni surətdə çoxaldılmışlar. (Bu köçürülmə faktı o qədər əhəmiyyətli akt hesab edilmişdir ki, 1978-ci ildə ermənilərin Qarabağa yerləşməsinin 150 illiyi ilə bağlı SSRİ-də medal da buraxılmışdı). Ermənistan faktiki özgə qapılarında instalyasiya edilmiş bir «dövlət», ermənilər «Türkmənçayın övladları»dır. Allah da onları belə lənətləyib, vətənsiz qoyub. Dağına baxıb, qar verib. (Sonralar da Stalin dəfələrlə SSRİ ərazisində, xüsusən bizim coğrafiyada süni şəkildə, «düz yerdə» dava dağarcığı olacaq belə «mina çölləri» yaratdı. İstədiyi vaxt partlatmaq üçün).

Erməni adlanan başbəlamız nəhayət ki, heç də uzaq olmayan əyyami-sabiqdə özünə çoxdan axtarışda olduğu «tarixi vətəni» üçün yer tapa bildi... Faktlar, elmi əsərlər, saysız-hesabsız sənədlər bunu deyir. Tarixi isə aldatmaq olmaz, özü də zamanın bu üzündən baxanda o üzü görünən tarixi. Və ermənilərin torpaq oyunu başladı. Qədim Azərbaycan torpaqlarına sürü kimi «buraxılan» (təbir A.Qriboyedovundur) naməlum qaraçı-fars mənşəli 200 erməni ailəsi, elə 200 il ərzində torpaq iddiası qaldırıb xeyli ərazini məngirləyərək onlara sığınacaq verən xalqın mədəniyyətindən, incəsənətindən tutmuş, şəxs adlarına, mətbəxinə qədər sahibləndilər. Bunlar bizdən oğurladıqları... Ölkənin əsas atributu, rəmzi olan bayraqdır. Onu da Kolumbiyadan çırpışdırıblar... (Daha dünyada rəng qurtarmışdı). Əksini düşünmək mümkün deyil, Kolumbiyanın Dövlət bayrağı 1861-ci ildə qəbul edilmişdir. Özlərini qondarma «hay» adlandıran «qədim xalqın» ieroqliflərini isə həbəşlər «verib». Necə deyərlər, «hərə bir tük versə», erməni də xalq olar. İndi qaldı bu «tarixi vətəni» legitimləşdirmək. Bu istiqamətdə daha hara, nəyə əl atmadı baş nazir postunu və səlahiyyətlərini siyasi məzhəkəyə çevirən Ermənistanın 1-ci şəxsi? Avropa Birliyi ölkələrinin dqr-i Ermənistanın tərkib hissəsi kimi tanıyacağı təqdirdə, Nikol Paşinyan da eynicinsli evlilikləri qanuniləşdirməyə hazır olduğunu bəyan etdi: «Azərbaycan eynicinsli evlilikləri tanımır, Ermənistan isə tezliklə tanıyacaq. Beləliklə də, Dağlıq Qarabağın Ermənistanın bir hissəsi kimi tanınması regionun homoseksuallarına fayda verəcək!» Demək orta

cinsin dərdi bizə qalıb? Bu qədər də yox! Bir bu çatmırdı, gör regiona nə gətirir... Şahdı, şahbaz oldu.

Qubanın bir kəndi var, adına Aydınkənd deyirlər. «Ясная поляна»... Xankəndini düşünəndə nəsə yadıma düşdü. O biri toponimlərimiz, oykonimlərimiz müxtəlif cür «traktovka» olunsa da, Xankəndi elə Xanın kəndidir ki, var. Axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanan Xankəndi Kərkicahan yaxınlığında salınmışdı. Sonradan quldur yuvasına dönən Kərkicahan Birinci Qarabağ müharibəsində itirdiyimiz ilk strateji məntəqə olub. Ər-arvad – Şövkət və Eyvaz İsmayılovlar ermənilərin qarğaşasına getməyərək işğal olunduğu 1991-ci il 28 dekabra qədər evlərini tərk etməmiş, elə doğma ocaqlarında da qətlə yetirilmişdilər. Xankəndi şəhər kimi xeyli cavandır, həmişə onlar yaşadığı üçün bizə doğmalaşmağa qoymayıblar. İşğaldan sonra da faşizm tərəqqi edib «zəfər» çaldı. Zəfəri faşizm olan millətin gör indi məğlubiyyəti nədir... Ermənistan dövləti üçün uzunmüddətli krizis dövrü başladı.

27 sentyabrda perrondan ayrılan «Qarabağ-ekspress» qatarı Xankəndiyə çatar-çatmaz «stop-kran» vasitəsilə dayandırıldı. Ermənilərin qəlbini daha bu qədər qırmaq, hünərvər imicini bundan artıq yerlə bir etmək olmazdı. Şuşa əməliyyatında iştirak edən hər əsgərimiz hazır kamikadze idi. Qalanın möhtəşəm fəthindən sonra taleyi sapdan asılan Xankəndini qaytarmaq həmin «kamikadzelər» üçün su içim məsələsi idi. Düşmən ağlına da gətirməzdi ki, biz Stepanakertin qapısına qədər gələrik. «Tabutu qapatmağa»

son mismar qalmışdı. Dövlətimizin başçısı öz çıxışında bunu xüsusi vurğuladı: «Ermənistanı demək olar ki, tamamilə məğlub etdik. İstənilən addım ata bilərdik, istənilən addım! Amma mən demişəm ki, biz mülki əhaliyə qarşı vuruşmuruq... Orada insanlar arasında itkilər çox aşağı səviyyədədir. O da təsadüfən baş verib...»

Ağırdan ağır günlər yaşadıq. Müharibəni Ermənistan ərazisinə, Xankəndinə keçirmək üçün çox çalışdılar. Bu müharibəni ərazi iddiası yox, primitiv din, müsəlman-xristian ayrı-seçkiliyi kimi təqdim etmək istədilər. Əsəbimizi, səbrimizi cilovladıq, döyüş lokallığını qoruduq, onlara gözlədikləri fürsəti heç vermədik. Bilirdik ki, adımız vayqanlıdır, haray-həşir salmaq üçün bəhanə gəzirlər. Kənardan baxana dava asan görünür. Qəsdən uşaq baxçalarını, doğum evlərini bunkerə çevirmişdilər ki, sonra qiyam-qiyamət qaldırsınlar. Bir Amerika filmi var, «Fidyə», Mel Gibson oynayır, hamı görüb. Milyonçunun uşağını oğurlayırlar, o da fidyə verməkdən imtina edir, bilir ki, pulu alan kimi izi itirmək üçün uşağı öldürəcəklər. Televiziya ilə terrorçuya müraciət edir ki, sən indi hardasan? Yəqin ki, zirzəmidə... Onda ora öyrəş, çünki istədiyin məbləği dünyanın ən yaxşı xəfiyyələrinə verib sənin yerini tapacağam... Xankəndinin zirzəmilərində gizlənmiş Birinci Qarabağ müharibəsinin «veteran»larını – ağbaş, qoca erməni çaqqallarını, bizim körpələrin cəlladlarını görəndə həmin filmi xaytırladım. Yeriniz əbədilik ya qaranlıq zirzəmidir, ya qara gor. Ən ədalətlisi üçüncü variantdır: hərbi tribunal!

Mən Xankəndi nisgilimizin bitəcəyinə, nəhayət ki, üzərində azadlıq günəşi doğacağına inanıram. Xəbərin pisi əvvəldə deyilsə də, ləzzətli tikə axıra qalır. Hələ «asılı» vəziyyətdə qalsa da, xan əvvəl-axır yenə kəndinə qayıdacaq! «Təmkinlə, uzaqgörənliklə, incə siyasətlə». Aldada-aldada… Nə edək? Bizimki də belə gətirib. Kor da bilir ki, balıq şordur, yəni, «dövlətli və sağlam olmaq, kasıb və xəstə olmaqdan yaxşıdır». Hələ Molla Pənah Vaqif Rusiyanın himayəsinə keçməklə Qarabağ xanlığının müstəqilliyinin məhdudlaşdırılacağından nigaran idi. Hamımız istəyərdik ki, birdən çıxsınlar. Az qalmışdı bir qərinə olsun ki, öz halalca, dədə-babalarımızın bizə miras qoyduğu torpaqlarımızla sərhəd çəkək... Bir var torpağımızda bir ovuc parazit qalsın, bir də var kəskin taun ocağı. Problemin əsas – sərt-xətt hissəsi görülüb, gerisi incə iş… Stabilliyi bərqərar etmək, sonra da addım-addım irəliləmək! Gününü-tarixini dəqiqləşdirməyək, qələbəmizə də kölgə salmayaq və... bir gözəlcə səbr edək! Emosiya ilə deyil, ayıq başla düşünək. Ondan başlayaq ki, Xankəndi artıq strateji əhəmiyyətini qoruyan Şuşanın nəzarəti altındadır. Şuşanın cümlə Qarabağdakı təsir qüvvəsindən danışmağa isə lüzum yoxdur. «Azərbaycan qan tökməyə həvəsli deyil, hər nə qədər himnində «həm qadirik, həm hazırıq» deyirsə, Azərbaycan bu işin sülh yolu ilə çözülməsi üçün çox səbr edib». (Mevlüt Çavuşoğlu)

Müdrik siyasət – istədiyini bu dəqiqə əldə etmək yox, ağlına gələni tələb etmək yox, qapını danışıqlar üçün açıq qoymaq, alternativi dəyərləndirmək, rıçaqları düzgün seç-

mək, «iqlim dəyişiklikləri» zamanı situasiyaya uyğun davranmaq bacarığıdır. Ona görə yox ki, biz bunu istəyirik… Siyasət belə tələb edir. Ciddi olmağın zamanıdır. İki pisdən birini seçmək, zaman keçdikcə bu pisi içində əritmək, assimilyasiya edib yoxa çıxarmaq hünəridir. Addım-addım məqsədə yaxınlaşmaq istedadıdır. Son sözü əvvəldə deməyin nə olduğunu bilirik, bu istiqamətdə acıdan acı təcrübəmiz var. Qarabağı da elə o kəmhövsələliyimizə görə itirmişdik. Səbrsizlik külək kimidir, bir müddət sonra keçir, amma «bir çox budaqlar qırılmışdır artıq». Daha səhv edə bilmərik. «Harada» olduğumuzu müəyyənləşdirmək, lehimizə-əleyhimizə olanları «saf-çürük» etmək zaman istəyir.

Hər şey yoluna düşəcək. Mantra kimi təkrar edirəm. Həm özümə motivasiya verirəm, həm də kainata mesaj ötürürəm. Vaxt dəniz kimidir, sərt düyünləri açır. Bircə-bircə faktlarla – XVIII əsrin tarixi və memarlıq abidəsi olan Pənahəli xanın tövləyə çevrilmiş yay sarayından, məscidlərdən tutmuş, itkin vətəndaşlarımıza qədər hesab istəniləcək, təzminat ödətiləcək! «Hərbi cinayətlərin cəlbedilmə müddəti olmur». Dövlətimiz bu istiqamətdə israrlıdır. Və biz sizinlə bunları görəcəyik. Həyatda heç nə əbədi pis, ya yaxşı ola bilməz! Hər aşiqin dövranı! Sonlarına bir şey qalmayıb. Bizimlə bir yaşayanda içərilərində azdan-çoxdan adamlıqları olanları var idi, indi elə bil bütöv millət Robinzona çevrilib, mono-etnik həyat tərzi keçirir. Oturub dizini görür, durub özünü. Görüb-götürmək yox, artım yox... «Qədim, qədim» deyirlər... Kimlərsə bunları yaxşıca dola-

yıb, başdan çıxarıb ki, ən qədim sizsiz. Xoşlarına gəlib, yanlış yola düşüblər, olmayan şeyin arxasınca getmək həyat amallarıdır axı. «Dənizdən-dənizə», «Kürdən-Araza» olan kimi. Elə Nuh əyyamındakı kimi vəhşi qalıblar, heç inkişaf etməyiblər. Güvəndikləri diaspora neyləyəcək? Döyüşdə əsas canlı qüvvədir ki, o da səndə yox. İnvestisiya da qeyri-stabil ölkəyə yatırılmır. Müharibədən sonra isə onsuz da laxlayan demoqrafiq vəziyyətləri son həddə çatıb. Ümidsizlik, apatiya total miqrasiyanın yeni dalğasını gətirir, pandemiyaya görə sərhədlərin bağlı olması çamadan üstündə oturanların köçmə prosesini ləngidir. (Xəbəri özləri yayıb). «Revanş» deyib özlərini bir də dünyaya güldürmək istəyirlər? Rica edirəm... Nəzərə alsaq ki, Xankəndidə evlərini satışa çıxaranların sayı həndəsi silsilə ilə artır və onları orada məcburən tutub saxlayan separatçı rejim siyasi, sosial kollaps vəziyyətindədir, geri dönənlərin əksəriyyəti qocalar, əlsiz-ayaqsızlar, yararsızlar, çarəsizlər, getməyə yeri olmayanlardır, qayıdışın çox da gec baş verməyəcəyini proqnoz etmək olar. (Sən də deyirsən Xankəndi qaldı... Qalıb e qalmağına, amma ortalıqda, yiyəsiz). Vəziyyətlərini nə qədər tez idrak etsələr, o qədər yaxşıdır. Onsuz da boş yerə vaxt uzatmaqdır. Azərbaycanın tövbə qapısı açıqdır. (O da böyüklüyümüzdəndir). Təki günahını boynundan asıb tövbəyə gələn olsun... Haqqa gəlməyənlər üçün isə Laçın koridoru hələ ki, açıqdır. Dünya bilmir ki, Azərbaycan onu hansı fəlakətlərdən xilas edib! Erməni faşizmindən, terror və narkomaniya yuvasından. Erməni narkomafiyası 30 ildə Qarabağ çöllərində

əkdiyi çətənə kollarından 17 milyard (!) gəlir götürmüş, nəzarətimizdən kənarda qalan ərazilər dünyanı 30 il «ağ ölüm»lə təchiz etmişdi.

Kəndi-xanəmizdə canımız Ərdoğan demiş, «cındır bez parçası deyil, yenə HİLAL dalğalanacaq!» Azan səsi və himnimizlə bərabər! Şuşanın fəthi xəbəri təsdiq edilməmişdən qabaq bir əsgər öz canı riskinə gizlicə video paylaşmışdı. Görünən ancaq xaç idi. Elə bilirdilər zirvələrə xaç sancmaqla Şuşanı ermənləşdirə biləcəklər. Əsla!!! Olmadı! Qoymadıq! Növbə Xanımızın kəndinindir.

«İstədiyiniz qədər dağlara xaç qoyun, onsuz göy üzünə hər baxanda hilalı görəcəksiniz!» Bir xalqın liderinin deyimi necə də başqa xalqa uyğun ola bilər. Elə bil Bosniya və Hersoqovinanın ilk prezidenti Aliya İzzetbegoviç bu sözləri bizim münaqişə haqqında deyib... «Fəqət bizim bayrağımız ucaları pək seviyor…» Bunu da istiqlal aşiqi Cəfər Cabbarlı deyib. Hər ikisinin ruhu şad olsun!

Bir də, Azərbaycan bugünə gəlib çatan zaman yolçuluğu boyu heç vaxt indiki qədər qüdrətli olmayıb, indiki kimi güclü orduya, hərbi arsenala malik olmayıb! Nə vaxtsa geniş coğrafiyaya sahib Azərbaycan əsrlər boyu kiçillə-kiçilə, qayçılana-qayçılana gedib və bir qarış torpaq da qaytara bilməyib. Bunu bizdən qabaq düşmənlərimiz görür və bilir. Bir də... heç nə onları Şuşadan səslənən «Qarabağ şikəstəsi» qədər şikəst etməyəcək. Xankəndinin taleyini də həmin bu güç və qüvvət həll edəcək! Bu son səhifə də qatlanacaq.

*Qarabağ türkündür, İrəvan türkün*
*Əsgəran, Qubadlı, Zəngilan türkün*
*Ürəyində yara qəhrəman türkün*
*Qarabağ huzurlu bir diyar olsun*
*Tanrı yardım etsin, türkə yar olsun!*
*(Bayram Dürbilmez)*

**2783**

*Salam olsun ölümü gözəl olanlara...*
*(Ən-Nəhl, 32)*

*Və ya, ölümün gözəlini seçənlərə!*
*Qəhrolsun səfil əsarət! Yaşasın şanlı və gözəl ölüm!*
*(İmam Şamil)*

*«Mən xoşbəxt bir kəpənəyəm, yaşasam da, ölsəm də…»*
*(«Ovod»)*

Heç vaxt ölüm bu qədər müqəddəsləşdirilib zirvəyə yüksəldilməyib. Yoxsa, «vəfat etdi, həlak oldu» deyərdilər, niyə «şəhid oldu» deyirlər ki? Bu bir titul, Allahın fəxri adı. Quran-i Kərimdən belə Şeyx Şamilə, Voyniçə, daha kimlərə qədər. «Dirilər ölülərə həsəd aparacaq...» Mən bilmirəm bu qanadlı ifadənin orijinalı kimə məxsusdur... İnkişaf etdirilib Karamzindən, Vanqadan tutmuş, Stivensona, Nikita Xruşşova, Bibliyaya qədər şamil olunur. Mənti-

qi də yerinə görə dəyişir, tam fərqli mənalarda işlənilir. Baxdığın dərinliyə bağlı... Şəhidlərimizi elə bu cümlə ilə də anıram...

Cəbhədə çəkilmiş həvəskar videolara baxıram,Vətən daş-kəsəyinə nazbalışı kimi söykənən oğullarımızın oxuduqları mahnılara qulaq asıram... Tək Xudayarın yox, elə hamısının necə gözəl səsi, zəngulələri var... Necə «dadlı» oxuyurlar! Sanki Qarabağ ruhlarından səslərinə çöküb... Qarabağlılar bir ayrı kastadır! «Təpinsən uşağa Qarabağda sən, muğamat üstündə ağlar deyiblər!» Ya da, «Şuşanın uşaqları «Segah» üstündə ağlayıb, «Şahnaz» üstündə gülərlər». Qarabağın bizim olduğunun bundan sadə isbatı ola bilməz!

*Hər daşın dibində toy-büsatı var,*
*Şeiri, qəzəli, muğamatı var*
*Arifi, Qədiri, Səxavəti var*
*Muğamat oxunur zil – Qarabağda...*
*İstəsən muğamat oxşasın səni,*
*Onda məskənini sal Qarabağda!*

Təbiət – sərf edəndə aldadılmağı «sevən» Fransa selebritisi deyil ki, istədiyini elətdirəsən. Qurbanolduğum genefondlarına bərəkət verməyib qısır etdiyi kimi (ona görə artmırlar, əksinə hər siyahıyaalmada azalırlar), «siz burada sadəcə arxa qapıdan soxulan kirayənəşinsiniz», – deyib səsdən, istedaddan da onları məhrum edib.

Bizim oğlanların talelərinə toxunanda görürsən ki, hərəsinin öz şəhidlik dastanı var... Və hər birinin ayrılıqda,

eləcə də, hamısının bir yerdə öz şəhidlik zirvəsi! Heç vaxt düşməyəcəkləri, həmin o sıldırım və Azərbaycan qalana qədər qalacaqları, «nə qədər yüksəyə qalxarsan, o qədər pis dəyərsən», – deyiminin həndəvərlərinə belə keçə bilməyəcəyi zirvə! İnsan ayağı dəyməyən yüksəklikləri kəşf və fəth edib layiq bildiyimiz adlarla əbədiləşdirmək bizdə çoxdan xeyirxah ənənə halını alıb. Və əlbət ki, Böyük Qafqaz dağ silsiləsi Qızıl Qaya massivinin 2783 metr hündürlüyündə yerləşən adsız yüksəkliyini Şəhidlərimizin şərəfinə adlandırmaqdan gözəl nə ola bilərdi? Bu addım alpinistlərimizdən gələn ilk təşəbbüsdür. Ardı gələcək əlbəttə... Bu 30 ildə Qarabağın adlı yüksəklikləri uğrunda neçə və necə oğullarımız şəhid olub. 92-ci ildə eyni gündə yanıb gedən iki qardaş: Alov və Atəş... Bayaq «Qarabağ səslərinə çöküb» yazmışdım, həm də, demə adlarına yazılıb! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Üz qaramızı yudular. Qarabağın ilk qurbanları – Əli və Bəxtiyardan başlamış, Milli Qəhrəmanlarımız – Allahverdi Bağırov, Əlif Hacıyev, Təbriz, Çingiz, Mübariz İbrahimov, Polad Həşimov başda olmaqla, şəhidlik zirvəsi qazanan təzə zəvvarların – Vətən müharibəsinin yeganə qadın şəhidi Arəstə Baxışova, nə qədər yaralını təhlükəli döyüş zonasından çıxaran, ermənilər tərəfindən əsir götürülüb vəhçicəsinə qətlə yetirilən ambulans sürücüsü Fəxrəddin Yaqubov, (Vətən müharibəsində 9 həkim olmaqla, 42 nəfər tibb işçisi vəzifə başında şəhid olmuşdur) bir evdən gedən iki qardaş – Əli və İslam, körpə üzlü, cüssəsi kiçik, hünəri böyük ən gənc şəhidimiz Vüsal İsmayılzadə, səngərlərdə gün,

dağlarda don vuran əsgərlərimizin, Tərtərdə, Gəncədə, Bərdədə mərmi yağışı, raket zərbəsi nəticəsində yatdıqları yerdə həyatlarını itirən dinc sakinlərin, hələ adlarını bilmədiyimiz, lakin hamısını bircə-bircə tanıyacağımız, heç kəsi sərf-nəzər etməyəcəyimiz oğullarımızın, bu gün cənnətdə izdiham yaradan 2783 igidimizin hər birinin məqamı cənnətdir, İnşaallah!

Niyə axı hamınız yığışıb birdən getdiniz?

Buna dözmək olmur. Hamınızın yeri görünür. Döyüşdən qayıtmayanlar... Şəhadəti səadət bilənlər.

Əslində isə... V. Vısotskinin bir şeiri yadıma düşdü:

*Почему все не так ? Вроде все как всегда:*
*То же небо – опять голубое,*
*Тот желес, тот же воздух и та же вода,*
*Только он не вернулся из боя...*
*Только кажется мне, это я не вернулся из боя…*

Ölümündən sonra var olmaq, məşhurlaşmaq... Belə bir aforizm var... Mən şəxsən müasirim olmuş, lakin sağlığında bu və ya digər səbəbdən, üzürlü ya üzürsüz məlumatsız olduğum bir neçə publik insanı (lap elə sıraviləri də) tanıyandan sonra başqalarından qat-qat artıq sevmişəm, haqqında oxumuşam, video görüntülərinə baxmışam, araşdırmışam, təbliğ etmişəm. Və gec tanıdığım üçün utanmışam, heyfslənmişəm. Ölümdən sonrakı həyat da demək olar, həyatdan sonrakı həyat da. Bir başqa həyat! Bu ömür əbədidir, bitmir, sona çatmır, xatırlandıqca yaşa-

nır, seçilmişlərə qismət olur. Gismi sönür, ruhu göylərə çəkilir, atom hissəciklərinə çevrilib işıq kimi Yerə tökülür... Havada uçuşur, yanımıza qayıdır. Xatirəsi isə qəlblərdə həmişəlik kök salır. Düşünəndə ki, hamı öləcək, «xoş hallarına» demək keçir ürəyimdən! Kimsə əbədi bu dünyada qalmayacaq, amma... Əməl qalacaq! Belə olacağından şübhəm yoxdur. Mövlanə deyir: «Öldükdən sonra yaşamaq istəyirsinizsə, ya oxumağa dəyər şeylər yazın, ya da yazılmağa dəyər bir həyat yaşayın». Cavan canlarına görə həm də təskinliyimizdir... Şanlı Vətən müharibəmiz heç kəsin tanımadığı, bu gün isə bütün Azərbaycanın səcdə etdiyi yüzlərlə yeni tariximizin qəhrəmanlarını üzə çıxartdı. Onlar dünənə kimi hər gün bayır-bacaqda qarşılaşdığımız, öz gündəlik həyatlarını yaşayan, işə, dərsə, sevgilisi ilə görüşə tələsən, heç nə ilə yaşıdlarından fərqlənməyən adi oğlanlardan idilər. Heç qəhrəmana, «ov ovlayan, quş quşlayan» igidə də bənzəmirdilər. Lakin müharibə başlayanda birinci oldular... Hardan idi onlarda bu qədər vətən sevgisi... Gözlərini qirpmadan od-alovun içində böyümüşlər kimi döyüşə atıldılar. Vətən üçün «çinar kimi ayaqda öləbilmək» bayram!

Məktəbdə Brest qalasının müdafiəçilərindən inşa yazırdıq... İşğal dövrünü kitablardan oxuyacaq, bizlərdən eşidəcək azyaşlılar isə Şuşa qalasından, onun müdafiəçilərindən yazacaq!

Hər kiçik şəhid ömrü bir hekayədir...

Onlar olmayanda onlardan qalanlar...

«Aprel döyüşləri» 4 gün çəksə də, hərb tariximizdə qanlı olduğu qədər şərəfli izini qoydu. «Aprelçilər» yol aç-

dılar. Sağlığında «Murov qartalı» kimi ad çıxarmış polkovnik-leytenant Raquf Orucov «Dördgünlük müharibə»də şəhidliyə yüksəlib «könüllərin qəhrəmanı» oldu. 2020-nin iyulunda başlamış şiddətli «Tovuz döyüşləri» estafeti almaqla bizi hədəfə lap yaxınlaşdırdı. Rəşadətli ordumuz bu döyüşlərdə həlak olan qəhrəmanların ayaq izlərini tuta-tuta 9 noyabra yetişdi, düşməni məğlubiyyəti qəbul etməyə vadar etdi.

Mayor Rahib Babayev peşəkar hərbçi kimi səngərdə yetişmişdi. Bizə nə deyirdilər? «Gedin semiçkanızı satın». Murov və «Canavar» postu istiqamətində döyüşən və sentyabrın 30-u qəhrəmanlıqla həlak olan Rahib Babayev Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmiş, ölümündən sonra «Kəlbəcərin azad olunmasına görə» medalı və başqa mükafatlarla təltif edilmişdir. «Canavar» postu Vətən müharibəsi başlayandan düşməndən alınan ilk və strateji əhəmiyyətli yüksəklik idi. Rahib Babayevin rəhbərlik etdiyi tabor 40 dəqiqə ərzində 27 il əsirlikdə olan postu düşməndən azad etmişdi. Şəhidin 3 övladı Vətənə əmanət qalmışdır.

«Qələbəyə saatlar qalmış şəhid olan, ad gününə şəhidliyini hədiyyə edən» əbədi 22 yaşda qalacaq Nicat Tariverdiyev, bu gün tək anasının yox, bütün Azərbaycanın qəhrəmanıdır. «Qarabağı biz alacağıq, mən alacam» deyirmiş həmişə. Sözünün üstündə duran, cəmi dörd ayın əsgəri olub şəhidliyə ucalan Nicat qəbr evində Milli Qəhrəmanımızla – İkinci Qarabağ müharibəsi şəhidlərinin sərdarı general Polad Həşimovla qonşudur. Heç nəyə baxmayaraq,

Polad Paşa xoşbəxt ulduz altında doğulmuşdu. «Polad Həşimovu tanıyandan sonra xalq özünü sevməyə başladı»... Biz müharibəni ona görə udduq ki, generallarımız da əsgərlərlə bir yerdə döyüşürdü. Hələ bəzən daha öndə! Nümunə göstərmək asandır, nümunə olmaq çətin. Bu dünyadan bir GENERAl keçib getdi...

Cəbhədə də bir yerdə, panteonda da.

23 yaşını sonradan hər biri şəhid olacaq döyüşçü dostları – əfsanəvi «yaşmaçılarla» (XTQ) qeyd edib qalan doğum günlərini cənnətdə keçirməyə vəsiqə alan Beyrək Feyzullayev «canavar kimi yox, elə canavarın özü idi».

Ermənilərin qənimi, «Balta» ləqəbli Vətən Müharibəsi Qəhrəmanı Nihad Babayev peşəkar snayperçi idi, dağadırmanma üzrə xüsusi kurs keçmişdi, kəşfiyyatçı kimi erməni, ingilis, rus dillərini bilirdi. Qızğın döyüş zamanı yaralansa da, fərqinə varmadan nərilti ilə hücuma keçərək rəhbərlik etdiyi qrupdan xeyli irəlidə təkbaşına vuruşub, qəhrəmanlıqla həlak olub.

Əslən Laçından olan poikovnik-leytenant Qərib Baxşəliyev ağır döyüş zamanı düşmən mühasirəsinə düşərək son gülləsinə qədər vuruşmuş, ölümü şərəfsizlərə əsir düşməkdən üstün tutmuşdur. Eynən əfsanəsi ilə böyüdüyümüz Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə kimi. Hələ yaralı vəziyyətdə 5 saat döyüşən, Şuşada şəhidlik qazanan Mehdi Şıxaliyev də var, uşaqlıqdan «Mixaylo» çağırırmışlar. Mixaylonun yolu ilə gedib bu qədər şəhid verdik. Bir ölüb min dirildik. Hamısının şəhidliyi mübarək!)

Üzərində Azərbaycan bayrağı sancılmış Ağdam Xramort kəndindəki kilsədə 5 gün ac-susuz düşmənə tək dayanan, 22 Azərbaycan əsirinə özünü dəyişən Natiq Qasımov… Erməni tərəf indiyədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdə davam edir. Baba Allahverdiyevə «Fərrux şəhidi», qorxmazlığına, sambalına görə «Baba dağı» deyirdilər. Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda gedən döyüş zamanı snayper gülləsinə tuş gəlmiş, amma nəşi götürmək mümkün olmadığı üçün bu gün də itginlər siyahısındadır.

Vətən müharibəmizdə belə hallar çox olmuşdur. «Vaxt öz qəhrəmanlarını görməzdən gəlir, onları gələcəyə həvalə edir» – kəlamını xatırlayıram. Yəni, zaman keçdikcə qiyməti daha çox bilinir. Sənət əsərləri kimi. Qismən razıyam. Lakin düşünürəm ki, biz öz cəsur oğlanlarımızın qiymətini bu gün də lazımınca verməliyik və veririk də! Hamısını bir-bir tanımalıyıq, adbaad tanıtmalıyıq! Necə ki, «Böyük Vətən müharibəsi» dediyimiz savaşın özümüzdən olmayan qəhrəmanlarını əzbər tanıyırdıq. İndi əsl Vətən müharibəmizin qəhrəmanlarının haqqını verək... Üz qaramızı qanları ilə təmizləyənlərin!

Deyirlər, qəhrəman kimi doğulmurlar, qəhrəman kimi yetişirlər. Bəlkə, əksinə? Elə qəhrəman olmaq üçün doğulurlar? Eyni gündə doğulub, eyni gündə şəhid olan əkiz qardaşlar: Nazir və Tacir Allahverdiyevlər kimi! Qəhrəman – sinəsi orden-medallı olmaq deyil... Kiçik çinlərdən də böyük qəhrəmanlar çıxır! Əsgərliyə yararsız olduğunu

bilə-bilə dövlət müavinətindən imtina edib hərbi komissarlıqdan əl çəkməyən İzzət Həmidov, nəhayət, Ağcabədinin Haramı düzündə hərbi xidmətə başlayır. Ordumuzun əks-hücum əməliyyatı zamanı isə inersiya ilə Füzuliyə keçir. «Şəhadəti izzət bilib, sonda o izzətə çatan» İzzət adi pizza ustası idi. 20 yaşlı igidinin nəşini geri alan doğma Sumqayıt şəhəri ona ayaq üstə hərbi salam verdi. Anası da döyüş dostlarını, qaziləri, şəhid analarını yığıb ona "toy" etdi. Belə hallar birmənalı qarşılanmasa da, qadını başa düşmək olur. Cavandır, həyat dolu, şuxdur, dərd birdən üz verib ona... çəkə bilmir. Oğul itkisi belini qırıb. Tək qala bilmir, təskinliyini oğlunun mühitində tapır, nə qədər olmasa, dərd bölünəndə azalır...

*Ağacda xəzəl ağlar,*
*Dibində gözəl ağlar,*
*Oğlu ölən analar*
*Sərgərdan gəzər, ağlar...*

Allah hamısına səbr versin! Bu ananın da ürəyini o biri övladlarından açsın. Həm də, məclisin məqsədi oğlunu tanıtmaqdır. İzzət artıq tək bir ananın balası olmaqdan çıxdı... Əsgər İzzət Həmidov göstərdiyi igidliklərə görə ölümündən sonra «Vətən uğrunda», «Füzulinin azad olunmasına görə» medalları, «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur.

Vətən müharibəsində cəmi bir gün iştirak edib şəhid olan, «nəşi fəxri xiyabanda, xatirəsi bütün Azərbaycanın

yaddaşında əbədiləşən» 19 yaşlı Cəbrayıl Dövlətzadə belə qəhrəmanlardandır. Təkbaşına 11 düşmən zabitini məhv edərək, generalını da əlləri ilə boğub öldürmüş, mənfur düşməndən öz qisas payını alıb əbədiyyətə qovuşmuşdur.

Asəf Şuşa təzə alınanda ilk videolardan birində görünmüşdü. Əsgərlər Gövhər-ağa məscidini təmizləyir, o da çəkirdi. Sonra kameranı buraxıb süpürgəni götürdü: «Verin, o şərəf mənə də qismət olsun!» Şuşaya girən ilk hərbçilərimizdən biri – 1993-cü il təvəllüdlü leytenant Ağayev Asəf Xocavənd istiqamətində minaya düşərək şəhid oldu. Döyüş yoldaşları arasında «boz canavar» ləqəbi ilə tanınan Asəf Şuşaya ilk qədəm basan oğullarımızdan idi. Bəlkə də, arzusu elə Şuşanı alıb ölmək olub. Nə bilmək olar? Canavarın arzusu da elə canavaryana olar.

Azərbaycan fəzasının ulduzları şəhidlərdir. Onları paylaşmaqdan yorulmuruq, fəxr etməkdən doymuruq. Onları tanıtmaq bizə şərəfdir. Əsgər şəkli görəndə tez mətnin sonuna baxıram, görəndə ki, sağ-salamatdır, təltif olunub, sevinclə başdan oxuyuram. Asəf 10 dekabr Qələbə paradında da iştirak etmişdi... «Müharibə sonrası verdiyimiz bu şəhid paradı haraya qədər uzanacaq?» – deyə öz-özümdən xəbər alıram. Nə qədər hərbçimiz, mülki vətəndaşımız azad olmuş torpaqlarımızın sevinci ilə mina çölündə şəhid oldu. Sərkərdə A.Suvorov deyirdi ki, müharibə sonuncu şəhid dəfn ediləndə qurtarır.

Özümüzün və nahaq dünyanın gözünün qabağında torpaqlarımıza ölüm toxumu səpdilər. Hər mina azı bir candır... Hələ onu zərərsizləşdirmək... Qarda, gecə vaxtı...

Deyir, minaaxtaranlar sıyığın içindəki düyünləri də yemirlər, ehtiyatla kənara çəkirlər... Biz onların daha pis gününü xalq olaraq hələ görməliyik!

Hərdən balacalar maraqlanır ki, niyə əsgərlər öz toy-nişanlarında da hərbi geyimdə olurlar? Deyirəm fəxr edirlər ki, bu torpağın müdafiəçiləridirlər, onu qoruyublar, azad ediblər. Bu hər kişiyə qismət olmur. Hərəsi bir sülalə əvəzi! Ən bahalı kostyum da əski parçasıdır, 30 il həsrət qaldığımız Qarabağdan keçib gəlmiş bu əsgər paltarının yanında. Müqayisənin yerli-dibli yeri yoxdur. Bəzən gəlin də həmrəylik göstərib ağ gəlinliyini xaki rənglə əvəz edir. Baxıram, ürəyim açılır! Maşallah! Əlbəttə, belə igidi sevən qız ondan da «dəli» olmalıdır. Allah xoşbəxt eləsin!

## ŞƏHİDLƏR XİYABANI

*Şəhidlər xiyabanı*
*Nə qımıltı, nə səs-səmir*
*Bu da belə xiyabandı.*
*Torpağı qəm, daşı qəmdi*
*Gələnlərin üzü bulud,*
*Gedənlərin gözü nəmdi...*
*(Ələkbər Salahzadə)*

Şeir hisslərin, duyğuların fotosudur, mikrofilmidir. Bu şeiri oxuyanda ancaq qara mərmər görürəm, özü də «ağlayan» mərmər, yağışdan sonra…

Bu gün Azərbaycan 20 yanvar, hər iki Qarabağ müharibəsi, atəşkəs şəhidləri ilə bir yerdə böyük bir Şəhidlər xiyabanıdır. Hər bir Azərbaycan anası da Şəhid anasıdır! Şəhid analarının anası da səngər generalı Polad Həşimovu dünyaya gətirən Səmayə xanımdır. Deyilənə görə, qaranlıq zamanlarda işıqlı insanlar daha aydın görünür. Özünün dağ boyda dərdi olsa da, "səndən sonra kül olsun bu dünyanın başına" deməyib qalanlar üçün yaşayır, bu qədər gözüyaşlı gənc analara böyüklük edir, arxa, dayaq durur, onları ən ruhani dərəcədə birləşdirir. İztirabları ilə tək qoymamaqla, qəlbinin dərinliklərində özü də haradasa, dərdini bölür. Onlara «yalnızlığını götür gəl!», – deyir... «Qorxma darıxmarıq. Sənin yalnızlığın mənim yalnızlığımla danışar, biz susarıq» – deyə təsəlli verir. Təsəlliyə ehtiyacı olan özü təsəlli verir... Onu ayaqda saxlayan da

budur, gərəkli olması, oğlunun xatirəsi. N.Nekrasovun bir şeiri var... «Şəhidin nə döyüş yoldaşına ürəyim yanır, nə arvadına... Heç qəhrəmanın özünə də yazığım gəlmir. Arvad sakitləşəcək, dost unudacaq. Tək ana qəbrə qədər göz yaşı tökəcək». Burada açar söz «Ana»dır. Sərt mövqedir, razıyam... Heç kəsin də haqqına girmək istəmirəm. Ancaq haqlı. Şeir isə dahiyanədir... Elə ananın sevgisi kimi. Bu müqəddəs ocaqlarda müqəddəs torpaqlarımızı qanı bahasına bizə qaytarıb özləri qayıtmayan say-seçmə igidlər uyuyur. Bura mədfəndir. Bura bir ibrət yeri. Oğul verib torpaq almışıq. Ana Şəhidlər Xiyabanının yerlndə 1990-cı ilə qədər S.M.Kirov adına istirahət parkı yerləşirdi. Amma atam bura «Çəmbərəkənd qəbiristanlığı» deyərdi. Həmin ərazinin 1918-ci ildən elə Şəhidlər Xiyabanı olduğunu, ermənilərin Bakıda törətdikləri qırğınların qurbanlarının burada dəfn edildiyini, sonra da unutdurmaq üçün şumlanıb yerində park salındığını qanlı yanvarda öyrəndim.

Deyirlər, bir şəhərin məzarlığını gör, o şəhərin nə olduğunu anla... İnsanoğlunun son mənzili... Gedənin də yiyəsi olmalıdır. Elə isə, buyurun Parlament prospektinə, Şəhidlər xiyabanımız da ordadır, Fəxri xiyabanımız da. Şəhərin mərkəzi, gediş-gəlişin üstü olmasına baxmayaraq, burada həmişə sükunətə yer var. Məzarlar gülün-çiçəyin içində itib-batıb. Qəribədir, qəbiristanlıqda nə əkirsən, tez əmələ gəlir, lap adi kənd qəbiristanlığında... Həmişə fikir verirəm... Bağda 10 çubuq basdırarsan, biri tutar ya tutmaz... Məzarlıqda isə düşən toxum kola çevrilir, körpə ting qısa zamanda qollu-budaqlı ağac olur. Xüsusi qulluq-

suz, küləyin altı... Bu da bir hikmətdir. «Şəhidlər xiyabanı Yer üzünün Cənnətidir», – deyirlər. Sakinləri də cənnət quşları!

Bayraq qırmızısı qızılgüllər, ağ, sarı itburnular, hər qəbrin ətrafındakı kut-kut bitən nərgizlər fikri özünə çəkib yayındırsa da, burada yatanlara hörmətin, ehtiramın kiçik bir əlaməti idi.

*Qoy o qəbrin başdaşında*
*Azərbaycan gülü bitsin,*
*Qoy o qəbrin başdaşında*
*Azərbaycan dili bitsin...*
*(Məmməd Araz)*

Köhnə qəbirlər «yaşlı» qəbirlərdir. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev xiyabanın köhnə "sakinlərindən"dir. Ondan bir gün qabaq şəhid olan Milli Qəhrəman Allahverdi Bağırov üçün qazılan məzarda uyuyur. (Qəbir qazılsa da, sonradan mərhumun qardaşı Eldar Bağırovun yanında, Ağdam Şəhidlər xiyabanında dəfn edilməsi qərara alınmışdı). Allahverdi Bağırovun adına qazılan məzarın məhz Çingiz Mustafayevə qismət olması təsadüfi deyil. Mən burada, bəlkə də ilk baxışda sezilməyən rəmz görürəm. Hər iki Vətən məcnununu Xocalı faciəsi zamanı, xalqın ağır günündə göstərdikləri misilsiz qəhrəmanlıq birləşdirir və bu şücaətləri ilə də Vətən tarixində əbədi qalacaqlar. Allahverdi Bağırovun düşmənlə həm döyüşdə, həm danışıqlarda göstərdiyi hünər, nüfuz, dəyanət

və bacarığını xatırlatmağa ehtiyac olmasa da, üstündən sükutla da keçmək olmaz. Allahverdi Bağırov salnamədir, Birinci Qarabağ müharibəsinin tarixidir, kişilik simvolu, qan, can yaddaşımızdır. Valideynlərinin 7 qız övladından sonra tapdığı Allahverdi Qarabağın arxası, dayağı oldu. Allah gec verər, güc verər. Çıxılmaz «ölüm koridoru»nda tələyə düşmüş 1003 Xocalı əsirini 3 gün ərzində ermənilərin əlindən xilas etmiş, faktiki dövlətin bacarmadığını bacarmışdı. Xocalı aeroportunun komendantı Əlif Hacıyevin şəhadətindən sonra onun nəşini ermənilərin əlində qoymayan da məhz Allahverdi Bağırov olmuşdu. (Namərd düşmən meyidi də ciddi-cəhdlə axtarırdı). Allahverdi Bağırov 46 illik ömründə cild-cild qəhrəmanlıq tarixi yazan bir cəngavər idi. Müharibələr Homerlər də yetirir. Xalqa bu qəhrəmanlıqları gələcək nəsillərə çatdıracaq ədəbiyyat da lazımdır. A.Bağırovun da «odisseya»sı yazılacaq! Azad Qarabağımızda xatirəsi də əbədiləşdiriləcək, amma xalq qəhrəmanının ən böyük xatirəsi qəlblərdə və dillərdə yaşayacaq.

Şəhidlərə «ölü» deməyin… Müqəddəs kitabımız belə buyurur. Çingiz Mustafayev Azərbaycan müasir jurnalistikası və qəhrəmanlığı tarixində əfsanə kimi yaşayacaq bir fenomendir. Dünyanı vecinə almayan (sonda da ölümü) ərköyün davranışı, sərbəst ədası, DJ statusu, özünəməxsus leksikonu (Türkiyədə müsahibə götürərkən Bakıdaymış kimi vergiyə «naloq» deməyi... «Siz də naloq verirsiz?»), «pijon» geyimi cəmiyyətdə ciddi qəbul edilmir, qıcıq yaradırdı. İnsan özünə arxayın olanda heç nəyi, özünü belə

ciddiyə almır. Həkim peşəsini atıb hərbi müxbirliyə başlayanda haqsız hücumlara məruz qalsa da, yolundan dönmədi, Vətən üçün heç kəsin etmədiyini etdi, ölümü ilə də özü haqqında bütün söz-söhbətlərə son qoyub bütün Azərbaycanın qəhrəmanına çevrildi. Hər kəsin hünəri deyil, dağıdılmış Vətən torpağını çəksin, ürəyinə daş yox, qəmbər bağlayıb qanına qəltan olmuş körpələri qucağına alıb dünyaya göstərsin. Gözəl təbiət mənzərələrini – şəlaləni, bulağı, şır-şır axan çayı çəkmək deyil bu. Qəhrəmanlıq peşə deyil ki, yiyələnəsən... Qəhrəman anadangəlmə elə qəhrəman kimi doğulur! Yoox, olmadı. Qəhrəman doğulmurlar... İgidlik göstərib qəhrəman olurlar... Çingiz kimi... Gültəkin tək. İki qadın Milli Qəhrəmanımızdan biri Gültəkin Əsgərova da Çingiz kimi Tibb Universitetinin məzunu idi. 1992-ci ildə balasını evdə qoyub zabit kimi könüllü cəbhəyə yollanır, hərbi qospitallarda çalışır, yaralılara qanına qədər verir. Şuşanı ən son tərk edənlərdən olur. 92-nin iyulunda Aranzəmində qan su yerinə gedirdi. Onun şəhidliyini təsadüfən litvalı jurnalist Riçardas Lapaytis lentə alıb... «Sanki al qanı kameranın şüşəsinə çırpdılar». 90-larda bu yüksəklik döyüşçülər arasında «Gültəkin qayası» adlandırılırdı. Döyüşdə şəhid olan həkim qız 31 yaşında xiyabana «köçür». O bura köçəndə artıq ilk qadın Milli Qəhrəmanımız Salatın Əsgərova da il yarımdan artıq idi ki, Ceyhununu tək-tənha qoyub xiyabana yığışmışdı. Bu pleyadanın önündə Birinci Qarabağ müharibəsinin könüllüsü və şəhidi Rəhilə Orucova davam dayanır. O, Şəhidlər Xiyabanında dəfn edilmiş ilk qadın döyüşçüdür.

Burada insanlar susar, başdaşları danışar.

Azərbaycanda Fred Asifi tanımayan yoxdur. Kimliyini bilməyən də adını mütləq eşidib. Asifin adı da avtoritetdir, özü Qarabağda olan kimi. Əsl şöhrət də budur, adı "açanda" əməlləri içindən tökülür. Polkovnik-leytenant Fred Asifin (Asif Məhərrəmov) məzarı Bakıdakı İkinci Şəhidlər xiyabanındadır. Ölümə şəxsən meydan oxuyan igidin ruhu burada rahatlıq tapıb. 1992-ci ildə «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülsə də, «qəhrəmanın torpağında düşmən at oynatmaz» deyərək fəxri addan imtina etmişdi. «Ölkə işğal olunub, qız-gəlin əsir düşüb, mən sinəmə ulduz asıb «qəhrəmanam» söyləyə bilmərəm», – deyən igid. Yalnız 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyev onun qəhrəman adını bərpa edərək vəsiqəsi ilə ulduzunu anasına təqdim etdi. Böyük təsəllidir. Anası danışırdı ki, 3 oğlum Qarabağ əlilidir. Asif komandiri olduğu Ağdam özünümüdafiə dəstəsi ilə Füzulinin də müdafiəsinə kömək edirdi. Moskvada işləyən qardaşını da Ağdama çağırtdırdı ki, nə orda oturmusan, dur gəl, Vətən əldən gedir. O da tez-tələsik yığışıb gəldi vuruşmağa. Azərbaycanda X siniflər üçün «İbdidai hərbi hazırlıq» dərsliyinə Fred Asif haqqında məlumat da daxil edilmişdir. Fred Asifin əməlləri kimi, adı da yaşayır. Özü də məhz «Fred Asif» şəklində. Uşağın adını bu şəkildə yazdırmaq çətin olsa da, sonda mümkün olub. Adı yaşayırsa, özü də yaşayır. Allah ruhuna sərinlik versin! İgid ölər, adı qalar, müxənnətin nəyi qalar? Bəli, bir də görürsən kiminsə adı məqsədli şəkildə böyüdülür, şişirdilir... Nə olsun? Yaş

qum üstündə çubuqla cızılan yazı kimi. Hansını ki, ləpə də anında silir.

Şəhidlərə «ölü» deməyin… Yəhudi balası Albert Aqarunovun başına ermənilər 5 milyon rubl pul qoymuşdular. Bildiyimiz Mixaylo kimi... Bir mərmi ilə 2 tank vururdu, gözləyirdi iki tank bir-birinə yaxınlaşsın. Bu xüsusiyyətinə görə «yəhudi buterbrodu» adını qazanmışdı. «Bayraq olub enməyən, Şəhid olub ölməyən» Albert Aqarunov Birinci Şəhidlər xiyabanında torpağa tapşırılmış, özünün adını daşıdığı küçədə əbədi tunc heykələ dönmüşdür. Şuşanın işğalı günü zirvəyə yüksələn Milli Qəhrəmanımızın ruhu onun möhtəşəm və əbədi qayıdışı ilə şaddır. «Haqq üçün can verən, ölümün nə nemǝttir», – demək istəyirsən… «Allah bizə də şəhadət şərbəti içmək qismət edər, şəhid olsam, mənim qanımı alacaq məndən sonra gələnlər var», – deyən Vətən oğullarına «Allah bir də göstərməsin» deyirəm. Sizə Qarabağı abadlaşdırmaq, orada yaşayıb çoxalmaq qismət olsun!

Axıska türkü İsgəndər Aznaurov… Topçu İsgəndər. Azərbaycanın Milli Qəhrəmanı! 1989-cu ildə Fərqanə vadisindəki qanlı hadisələrdən sonra ailəsi ilə birlikdə Azərbaycana pənah gətirən İsgəndər alovdan çıxıb yalova düşür. Xocalı soyqırımından sonra 3 qız atası Aznaurov könüllü döyüşlərə yollanır. Şınıxda yerləşən və indi onun adını daşıyan qaladan düşmənin başına od ələyir. Xüsusi təhlükəli kimi düşmən onun başına pul mükafatı təyin edir. Ön cəbhədə qəhrəmancasına həlak olan İsgəndər Az-

naurov artıq ləyaqətli insanlar kimi yetişən 3 qızı üçün olduğu kimi hər bir azərbaycanlının da qürur, fəxr yeridir.

Məhəmməd Əhmədov… Xalq yazıçımız Sabir Əhmədlinin oğlu. Məhəmməd 1994-cü ilin çovğunlu fevral günü Murovun ətəyində başından aldığı snayper yarasından şəhidliyə yüksəlir. Özünün mövludu günü. "Kəlbəcər dağlarında bir uşaq həlak oldu. Bəm-bəyaz qar içində…" Şair Qabil yazmışdı. Oğlunun silahla gördüyü işi atası qələmlə davam etdirmiş, "Axirət sevdası" kitabında tariximizin 88-ci ildən üzü bəriyə olan mənzərəsini əks etdirmişdir. Şəhidlik bu nəslin kişilərinin alnına yazılıb, onların qəhrəmanlıq salnaməsini yazmaq da hörmətli yazıçımızın ömür qismətinə… Sabir Əhmədlinin qardaşı Cəmil Əhmədov 20 yaşında qəhrəmanlıqla həlak olaraq Sovet İttifaqı qəhrəmanı kimi yüksək ada layiq görülmüşdü. Sabir Əhmədlinin "Dünyanın arşını" əsəri bu mövzudadır. Cəmil Əhmədov Polşadakı Qəhrəmanlar Xiyabanında, Məhəmməd Əhmədov Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunmuşlar.

Bu da Təbriz Xəlilbəyli... Azərbaycanın Milli Qəhrəmanı. Xalq şairi, azadlıq mücahidi Xəlil Rzanın oğlu!

*Çabuk böyü, çabuk yetiş, tez oğlum*
*Çaqqal gəzən Qarabağda, gəz oğlum.*
*Vətəninə göz dikəni, əz oğlum*
*Tarixini şərəfinlə, yaz oğlum!*

– deyirdi Ulutürk! Qan su deyil ki! Həmişə çəkir. Bizim 18 nömrəli məktəbin buraxılış, həyatın yarımçıq məzunu… Birinci Qarabağ müharibəsinin könüllülərindən... Şuşanın mühasirədən çıxarılması üçün təşkil edilən «Daşaltı əməliyyatı» zamanı qəhrəmancasına vuruşaraq yaradanın sevgi işığında həll olmuş, Bakıdakı Şəhidlər Xiyabanında torpağa verilmişdir. Torpağı bol olsun!

Daha bir Xəlilbəyli... Bu dəfə Turqut. İkinci Qarabağ müharibəsinin birinci Şəhid həkimi. İxtisası hərbi həkim idi. Məzarı da İkinci Şəhidlər Xiyabanındadır. Turqut Cəbrayıl işğal olunan il dünyaya gəlib, o qanlı-qadalı ildə Vətən yolunda həlak olan hansı igidinsə əvəzinə. Böyüyüb Torpağı azad etmək üçün. Bronojilet geyinmirmiş ki, ağırdır, onunla üç əsgəri çıxardıramsa, onsuz beş yaralı əsgər gətirirəm... Cəbrayil uğrunda gedən döyüşlərdə qızıl qanı Vətən torpağına tökülən gül üzlü, dodağı gülüşlü şəhidim!

Payız müharibəsinin şəhidləri nə sirdirsə, hamısı bir-birinə bənzəyir, nur çeşməsi. Taleləri də bir qələmlə yazılıb. Zəmanəmizin qəhrəmanları! Ulduz kimi axıb getdilər… Çiçək olub dağlarda bitdilər. Şəhadəti səadət bilənlər! Cavandılar, eyni yaşdadılar, yəqin həm də ona görə... Yaraşıqlı, işıqlı, ay parçası kimi... Simalarında gözəllik qaymaqlanıb.

*İnsan bu dünyadan köçüb gedəndə, onun şəkilləri dəyişir hökmən.*
*Baxışlar dəyişir, təbəssüm indi başqa cür görünür üzündə birdən.*

*(A.Axmatova)*

Al qumaşa bürünüb sıra ilə düzülüblər. Bayraq son libasları. Bizi güclü edib, «gerisini özünüz davam edin» deyib getdilər. Ölümü cavanlaşdıranlar, məzarlarda qocalanlar... «Döyüşərək öldülər; günəşə gömüldülər». Kaş ki, belə gözəl olmasaydılar, vaxtsız solmasaydılar… Lap ağı dedim... "Ay kimi doğdun, gün kimi batdın..." Niyə də yox? Biz yox, bəs kim? Əbdürrəhimbəy Haqverdiyev yazırdı: "Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayardılar. Bu toplantıya "yuğ" deyərdilər. Yuğlamaq – ağlamaq sözündəndir. Yuğçu qədim hava üstündə qəhrəman üçün ağı deyərdi, toplaşanlar da hönkür-hönkür ağlayardı".

Hərəsi bir evin çırağı, lay divar. Bir atanın övladı, bir övladın atası. Üstündə nanə yarpağı tək əsən ananın ciyərparası. Vətən torpağı sizə pərqu döşəkdir bundan sonra...

Fəxri xiyaban bizə sovetlərdən qalma bir modeldir. Milli Qəhrəman Mübariz İbrahimov, qələbəmizdə payı olan 44 günlük Vətən müharibəsinin 100-dən çox şəhidi İkinci Fəxri xiyabanda torpağa tapşırılmışdır. 6000 şəhid vermiş Ağdamda da Birinci Şəhidlər Xiyabanı dolduqdan sonra, «Uzundərə» – İkinci Şəhidlər Xiyabanı salınmışdır ki, indi heç birinin daşı-daş üstündə qalmayıb.

Bir də başımıza belə fəlakət gəlməsin. Kərbəla şəhidlərinin mərtəbəsinə, əbədiyyətinə yüksəlsinlər!

Şəhidlər Xiyabanı... And yerimiz! Ölümsüzlüyün ölümə meydan oxuduğu, say-seçmələrə qismət olan ucalıq...

Biz də onların «çiyninə qalxaraq yüksəlirik». Burada hamı pıçıltı ilə danışır, o da əgər danışırsa...

Məzarlığınkı payızdır... Qışda düşünürsən ki, görəsən qarın altında onlara soyuq deyil ki?! Yazda «belə gözəl vaxtda cavan adam necə burda uzana bilər?», – deyə özünü didib tökürsən... Amma payız başqadır. Üzülməyin tam zamanı.

*Səni, səni axtarır, səni gəzirəm.*
*Başqa vaxtı hicrinə bir cür dözürəm,*
*Ancaq dözə bilmirəm*
*Küləkli havalarda, yağışlı havalarda.*
*(Qabil)*

Payızda gəlmədilərmi bura bu uşaqlar? Təzə qəbirlər, üstündə qurumuş çişəklər... Şəhidlərə «ölü» deməyin…

Bir dəfə qəbir üstündə arxadan iki qadının söhbətini eşitdim...

– Özümə bir yer götürmüşəm, bir yer götürmüşəm ki... Torpağı narın, mənzərəsi şahanə! Uşaqlara qalsa, aparıb məni harda gəldi basdıracaqlar. Onlar nə bilir, qəbir üçün yer seçmək... Ona görə işimi möhkəm tuturam...

Elə canlı və rahat danışırdı ki, elə bil söhbət bağ evindən gedirdi. İnsan belədir də... Son mənzilinin də qaydına qalır. Hələ şəxsən iki nəfər də tanıyıram ki, qəbrini də qazdırıb, hələ üstünü də götürüb. Biri zarafat da edir ki, ziyarətə gedəndə az qalıram öz qəbrimə də gül qoyum...

Son cümlələri ovqat üçün yazdım, həm də həyatın hər iki üzünü bir daha xatırlatmaq üçün. Hər istəyəndə insanı güldürmək asan iş deyil. Ağlatmaq, qorxutmaq – «buyur, hazırdır», gülmək isə ovqat istəyir.

## VƏTƏN SƏRHƏDDƏN BAŞLAYIR...

*«Qarı düşmən dost olmaz!»*
*(«Kitabi-dədəm Qorqud»)*

«Xoşbəxt insanların saatı olmur, mənimkində isə 10 dəqiqə qalıb». A.Qriboyedov belə deyirdi... Biz isə 30 ili saydıq... Deyirlər, Allah heç kəsi çörəklə sınağa çəkməsin. Amin! Amma torpaqla sınanmaq da dözülməz dərddir. Bizim üçün deyirlər ki, qonşu ilə bəxtimiz gətirməyib. Başa düşürəm, əziz oxucum, cümləni təkrar oxuyacaqsan… Hər şeyin dərəcəsi var, tsinizmin də. Tək «bunlar»ın yox! Daha neyləməli idi sizin üçün qonşu? Verdiyimizi belə vermişik, vermədiyimizi də «əxz etmisiz» demirəm, oğurlayıb sahiblənmisiz. Bizim qərbdən qonşumuz yoxdur ki... Sərhəd gəmiriciləri var. Deyirlər, planet müharibələrarası kiçiçik fasilələrin hesabına nəfəs dərir, yoxsa çoxdan məhv olmuşdu. Bəşəriyyətin alnına yazılan müharibələr vaxtaşırı dünyanın ayrı-ayrı nöqtələrində alovlanır və heç bir ölkə, heç bir dövlət bu fəlakətdən sığortalı deyil.

Demək, iddia edirdilər ki, 20 faiz torpağımızı onun içindəki vilayət işğal edib. Sonra həmin əraziləri Qafqazdakı

«2 erməni dövlətinin» (arsax və hayastan) saxlamağa gücü çatmadı. İndi nəinki gizlətmirlər, hələ Ermənistanın Müdafiə naziri döyüş əməliyyatlarına başçılıq etdiyini təsdiq də edir. Düşüncəniz və məntiqiniz xaçınız qədər keçərsizdir. Gərəkməz ki, özün bir şey olasan, özündən nə isə ifadə edəsən, sonra da şəxsini önə çəkməyə, qabartmağa bir dilin, dilçəyin, arqumentin olsun...

Özgə torpağına qılıncla gələn, qılıncdan da gedər. İndi qılıncınızı boynunuzdan asıb tövbəyə gəlin. «Azərbaycanlılar torpağı yeyərlər, düşmənə verməzlər» – deyirdi Səttarxan. Müdafiə naziri vəzifəsində paraşüt uçuşları edən 69 yaşlı orqeneral Hülusi Akarla bütün türk dünyası necə fəxr edirsə, Şuşa fatehi Hikmət Mirzəyevin Qarabağ müharibəsinin ikinci mərhələsində göstərdiyi əqli, texniki, fiziki hazırlığı «kitab-dəftər»ə sığmayan canlı əfsanə oldu. Cəbrayıl və Şuşanın azadlığı uğrunda əməliyyatlara şəxsən başçılıq edən «Hikmət Mirzəyevlə döyüşdə üz-üzə gəlmək rəsmən intihar deməkdir. O, dünyanın istənilən bölgəsində, istənilən relyefdə mümkünsüz olan hərbi əməliyyatları həyata keçirə bilən sərkərdədir». Qələbə əvvəl beyində hazırlanır, zehində sınaqdan çıxarılır, sonra isə dağda, meşədə, səhrada, suda qazanılır. 90-larda büdrəsək də, 30 il ayağı burxulu yaşasaq da, hazırlaşıb əvəzini çıxdıq. İspanlar deyir ki, səhər ibadətdəyik, günorta korrida, axşam isə futbol. Özlərini millət kimi belə xarakterizə edirlər. Bizi isə yatmış şirə bənzədirdilər, "letargiya yuxusuna gedib, bir tərəfdən oyadırsan, gedib o biri tərəfdə yatır" – deyirdilər. "İkinci Çanaqqala" savaşı aparıb dünya-

nın neçə bucaq olduğunu onlara göstərdik. Bizim igidlərin simasındakı arxayınçılıq, ruhundakı nikbinlik, qorxmazlıq idi düşmənin  canına od salan. İstər, nəğmə deyə-deyə ölümə gedən Xudayarımız olsun (İlahi, bir insana yaşamaq bu qədərmi yaraşar?! Orbitindən çıxmaq olmur... Mənə elə gəlir ki, oxuduğu mahnı onu ətrafındakı dəhşətli reallıqdan uzaqlaşdırırdı... Bir də, düşünürəm ki, sıraviliyinə, gəncliyinə baxmayaraq, Vətən müharibəmizin simvollarından birinə çevrilən Xudayar olmasaydı belə, motivasiya, ruh, əfsanə üçün onu mütləq uydurmaq lazım idi), ya gül nəşi tabuta sığışmayan Mikayıl Mikayılzadə, istər üç gün şəhidlərin arasında qalan, yaralı halda düşmənə meydan oxuyan qurd ürəkli Aminimiz, ya düşməni elə baxışı ilə nişan alan peşəkar snayperçi Vüsalə Məmmədova, istərsə də, düşmənin mərdanə duruşuna belə həsəd apardığı, sonradan onu da oğurlayıb özününkü kimi təqdim etdiyi Vüsalımız. Topçu Vüsal, Vüsal Şahkərimiov! Hər biri düşmən çəpəri. Türk qardaşlarımız demiş, saymaqla bitməyəcək istər oğlu, istər... Nə qədər qorxsaq da, adı gələndə vahimələnsək də, ÖLÜM hadisədir. Ölümü yaxınlaşan, ölümünü hiss edən insan gözəlləşir, nurlanır... Xudayar da, oxuduğu o məşhur mahnısından az sonra quş kimi uçub getdi. Üzündə işıq, dodağında gülüş, dilində Vətən nəğməsi. Ölümün üstünə mahnı deyə-deyə yeriyib, Xudaya yar olmağa tələsib. Adını doğruldub... haqqını verib. "Xudayar Yusifzadə" bu gün "General Polad Həşimov", "Cəbrayıl Dövlətzadə", "Pəncəli Teymurovla" bə-

rabər dünya sularında üzür. Ümumilikdə 7 tankerə səhidlərimizin adı verilib.

İnsan bir təəccüblənər, beş-on dəfə şoka düşər, yüz dəfə gözgörəsi oğurluğa mat qalar... Sonu görünmür ki... Görünməyəcək də. Nə qədər bunlar bizim qonşularımızdır... Oğurlamadıqları, göz dikmədikləri, ağızlarının suyu axmadığı nəyimiz qaldı ki? Müharibə vaxtı hərbi komissarlığımızın qabağındakı könüllü ajiotajını Solovyovun verilişində öz adlarına çıxmaq istəsələr də, rəsmən biabır oldular. Lovğalanmaq həvəsləri qursaqlarında qaldı. Çünki bizim müharibəyə can atan uşaqlarımızdan biri komissarlığa bayraqla gəlmişdi. Gözlərini çıxartdı, ox oldu, od qoydu yalanlarına Azərbaycan bayrağı!

Özü də «fantaziya»larının əhatəsi, əlaqəsi yoxdur. Diktoru kim oğurlayır??? Bizim gözəl qızımız işğaldan azad olan kəndlərimizi elan edəndə kövrəlmiş, birbaşa efirdə sevincdən ağlamışdı. Aha, məqamdır, özlərində belə gözəl sifət, təbii reaksiya yoxdur axı, başdan-ayağa falşdılar. Dərhal, anında, isti-isti, ləngitmədən internetdə yaydılar ki, guya erməni aparıcısı ölən əsgərlərin siyahısını açıqlayanda ağlayıb... Nəsibə xanım demiş, burda dil tutulmasın, neyləsin??? Gördüklərindən göz kirəsi istəyirlərmi deyim, ya gözdən kirpik çəkirlər deyim? Əsil-nəsəbi Qarabağ hökmdarı İbrahimxəlil xanın vəziri olmuş Mirzə Əliməmmədağaya dayanan Yusif Vəzir Çəmənzəminlinin 1906-cı ildə ailəlikcə Şuşada çəkdirdiyi şəkli «arsaxda yaşayan erməni ailəsi» kimi təqdim edib özlərinin bu torpağa aid olduqlarını hər vasitə ilə sübut etməyə çalışırlar.

Ortaya çıxarılmalı nə bir xoş simaları var, nə ailə ənənələri, nə də etnomentalitetləri. Bir millət başqa millətin uğursuz parodiyası, klonu olmağa bu qədərmi inadlı olar? Çayır otudurlar, yerdən çıxıblar. Çıxarıb atırıq, gedib başqa yerdə bitirlər. Allah-təalanın yadından çıxan millətdilər.

Əziz oxucum! Bir az gülməklə necəsən? Bir əhvalat danışım.

Bacımın qudası Şuşadan qayıdıb. Nə vaxt idi getmək üçün yollar arayırdı. «Axtaran tapar» – deyiblər. Qısası, Şuşanı eninə-uzununa gəzib, qala divarlarını öpüb sıldırımın ucunda şəkil çəkdirəndən sonra İsa bulağından bir konistr su gətirib ki, qohum-əqrabaya paylasın. İşini bilirmiş... Şuşa adı eşidən tanış-biliş, yaxın-uzaq tökülüb gəlib Xanlar müəllimin ziyarətinə. (Həcc ziyarətindən qayıdar kimi). O da, yemək-içməkdən sonra qonaqlarına xüsusi bir perfomansla bu suyu təqdim edib. Camaat da «Zəm-Zəm» kimi, tütyə-eliksir bilib «bəh-bəh»lə suyu nuş edir, tərif də dayanmır.

– Sudan duxu iyi gəlir!

– Sən bir üstündəki köpüyə bax, dağ suyuduye, ondandı!

– Arzu tutun, sonra için və s.

Elə çıxmasın ki, şişirdirəm. Azaldıram ki, artırmıram... Kişinin 5 yaşında göydən od yağdıran nəvəsi var, adı da Xan. O da, bir kənarda dayanıb kirimişcə bu mənzərəni seyr edir. Ta çox sevdiyi əmisi əmisi bu sudan özü üçün 2 butulka doldurana qədər...

Əmisini bir qırağa çəkib həyəcanla qulağına deyir:

– Sən o sudan içmə, mən onun içinə şampun tökmüşəm.

Məclis qəhqəhə, şənlik, «ay səni xətəkar» sözləri ilə başa çatır.

Moral: Şuşanın adı gələndə hər şey qəbulumuzdu, hər şey rəngini dəyişir, gözəlləşir, müqəddəsləşir. Şuşa bizim üçün cənnətin rəmzidir.

## SONDAN ƏVVƏLƏ

27 sentyabrdan Qarabağda geri sayım başladı. Hər şey təkrar olunurdu, sondan əvvələ! Bu dəfə bizim xeyrimizə. Birinci muxtariyyəti ləğv etmişdik, indi onun üçün yalvarırlar... Laçın koridoru 90-ların «aktual ekran»ı idi, bu gün o dəhlizdən Paşinyan Xankəndinə gedə bilmir. (Üçtərəfli sazişə əsasən) Hər şey ilahi ədalətlə başlanğıc nöqtəsinə dönür. Deməyin ki, onlar bizim torpaqlara itki vermədən giriblər, hazır, boş, abad şəhər və kəndlərimizə, dolu evlərimizə 30 il sahibləniblər. İndi məcburi boşaldarkən on qat əvəzini verirlər. Bəli, hər kəs «biletinə» uyğun yerdə oturmalıdır, azərbaycanlılar Qarabağda, adını çəkmək istəmədiklərim isə rədd olsunlar Marselə, lap elə Marsa, təki bizdən uzaq.

Yeni il yaxınlaşır... Çox təzadlı hisslər yaşayıram... Özüm də bilmirəm, sevinim, yoxsa, kədərlənim... Sanki Qurbanolduğum beşinci fəsil yaşadır. Elə ümumi ab-havaya baxıram... Sevinən olanda sevinirəm, kədərlənən olanda kədərlənirəm. Özümü tamam itirmişəm... Nə edəcəyi-

mi, kimi dinləyəcəyimi, nəyə inanacağımı, nə istədiyimi belə bilmirəm. Fikirlərimi qoymağa yer tapmıram. Havalı kimi gəzirəm. İnersiya ilə. Deyirlər, nə vaxt keçib gedəcəyinə kədər özü qərar verir... Elə də olur ki, insanlar illərlə kədərdə yaşayırlar. O gün bacıma aldığım hədiyyəni marketin açıq saxlama gözündə qoyub, başqa birisinin çirkli paltarlarını evə gətirmişdim. (Yəqin ya usta imiş, ya da hamamdan çıxıbmış). Üstəlik də, bir gün sonra xəbər tutmuşam. (Hələ yaxşıdır, aparıb elə «hədiyyə» verməmişəm). Marketə girəndə satıcılar üstümə tökülüşdülər, «bir nəfər dünəndən paltarlarını axtarır, kameradan baxdıq, sizi tanıdıq». Onun nəyinə lazımdır qadına məxsus şeylər? Etiketi üstündə olsa da. İstəməz... Öz paketini tələb edirmiş. Xalqın malını qaytardım, özümünkünü geri aldım. Videokamera azadlığı məhdudlaşdırsa da, belə hallarda köməyi dəyir.

Sosial şəbəkələr də tamamilə öz kursundan çıxıb... Benzin töküb aranı tüstülədir, heç nədən isterika yaratmağa çalışırlar. Qırğın qiyamətdir, hərənin ağzından bir avaz gəlir. (Moderatorlar hara baxır görəsən?) İnsanların mavi ekrandan sosial şəbəkələrə tam köçü ekstremist fitvalara, katalizatorlara geniş «üfüqlər» açdı. Hərə öz platformasını sərgiləyir, düz ya səhv, nüfuzlu, ya ağız ədəbiyyatını... İnstaqram əhli şəhidləri bəhanə gətirib Yeni il bayramının ləğv edilməsini istəyir, tvitterdəkilər qaçqınların öz yerlərinə təcili qaytarılmasını tələb edir. Çox pis oluram bu ürək bulandıran, bizə yaraşmayan söz-söhbətə. Yazıq! Bunlar neqativlə qidalananlar, o fonda xoşbəxt olanlardır. Ən pisi də odur ki, bu iddiaların yeri yoxdur. Bizim xalq

olmayan məsələni böyütməyi, başlamamışdan hay-küy qaldırmağı sevir. Sözü kim böyütdü? Yiyəsi! Olmayan yerdən qaşıyıb-qaşıyıb qan çıxartmaq istəyir bir paramız. Ay bizə təntənə lazım deyil, bayram düşmür... Hanı təntənə? Axı yoxdur... Bir qab yemək yeyib saat 12-ni gözləmək bayram etmək deyil axı. Ehtiyat, tədbir yaxşı şeydir, kaş ki, bunu lazımlı, əhəmiyyətli işlər üçün etsək. Heç kim bayram əhvalında deyil. Şəhidlərin qırxı bitmək bilmir. Bir ucdan ardı təzələnir. O kəslər etiraz edir ki, heç vaxt Yeni ili qeyd etməyiblər. İndi fürsətdən istifadə edib çoxdan ürəklərində qaynatdıqları fikirlərini dilə gətirirlər. Bacım, qardaşım, istəmirsən bayram sayma, qeyd etmə, hicri təqvimi ilə yaşa! Mən sənə bir söz deyirəm? Fikrindən daşındırmağa çalışıram? Sən niyə absolyutlaşdırıb ağzından köpük daşa-daşa məni başqa dinə qulluq etməkdə suçlayırsan? Aydan artıqdır ki, bu müzakirələr davam edir. Dediklərim dözüb susduqlarıma püskürən reaksiyamdır. Dövlətimiz bu bayramı tanıyır, həmrəylik günü daha da möhkəmlədir. O ki, qaldı mənə, olmayan problemi dramatikləşdirməyi sevmirəm. Bu il xaric, Yeni ili də keçirirəm, hələ üstəlik köhnə Yeni ili də! Xoşuma gəlir! Qoy bir bayram da artıq olsun! Biz yeniliyə açıq millətik. Bizim olmayan, lakin məramı xoş bayramları çox rahat qəbul edirik. Götürək elə adını son 20 ildə eşitdiyimiz «Sevgililər günü»nü... Bu günə o qədər şərik qoşulub ki, istəməyən də qeyd edir. 14 fevral dünya üçün Müqəddəs Valentin günü olmaqdan başqa, Beynəlxalq kitab bağışlama günü, Çaylar, sular və həyat mühafizəsi günü, kompüterçi günü, ruhi sağlamlıq günü, You Tube sisteminin yaranma günü,

telefonun ixtira günü, Azərbaycanda Televiziya və Hərbu Hava Qüvvələri günü kimi qeyd edilir. Bir az da dərinə getsək, başqa səbəblər də tapılar. Yəni, görməzdən gəlmək mümkün deyil... Salamatı, ürəyincə olan birini seçməkdir. Bu da insanların, xüsusən gənclərin bayrama necə həvəsli olduqlarından, həyatlarında sevginin çatmadığından, ona olan böyük ehtiyacdan xəbər verir. Kim isə deyib: «Səni anan qədər sevəcək, atan qədər maraqlanacaq heç kimin yoxdur, ona görə heç kim mənə eşqdən danışmasın». Bu özünə təskinlik də ola bilər, başqa sevgilərin «gəldi-gedər» olduğuna işarə də. Şəkkaklara gəldikdə isə... Hələ müharibə qurtarmamış, toz-dumanı çəkilməmiş, başlanmışdı «kim gedir, kim qalır?» Əvvəla, bu işə dövlət baxır. Sonra da, bu nə kəmfürsətlikdir? 30 il erməniyə dözmüşük (yaxşı ki, dayana bilmişik), bir il artıq öz vətəndaşımıza dözmürük? Soyub-soyub quyruğunda murdarlamayaq. Prezidentimiz elə şərait düzəldəcək ki, hamı orada yaşamaq istəyəcək. Hamı dönəcək. Torpaq çəkir, onun cazibəsini hələ heç kim ləğv etməyib. Qarabağdan olmayanlar da gedəcək. Xoşbəxtliyini ölkədən kənarda axtaranlar, Rusiyaya səpələnmiş, vaqonlarda yaşayan soydaşlarımız da qayıdıb gələcək. Necə ki, 92-də gəlmişdilər. (Bu barədə yuxarıda yazmışam, diqqətli oxucum. Fred Asif «Vətən əldən gedir, gəlin», – deyə necə qardaşlarını Ağdama qaytarmışdı...) Torpağı azad edə bilirik, azad etdiyimiz torpaqda yaşaya bilmirik? Hansı daha asandır? Biz öz millətimiz haqqında çox aşağı fikirdəyik. Səbəbi nədir? Bəyənməməzlikmi kompleksi deyim, ya inamsızlıqmı? Yurda bağlılıq olmasaydı, bu birlik olmazdı. Bu boyda işlərin də öhdəsindən

gələ bilməzdik. Ən çox şəhidi Bakı verib, sonra da Quba... Cavanlarımız gözlərini qırpmadan bir suiçimdə kəfəni əyinlərinə geyinib döyüşə yollandılar. «Biz mübarizədə müqtədir, yaşamağa da müqtədirik».

Hər şeydən qabaq təhlükəsizlik təmin olunmalıdır. «Bozena-5» robot maşınları hər cür təyinatlı minaların qənimidir və işğaldan azad edilmiş şəhər və kəndlərimizdə var gücü ilə təmizləmə əməliyyatı aparır.

Ev, iş... Bir az  çəkəcək. Şükür, bədnam 90-lar arxada qalıb. Dövlət hər bir vətəndaşının arxasında dayanacaq, stimul verəcək. Necə ki, «Dəmir yumruq» yox yerdən torpaqlarımızı qaytardı, işğalçını qovdu, torpağın əsl sahiblərini də ora qaytaracaq. Bu günü gözləməyə ömrü çatmayanların ruhu şad olsun. Özü də tək bağ evi almağa can atanlar yox, ölməyə qocalar deyil, yaşamağa, məqsədli şəkildə artıb çoxalmağa elə cavanlar gedəcək! Əhalinin artımı əvvəlkindən də yüksək olmalıdır. Oranı daha artıq möhkəmlətməliyik ki, qurda-quşa yer qalmasın. Xalqın gələcəyi avtomobillərin sayı ilə deyil, uşaq arabalarının çoxluğu ilə ölçülür. Nahaq yerə bir-birimizlə üz-göz olmayaq, onu erməniyə saxlayaq, gərəyimiz olacaq. Həyatda ən asan şey qınamaqdı, ən çətin isə qınadığın yerdən sınanmaq. O yerə çatdırmayaq. Çoxlu iş yerləri açılacaq, gerisi təfərrüat. Ölkədən kənarda işləyib baraklarda yaşayanlar da ocaqlarını isitməyə qayıdacaq. Tez gedək ki, çox yaşaya bilək! İnşaallah!

Facebooku açıram... Yenə də kitablar köməyimə çatır... Əlimdə tutmasam da... Toxuna bilməsəm də... Onlayn da

olsa, güvənilən dostlardır... Hərçənd onlayn mütaliə haqqında deyirlər ki, kitabı əlinə götürüb onun ağırlığını hiss eləmədinsə, sonra sürətlə vərəqləyib qoxusunu içinə çəkmədinsə, onda onun nə ləzzəti? Türk ziyalıları şikayət edir ki, Türkiyədə oxuma alışqanlığı yoxdur. Bizdə isə var, bəyənmədiyimiz Sovetdən qalıb. Bir sirr açım… Mən bir qrammatik qayda-qanun bilmirəm. Heç əvvəldən də bilmirdim, bildiklərim də yadımdan çıxıb. Hərdən görürəm, kimsə yazdığını redaktə edəndə deyir ki, gəl bu cümləyə sual verək, yəni, mübtəda-xəbər, cümlə üzvləri ardıcıllığını tənzimləmək sarıdan. Mənim yazılı nitqim oxuduğum kitablardan qidalanır, qrammatik qaydalardan, orfoqrafiyadan yox. Demirəm yaxşıdır… Sadəcə, olanım budur. Facebookda qapalı bir qrup var. Açan kimi kitab qoxusu gəlir... Bu qədər səhifəyə abunəyəm... Tək orda dincəlirəm, elə bir adadır... Oarda nə pandemiya var, nə müharibə... Yalnız kitabsevərlər, onların oxuduqları, satılan və dəyişdirilən, hədiyyə edilən kitablar... Kimin son nə oxuduğu... Və təhlillər... Bu müzakirələrdə iştirak etmək, davam gətirmək üçün kifayət qədər hazırlığın olmalıdır. Yoxsa çox pis vəziyyətdə qalarsan... Onlardan nə qədər şey öyrənmişəm, məlumat, mənbə əldə etmişəm. Səhifəni əsərlərə illüstrasiyalar (bəzən öz çəkdikləri), orijinal status-sitatlar bəzəyir... Məsələn bu qəbildən: «Beyninizi müntəzəm olaraq yaxşı kitablarla təmizləyib profilaktika edin»... Bu məkanın üzvləri ayrıdır, heç kimə bənzəmirlər, bir-birinə bənzəyirlər... Qatı açılmamış kitabların «intiqamından» qorxurlar. Oxuduğum yeni bir şey barədə danış-

mağa, bölüşməyə adam tapmayanda bura daxil oluram. Zövqlər və rənglər mübahisədən kənar olsa da, həmfikir tapmaq həmişə xoşdur. Hər zaman eşidən, həvəslə dinləyən, qulaq asan, rəy bildirən «həmkar» var. Bura özünəməxsus virtual kitabxanadır, oxu zalıdır... Elə buradaca Umberto Ekodan bir sitata rast gəlirəm. «Kitabxanaların soyuq otaqlarında üşüməkdən qorxmayın. Cahilliyin dondurucu soyuğundan qorxun». Öylə... Bayram, ad günü təbrikləri də «bol mütaliə» arzusu olur... Çox ciddi, zarafat anlamayan, hər xırda sözdən inciyən, həssas, düşünən kontingenti var. Bir nəfər status qoymuşdu ki, bahalı hədiyyələri yox, ikinci əl kitabları sevən qadınları sevin... Çox məzəli gəldi mənə. Sataşmaq istədim. Yazdım ki, zakazdı? Çox ciddi «bəli» cavabı gəldi. Odu-budu onlarla ehtiyatla davranıram. Bir dəfə də kiminsə səhvini (çox ehtiyatla!) düzəltmək istədim, düşdülər üstümə... Mən o qədər də aktiv iştirak etmirəm, sadəcə yazılanları oxuyuram, ona görə məni tanımırlar, «çujoy» kimiyəm... Amma bir sözdən incimirlər, «kitab qurdu» adlanmaqdan... Əksinə, bu cameənin sakini üçün fəxrdir, başucalığıdır. Ora düşənə qədər əksəriyyət kimi, mən də o fikirdə idim ki, daha kitab oxuyan yoxdur... Elə deyilmiş... Var, həm də necə! Özü də tək dəbdə olan müəlliflər, belletristika yox, klassika da oxunur. Sofokldan başlamış XXl əsrin gələcək klassiklərinə qədər! İldə 200 kitab oxuyan var! Fantastika! Janr… yox, heyrət mənasında. Özü də «eleqant» fantastika.

«Yazıçılar sözlərdən qəsrlər yaradırlar, oxucular bu qəsrlərdə yaşayırlar...» Bizi belə öyrətmişdilər ki, sənin ən yaxın dostun kitabdır. (Köhnəlməyən məsləhət. Bu gün də

qüvvədədir). Ən yaxşı hədiyyə kitabdır. (Bir vaxtlar ad günüm, ya xüsusi bir özəl gün olanda hədiyyəmi özüm seçirdim. Ərkim çatan yaxınlarıma deyirdim ki, mənə filan kitabı alarsan, filan mağazada, neçənci rəfdə). Kitab əbədidir, rəqəmsalın «hakimiyyətində» də, apokalipsisdən sonra da mövcud olacaq. Nəsillər bir-birini onlarla tanıyacaq. Həmin kitab qurdlarından birinin postun sonunda yazdığı kimi: «Kitabla qalın!»

Dekabrın 23-ü tək oğlan nəvəm Hüseynin ad günüdür, 4 yaşı olur. Mən ona dekabrist də deyirəm, mənim balaca oğlaqım da. Amma ən çox «sonuncu məhəbbətim» deyirəm. Hərçənd qızım etiraz edir ki, indidən nöqtəni qoyma... Əslində, mən klassik nənəyəm. Nəvələrimin dördünə də necə lazımdı baxmışam, vəzifəmi, missiyamı artıqlaması ilə yerinə yetirmişəm. Bütün işlərini də mənə saxlayırlar, semiçka çırtlamaq, nar yemək, konstruktorla oynamaq... Nənənin evini tökmək də olar, divarlara narın şirəsi sıçrasa da eyb etməz... Biz uşaq olanda «xala-xala» oynayırdıq, bunlar «kafe-restoran» oynayırlar. Mən də ofisiant oluram, arada gəlib deyirlər: «2 çay pirojna ilə», ya da «kola ilə pizza»... Bir süjetli oyuncaq almışdım onlara, həyət, ev, hovuz... Bu hovuza o qədər su tökmüşdülər ki, bir də gördüm otağın döşəməsində gölməçə əmələ gəlib, xalça da içində üzür. Qışın günü bir həftəyə qurutdum. Gedəndə deyirəm ki, istəyirsiz aparın, evinizdə oynayarsız. Əvvəlcə sevindilər, sonra «yox ay nənə, axı biz ona su tökürük», – deyib «elə sizdə oynayarıq» təəssüfü ilə qaytarıb yerinə qoydular. Amma ən çox Hüseynə baxmışam, iki il sərasər... Hər gün gəzməyə aparırdım, qar bilməz-

dim, yağış bilməzdim. Qonşular deyirdi ki, ay kişi, nənə səni elə həyətdə, parkda böyütdü. Bir dəfə də qapıdan çıxanda gördüm ki, lift işləmir. 10-cu mərtəbə, söz vaxtına və zamanına çəkər – dekabr ayı, ağır qış kolyaskası, oyuncaqları və yeməyi olan böyük çanta, özüm və uşaq qalın geyimdə, daha nə deyim? Katastrofa! Amma rejim müqəddəsdir! Tək düşürtdüm aşağı.

Onun adı nə baba adıdır, nə də xoşa gəldiyi üçün qoyulub. Böyük imamın şərəfinə belə adlandırılıb. Adı özündən qabaq qoyulmuşdu. Qızım onun göbəyini vermişdi mənə ki, bir bankın qabağında basdır, qoy böyüyəndə bankir olsun. (Hə, indi belə dəbdir). Mən isə bir qədər də irəli getdim, Milli Məclisin həyətində basdırdım. Hələ keşikçinin şübhəli nəzərləri altında prosesi icra edərkən bir filmdə gördüyüm epizodu da xatırladım və məni gic gülmək tutdu... Qadın uşağın göbəyini polisdə işləyən həyat yoldaşına verir ki, yaxşı bir yerdə basdır, o da bordeli basanda cibindən düşürür. Allah bilir, mühafizə mənim haqqımda nə düşünürmüş...

Böyük oğlan ol, Qus! O gün olsun, əsl Hüseyn olasan! Anası həmişə onu dua edəndə «çörək verən kişilərdən olsun!» deyir. Gözəl arzudur, adına yaraşan! Amin!

Bu da dekabrın 24-ü... Prezidentimizin ad günü. İndi xatırlamadığım zamanlarda "Xəbərlər"ə baxırdım. Dünya liderlərindeən birinin doğum günü idi… (Adını niyə çəkmirəm? Mənim şəxsi simpatiyamdan asılı olmayaraq, o bizə nümunə deyil. Ölkəsi də… düşmən olmasa da, dost da deyil). Jurnalist müxtəlif təbəqələrin nümayəndələrini da-

nışdırır, fikrini soruşurdu… İstər vəzifə sahibi olsun, istər ortastatistik vətəndaş, ya elə barlarda gününü keçirənlər… Hamı bir ağızdan dedi ki, bu axşam hər kəs prezidentin ad gününü öz ailəsində qeyd edəcək, şam yeməyində sağlığına badə qaldıracaq. O vaxtdan mənim də qəlbimdə belə bir arzu kök salmışdı. Bu gün İlham Əliyevin 59 yaşını bütün ölkə qeyd edir. Ondan xəbərsiz, sakit, təmtəraqsız, hərə öz evində, qəlbində. 2003-cü ildən prezidentimiz olsa da, biz onu bayraq şəxsiyyət olaraq məhz 44 günlük Vətən müharibəmizdə daha yaxından tanıdıq. Böyük Nizaminin arzuladığı dövlət başçısı: «Cəsur sərkərdədir, səbrlidir, düyünləri açır, verdiyi sözü yerinə yetirir, doğru danışır, alimləri sevir, ölkəsini cənnətə çevirir». Təbii, güclü olduğu qədər səmimi, qətiyyətli, iradəli və özünə, sözünə əmin! Onun bu sirayətedici əminliyi idi elə ilk gündən xalqın ölməkdə olan ruhunu qaldıran, sınmış qürurunu dirçəldən, əyilmiş qamətini düzəldən. İlahi, biz nə gündəydik... Necə də bədbəxt idik... Bədbəxtliyimizlə də barışıb yaşamağa davam edirdik. İnsanlarımız bir-birini adıcə məzəmmət də edə bilmirdi, «hünərini, gücünü, dilini get erməniyə göstər», – üzüqara qınağı ilə qarşılaşırdı.

İlham Əliyev bu 44 gündə hər kəsdən artıq can qoydu, bu qədər açıq düşmən mövqeli pressa nümayəndələrinə müsahibələr verdi, təkrar-təkrar, yorulmadan, hövsələ ilə Qarabağın tarixini açıb-tökdü. Pənahəli xandan başlayıb ermənilərin necə Qafqaza, Qarabağa köçürülməyindən, İrəvan xanlığından, indi Ermənistan adlanan tarixi torpaqlarımızdan sənədli-sübutlu, faktlarla, impulssuz danışdı.

Əlbəttə, bu səsimizi duyurmaq üçün bizim göydə axtarıb yerdə tapdığımız fürsət idi. Sentyabrın 27-si atəşkəsin növbəti dəfə kobud şəkildə pozulması səbəbindən hücum əmri verdiyini söyləyən Prezidentə «cavab bir az ağır olmadımı?» – kimi dəxli olmayan, heç bir çərçivəyə sığmayan, məntiqsiz, «Allah varmı?» qədər yerinə düşməyən sual ünvanlayan və bununla da hər kəsdən qabaq özünü xarakterizə edib məramını ortaya qoyan jurnalisti də eyni təmkinlə, ölçülü cavablandırdı. Sakit, emosiyasız danışırdı, amma səsindəki «metal» tərəf-müqabili susdurub tərksilah edirdi. «Deyirlər, silah dinəndə ilham susur. Bu dəfə silah dindi, İlham susmadı». Erməni xalqını, Qarabağ ermənilərini nə qədər xəbərdar etdi. Qonşulara qarşı əsassız torpaq, saxta soyqırım iddialarından əl çəkməyə çağırdı. Mən bu erməni tayfasının dərrakəsizliyinə, şüursuzluğuna mat qalmışdım. Bu boyda ölkənin prezidenti demək olar hər gün kəndlərin, şəhərlərin alınması tviti ilə əhalisini müjdələyir (müharibə dövründə İlham Əliyevin tvitter hesabı Donald Trampdan sonra ikinci yerdə idi), televiziyadakı çıxışları ilə xalqı ilə saatla ünsiyyət qurur, danışır, bunlar isə hələ də yuxudadırlar, bizim nəticələrimizə inanmırlar. Vallah, heç aldatmağa  aldatmağa lüzum yoxdur, özləri özlərini aldatmağa həvəslidirlər. Dəli yığıncağı. Sentyabrın iyirmi yeddisində donub qalıblar, Paşinyandan ilk qaytardığımız bir düjün kəndin hesabını istəyirlər. Axı bu qədər gözübağlı olmaq olmaz, hamının cəbhə ilə əlaqəsi var, xəbərlər rəsmi məlumatdan qabaq sızırdı. Hətta, yarızarafat-yarıgerçək deyirdilər ki, cəbhədəkilərin başı

döyüşməyə qarışıb, arada zəng vurub arxadakılardan soruşurlar ki, indi hardayıq? Bizdə necə, onlarda da elə. Nikbinlik yaxşı şeydir, amma sonu İrəvanın küçələrində itələşə-itələşə sevimli şüarlarını – «varçapet darvachan» qışqırmaqla, Nikolu «kapitulyant» deyib linç eləməklə bitməsə... Paşinyan müharibəni uduzmaqdan çox, başlamaqda ittiham olunurdu. Yəni, müharibəni uduzacaqlarını bildiyi halda, onun qarşısını ala bilmədi... Yenə də İlham Əliyev baş naziri günah keçisi olmaqdan xilas edib, məğlub erməni ordusunun Köçəryan və Sərkisyandan qalma, onların «hünəri, əmanəti» olduğunu açıqladı.

Müharibə vaxtı saytların birində biz azərbaycanlılar öz aramızda prezidentimizdən danışır, növbəti möhtəşəm çıxışını müzakirə edirdik. Bizim saytlarda yatıb qalan, paxıllıqdan bağrı çatlayan bir erməni dözə bilməyib dedi: "Siz niyə generalın oğlunu bizim «bedolaqa» Paşinyanla müqayisə edirsiniz?" Bəli, hər xalq layiq olduğu dövlət başçısını yetişdirir və «bir dövlət, liderindən daha yaxşı deyildir». Təəccüblü deyil ki, bu illər ərzində Ermənistanı açıq-aşkar nasistlər idarə edib, qazandıqları da göz qabağındadır... İqtisadi blokada, sosial böhran, səfalət, məğlubiyyət, kütləvi miqrasiya, tarixdə itmək riski... Bu gün İlham Əliyev söz verdiyi kimi «hər bir azərbaycanlının prezidenti»dir! Mən əminəm ki, bu onun indiyə qədər qeyd etdiyi ən xoşbəxt ad günüdür, bizim də onu bu qədər xoşbəxt gördüyümüz gün... Hazırda İlham Əliyevin daş qoyduğu yerə xalq baş qoyur. Müharibəsonrası arada qorxu, təlaş, şübhə, narahatlıq dolu suallar, yarısuallar (belə daha düz-

gündür) səslənəndə xalq bir-birinə deyir: «PREZİDENT özü hər işi səliqəyə salacaq». Bununla da, söhbətə nöqtə yox, arxayın bir nida qoyulur. Yubileyinizə əyər-əskiyimiz qalmasın! Bəli, mən buna inanıram! İnanıram ki, əli xalqımızın övladlarının qanına batmış heç bir erməni terrorçusu hüquqi cəzadan qurtula bilməyəcək. Prezidentimiz torpaqlarımızı viran qoyan Ermənistanı peşman, rəzil edəcək! Və biz o günlərin də böyük sevincini yaşayacağıq! Gələn il bu vaxt daha da xoşbəxt olaq!

İlham Əliyev hər bir azərbaycanlının prezidenti olmaqla bərabər, hamımızın əzizi, doğmasıdır! «Şuşa bizim əzəli, əbədi şəhərimizdır», – deyəndə səsi titrəyib ağrıyan yer kimi əlini ürəyinin üstünə toxunduran, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın adını hər dəfə və necə qürurla, xüsusi məhəbbətlə çəkən, «Cocuq-Mərcanlı»nı cocuq kimi əzizləyən, «Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir... Biz bu gün Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik» – söyləyəndə ürəyimizin dərinliyinə işləyən tikanı çıxaran, sabahımıza zəmanət verən əziz Prezidentimizdir. İlham Əliyev Şuşanın işğaldan azad edilməsində əvəzsiz yeri olan şəxsiyyət kimi onun tarixində əbədi qalacaqdır.

Bir də bilirsən nə xoşuma gəlir? Prezidentin «biz birik, yumruq kimiyik və bu birlik əbədidir» deməsi. Təkrar-təkrar söyləməsi... Milli maraqlarımızı şərtsiz müdafiə etməsi və bizə bu haqsızlığı edənlərin yaxasından bərk yapışıb buraxmaması.

Həmişə bizimlə ol, cənab Prezident və biz də həmişə səninlə olaq! «Biz birlikdə güclüyük!»

## ƏLVİDA 2020! SALAM 2021!

*Həp bir ağızdan bir zəfər türküsü söyləyəcəyiz, anamızın südü kimi ağ...*
*Həp bir ağızdan birlik türküsü söyləyəcəyiz, gülərkən torpaq!*
*(Yaşar Kamal)*

Əgər indi burdasansa, bu sətirləri oxuyursansa, demək, 2020-ci ildən sağ çıxa bilmisən. Bu münasibətlə səni də, özümü də təbrik edirəm. Çox çətin bir ili arxada qoyduq. Aldıqları da ağır oldu, verdiyi də inanılmaz…

*Kaç mövsüm məndən aldın,*
*Kaç sevda geri verdin.*
*Ruhum sənə «qanmam» diyiyor…*
*Söylə kaç bahar aldın?*
*Pəncərəmdə gül soldu.*
*Bəlkə də «zaman dondu» diyiyor…*

Ağır oldu… Amma xalqımızın tarixində müdhiş illər kimi qalacaq qan çanağı 1992-dən, başıaşağı 93-dən ağır deyildi… (Hər işğal faktının məni harada yaxaladığı da dəqiq yadımdadır. Ömür qisməti son 30 ilə təsadüf edən hər azərbaycanlının həyatı, Azərbaycanın isə tarixi – Qarabağın işğalı və qaytarılması kimi «əvvəl» və «sonra»ya bölünür). Heç olmasa ona görə ki, ortada hər birimizi qürur-

landıran, hər ağrı-acıya dəyən böyük Zəfər var ki, ona da kölgə sala bilmərik. Biz həyatımızın və tariximizin ən qaranlıq səhifəsini çevirmişdik.

Bu ili bir film kimi düşünsək, izlədiyimiz xronika davamlı gərginliyi, rəngbərəng dramatik hadisələrin sürətlə bir-birini əvəzləməsi ilə hansısa «Qızıl palma», lap elə «Oskar» mükafatına namizəd ola biləcək real nominasiyaları rahatlıqla kölgədə qoya bilərdi. Serial xəyal etsək, xüsusilə final seriyalar…

Elə bil hər bəla özünü bu ilə saxlamışdı, il də içinə basabas doldurulan bu qədər hadisədən çaşıb qalmışdı, bilmirdi irəli getsin, ya geri qayıtsın. Dünya iqtisadiyyatı, turizm, bir sözlə, nə vardı, çökdü. Sınandıq... Canımızla, əzizlərimizlə, maddiyyatla, psixoloji... Yoluxmaq və yoluxdurmaq qorxusu. Fərdimiz cəmimizdən, cəmimiz fərdimizdən asılı idi. ÜST xəbərdarlıq etmişdi, ehtiyatlı olmasaz, yoluxmayan qalmayacaq. Koronavirus üzlü qonaq kimi çıxıb getmək bilmirdi. «Bu da erməni kimi bizə yapışıb qaldı? İt əl çəkir, motal əl çəkmir, buna deyiblər», – deyə düşünürdüm. Karantin təzə başlayanda kim harada, dünyanın hansı nöqtəsində idisə, orada da aylarla ilişib qaldı. Yol-riz bağlananda çemodanların «üstündə oturub» gözləməkdən savayı kimin əlindən nə gəlirdi ki? Lüksemburqda təhsil alan tanış bir qız pul köçürməsini gözlədiyi üçün yoldaşları ilə gedə bilməmiş, sərhədlər qapanandan sonra isə bütün yataqxanada tək qalmışdı. Bacım 4 yaşlı nəvəsini Misirdən guya Novruz bayramına gətirmişdi, ilin axırı ancaq geri göndərə bildi. Az qala bir il azərbaycan di-

li eşidən, danışan, hələ ki, dil-millət-yer anlayışı olmayan uşaq ora çatanda təəccüblə ata-anasına demişdi: «Nənəmgilin şəhərində küçədə hamı danışırdı, mən başa düşürdüm, burda isə yenə hamı danışır, amma mən başa düşmürəm...»

Bütün ili bizimlə qoşa addımlayıb, 2021-ə də bərabər keçən virusun sərgilədiyi davranış pozuntuları ilə üz-üzə qaldıq, TƏBİB-in bizi təbdən çıxaran sərtləşmələri ilə bərkidik. Hətta, növbəti qapanmadan qabaq sosial mediada belə bir acı zarafat da paylaşıldı: «Əziz həmvətənlər, filan tarix «mübarək» karantin ayının niyyət gecəsidir». Artıq pik nöqtə idi, sinir sistemimiz «error» verirdi. Bu sadəcə dəbdə olan başbəlası kəlmə deyildi... Koronadan az təhlükəli olmayan ümumdünya beyin travması başlayırdı.

Hələ koronanın arxada buraxdığı tibbi tullantıların göydə «uçan», suda «üzən» plastikə qoşulub atmosferi nə günə qoyduğunu, onun altını onilliklərlə çəkəcəyimizi düşünməməyə çalışıram.

Həyatımızda, yaşayışımızda çox şey, çox şeyə də bizim münasibətimiz dəyişdi. Ən pisi bu idi ki, planetdə qəza vəziyyəti yaranmış, rahatlıq itmiş, huzur yoxa çıxmışdı. Bir ala-yarımçıqlıq, namüəyyənlik hökm sürürdü. Sabahımızdan nigaran idik, o bizə nə gətirəcəkdi, hansı xoş, ya naxoş sürprizlər edəcəkdi, heç kəs bilmirdi. Virus haqqında xəbərlər elə virusun özü qədər sürətlə yayılırdı. Xırda fasilələri nəzərə almasaq, günümüz evdə – xalatda, pijamada, başmaqda keçdi. Metobolizm sıfıra endi, formadan çıxdıq... Gözəl-gözəl geyimlərimiz dolabda qalıb dəbdən

düşdü. Sosial kontaktları minimuma endirilmiş, geyinib-bəzənmək aclığı çəkən gənclər (əlbəttə, onlara daha çətin idi) müxtəlif obrazlarda fotolarını instaqramda nümayiş etdirməyə başladılar, digital moda bumu belə yarandı. Ev paltarlarına tələbat çoxaldı, ayaqqabılarımız bizi «ölmüş sandı». Karantindən əvvəlki özüm üçün darıxmağa başladım. Vaxtaşırı özümü şopinqterapiya ilə sevindirən mən, il ərzində onlayn bir çöp də almadım. Marağım, həvəsim olmadı. Çoxları da mənim kimi... Pandemiya dəb industriyasında qlobal dəyişikliklərə təkan oldu. Elə beyinlərdə də inqilab etdi. Camaat rahatlığın qiymətini anlayıb kajual stilə keçdi, küçəyə də ev, idman kostyumunda çıxmağa başladı. (Onsuz da gözün altına qədər çəkilmiş maskada heç kim heç kimi tanımırdı). Xaricdən gələn bir qohumumuz deyirdi: «Mən Bakını tanıya bilmirəm. Əsl moda nümayişini bizim şəhərin küçələrində görmək olurdu. Hanı o hündürdaban tuflilərdə «şeqolyat» edən qızlar?»

Məşədi İbad demişkən, «evə ögrəşdik». Şükür də etdik ki, Çindəki kimi qapı-pəncərələrin taxtalarını üzümüzə mıxlamadılar. Qeyri-iş günü «qeyri iş ili» oldu. Camaat marketə toy-bayrama gedən kimi bəzənib-düzənib gedirdi. Getməyə yer tapmışdıq, bir ora icazə verirdilər. Axşam 10-dan sonra gedirdim ki, romantik olsun. Adam az, tələsmədən gəzirsən, asta səslənən «latino» sümüyünə düşəndə bir-iki ritmik hərəkət də edirsən, (Kim görür ki? Müşahidə kameraları hesabdan deyil. Çoxdandır toyların olmaması öz sözünü deyir), özünü tam hüquqlu adam hiss edirsən. Bir də baxırdım ki, soyuqdan sırsıraya dönmü-

şəm. (Günün sonu, adam seyrək olduğu üçün kondinsionerin gücü daha çox hiss olunurdu).

Çoxlu gül-çiçək becərdim, evim cəngəlliyə döndü. Özümü əsl «yaşıl ada»da hiss edirdim. Bununla ruhumu relaks edir, depressiyadan xilas olmağa çalışırdım. Psixoloji immunitet fiziki immunitet qədər vacib idi, bəlkə bir az da artıq. İnsanın immuniteti hər şeydən düşə bilər. Mənəvi yorğunluqdan, davamlı ruh düşgünlüyündən, hətta, toksik adamlardan da. Vacib deyil ki, daş daşıyasan. Deyir, pəncərəsində qurumuş bitkilər olan həkimin kabinetindən qaç! Həyatımda pozitivi çoxaltmaq, artırmaq üçün üz vermişik bağçılığa, gülçülüyə. Ailə «üzvümüz» olan çoxillik fikusun «qara şahzadə», «benjamin» kimi «qohum əqrabası» da evimizə ayaq açdı. Beqoniya aşıb-daşdı... Mən iriyarpaqlı hündür bitkiləri sevirəm, monstera kimi... Sosial media hesabımızda otaq bitkilərinin nümayişi yarışı hələ də davam edir. Nə edək? Məişətimizi mümkün qədər gözəlləşdirməli, yaşamaq üçün rəng qatmalıyıq. Oturub Van Qoqu gözləməyəcəyik ki?! Daxili potensialımızdan xərcləməliyik, gözəllik hər kəsin öz içindədir. Düzdür, vaxt çox aparır, qayğı tələb edir, «sevələnmək» istəyir... Amma... borclu da qalmır, aldığının əvəzini ziyadəsiylə ödəyir. Həm göz oxşayır, həm də ruh. Biz insanlar beləyik... İti, pişiyi ev heyvanı edirik, vəhşi kaktusu, freziyanı, diffenbahiyanı mədəniləşdiririk... Günümün əhəmiyyətli hissəsini onlara sərf edəndə («yedizdirəndə», çimizdirəndə, «geyindirib»-bəzəndirəndə) birdən yadıma sevdiyim Reks Stautun sevimli qəhrəmanı düşdü, xəfiyyə Niro Vulf. O da

gününün müəyyən hissəsini mütləq mənada malikanəsinin damında yaratdığı oranjereyada keçirər, yetişdirdiyi 10 000 orxideyaya qulluq edə-edə həm həyatını mənalandırır, həm də düşüncəsində təhqiqat aparardı. Birdən ağlıma gəldi ki, horoskopa görə orxideya mənim gülüm olsa da, nə əcəbsə yoxumdur. Bu «tarixi səhvi» təcili düzəltməliyəm. İndi heç olmayan kimi dəbdədir, bütün evlərdə var. Bəlkə populyarlığı həm də o səbəbdəndir ki, bizim möcüzəli xarı-bülbülümüzdə «Qafqaz dağ səhləbi» kimi orxideyalar fəsiləsinə aiddir. Həm şəhidlərimizin simvoludur, həm Zəfər İkonamız!

Bu bir ildə heç yerə tələsməməyi, tələsməməyə vaxt tapmağı, işlərimizi arxayınlıqla icra etməyi və onun kefini çıxarmağı öyrəndik... Hərə öz kompüterinin arxasında əyləşib dünyanı bir cür «xilas etməyə» çalışırdı. Başqa mərhələyə keçmişdik. Görüşlər, iclaslar, təqdimatlar vebinar keçirildi. Uşaqlarımız distant, hibrid təhsil aldı, yorğan-döşəkdə mühazirəyə qulaq asdı. Səhər tezdən Nəzrinin yuxulu-yuxulu kompüterin qarşısında oturduğunu görüb, əyni nazik olduğu üçün tez paltar gətirib onu geyindirdim, saçını darayıb hördüm. Başına sığal çəkib üzündən öpəndə gözüm ekrandan mənə yazıq-yazıq baxan müəllimə sataşdı...

– Bağışlayın...

– Gözləyirəm, görüm nə vaxt uşaqdan əl çəkəcəksiz?

Ya da, bacım tələbə qızını səhər hövlnak oyadanda ki, «ay Nigar, yatıb qalmısan, mühazirən var axı», nə eşitsə yaxşıdır? Gözləri yumulu Nigar yorğanın altından cavab verir ki, «mama, sakit, mühazirədəyəm».

Bəy-gəlin-nigah məmuru və fotoqraf... Mən, sən, o və telefon... Gəlin Swarovski kristalları ilə bəzədilmiş maskada. Yeni növ «love story»…

Vəziyyətin miqyası belə geniş, nəticələri bu qədər ağır olmasaydı, gülməli görünə bilərdi. Ya da, realidə yox, filmdə baxsaydıq... Kimi dedi «ömrümüzdən ömür getdi», kimi «heç nəyin yiyəsi olmadıq», – deyə gileyləndi. «Dünyada ən böyük oğurluq gedir – insanların zamanları, həyatları oğurlanır» deyənlər də vardı, «limanını, sahilini» itirənlər də. «Adamları bir-birindən uzaqlaşdıran, nifrət etdirən cəmiyyət qurulur» deyə, düşünüb qorxanlar da... Hər şeyi, hətta suisid faktını da koronadan bilirdilər. «Nəhs il» adını doğruldurdu. Ölkəmizdə, yaxın xaricdə, dünyada nə qədər tanınmış, əhəmiyyətli şəxs gözlərimiz qarşısında ya zəlzələdən, ya vəlvələdən dünyasını dəyişdi. Xalq artistləri Səfurə İbrahimova və Rafael Dadaşov, «Qaya» vokal kvartetinin korifeyi, yenə də Xalq artisti Rauf Babayev, «Maya bacı» – Tamilla Rüstəmova, ədəbiyyatşünas alim Kamran Əliyev, satirik Mixail Jvanetski, aktyor Valentin Qaft, 500 filmə musiqi yazmış italyan bəstəkarı Ennio Morrikone, «Spartak» – Kirk Duqlas, «Argentina mənəm» deyən əfsanə Diyeqo Maradona, 70-lərdə qızların yuxusunu qaçıran Rişi Kapur, müasir modanın qurusu Pyer Karden və daha kimlər… bir-birinin ardınca tamaşaçılara baş əyib «kulis» arxasına keçdilər… Məşğul və məşhur olduqları sahəni bir az da artıq yetim qoyub 2020-nin qara siyahısını daha da uzatdılar.

Deyə bilmərəm ki, baş verənlərə görə özümü bədbəxt hiss edirəm... Yoox, pofigizm krizisi deyil. Düşünürəm ki, müharibədən sonra belə demək bir kənara qalsın, heç bu yöndə düşünməyə haqqım yoxdur. Nə dünyaya gəlmək bizim səlahiyyətimizdədir, nə onun vaxtını seçmək. Necəsə, bir yolunu tapıb bəxtimizə düşən ömrü yaşamalıyıq. Həm də, heç nəyə baxmayaraq, həyat o qədər gözəldir ki, əsaslı səbəb olmadan onun içində özünü bədbəxt hiss etmək azı günahdır. Sənə də, həyata da. Dumandakı kimi qarşını görə bilməsək də, təcrübə göstərir ki, hər dərdi-bəlanın «bir il sonra»sı da olur. Necə deyərlər, ehtimal nəzəriyyəsinə görə hər şey nisbidir. Bu da keçəcək, hər şey yoluna düşəcək. Sərhədlər açılacaq, yenə dünyanı gəşt edəcəyik. Havada, suda, quruda… Yenə həyatımızda yollar, qatarlar olacaq. Pessimistlər bədbəxt görkəm alıb deyirlər: «Hər şey göründüyü kimi pis deyil, hər şey dəhşətli dərəcədə pisdir». Mənim də anlamadığım, ağ sapla kobud tikilmiş parçaları gördüyüm, razılaşmadığım məqamlar oldu. Nə etməli? Dərdi kimə söyləməli? Xəstəliyə göstərdiyim təmkinli münasibətə görə özümdən razıyam. Çalışıram əlimə həyatımda bir dəfə düşən bu fürsəti dəyərləndirim, ondan yararlanım. «M» marşrutları uzaq gedir, şəxsən mənim işə gedib-gəlməyim Şəkiyə bir tərəflik yoldur. Özü də «anşlaqla». Müsbət tərəfləri önə çəkirəm... Rahat avtobusda pəncərənin qarşısında otururam. Həmişə yerin altı ilə hərəkət etdiyimdən, həm də vizual biri olduğum üçün şəhərə başqa nəzərlərlə baxıram. Elə bil gəlmələr üçün tur avtobusudur. Nə qədər tanımadığım, bilmədi-

yim yerləri kəşf etmişəm. Ağ şəhərə yenidən vururlam, xüsusən, gövdəsi lira kimi toxunan binaya. Bekarçılıqdan camaatı müşahidə edirəm, izləyirəm. Əkşəriyyət də qaşqabaqlıdır, elə bil gəmiləri batıb. Maraqlı gələnlərə ürəyimdə xasiyyətnamə verirəm... Bu qız görəsən nə millətdir? Mulatkaya bənzəyir... Yoxsa, yox? Hardan gəlib, hara gedir? Bax, məsələn, bu kişi 28 mayda düşəcək, vağzala gedənə oxşayır. Doğrudan da. Düşməyə hazırlaşır. Düz tapmışam. Yox, gərək ətir vurmayım, hamı mənə yaxın olmağa çalışır. İndi ikitərəfli sıxışdırılmışam, yanımdakı və başımın üstündə dayanmış sərnişin tərəfindən. Həmişə avtobusda gedəndə əks istiqamətlərə minən adamlara təəccüblənirəm. Elə bilirəm, hamı mən gedən tərəfə getməlidir. Xüsusən, axşamlar və yağışlı havalarda. Hamı evinə gedir. Bəs bunlar hara gedir? Guya əks tərəfdə yaşayış, iş yeri yoxdur… Çox maraqlı məşğuliyyət imiş sən demə… Yoruldum deyəsən. Nəsibə xanım demiş, «hanı mənim təsbehim?» (Burda eynəyim). Tünd günəş eynəyimi taxıb mürgüləyirəm. Səbəb də kondinsionerin yuxarıdan vurduğu isti havadır. Mənim kimilər üçün də deyirlər ki, pessimizmin yenə çarəsi var, optimizmdən isə «çıxış yolu» yoxdur. (Optimizmdən də bir şey qalmayıb, vallah. O da tükənmək üzrədir). Bəzən mənə deyirlər ki, elə bil bu od tutub yanan bahalığın sənə dəxli yoxdur. (Yeri gəldi-gəlmədi, giley-güzar etmədiyim üçün). Səbəbi isə budur ki, şikayətlənməyi sevmirəm, bununla da, psixoloji müvazinətimi mühafizə edirəm. (Çexov «6 nömrəli palata» povestini karantində yazmışdı). Zəngin görünürəmsə, «zənginliyim-

dəndir»... Bir qohumumuz var, on il olar «novostroyka»ya köçüb, deyir, mən bu evin ləzzətini karantində çıxartdım. Başqa vaxt, səhər çıxıb axşam dönürdüm, onda da tələm-tələsik ev işləri və get yat… Pandemiyada əl-ayağımı uzadıb geninə-boluna evimdə yaşadım, əyər-əskiyimi düzəltdim, dizayn işləri ilə məşğul oldum, eyvandan ətrafı, gedib-gələni müşahidə etdim, qonşularımı tanıdım.

Oturub-oturub 2020-ci ili gözlədik ki, «evdəqal» desinlər, biz də «hurrey» vurub gedib çıxaq Qarabağa... Bütün ibadət evləri bağlansın, amma əsgərlərimiz Şuşa məscidində cəmaət namazı qılsınlar. Qurban olum millətimə! Biz buyuq! Macəra dolu Azərbaycan!

2020-ci ilin parafrazı çoxdur, öndə gedəni isə əlbəttə ki, "itiqovan"dır. Hətta, orijinal bir xanım kreotiv təklif də verdi ki, Ermənistana dirənən son kənd «İtqovan» adlandırılsın. Olar, məsləhət olsa, niyə olmasın? İçimdəki klassika «İtqapan» olar, «İtqovan» olmaz? – deyir…

Bu «müharibə»də həkimlər əsl qəhrəmanlıq nümayiş etdirdilər. Heç kim deməsin ki, qəhrəmanlıq dövrü bitib. Bu gün zəmanəmizin qəhrəmanları xəyal etdiyimiz cəngavərlər yox, öz komfort dairəsindən çıxıb «Atletlər kəndi»ndə məskunlaşan, xalqının yolunda canını qoyan, hər xəstədən bir virusa yoluxan kaskalı-maskalı tibbi personaldır. Nə qədər tibb işçisi dünyasını dəyişdi. İlk atəş altına həmişə onlar düşür. Vəba epidemiyası zamanı Rus ədəbiyyatının əsas qələmlərindən olan Anton Pavloviç yaradıcılığı bir tərəfə buraxıb həkim kimi təkbaşına 25 kəndə xidmət edirdi. Həkimlərdə peşələrindən dolayı sentimen-

tallıq yoxdur. Deyirlər hər həkimin özünün qəbiristanlığı var. Pandemiyada bu acı deyim daha da acılaşmış, əhatəsi genişlənmişdi. «Covid» kimi harda yaxaladı-yaxaladı… Hamımız Allahın altında gəzirik. Əsas – mümkün qədər özünü qorumaq, xəstələnməməkdir. (Təəssüf ki, kənara çıxmalarsız da ötüşmür). Mən xəstəlikdən elə qorxmuram, nə qədər onun təlaşından, xərcindən qorxuram. Antiseptiklə gəzirəm, kontaktlarımı minimuma endirmişəm. İndi orqanizmlə «söhbət etmək» dəb düşüb, onun səsini dinləmək, etirazına qulaq asmaq məsləhət görülür. Deyilənə görə o nə istədiyini bilir. Hər gün qaş  qaralandan sonra çıxıb iki saat gəzirəm. Niyə qaranlıqda? Çünki açıq havada maska taxmaq istəmirəm, oksigenə ehtiyacım var. Orqanizmim qulağıma deyir ki, əgər ağız-burnunu bağlayacaqsansa, havanı necə alaq? Trassa çıxmıram, elə içərilərdə, binaların arasında yürüyürəm. Qışdır, soyuqdur, gecdir, yarım saatda bir yanımdan kimsə keçər, ya keçməz... Əslində, taxa bilən üçün maska heç də pis şey deyil. Üzə yaraşır, qırışları örtür, basırıqda əvəzedilməzdir. İstəyirsən öz-özünə danış, ya səbir gətir, tam anonim qala bilərsən… İstəyirəm, ürəyimdə «iclas» edirəm, istəmirəm, tənbəl-tənbəl yürüyürəm, ətrafa baxıram. Gedib-gələn ştammlar, yeni mutasiya variantları haqqında (günümüzə bax da!), metronun, bərbərxanaların nə vaxt açılacağı, həyatın üzümüzə bir də nə vaxt güləcəyi barədə düşünüb xəyalımda «fala baxa-baxa» gəzintimə davam edirəm. Vacib, əhəmiyyətsiz, heç dəxli olmayan məsələlər haqqında fikirləşirəm… («Ey düşüncələrim, düşüncələrim, sizin

üzünüzdən artdı kədərim»). Gəzintilərimə də ad qoymuşam. Mən ümumiyyətcə, neologizmləri sevirəm və dilimə yatanlardan da yararlanıram. Məsələn, promenad (fr. seyr), əslində arxaizmdi, amma pandemiyada şəraitə görə yada düşüb. Ya, mosion (lat. hərəkət)… Yürüş mənalarını verir. Səhər promenadı, axşam mosionu… Tam avaraçılıqdır. Həm də nə edim? Bununla guya öz aləmimdə həyatımı maraqlı edirəm.

Hərdən qəlbim haray da edir… Bir ara söz gəzdi ki, rəngli maskalar qadağan olunacaq. Cərimə 60 AZN. Niyə? Daha bu qədər də yox! Bunu bizdən istəməyin. Onda deyin birdəfəlik çadra geyək də... Çox pis reaksiya verdim. Hər şeyin bir izahı var, amma hər izahın da əsası yoxdur. Kişilər də aptek maskası taxsın, qadınlar da? Uzun müddət «arzu eləməmişəm ki?» – deyə dözdüm. Lakin xəmirin hələ 2022-də «gələcəyi» xəbərini eşidəndə təslim olmaqdan başqa çarəm qalmadı. Özümə və yaxınlarıma yeni il «hədiyyə»si kimi SEL HOOM-dan simpotik maskalar aldım. Əhval üçün. Hələ toy-bayram maskam da var, daşlı-qaşlı, təkəlduz tikməli, «Şəki İpək»dən almışam. Bu da bir növ kreotivlik, özünümüdafiədir. Deyə bilərsiz ki, dərdə bax e! Böyük məsələ olmasa da, adamı daha da sıxır, insanları bu ağır zamanda kiçik sevinclərdən məhrum etmək nə dərəcədə düzgün olardı?

Karantin həyəcanı da sanki qəsdən kultlaşdırılır, qabaqcadan həqiqətə uyğun olmayan xəbərlər yayılırdı. Heç bir sevindirici «islahat» da gözlənilmirdi. «Dalğalar»ın içində yaşayırdıq. Virus sakitləşmək bilmirdi. «Braziliya

mutasiyası» gedib «Britaniya ştammı» gəlir, Hindistandan təşrif buyuran «Delta» yerini «Omeqa»ya verir, genomu eyni olan, adına «qatil mutant» deyilən «Alfa», «Beta», «Qamma»nın da sorağı eşidilirdi. Karusel öz işində idi. Ta pandemiyanın «873-cü» dalğasına qədər... Pandemiyanın gözəl-göyçək adları olan instansiyalarını ötürə-ötürə düşünürdüm ki, gör a.., belə pafoslu adlar («Elza», «Qloriya», «Eduard») tək fırtınalara, qasırğalara qoyulmur, raketlər, ağır çaplı silahlar «Satana», «İskəndər», «Polonez», «Elbrus», «Qvozdika», «Osa», «Smerç»lə (bu adları biz 44 gündə öyrəndik… Özüyeriyən, ballistik… Mən heç bu qədər maşın markası bilmirəm, maraq dairəmə aid olmadığı üçün) vahimə yaratmır, elə viruslar da gur-gur guruldayan isimlərlə taclandırılır…

*Səni mümkün olan ən gözəl üsulla məhv edəcəyəm…*
*Nəhayət, mən gedəndə anlayacaqsan ki..!*
*Niyə fövqəladə hallarda belə teatral adlardan istifadə edilir…*
*(K.Sill)*

Yəqin bir-birindən ayırmaq, yadda saxlamaq, ya da, bilmədiyimiz başqa səbəbdən… Özü də, bildiyim qədər əlifba sırası gözlənilir.

Nicat tapmayanlar da stasionarda sakit-sakit, «tac»ı başında, gərəksiz baxışlar olmadan Allaha doğru yola düşürdülər. Tam tənha. Yan xəstəliklərdən əziyyət çəkənləri də covid qamarlayıb özünə «götürürdü». Hələ ki, Bridjit Dopson, Cerom Dopson – «Santa-barbara» davam edir…

Yorulmuşam. Bezmişəm. Bıkmışam. Normal həyatıma qayıtmaq istəyirəm…

## TARİXİN DƏRSLƏRİ

Heç Yeni ili belə səssiz qarşılamağımız olmamışdı. Nə TV-lərdə ənənəvi «mavi işıq»lar gedir, nə evlərdən musiqi, şənlik səsi gəlir, nə qonşu mənzillərin pəncərələrində yolkaların işıqları bərq vurur, nə də küçələrdə «petarda», «zırpaket» dediyimiz taraqqalar partlayırdı. 44 günlük müharibə, «Covid-19» bir çox ailələrdə qara avtoqrafını qoymuşdu. Sərt lokdaun qanunlarını rəhbər tutaraq başımızı aşağı salıb məğrur tənhalıqda şam yeməyimizi yedik. Prezidentimizin müraciət, hesabat xarakterli Yeni il təbrikini dinləyib, sakit-sakit 2021-ci ilə keçdik. İlham Əliyev ekranda görünəndə birdən-birə onun üçün necə darıxdığımı, necə sevindiyimi hiss etdim... (Axı müharibə bitəndən sonra xalqa müraciətində bu qəbildən olan sonuncu çıxışı olduğunu söyləmiş, bizi yeni dövrə qədəm qoyduğumuza psixoloji hazırlamışdı). Bu hər gün televiziyada gördüyümüz, görüşlər, müşavirələr keçirən İlham Əliyev deyildi... 44 gündə acgözlüklə dinlədiyimiz, bizə «həmvətənlər» deyil, «bacılar və qardaşlar» deyə xitab edən «hər bir azərbaycanlının Prezidenti» idi.

Həmişə deyirdik ki, özümüz çalıb, özümüz oynamayaq... Ermənilərin bizim və öz tarixlərini saxtalaşdırmağa çalışdıqlarını, xalqımıza etdikləri, ağlın ala bilmədiyi vəhşilikləri, əxlaqsızlıq və vandallığı dünyaya çatdıraq! La-

zımdır, əlbəttə! Bizim cəbhədə qazandığımız uğurların böyük bir ucu elə görülən, (bir qədər gec qalsaq da), həmin böyük işlərə gedib çıxır. İndi ayiliblar. «Düşmən» kimi baxanlar indi «peşman» baxır. Qarabağ Azərbaycanın imiş. Bir az savadlıları (daha təhlükəliləri) onsuz da bilirdi, kinorejissor Karen Şahnəzərov kimisi. Atası G.Şahnəzərovun lənətulla A.Ağanbekyanla birlikdə «miatsum»un Moskvadakı ideoloqlarından olduğunu da bir kənarda yadımızda saxlayaq. Özü isə münaqişənin hərb yolu ilə həllindənsə atəşkəsi bir «30-40» il müddətinə dondurmağa səsləyir, «gələcək nəsillər daha düzgün həll edər» kimi mimikrik çağırışlar edirdi. İndi bu öz aləmində bizə kələk gəlmək istəyir, bilir axı, gözləmə mövqeyi ziyanımızadır. «Müvəqqəti qədər daimi olan heç nə yoxdur…»Vaxt keçdikcə məsələni sərf-nəzər edib soyuyacağımızı, qar yağıb izlərin üstünü örtəcəyini, Qarabağın da aqibətinin İrəvan, Zəngəzur, bütünlükdə Ermənistan kimi olub sonda onlara qalacağını düşünürdü. 27 sentyabrda Qarabağda eskalasiya başlayanda Azərbaycanla stabil gərgin münasibətini qoruyan lakey Solovyovun verilişində bulbul kimi ötürdü ki, 5 xaraba rayonu qaytarın bəsləridir... Heç 5+2 düsturuna da razı deyildi. Bizim müəzzəm və mükərrəm qələbəmizdən sonra «müqəddəs ata» olub... Bildiyimiz erməni… Məkan həmin məkan. Bu dəfə İlham Əliyevə kompliment edir. 44 günə özünü qalib hesab etdiyi zirvədən barışdırıcı mövqeyə düşdü. Divara dirənəndə şeytan da narahat olub yerini dəyişir… Başa düşdü ki, qalib tərəfin əleyhinə danışmaq ona heç bir dividend gətirməyəcək. Dediklərinə

haqq qazandırmağa, sözlərinə səmimilik qatmağa çalışır, azərbaycanlılarla ermənilərin mehriban yaşadıqları zamana istinad edib təkrarına ümid bağlayır. İddia edir ki, bizim aramızda etnik konflikt yoxdur, ərazi iddiası var. Biz azərbaycanlıları rəqib bilirik, onlar isə bizi düşmən. (Şərhsiz). Hətta, arada unudub ağzından da çıxartdı ki, Hüseyn Məlik Şahnəzərov (ulu babası) ad-soyadının ermənilərlə bir əlaqəsi yoxdur. (Dil çaşıb sözün düzünü deyər). Bir də, görünən dağa nə bələdçi? Düzdür, günahın etirafı cəzanı yüngülləşdirir, ancaq bu maddəni düşmənlərimizə tətbiq etməyəcəyik. Əvvəlki ritorikasından əl çəkərək «məncə», «yəqin ki», «doğrusu», «necə deyərlər» kimi ara sözlərini qabağa verib arxasında gizlənir. Bu da deyəsən təzə traktovkadır. Necə olmasa, Karen Georgeyeviç rejissordur, elə bilir hiyləgərliklə yarımcan millətini qoruya, xilas edə biləcək. Bunlar akademik səviyyədə min üzlü, min dillidirlər. Bir dəfəni bağışlamaq olar, necə ki, bağışlamışdıq. İkincini, heç vaxt! İkinci olubsa, üçüncü də, dördüncü də olacaq... Yumşalmaya ümid etməsinlər, daha yaddaşımız itidir! Rusiyanın popstarı Filip Kirkorovun atası, Rusiyanın Xalq artisti Bedros Kirkorov müharibə zamanı Qarabağ ermənilərinə 33 000 $ məbləğində yardım etmişdi. O Kirkorov ki, adı Xarici İşlər Nazirliyimizin «arzuolunmaz şəxslər» siyahısında hallanmayıb. O Kirkorov ki, ermənilərinin qəzəbinə tuş gəlməkdən qorxmayaraq həmişə Azərbaycandan böyük «sevgi ilə» danışıb və az qala içi mənqarışıq xalqı buna inandırıb... Bizə açıq-aşkar süngü çevirməyib, amma barmağı həmişə «tətikdə» olub, bioqrafiyası

ilə «oynayaraq» ermənipərəst mövqeyini gizli həyata keçirib, gizlində «oralı», aşkarda «buralı» olub, təcavüzkarı, terrorizmi, separatizmi altdan-altdan dəstəkləyib... İndi isə maskasını çıxarıb «erməni olduğumu necə boynuma alım? Axı həmişə demişəm ki, bolqaram. Publika nə fikirləşər?» – kimi deklamasiyalar edir.

Opiumla bəslənənənlərin isə beyninə elə yeridilib ki, əlacsız xəstəliyə düçar olublar, bizi görəndə bütün ibtidai genləri baş qaldırır. Düz deyirsən, ən ağır diaqnoz ölümcül olan deyil, müalicəsi olmayandır. «Təhlükəli» dediklərim sadə ermənilərdən həqiqəti gizlədirlər. Ədalət naminə deyim ki, zaman-zaman dünyəvi düşüncəli ermənilər öz tayfalarının iç üzünü tam çılpaqlığı ilə, nifrətlə, hətta deyərdim bizdən də artıq açıb tökmüşlər. Adam öz xalqı haqqında nə qədər düz olsa da, bir qədər yumşaq danışar, birini deyəndə o birini saxlayar, «düşmən də eşidir axı…» düşüncəsindən… İndi gör nə qədər yanıblar ki, tayfalarının bu gününü görüb nələri dilə gətiriblər: «Biz dünyada ən bədbəxt tayfayıq. (Millət yox, özlərinin iddia etdikləri kimi «ən qədim xalq» yox, məhz bizim dediyimiz kimi tayfa!!! (D.A.) Çünki siyasi cəhətdən heç vaxt müstəqil ola bilmədik. Həmişə özümüzdən vasitə, qadınlarımızdan sövdələşmə kimi istifadə etdilər. Həqiqi qurtuluş daxildən başlanmalıdır, biz ermənilər isə içimizdən xəstəyik. Bu xəstəlik qanımıza, canımıza, iliyimizə işləyib və bu, ruhumuzdakı yetişməmiş çibandır. Çətin ki, sağala». (Ovanes Tumanyan – XIX əsr erməni yazıçısı) Az da olsa, Azərbaycan həqiqətlərinə erməni mənbələrində rast gəlinir. Hazır-

da İrəvanda yaşayan, millətini sevən, onu düşdüyü çuxurdan çıxarıb çamurunu təmizləmək istəyən, lakin qəzəbə gəlməyin qorxusundan anonim qalan bir erməni tarixçisi yazır ki, «soyqırım» sözünün özü belə xalqımıza ziyan vurur. Biz bu barədə o qədər çox danışmışıq ki, hamını buna inandırmışıq. Daha istəsək də, soyqırımı dana bilmərik! (Erməni psixologiyası... Etirafdansa, səbəbə haqq qazandırmaq). Konflikt başlayandan iki məşhur ermənininin açıq tərəf tutmadığını, hadisələrə loyal münasibətini müşahidə etmişəm. Hər ikisi Moskvada yaşayıb keşmiş SSRİ-nin tanınmışlarından olublar. Biri satirik, yumorist keçmiş bakılı Yevqeni Petrosyan, digəri SSRİ Xalq artisti Armen Cigərxanyan. Müəyyən dairələrdə söz sahibi olmalarına baxmayaraq, nə ədavət toxumu səpiblər, nə səpənləri dəstəkləyiblər. Necə deyərlər, düşməni öldür, amma haqqını ver. Hətta, Cigərxanyan başqa məsələlərdə xərifləməsinə, özünü keçmiş sovet məkanı ilə bir etməsinə baxmayaraq, təəssüflə deyirdi ki, bizim aramızı vurdular. Kinorejissor Serqey Paracanov (Sərkis Paracanyan) Qarabağ hadisələrini ağrı ilə yaşayan dəryada damla ermənilərdəndir. Və o, haradasa, fəaliyyəti ilə Qafqaz xalqlarının dostluq simvolu hesab edilirdi, hansını ki, öz milləti məhv etdi. Erməni tarixçi Filipp Ekozyansın fikirləri, tədqiqatları isə bar-bar bağıran kütlənin fonunda irreal görünür, qəbul etmək olmur... «Türklər bizi qırmayıblar, xilas ediblər»in arxasında erməni məkri, hiyləsi, fitnəsi axtarılır. Tarixin dərslərindəndir... Adları elə çıxıb. «Məni adi adamam, qəhrəman deyiləm» deyən Ekozyans satıldığı söylənilən millətinin

şimşəklərindən qorxduğunu da inkar etmir. Eyni təzyiqlərə hüquq müdafiəçisi Georgi Vanyan da məruz qalıb. «Ermənilər yalnız öz qorxularını məğlub etdikdən sonra Qarabağda törətdikləri cinayətləri etiraf edəcəklər», – kimi fikirlərinə, mövqeyinə görə böyük məbləğdə cərimələnib, iti öldürülüb. Təəssüf ki, belə ayıq, gələcəyi görən düşüncə sahibləri az da olsa, ictimai fikri yumşaldıb cəmiyyətlərinə təsir göstərə bilmədilər. Azlıqda idilər, millət yalan vədlərdən və «qazanılan qələbələrdən» eyforiyada idi. Bu tayfa qoçuluqla hər işi həll edə biləcəyini düşünürdü. Həmvətənlərimiz öz dədə-baba torpaqlarından vəhşicəsinə qovulanda İrəvandan Azərbaycana gəlib nə baş verdiyini bilmək istəyən litvalı Riçardas Lapaytisə «başının kəsilməyini istəyirsənsə, get», – deyilmişdi. Lakin bu hədələrə məhəl qoymayan 23 yaşlı hərbi jurnalist 1992-ci ilin 28 fevralında Ağdamda «qatardan enib» bir qonşunun o biri qonşuya etdiy qətliamı öz gözləri ilə gördü, çəkdi və dünyaya çatdırdı. Onun lentə aldığı videomateriallar, canlı şahidlər və Ermənistan hökumətinin yaratdığı müasir əsir düşərgələrindən xilas olanların ifadələri əsasında «Sonsuz dəhliz» filmi çəkildi. Bundan sonra «hökm» dəyişdirildi, asılmağına qərar verildi. Premyerası 2013-cü ildə olan, üzərində 14-dən çox ölkənin mütəxəssislərinin çalışdığı bu film bir çox beynəlxalq festivallarda nümayiş olundu, mükafatlar aldı. Düşmənlərimizin filmin reytinqini aşağı salmağa çalışmalarına baxmayaraq, Xocalı faciəsi haqqında çəkilmiş bu sənədli ekran əsərinin baxış sayı dünyada 1 milyardı keçdi.

Bir dənizi də olmayan, amma «dənizdən-dənizə Ermənistan» xülyası ilə yaşayan, bizim tərəflərə Suriyadan, İsraildən köçürülən, top kimi buradan ora, oradan da bura atılan ibtidai qəbilə «özümə yer edim, gör sənə neyləyim» misalı ilə «böyük ermənistan» xəritəsi yaradıb tirajlamağa başladı. Bizə saytlarda bu qədər cəfəngiyyat göndərirlər, bəyəm onları açıb oxuyuruq? Prezidentimiz müsahibələrində dünyaya öz ali mərtəbəsindən indiki Ermənistan ərazisinin Azərbaycanın dədə-baba torpaqları olduğunu, çar Rusiyasının, daha sonra sovet hökumətinin bizim (bir az da ordan-burdan qopartdıqlarının) hesabımıza onlara Qafqazda necə respublika yaratdığını, İrandan, Türkiyədən Dağlıq Qarabağa necə köçürüldüklərinin tarixini dəfələrlə, yorulmadan bəyan etmişdi. Bundan sonra başa düşməyən işinə yarayan, anlamaq istəməyəndir. 1978-ci ildə Qarabağın dağlıq hissəsində məskunlaşmalarının 150 illiyini qeyd edib Ağdərə rayonunun Marağaşen kəndində abidə qoyan ermənilər işğallarının uzanmasına, havadarlarının çoxalmasına güvənib «yersiz gəldi, yerli qaç» prinsipi ilə 2020-ci ildə artıq açıq-aşkar, çəkinmədən «Qarabağ Ermənistandır» deyirdilər. Torpaqlarımıza «bahar» gəldikcə, xüsusi məkrliləri yavaş-yavaş valı çevirib «Qarabağ Allahındır, bütün torpaqlar Allaha məxsusdur», – deməklə vəziyyəti öz xeyirlərinə dəyişə biləcəklərini düşünürdülər. Xeyr, əgər işğal vaxtı Qarabağ «de-yure» Azərbaycan idisə, bu gün həm «de-yure», həm də «de-fakto» Azərbaycandır! Gərək 2002-ci il təvəllüdlü əsgərlərin torpağı-

mızda murdar olaydı, qışın soyuğunda meşədə gizlənən hərbçilərin acından öləydi, nə qədər əsirin düşəydi, bunların yarısı diversant kimi mühakimə olunub qaytarılmayaydı, ordunun 80 faizi məhv ediləydi, ölkəndə xaos, hərc-mərclik baş alıb gedəydi, yalnız ondan sonra kütləvi hipnozdan ayılaydılar ki, sən demə, Qarabağ Azərbaycan, Xankəndi isə «2 kv. km-lik kənd» imiş. Hələ döyüşlərdə məhv edilən 5000 (ən azı!) əsgərinin Ermənistanda demoqrafik dəlik əmələ gətirdiyini, olmayan ölkənin «prezidenti»nin bu dəliyi yamamaq üçün əhalini süni mayalanmaya dəvət etməsini demirəm. Allah-Təala o tərəfdən də yollarını bağlayıb. Yadlarına düşüb ki, çinli deyillər... Çinli bir tərəfə qalsın, qısırdılar, artıb törəyə də bilmirlər. «Əgər xalq yoxdursa, torpaq nəyimizə gərəkdir?» – deyirlər. «Yerablur» tarixi maksimuma qədər böyüdü, «fəth olunmaz Artsax» isə tarixi minimuma qədər azaldı»... İndi "böyük Ermənistan" laylasını "Yerablur"da oxuyurlar. Övladları əsir düşmüş valideynlər mitinqlərdə revanşistlərlə savaşır ki, niyə Azərbaycanın bayrağını yandırırsız? Siz hər dəfə belə edəndə bizim oğlanların əsirlik müddəti uzanır... Onlar da həqiqətən, norma imiş kimi təəccüblənir ki, burda təzə nə var? Biz 30 ildi onların bayrağını yandırırıq... Beyni yuyulmuş xalqın aqibəti elə belə olmalıydı. Qarabağ bunlar üçün qulpsuz cemodan kimi idi, nə daşımağa gücləri çatırdı, nə də yarıda atmağa tamahları qoyurdu. Sizin Qarabağı saxlamağa hünəriniz var? Kim işləyəcək orda, hansı vəsaitlə? Yurdsuz-yuvasızlar, canlarından be-

zənlər, itirməyə bir şeyi olmayanlar yığma komanda kimi ölkənin içindən, Suriyadan, Livandan şirnikləndirilib işğal zonasına yerləşdirilmişdi.

Qaliblərə sorğu-sual yoxdur, onlar mühakimə də olunmur. Qalibləri hamı sayır... Düşmən də güclünün qarşısında diz çökür. Qalır öz içimiz... Sülh, barışıq deyirlər... Müharibənin qızğın vaxtı bloqların birində erməni qadınlarının N.Paşinyana məktubları yığılıb dərc edilmişdi. Oxuyursan və dəhşətə gəlirsən. Sözlərinin əvvəli-axırı «Allah-can...» Allah belinizi qırsın və qırır!!! Tənbəllik etməyib, əsəbimi və hövsələmi basıb 600-ə qədər mesaj oxudum. «Ruhumuz ölür» – deyə, pafoslarından da qalmırlar. Yalvarırlar, tələb edirlər, amma biri də (!!!) demir ki, torpaqları qaytar, bizimki deyil axı... Yazırlar ki, «nöqtə ilə nidanın» arasında cavanlar ölür, toyların çoxalması əvəzinə qəbirlər çoxalır, dayanın... Başa düşmürlər ki, biz bu günə 30 (!!!) əzablı ildən sonra gəlmişik! Bizim 30 illik dolub-daşan səbrimiz, həsrətimizdi bu gün əsgərlərimizi Qarabağda sel kimi irəli itələyən! Mustafa Kamal bir məclisdə adamlardan birinin ona qanlı-qanlı baxdığını görür. Səbəbi ilə maraqlananda bildirirlər ki, o bir ingilisdir, oğlu Çanaqqalada öldürülüb. Atatürk düşünmədən deyir: «Soruşun ki, onun oğlunun Çanaqqalada nə işi var idi?»

Bizim kimi sülhsevər xalq var??? Körpədən Prezidentimizə qədər! Kişmişin içinə düşən qarışqanı çıxarmaq istəyirəm, Quska deyir ki, öldürmə, mamasının yanına gedir. Ya üzümüzdən iraq, qatırı yüklü görəndə bir ah çəkib, «yazıq eşşey» deyir. 4 yaşı hələ yoxdu. Biz övladlarımıza

belə gen ötürürük. Zədəli düşüncə, yaralı, irinli, qanlı yaddaş yox!

Bloger, jurnalist Aleksey Romanovu müharibə vaxtı hamımız tanıdıq və sevdik. Şəxsən mən səhifəsində ona «mədhiyyə-fəxriyyə» deməkdən yorulmuram. Nə paylaşır, oxumadan «like» edirəm, onu Azərbaycanın böyük dostu sayıram. A.Romanov keçmiş SSRİ-nin qaynar nöqtələrindən cəsarətli və obyektiv reportajları ilə məşhurdur. Xocalıya görə erməniləri ittiham edir, onların əvəzinə utanır, üzr istəyir. 44 günlük şərəf müharibəmizin ən qızğın çağında İrəvana yola düşmüş, orada baş verənləri öz gözləri ilə görərək, erməni səfsəfəsini beynəlxalq ictimaiyyətə çatdırmışdır: «İki Ermənistan var: biri internetdə, biri real həyatda. Birinci deyir ki, satqınlıq olmasaydı, qalib gələcəkdik, ikinci isə uşağını səfərbərlikdən gizlədir».

Erməni qarısını danışdıranda sona qədər gedir, ta bütün paxırları açılana, özlərini tam ifşa edənə qədər...

Başlarına ağır qapaz dəyən kimi gözlərində böyütdükləri şir obrazı pişiyə döndü, əlüstü «Böyük Orda»dan «alçaldlımış və təhqir edilmişlər»ə döndülər. «Allah da bizi tərk edib» – deyirlər. «Bizə ölümündən sonra qəhrəmanlar lazım deyil. Daha ermənilərə dua etmək, şam yandırmaq, Allaha yalvarmaq kömək etmir. Yəqin pis yalvarmışıq»... Fransa imperatoru Napoleon deyirdi ki, Allah da başqa şərtlərdən əlavə, çoxlu qoşun olan tərəfdə döyüşür. Viktor Hüqo da sərkərdənin misalını «Səfillər»də elə onun özü üçün çəkir: «İnsan Napoleona qalib gələ bilməzdi, Napaleona Allah qalib gəldi». Belə...

«Biz Azərbaycana məğlub olmadıq, öz siyasi fikrimizin kallığından məğlubiyyəti öz üstümüzə gətirdik». Düzdür, o da var. Amma sonu yenə  məğlubiyyətdir. Xəyallarını o qədər ideallaşdırmışdılar ki, ona inanmışdılar. Tamahları o qədər artıq idi ki, iştahlarının onları istədikləri yerə götürəcəyinə əmin idilər. Bu məntiq, düşüncə ilə bütün dünya onlarındır… Bəyəm adam (burda millət) hər istədiyini əldə edə bilər? Hamını günahkar bilirlər, bir özlərindən başqa. «Belorus Azərbaycan yönümlüdür», «Gürcüstana istirahətə getməyin, qoy acından ölsünlər», «türkə qanad verən İsrail imiş»  və s.

Bizim milli birliyimiz, düşmənə sarsılmaz nifrətimiz artıq onları qorxudur. Çox bədbinləşiblər. Azərbaycan dərslikləri Qarabağı yaddan çıxmağa qoymurmuş, işğal günlərini hər il xatırladırmış! Biz hər şeyi necə də düz etmişik! Belə əl-ayağa düşərsiz... Çox gecdir. İndi də biz unutmarıq! Tarix nəticə çıxarmaq üçündür! Əsrin əvvəlindəki səhvimizi təkrar etməyəcəyik! Zaman o zaman deyil! Azərbaycan müstəqildir və erməni faşistlərinin hər bir vəhşiliyi sənədləşdirilib  millətin fikir qənaətindən tarixə salınmışdır. Sovet hökuməti bizim rəhmimizdən, unutqanlığımızdan istifadə edib yaddaşımızı silmişdi, ermənininkini isə ya silmək istəməmişdi, ya da türkə olan kin-kidurətləri imkan verməmişdi. Ona görə 80-lərin axırı onlar bizi hazırlıqsız yaxaladı. Çaşıb qaldlq ki, bir süfrədən yemək yeyib «kirvə» dediyimiz etnik ermənilər birdən-birə bizə niyə qanlı bıçaq düşmən oldular? Özləri bizi ayıltdı... Açdıq tarixi oxuduq. 1905-1906-cı illərdə daşnakların Bakıda,

Gəncədə, İrəvanda, Naxçıvan və başqa bölgələrimizdə əsl soyqırım siyasəti yeritdiklərini, vəhşilikləri ilə tarixə düşdüklərini bildik. Erməni millətçilərinin 1918-ci ildə ölkəmizin hüdudları daxilində qırğınlar törətdiklərini öyrəndik, ölşüsü, miqyası ilə seçilən Bakı, Şamaxı qırğınlarından şok olduq. Tariximizin qanlı səhifələri silinmiş, 10 000-lərlə qətlə yetirilmiş soydaşımızın (tək İrəvanda 132. 000 azərbaycanlı) əvəzində yalançı Azərbaycan-Hayastan «dostluğu» yaradılmışdı. Biz onları şeirlə, mahnı ilə gözəlləyəndə onlar bizi qovmağa hazırlaşırdılar. Nə qazandılar? Heç nə!!! Öz millətlərinə onilliklərlə iqtisadi blokada şəraitində qeyri-stabil, qeyri-müəyyən, heç bir gələcəyi olmayan həyat yaşatdılar. Hələ Bakını itirdilər, az qala bütün Bakı onların əlindəydi. Hərdən düşünürəm ki, nə əcəb Qarabağa müqabil Bakıdan vaz keçdilər... Tələsməsəydilər, bir müddət də gözləsəydilər, Bakıda «mövqe»lərini bərkidib dövlətçiliyimizi təhlükədə qoya bilərdilər. Anar Məmmədxanov demiş, «min şükür ki, bunlar belə axmaqlıq edib bizə qarşı çıxdılar, yoxsa, bu gün biz Qarabağı müəyyən zamana itirməzdik, biz Azərbaycanı itirərdik».

Böyük qardaşları və birinci himayədarları elə onlar üçün deyib: "Güc var, ağıl lazım deyil". Beynəlxalq qanunlar var, ermənilərin havadarlarının qarşısını kəsəcək təsbit edilmiş qaydalar, təsdiq olunmuş sərhədlər var, «dünya 5-dən böyükdür». 90-larda kim mane olurdu onlara? Gəlirdilər, biz də qaçırdıq. Yadımdadır, Ağcabədi köçməyə hazırlaşırdı… Camaat özünə dənizdə «yer tuturdu».

Oxuduq və uşaqlarımıza öyrətdik. Evin çölü içindən başlayır və bu bizim əbədi işimiz olmalıdır. Unutmamaq! Unudana bu qələbə qənim olsun! Filmlər çəkiləcək, kitablar yazılacaq, heç vaxt dünyanın gözü qabağında yerdə qalan bu zülmü yaddan çıxarmayacağıq! Onların fitrəti heç dəyişməyəcək. Deyirlər, biz ermənilər uduza bilmirik, həmişə qalib olmalıyıq. Lap idmanda da. Nə oldu? Devlət Bahçeli demiş, «Qarabağı Ermənistanın kafasına vura-vura» aldıq. Mən öz uşaqlarımdan arxayınam. Bünövrələrini yaxşı qoymuşam. Heç vaxt nə unudacaqlar, nə unutduracaqlar. Dövlətin bu istiqamətdə yürütdüyü siyasətlə yanaşı, hər birimiz üstümüzə düşəni eləməliyik. Oğlanlarımız tora düşməmək üçün onların qızlarından uzaq durmalı, erməni qızı alan oğlan oğulluqdan çıxarılmalı, düşmən ocaq başından uzaq tutulmalıdır. Qızlarımız bir stəkan su istəyənə qapını geniş açıb bir dolu vedrə verməməlidir. «Küp sınmamış səs çıxartmaq lazımdır, küp sınandan sonra yox...» Çox ağır, unutması mümkün olmayan acıdan acı təcrübə keçmişik. Azərbaycanın zəifləyəcəyi təqdirdə onların əlində heç bir kart qalmamalıdır. Prezidentimiz demiş, elə etməliyik ki, bir də, başlarını qaldırıb bizim tərəfə baxmağa da cürət etməsinlər. Bizi onlarla heç nə bağlamasın, nə qarışıq nigah, nə övlad... Atalarımızın misalı var... Dalaşanda barışıq üçün yer qoy! Arxalarındakı körpüləri 92-də yandırdılar. Ümumiyyətlə, od vurub yandırmaq, yaxşı nə varsa kül etmək «qədim xalq»ın qədim peşələrindəndir. (Erməni kəndçiləri də indi deyirlər ki, saqqallılar Qarabağda yaşamağa üz qoymadılar. Soruşan gərək, indi-

yə qədər hardaydız? Transformasiya bu qədər?). Bizim Xocalı dərdimizə «Xocalı qurbanlarına görə qəm-qüssə etmək çaqqal ulaşmasıdır» deyirdilər. Bunu unutmaq olar? Unudan bizdən deyil! Boşluq olmamalıdır. Şəhidlərimizə günahdır! Saytlarda bizimkilərin «onlara» etdikləri çeşid-çeşid qarğışları oxuyuram. Bu da yerində yaranmış müharibə folklorudur.

Hələ bu hadisələr başlanmamışdan, 80-ci illərdə İçərişəhərdə bərpa işləri zamanı erməni ustanın dodağının altında «Sarı gəlin»i zümzümə edə-edə ara-sıra daşların arasına xaç qoyub hörməyi faktı askarlanmışdı. Yəni, biz burda olmuşuq a! Onları bizdən fərqləndirən bilirsən nədi? Biz gələcəyi düşünməmişik, «bu günü yola verək, sabaha baxarıq»la yaşamışıq. Amma erməni fəhləsi, hansı ki, 4 sinif savadı var, xaçla gələcəyə mesaj ötürür, yerlərini bərkidir, «o vaxta kim ölə, kim qala...» düşünmür.

Heç nə anlamıram, bunların bizdə 100-lərlə əsiri var, onların qaytarılması üçün İrəvan dağılır. Eyni zamanda da şəhidimizə vəhşili edilir (yandırılır) ... Düzdür, biz rəhmliyik, humanistik, həm də, daxil olduğumuz təşkilatların, konvensiyaların qanunlarına əməl edirik. Lakin qəzəb dalğası (özü də haqlı) hər zaman kontrol ediləsi, qarşısı alınası bir hiss deyil, xüsusilə silahlar danışanda. İnsanın hərəkət və davranışlarına cavabdeh olmadığı affekt deyilən bir hal da var. Həmin o yandırılan əsgər kiminsə dostu, qardaşı ola bilər ki, bunun da qanunu aşması mümkündür. Üzlərini də gizlətmirlər. Bu qədərmi korazehin, korafəhmdir bu qövm??? Ya bizə saymamazlıqdır, ya öz hərbçilərinin taleyinə laqeyddir?

Ermənistan müharibədə 15 000 nəfərə qədər itirib. Qoşunlarımız onlara bir həkk gəlib ki, Ermənistan ordusunun yalnız qalıqları qalıb. «Ermənistan ordusunun qalıqları» – dərdlərimizə, yaralarımıza dava kimi səslənir. Baxmayaraq ki, hücum edən tərəf çox itirir. Başbilənləri etiraf etdilər ki, bizim komandanımız Kutuzov, Stalin, Jukov da olsaydı, heç nə dəyişməyəcəkdi. Əks-nəticə birinci növbədə özündən yersiz müştəbehlik, 90-lardan qalan dişləri tökülmüş qoca heyətə arxalanmaq səbəbindən idi. Bizim şümal kimi oğlanlarımızın fonunda onların güclə yeriyən, sallaq qarınlı döyüşçüləri zavallı, nimdaş görünürdü. Bir video quraşdırmışdılar. Guya kök, yaşlı azərbaycanlı döyüşçülər onların xaçkarlarını dağıdır. Feyk olmağı bilirsən nədən bilinirdi? Bizim tərəfdən yaşlı adam döyüşmürdü. Döyüş meydanına köhnə, sınıq-salxaq texnikanın çıxarılması, yeyinti, Qarabağdan gələn gəlirin acgöz klanın cibinə axması, cəmiyyətdəki plürializm, ən başlıcası – dövlət-ordu-xalq birliyinin olmaması və ruh düşkünlüyü məğlubiyyəti qaçılmaz edirdi. Xalqı aldadırdılar ki, Qarabağın üstü dəmir qübbə ilə tamamilə örtülüdür. Aydın oldu ki, tamamilə açıq imiş. Həsrətində olduqları, dünyanı inandırmağa çalışdıqları genosidi özləri özlərinə elədilər, qəbirlərini dərin qazdılar. Mustafa Kamal Atatürk onların hər zaman tapındıqları, dünyayla bir yalançı soyqırım zarımasını iqnor edib «soyqırım yapsaydıq, soyunuz da qalmazdı», – deyə lağ edirdi. Cəlaləddin Rumi isə deyirdi: «Yunan və erməni ev tikəndə türk imperiya qururdu».

Onlar qədər olmasa da, bizim də xeyli itkimiz var. Bir əsgərimizin ölümü də çoxdur. O ki, qala «at ağızlı oğlanla-

rımızı vermişik». Ölənin özü ilə bərabər ailəsi də şəhid olur. Şəhidlərimizə görə bizim on milyon qəlbi yaralımız olsa da, düşmənlərimizin mənən şil-şikəst tör-töküntüləri qalıb. Bu müharibə onlara heç nə öyrətmədi. Məğlubiyyətlərindən dərs almadılar ki, sənin olmayana göz qoymaq, əl uzatmaq olmaz, qazdığın quyuya vaxt gələr, özün düşərsən, Allah hər tərəfdən basaratını bağlayar... Yenə də sakitləşmirlər. Qarabağ azarı iliklərinə elə işləyib ki, canlarından çıxan deyil. Yatıb-durub bizim zəifləyəcəyimiz günü gözləyirlər ki, xain başlarını yenidən qaldırsınlar. Yol verməməliyik. İlan ulduz görməsə ölməz. Köhnə kişilər ilanı öldürəndən sonra basdırmırdılar, ulduz görənə qədər saxlayırdılar. Sonra da, xırda-xırda doğrayıb dərin quyu qazıb içinə atırdılar. Bunu mən gözümlə görmüşəm. Düşünürəm ki, onlar nə etdiklərini bilirdilər...

Bu dəfə olmayacaq. Bizə edilənlər heç bir xalqa edilməyib. Hələ bizim uşaqların rəşadətini, əzmini görüb abırsız-abırsız deyirlər də ki, bir nəsli bizə qarşı aqressiya ilə böyütmüsüz. Anneksiyanın aqressiya ilə nəticələnəcəyi sadə həqiqəti görməyəcək qədər kordur bu qövm. Di yığın tökdüklərinizi! Rollar dəyişib, indi biz dayandığımız yerdə, barrikadanın o biri üzündəyik. 30 il xalqımıza ləzzətlə fiziki, maddi, psixoloji işgəncə vermisiz, soyqırım yaşatmısız. Tək insanlarımıza deyil, torpağımıza, təbiətimizə, şəhərlərimizə, kəndlərimizə də! Meşə qalmadı, ağac qalmadı, ev qalmadı... Yaxın olduğu qədər uzaqda qalan tariximizdə nə qədər qanlı cinayətin sənədi, sübutu qalıb. Trosla bağlanaraq basdırılmış uşaq və qadın nəşləri... 90-larda Qara-

bağda olan, onların arasında dolaşıb Azərbaycan dili bildiyini gizlədən, ağlasığmaz vəhşiliklərini ürək ağrısı ilə izləyib aləmə yayan Rza Diqqəti yazır ki, hər erməni cibində çay qaşığı gəzdirirdi... Qarşısına çıxan azərbaycanlının gözlərini çıxartmaq üçün. Heyf min bir əziyyətlə qətlə yetirilən insanlarımıza! Allah görsün və götürməsin!!! Düşünürəm ki, Rza bəy haqqında bir neçə söz deməyin vaxtı çoxdan çatıb... Rza bəy dünya şöhrətli «National Geografic» jurnalının tanınmış fotojurnalistidir. Onun kamerasının gözünə köçürdüyü hər kadr bir əsər, informasiya blokadasını yaran xəbər, fakt, dəlildir. Fotojurnalistikanı gözlə görünən ədəbiyyat da adlandırırlar. Bütöv hekayəni, oçerki bir epizoddan «oxuyursan». Fotoqraf çəkdiyi hadisənin iştirakçısı, foto isə onun iştirak sertifikatıdır. Rza bəy hər iki Qarabağ müharibəsini işıqlandıran, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna rol oynayan, üstümüzdə haqqı olan azsaylı xarici pressa nümayəndələrindəndir. Fotoları ölkələri dolaşan, sərgiləri dəfələrlə ermənilər tərəfindən basılan, özü təhdid edilən Rza Diqqəti bu gün də işğaldan azad edilən torpaqlarımızda işləməyə davam edir. Təsəvvür edirəm, onun çəkdiklərini... Məruz qaldığı psixoloji durumu. Gözünün qabağında qan qardaşının başına hər cür oyun gətirələr, sənin isə əlindən heç nə gəlməyə. Bizim həqiqətləri oxumağa dözümümüz çatmır, o isə gözü ilə görüb. Özü də xüsusi amansızlıqla fərqlənənlər Qarabağ erməniləri olub, öz bəslədiklərimiz. Köçəryan, Sərkisyan, Ohanyan... Təskinliyimiz – bu günlərə gəlib çatmağımızdır! Biz bunları XX əsrin əv-

vəllərində də yaşamışdıq. Tarix üçün 100 il nədir ki? Bir içim su! Amma necə də tez unuduldu. Ksenofobiya rasism, antisemitizm deyil. Amma yaxşı bir şey də deyil. Gizlətməyəcəyəm, məndə onlara qarşı ksenofobiya var. Lap istəyirsiniz, ermənifobiya deyin... Heç bu nifrətdən azad olmaq da istəmirəm. Qorxuram, birdən kinim zəifləyər, azalar. Duyğularımı içimdə saxlamaq fikrində də deyiləm, sağlamlığa ziyandır, qoy püskürsün! Bizimlə soyqırım faciəsini və aktını yaşayıb bölüşən Bosniya müsəlmanlarının lideri Aliya İzzətbəyoviçin tarixə düşən aforizmlərindən biri də budur ki, «soyqırımı unutmayın. Çünki unudulan soyqırım təkrarlanır». Həm də... bir dəfə baş verən hadisə daha təkrarlanmaya bilər, lakin iki dəfə baş veribsə, üçüncünü mütləq gözlə! Bu barədə yuxarıda yazmışdım. Ziyan yoxdur, qoy təkrar olsun. Çəzasızlıq yeni cinayətlərə yol açır. Unutqanlıq ən heyvani dərəcədə alçaldılmış, öz yurdunda zalımcasına, dönə-dönə təhqir edilmiş həmvətənlərimə haqsızlıq, gələcəyimizə xəyanətdir. Ona görə nifrətimin nazını çəkirəm, onu sevə-sevə daşıyıram. O mənim silahımdır, yaddan çıxarmağa, yumşalmağa qoymur. Və burda mənim bir günahım yoxdur. Bu arada cəbhədə və informasiya məkanında nə qədər yeni erməni vəhşiliyinin şahidi olduq, nə qədər qəlbimiz qan ağlaya-ağlaya insanlığı tapdalayan real faktlar eşitdik, oxuduq. Xocalıda baş verənlər ən dəhşətlisidir. Qətliamdan sonra da vəhşət davam edib, camaatın qanı qurumamış, son nəfəsi ağzından çıxmamış. Paylaşmaq da mümkün deyil. Paylaşanlar da sonra siliblər. İnsan həyata da nifrət

edir, yaşamağa da. Bunlar elə qorxaq toplumdur ki, çətinə düşəndə qılıncımızı öpüb altından keçər, Allah qoymasa, aralanmamış onu götürüb kürəyimizə sancarlar. Nahaq deyil ki, əsirlərinə deyirdilər ki, nə edirsiniz edin, amma sağ qalın... Düşmən (yəni biz) sizdən nə istəsə edin, təki öldürməsinlər. Bu da çox şeyi izah edir, düşmənin xislətini, mayasını, kimliyini.

## EPİLOQ ƏVƏZİ

Kitabımın sonuna çatıram... Onları xarakterizə edən epitetlər bitdi, lüğət sonsuz deyil axı... Ümumişlək metaforalardan da istifadə etdim, o da qurtardı. Lakin bu qaniçənlərin yırtıcılığı, vəhşiliyi tükənmədi. Biz özümüzü unutmağa qoysaydıq, torpaqlarımızı qaytara bilməzdik! Hər bir xalq öz sivilizasiyası dövründə müxtəlif etaplardan keçir, inkişafında qabarmalara, çəkilmələrə məruz qalır. Təbiidir. Təbii olmayan bir yerdə saymaq, millət kimi natamamlıqlarının səbəbini bizdə axtarmaq, Qarabağı nəyin bahasına olursa olsun Azərbaycandan qopartmaq, günü-gündən daha artıq vəhşiləşmək, qisas üçün quduzlaşmaqdır. Ermənistan indiki məğlub və ağır durumunda da sərhədləri ilə məhdudlaşmaq istəmir, ərazi iddiasından əl çəkmir, öz sərhədlərinə dönən Azərbaycanı işğalçı adlandırır, santimetr davası çəkir. Özləri də bilir bundan sonra erməninin illüziyalarının mümkünsüzlüyünü. Bu sadəcə psevdopatriotların közə kül üfürməyidir. Cəhd primitiv referendum, xalqı test etmək üçündür, döyüş bitəndən sonra əl-qol atmaqdır. Bizi qovub torpaqlarımızda at oynatdığınız zamanlar keçdi... Azərbaycan öz ərazisisində cəmi-cümlətanı 25 000 xəyanətkar ermənidən ibarət anklava yol verməyəcək, cəhənnəmə vasil edilən statusları da

daha heç vaxt geri dönməyəcək. Prezidentimiz onlara toxunulmazlıq, təminatdan belə, mədəni muxtariyyətə qədər təklif etmişdi. «Artsax» deyib durdular. Hər şeyin bir sınırı var. Mümkünsüzün arxasınca gedib mümkünləri də itirdilər. Bundan sonra artsaxı daxmanızda, Ayrapetlə Satenikin kompaniyasında xəyal edəcəksiniz. Zatən işiniz o! Olmayanı istəmək. Boyunlarına da alırlar ki, «xəyal qurmaq bizim strategiyamızdır».

2021 asan olmayacaq. Amma 2020-yə çatmaz yəqin. Ondan bir yanvar-fevralı sakit yaşadıq. Arxasınca gəldi, nə gəldi... Düşdüyümüz qlobal türbülans buruldugca kontroldan çıxır, iqtisadi, geopolitik, hərbi nədənlərlə daha da dərinləşirdi. Əslində, ilin əvvəlində numeroloqlar təxminlərini vermişdilər. Qoşa ikinin və qoşa sıfırın cütləşməsinin bəşəriyyət üçün təhlükəli, hətta, ölümcül ola biləcəyi xəbərləri gündəmi necə lazımdı zəbt etmişdi. Tarixə baş vursaq görərik: Taun –1720, Vəba –1820, İspanka – 1920... Bir əsrdən bir... Covid – 2020 də lap fontan elədi. 2020 dörd ildən bir təkrarlanan uzun il hesab edilsə də, başlamağı ilə bitməyi bir oldu. Sanki tarıma çəkilmişdik, heç nə hiss etmədik. Hadisələr sanki muncuq kimi sıra ilə ipə düzülmüşdü. Karantin, uzunmüddətli tətil, qapanmalar, təmas xəttində gərginlik, müharibə, zəfər... və il sona çatdı. Nə olsa da, sonda deyilən yadda qalır. Zəfər… Hər halda ən çətinini keçmişik. Görək «öküz» neyləyəcək. Öküz yaxşı heyvandır, zəhmətkeş... Bütün Qarabağı abadlaşdıracaq. Astroloqlar öküzə xoş gəlmək üçün onu qırmızı maska ilə qarşılamağı məsləhət görürlər. Nə olar, nə ol-

maz. Fashion-2021 də bu istiqamətdə xeyli iş görüb. Bu gün moda evləri hər zövqə və tərzə uyğun, filtrli, loqotipli maska və respirator çeşidləri təqdim etməkdədir. Qoruyucu maska bu gün şarf, əlcək, papaq, sancaq kimi dəbli aksessuar hesab olunur.

Bir il ötsün, çatdaqlar örtülsün... Mən Xanın Kəndinə qayıdacağına inanıram! Bu inamı mənə Ali Baş Komandan, rəşadətli ordumuz verib: «Qarabağ aranı ilə, dağı ilə Azərbaycanın ayrılmaz hissəsidir!» Biz oradan Stepanakert kimi çıxmışıq, Xankəndi olaraq dönəcəyik. Koronovirusla birtəhər baş edərik, Allah-təala dünyamızı erməni virusundan qorusun! Korona koronadır ki, uşaqları nişan almır. Xəstəlik də ermənidən insaflıdır, onun da güzəşti, «Axilles dabanı» var. Allah düşmənlərimizin üzünü qara etsin, həlakətini artırsın, heç adam içinə çıxa bilməsinlər, özləri kimi zalım havadarlarına lənət eləsin! Bizə «30 ildə çəkdirdikləri çilə» başlarında çatlasın! Yazımı internetdən götürdüyüm bu parça ilə bitirmək istəyirəm. 30 ildə yaşadıqlarımızın xülasəsi, tərcümeyi-halı kimi:

*Çilə... nədir?*
*Bilirsənmi?*
*Çilə dağlarda çəkilir,*
*Çilə cəbhədə düşmənin...*
*qurşunlarına hədəf olunarkən çəkilir.*

*Çilə... ovalıqlarda, yaylalarda yalın ayaq mayınlar (mina) üstündə yürürkən çəkilir.*

*Çilə... Tankların altında əzilərkən çəkilir.*
*Çilə... Bədirdə çəkilir...*
*Çilə... Uhudda çəkilir...*
*Çilə... Zindan diblərində gözlərin bağlı, ayaqların buxovlu soyuq beton üzərində çarəsiz bəklərkən çəkilir.*
*Çilə... Əbu Qüreybdə çəkilir.*

Və çilənin ən böyüyü Qarabağda bizə çəkildi. Doymadıqları qanlarında boğulsunlar. Bir il qabaq dondurduğumuz həyatımıza tam Qarabağlı kimi davam edək. Daha şəhid verməyək, bayrağımızın qırmızı rəngi müasirliyimizin rəmzi olmaqdan çıxıb, şəhid qanına boyanıb.Yeni ilimiz mübarək! Sən belə imişsən, 2020-ci il! Qələbə soraqlı, Qələbə havalı, Qələbə sevincli! Nobel mükafatı laureatı Əziz Səncərin təbirincə desək, «Qarabağ zəfəri qurtuluş savaşından sonra türk dünyasının ən böyük zəfəri oldu». İndi isə yol üstündəsən, gedər oldun. Yeni il bir ildən sonra yenə gələcək, tamam başqa hadisələrlə... Təki elə olsun. Yaxşı hadisələrlə… Daha xəstəlikdən, müharibədən yazmayaq. İnsanımızda artıq bu mövzulara immunitet yaranıb. Necə keçib başa çatacağını gələn il dekabrın 31-i biləcəyik. Vətənimiz bütöv, canımız sağ, süfrəmiz dolu, qəlbimiz rahat olsun! Allah bizi qorxduğumuz və ağlımıza gətirmədiyimiz bütün şər-pisliklərdən amanda saxlasın! Arzunun ünvanının dəyişməyəcəyi, düşərli bir ilə qədəm qoyaq! Yaxşıların üzünün güləcəyi bir il olsun! Amin! Belə bir epik sonluqla söhbətimizi yekunlaşdırıram, əziz oxu-

cum… Amma… sağollaşmıram da! Yadda qalmaq, yenidən görüşmək üçün...

Mötəbər və möhtərəm diqqətin üçün sonsuz təşəkkürlər, əziz dost…

*2020-2021-ci illər*

## MÜNDƏRİCAT

Ön söz: Qorxunc və möhtəşəm bir ilin xronikası ........................... 3
Müqəddimə ........................... 9
Vaqif........................... 22
Zəmaneyi-pandemiya ........................... 28
Karantin öncəsi son yığıncaq ........................... 32
Koronanın qırmızı lentini kəsdik........................... 37
Sakasena, Şakaşen, ya bildiyimiz Şəki... ........................... 54
Müqəddəs bazar günü ........................... 64
Dönüş! ........................... 85
Təhlükəli sükut........................... 94
Üzü bəriyə........................... 106
Günlərdən Zəngilan! ........................... 113
Ağoğlan ........................... 117
KeyQubad, Bərgüşad mahalı və bugünün Qubadlısı........................... 121
Kuliminasiya........................... 130
Yubileyimə düşən kapitulyasiya aktı........................... 166
"Firdövsi-dilaradır gərçi Qarabağ" ........................... 177
"Kəlbəcərə güzar durur qarşıda!" ........................... 188
Ay Laçın... ........................... 208
Axır ki... ........................... 216
10 dekabr........................... 222
Царское село ........................... 237
2783 ........................... 245
Şəhidlər xiyabanı........................... 256
Vətən sərhəddən başlayır... ........................... 267
Sondan əvvələ ........................... 272
Əlvida 2020! Salam 2021! ........................... 285
Tarixin dərsləri........................... 298
Epiloq əvəzi ........................... 317

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 17.04.2023
Şərti çap vərəqi 20,5. Sifariş № 105
Kağız formatı 60x84 1/16. Tiraj 300

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4